# *NAŞIRDƏN*

Dua insanın öz tanrısı ilə söhbəti, məxluqun Xaliqlə əlaqə vasitəsi sayılır. Böyük ariflər duanı mö'minin əməldə tövhidə olan bağlılığı kimi tanıtmışlar. Ona görə də peyğəmbərlər və Əhli-beyt (ə) duaya çox əhəmiyyət vermişlər.

Əhli-beytdən nəql olunmuş dualar arasında "Kumeyl" duası öz ali və irfani xüsusiyyətlərinə görə müstəsna yer tutur. Rəvayətlərə görə "Kumeyl" duası həzrət Xızr (ə) kimi peyğəmbər və həzrət Əli (ə) kimi mə'sum imamın biliyindən qaynaqlanır. "Kumeyl" duasını ilahi, irfani və insani məsələləri açıqlayan əhatəli bir məktəb kimi qəbul edə bilərik. Bu duadakı incə həqiqətləri dərk etmək üçün onun hər cümləsinin şərhinə ehtiyac vardır. Böyük alim, professor Hüseyn Ənsariyan lap uşaq yaşlarından "Kumeyl" duasına bağlı bir insan olmuşdur. Bu dəyərli insan xalqın bu misilsiz xəzinədən faydalanması üçün əlindən gələni etmişdir. "Kumeyl" duasına ruhən bağlı olan müəllifin yazdığı şərh Qur`ani-Kərimə və mö`təbər rəvayətlərə əsaslanır.

Ümid edirik ki, bu kitab həqiqətsevər insanların belə bir bərəkətli süfrədən faydalanması üçün uyğun şərh və yardımçı olacaqdır.

## ÖN SÖZ

Mən hələ on bir yaşım olan zaman atamla birlikdə mübarək Ramazan ayının gecələrində dini mərasimlərdə iştirak edərdim. Bu məclislərdə böyük alim, mərhum Seyyid Muhəmməd Məhdi Laləzari, insanları həqiqətə çağırıb şirin söhbətlər edərdi. Cümə axşamları isə ilahi avaz, yanar qəlb, ağlar gözlə "Kumeyl" duasını oxuyardı. Duada iştirak edən bütün insanlar bu böyük şəxsiyyətin oxuduğu duanın sehrinə düşərdi. Mən də başqaları kimi onun aşiqanə halda oxuduğu əzəmətli duanın tə`siri altında olardım. Bu dua ariflərin mövlası, aşiqlərin imamının qəlbindən qopmuş, insanları tövbəyə , paklanmağa sövq edən ilahi bir çağırış idi.

«Kumeyl» duasını ilk dəfə eşitdiyim vaxtdan üç gün sonra Allahın yardımı ilə onu əzbərləmiş, cümə axşamları ailə üzvləri, ya da dostlarla birlikdə bu duanı oxuyardım.

Qum elmi mərkəzinə gəldikdən sonra, dini təbliğ etməyə vəzifəli olduğum vaxtdan başlayaraq cümə axşamları məclislərimi "Kumeyl" duasına həsr etməyi qərara aldım. Çox çəkmədi ki, mənim dua məclisim bütün İranda, hətta ölkə xaricində çox məşhurlaşdı. Belə ki, duada iştirak edənlərin sayı təsəvvürə gəlməyən səviyyədə artdı. Bir çox insanlar öz dərdlərinin çarəsini bu məclisdə tapmışlar.

Həzrət Əli (ə)-ın mövlud günlərinin birində alim dostlarımdan biri məsləhət gördü ki, "Kumeyl" duasına şərh yazım ki, mö'minlər bu şərhdən istifadə etməklə dua ilə daha dərindən tanış olub, onun

yardımından faydalansınlar. Allahın yardımı ilə bu şərh yazıldı.

Bu kitabın ərsəyə gəlməsində zəhməti olan bütün dostlara təşəkkür edirəm.

Müəllif.

## DUAYA BIR BAXıŞ

Dua ehtiyacsız Allaha ehtiyacın bildirilməsidir. Dua mütləq varlıq olan Allah qarşısında miskinliyin, fəqirliyin bəyanıdır. Dua vəfasız gədanın vəfalı Xaliqdən, zəif varlığın qadir varlıqdan istəyindən ibarətdir. Dua zəif və çarəsiz bəndənin mehriban, həkim, eşidən Yaradandan kömək diləməsidir. Dua pak, iqtidarlı, bağışlayan, dost, yeganə mə`budun hüzurunda təvazö', xuşu', itaətkarlığın izharıdır. Dua Allahın məhbubu, yol əhlinin mə`şuqu, ariflərin gözünün nuru, vurğunların yalvarışı, zülmətə düşənlərin çırağı, imkansızların sığınacağı, ehtiyaclıların qəlbinin nurudur.

## *QUR`ANDA DUA*

Sonsuz feyz mənbəyi, sahilsiz kəramət okeanı, həqiqət fəzasının yaradıcısı, elm və hikmət süfrəsini açan Cənab Haqq Qur`ani-Məciddə buyurur: **"Ey peyğəmbər, xalqa de ki, əgər dua etməsələr, Allah onlara e`tina göstərməz."**[1]

Dua Allahın diqqət və rəhmətini insana yönəldən bir vasitədir. Bu rəhmət vasitəsi ilə insan bəlalardan uzaqlaşır, səadətə nail olur. Sevənlərin məhbubu, zikr edənlərin üz tutduğu, şükür edənlərin həmsöhbəti, mö`minlərin sığınacağı olan Rəbbimiz belə buyurur: **"Əgər bəndələrim Mənim haqqımda soruşsalar, (cavabı budur ki,) Mən həqiqətən yaxınam, dua edən Məni çağıran zaman onu qəbul edərəm."**[2]

---

[1] «Фурган», 77.

[2] «Бəгəрə», 186.

Bəli, insana Allahdan daha yaxın olan başqa bir varlıq yoxdur. Məhz bu yaxınlıq insanı vücuda gətirmiş, onu ana bətnində tərbiyə etmiş, dünya həyatına gətirmiş, bu qonaq üçün maddi və mə`nəvi ne`mətlərdən süfrə açmış, xoşbəxtlik yolunu insana göstərmək üçün peyğəmbərlər göndərmiş, Qur`an və mə`sum imamlar kimi misilsiz ne`mətlər qərar vermiş, susuzluğunu saf sularla yatırmış, aclığını dadlı yeməklərlə doyurmuşdur. Məhz bu yaxın varlıq xəstəliklərə şəfa vermiş, ailə-övlad və dost-tanış vasitəsi ilə insanı tənhalıqdan qurtarmış, ayıbları libaslarla örtmüş, qəlblərdə Öz məhəbbətini icad etmiş, müşkülləri aradan qaldırmış, sağlamlığa davam vermişdir. Axı insanın dəyərini Allahdan başqa kim ucalda bilər? İnsanın halından, ehtiyaclarından, arzu və istəklərindən Allah qədər xəbərdar olacaq ikinci bir varlıq varmı?

Bəli, insana hamıdan yaxın olan Odur. "Qaf" surəsinin 16-cı ayəsində buyurulur: **"Doğrudan da, insanı biz yaratmış və nəfsinin ona nələr vəsvəsə etdiyini də bilirik. Biz ona boyun damarından da yaxınıq."**

Əql və bəsirətcə hamıdan üstün, qəlbləri bütün qəlblərdən nurani, qeyb aləminə hamıdan daha agah olan, həqiqəti olduğu kimi dərk edən peyğəmbərlər də bütün vücudları ilə duaya bağlı olmuşlar. Onların nə gecəsi, nə də gündüzü duasız ötüşə bilməz. Onlar duanı təkamül mayası, daxili çirkinlikdən təmizlənmə amili, müşküllərin həlli üçün səbəb bilmişlər. Bu ilahi şəxsiyyətlər əmin idilər ki, ilahi dərgaha əl açmış heç

bir insan əliboş dönəsi deyil. Allah-Taalaya təvazökarlıqla dua edən bu insanlarda dualarının qəbul olunmasına zərrəcə şübhə yox idi. Bu həqiqət həzrət İbrahim (ə)-ın dilindən gözəl şəkildə bəyan olunur: **"Həmd olsun Allaha ki, qoca vaxtımda mənə İsmail və İshaqı əta etdi. Həqiqətən, mənim Rəbbim duaları eşidəndir."**[3]

Bəli, məhz duanın gücü hesabına Həzrət Zəkəriyya və arvadı - yaşlarının ötməsinə baxmayaraq - Yəhya kimi övladla müjdələndilər ("Məryəm", 5-9). Həzrət İsa (ə) yaxınlarının arzusu ilə səmadan bir süfrə açılmasını istədi və Allah onun duasını qəbul etdi ("Maidə", 112-115).

Allah-Taala bəndələrinə bütün hallarda dua etməyi tapşırır. Tapşırır ki, əllərimizi açıb təvazö' və sınıq qəlblə ehtiyaclarımızı Ondan istəyək və dualarımızın qəbul olunacağına ümidvar olaq. Qəti şəkildə bildirmişdir ki, təkəbbür göstərib duaya arxa çevirənlər zəlil görkəmdə Cəhənnəmə gətiriləcəklər. "Ğafir" surəsinin 60-cı ayəsində buyurulur:

**"Məni çağırın, sizə cavab verim (duanızı qəbul edim). Həqiqətən, Mənə ibadət etməkdən boyun qaçıranlar tezliklə zəlil halda Cəhənnəmə daxil olacaqlar."**

## *RƏVAYƏTLƏRDƏ DUA*

Allah-Taalanın bütün mövcudlara olan ehsanı geniş, rəhmət süfrəsi tükənməz, lütf və mehribanlığı davamlıdır. Onun dərgahı ümidsizlik dərgahı deyildir.

---

[3] «Ибраһим», 39.

Səxavət və bəxşişi daimi, əta əli açıqdır. O daim bəndələrinin duasının intizarındadır.

Həzrət Davud (ə)-a buyurulur:

"Yer əhlinə de ki, dostluğa layiq olduğum halda nə üçün Mənimlə dostluq etmirlər? Mənimlə olan şəxs paxıllıqdan, cəhalətdən, çarəsizlikdən uzaqdır. Mənim sifətim, sözüm dəyişməz. Rəhmətim genişdir. Fəzl və kərəmimdən dönmərəm. Əvvəldən rəhməti əsas götürüb, məhəbbət udunun budağını yandırmışam. Məni dost biləni dost bilir, gizlində Məni xatırlayanlara yaxın oluram, Məni yada salanların munisiyəm. Davud! Məni axtaran tapar, Məni tapan əldən verməməlidir. Davud, ne`mət bizdən olduğu halda bunu başqalarından görürlər. Sığınacaqları olduğumuz halda başqalarına tərəf qaçarlar. Qaçsalar da bir gün geri qayıdacaqlar!"

Dini kitablarda belə gözəl mətnlər çoxdur. Qur`an ayələrindən qaynaqlanan bu əhvalatlar çox xoş xəbərlərdir. Bu söhbətlər insanda Allahın ehsanına ümid doğurur. İnsan inanır ki, öz istəklərinə dua vasitəsi ilə çata bilər. İslam Peyğəmbəri (s) buyurur: "Həqiqətən, dua ibadətdir;" "Dua ibadətin məğzidir."[4]

İmam Baqir (ə) buyurur: "Ən üstün ibadət duadır"; "Allah yanında duadan, Onun fəzlindən istəməkdən də üstün olan bir şey yoxdur. Və Onun yanında təkəbbürlük üzündən dua etməyib, ilahi feyzləri diləməyən kəsdən daha mənfur bir kəs yoxdur."[5]

---

[4] "Məhəччəтул-бəјза", 2-282.

[5] "Кафи", 2-466.

Həzrət Əli (ə) buyurur: " Bütün yer üzündə Allaha yönəlmiş ən sevimli iş duadır."[6] "Dua qələbənin açarı, feyz xəzinəsidir. Ən üstün dua pak qəlbdən qopan duadır. Dua qurtuluş vasitəsi, ixlas yoludur. Dözümsüzlük şiddətlənəndə pənah yalnız Allah dərgahınadər."[7]

İmam Sadiq (ə) buyurur: "Bəla gələn vaxt hökmən Allah dərgahına dua və yalvarışla üz tutun"; "Dua et, çünki dua hər bir dərdin dərmanıdır."[8]

## *CƏM HALDA OLAN DUA*

Əgər insanlar cəm şəkildə dua edib, Allah hüzurunda əl açaraq, göz yaşı axıdarlarsa, belə biri duanın qəbul olunmasına ümid çoxdur. Çünki bu cəm içində bəlkə bir nəfər qəlbisınıq, məzlum, çarəsiz, aşiq və ya arif bir insan ola bilsin. Bu bir nəfərin saf qəlblə etdiyi dua bütün duaların qəbul olunmasına səbəb ola bilər. Bəli, ayə və rəvayətlərdən belə görünür ki, mehriban Allah bir xalis bəndəsinin xatirinə bu bəndə ilə bir cərgədə durmuş bütöv bir cəmiyyəti bağışlayır. İmam Sadiq (ə) buyurur: " Əgər dörd nəfər birlikdə vahid bir işin düzəlməsi üçün dua edərlərsə onlar bir-birindən ayrılmış dua qəbul olar."[9]

Həzrət Peyğəmbər (s) buyurur: " Əgər qırx nəfər birlikdə vahid bir işin düzəlməsi üçün dua edərlərsə

---

6 "Кафи", 2-467.

7 "Кафи", 2-468.

8 "Кафи", 2-470,471.

9 "Кафи", 2-487.

Allah bu duanı qəbul edər. Əgər bu dua bir dağın ziddinə belə olarsa, Allah bu dağı aradan götürər."[10]

Rəbbani alim İbn Fəhəd Hilli "Uddətud - dai" kitabında belə nəql edir: "Allah-Taala Həzrət İsaya belə vəhy etdi: «Ey İsa, mö`minlərə qoşul və onlara əmr et ki, səninlə birlikdə dərgahıma dua etsinlər»; İmam Sadiq (ə) buyurur: "Atam daim belə edərdi: bir iş onu qəmləndirəndə arvad-uşağı bir yerə toplayıb dua edər, onlar isə "Amin" deyərdilər."[11]

## *ÜMIDSIZLIK KAFIRLIK ƏLAMƏTIDIR*

Dua edən insan Allah tərəfindən duaya də`vət olunduğunu və Allahın bu duanı qəbul edəcəyinə və`d verdiyini unutmamalıdır. Bütün varlıq aləminə hakim olan Allah üçün hər hansı duanı yerinə yetirmək heç bir çətinlik törətmir. İstər asan, istərsə də çətin bir iş Allahın yalnız bir əmri ilə həyata keçir. Bu səbəbdən də sonsuz qüdrət, bəsirət, kərəm, lütf, rəhmət sahibi olan Allaha dua edərkən ümidsizliyə heç bir əsas yoxdur.

Qur`ani-Məcidin buyurduğu kimi, ümidsizlik kafirlərə məxsus sifətdir. "Yusif" surəsinin 87- ci ayəsində buyurulur:

"Allahın rəhmətindən ümidinizi kəsməyin. Çünki yalnız kafirlər ilahi rəhmətdən ümidsiz qala bilərlər." Ayələrdə təkrar-təkrar tapşırılır ki, Allahın rəhmətindən mə`yus olmayın.[12]

---

[10] "Мүстәдрәкәл-вәсаил".

[11] "Вәсаилүш – шиә", 7-104,105.

[12] "Зумәр", 53.

Allahın Rəsulu (s) buyurur: “Allaha ümidini itirməmiş günahkar ümidini itirmiş abiddən ilahi rəhmətə daha yaxındır.”[13]

İmam Sadiq (ə) buyurur: “Allaha ümidsizliyin soyuğu şiddətli şaxtadan da sərtdir.”[14]

İslam dinində Allahın rəhmətindən ümidsizlik böyük günahlardan sayılır və belə bir günah müqabilində cəhənnəm əzabı və`d edilir. Duanın dərhal qəbul olmaması insanı mə`yus etməməlidir. Çünki insan üçün nəyin daha xeyirli olduğunu yalnız Allah bilir. Allah-Taala dua edən kəsin axirət məqamını yüksəltmək üçün onun istəyinin qəbulunu yubada da bilər. Ümidsizlik nə ağıl, nə şəriət, nə əxlaq, nə də insanlıq baxımından qəbul edilə bilməz. Həqiqi mö`min heç bir vəchlə Allahdan ümidini üzmür.

Dua və onun qəbulu haqqında mö`təbər mənbələrdə çoxlu rəvayətlər mövcuddur. Əba Əbdillah (ə) buyurmuşdur : “Bəndə dua edər, sonra Allah iki mələyə buyurar: “Mən onun duasını qəbul etdim. Amma hələlik istəyinin yerinə yetirilməsini yubadın ki, duasına davam etsin. Çünki onun səsini eşitmək xoşdur.” Amma elə bəndə də var ki, o dua etdikdə Allah buyurar: “Onun istəyini tez yerinə yetirin. Çünki o, nifrət doğurur.”

Mənsur Səyqəl İmam Sadiq (ə)-dan soruşur ki, bə`zən dualar qəbul olur, bə`zən isə bir müddət tə`xirə düşür.

---

[13] Кənзул - əммал, 5869.

[14] “Мүстəдрəкул-вəсаил”,12-59.

Görəsən, bu tə`xirdən məqsəd duanı davamlı etməkdirmi? İmam buyurur ki: -"Bəli".[15]

### *DUANıN ŞƏRTLƏRI*

Etdiyi duanın qəbul olmasını istəyən şəxs duanın şərtlərinə əməl etməlidir. Əhli-beytin (ə) bu mövzuda buyurduqları "Üsuli-kafi", "Məhəccətül-bəyza", "Vəsailüş-şiə" və digər mö`təbər mənbələrdə nəql olunmuşdur. Duanın aşağıdakı şərtləri vardır:

-Şər`i təharət (dəstəmaz, qüsl, təyəmmüm);
-Həqqun-nas, yə`ni xalqın haqqını ödəməkdə paklıq;
-İxlas, yə`ni səmimiyyət və xalislik;
-Duanın mətnini düzgün oxumaq;
-Halal qazanc;
-Sileyi- rəhm, yə`ni yaxın adamları yoxlamaq;
-Duadan qabaq sədəqə vermək;
-Allaha müt`i olmaq;
-Günahdan çəkinmək;
-Əməllərin islahı;
-Səhər vaxtı dua etmək;
-«Vətr» namazında dua;
-Fəcr, yə`ni sübh ağaran zaman dua;
-Günəş doğarkən dua;
-Həftənin çərşənbə günü, günorta və ikindi arasında dua;
-Duadan qabaq salavat.[16]

---

[15] "Кафи", 2-489.
[16] "Кафи", 2-466.

## *CÜMƏ AXŞAMı*

Əhli-beyt rəvayətlərində dua üçün ən münasib vaxt cümə axşamı hesab olunur. Cümə axşamı öz dəyərinə görə ən xeyirli gecə olan «qədr» gecəsinə oxşadılır. Din böyükləri deyirlər: “Çalışın cümə axşamını namaz, dua,zikr, tövbə ilə sübh edin. Allah-Taala cümə gecəsi iman əhlinin kəramətini artırmaq üçün mələklərini birinci səmaya endirər.”

İmam Sadiq (ə)-dan nəql olunmuş bir rəvayətdə buyurulur ki, bə`zən Allah xeyir olaraq, mö`minin duasını tə`xirə salıb, cümə vaxtı qəbul edər.[17] Elə həmin mənbədə başqa bir hədisdə buyurulur: “Oğlanları Həzrəti Yə`qubdan günahlarının bağışlanması üçün dua istədikləri vaxt, o bu duanı cümə axşamınadək tə`xirə saldı.”

İmam Baqir (ə) buyurur: “Allah-Taala hər cümə axşamı bir mələyə göstəriş verir ki, gecənin əvvəlindən sonunadək Onun adından belə nida etsin: “Sübh açılmamış dünya və axirəti üçün bir mö`min bəndə məni çağıracaqmı ki, duasını yerinə yetirim? Sübh açılmamış bir mö`min bəndə günahdan tövbə edəcəkmi ki, onun tövbəsini qəbul edim? Sübh açılmamış bir mö`min bəndə ruzi istəyəcəkmi ki, onun ruzisini artırım? Sübh açılmamış bir xəstə mö`min istəyəcəkmi ki, ona şəfa verim? Görəsən bir məhbus mö`min sübhdən qabaq dua edəcəkmi ki, onu zindandan qurtarım? Görəsən haqqında zülm edilmiş bir mö`min sübhdən qabaq Məni çağıracaqmı ki, zalımdan intiqam

---

[17] “Биhарул - әнвар”, 86-273.

alıb, onun haqqını qaytarım?" Bəli, bu mələk sübh açılanadək nida edər."[18]

Cümə axşamı üçün bir sıra namazlar, dualar və zikrlər müəyyənləşdirilmişdir. Dualar arasında "Kumeyl" duasının xüsusi yeri vardır.

## *KUMEYL IBN ZIYAD*

İstər şiə' istərsə də sünni alimləri Kumeyl ibn Ziyadı böyük iman, qüdrətli ruh, pak düşüncə xalis niyyət, gözəl əxlaq və saleh əməl sahibi kimi tanıyırlar. Bütün din alimlərinin fikrincə Həzrət Əli (ə) və İmam Həsənin (ə) xüsusi səhabələrindən olan Kumeyl ədalətli və kəramətli bir şəxsdir. Həzrət Əli (ə) Kumeyli ən e`tibarlı yaxınından biri hesab etmişdir.[19] Kumeyl Həzrət Əli (ə)-ın ən yaxın şiələrindən və aşiqlərindən biri olmuşdur.[20]

Həzrət Əli (ə)-ın Kumeylə olan tapşırıq və vəsiyyətləri onun iman və mə`rifətindən danışır. Əhli-beyt ardıcıllarına qarşı dost münasibətdə olmayan sünnilər Kumeyli bütün cəhətlərdən e`tibarlı sayırlar. Ariflər, Allah aşiqləri Kumeyli Həzrət Əli (ə)-ın sirdaşı kimi tanıyırlar.

Kumeyl on yeddi il İslam Peyğəmbərinin (s) nurani dövründə yaşamış və bu nurdan faydalanmışdır. Bu böyük insan Həccac ibn Yusif Səqəfinin əli ilə şəhadətə yetirilmişdir. Bu şəhadət haqqında Həzrət Əli (ə) Kumeylə əvvəlcədən xəbər vermişdi. Zalım əməvi hakimi tərəfindən İraqa vali tə`yin olunmuş Həccac ibn

---

[18] "Биhарул - әнвар", 86-282.

[19] «Рәсаил», Сејјид Мүртәза.

[20] "Биhарул - әнвар", 33-399.

Yusif daim Kumeyli tə`qib etmiş və məhz Əhli-beyt məhəbbətinə görə onu qətlə yetirmişdir. Kumeyl Həccac ibn Yusifdən gizlənərdi. Onu tapa bilməyən vali Kumeylin bütün yaxınlarını sıxıntıya salıb, onların hüquqlarına təcavüz edir. Yaxınlarının əzab-əziyyətinə dözməyən Kumeyl birbaşa valinin yanına gəlir və deyir: -"Əlindən gələni et. Ömrümdən bir şey qalmayıb. Tezliklə mən də sən də Allahın hüzuruna qayıdasıyıq. Mövlam mənə xəbər verib ki, qatilim sənsən." Zalım Həccacın əmri ilə bu doxsan yaşlı müqəddəs insanın boynu vurulur. Onun qəbri Nəcəf və Kufə şəhərləri arasında yerləşir.

## *KUMEYL DUASı*

Aşiq ariflər və arif aşiqlər bütün dualar içərisində "Kumeyl" duasının məqamını, insanın bütün yaranmışlar arasında olan məqamı kimi bilmişlər. Varlıq aləmində bütün mövcudların ən şərəflisi insan olduğu kimi, duaların da ən şərəflisi "Kumeyl" duasıdır. Tanınmış alim Əllamə Məclisi "Kumeyl" duasını ən üstün dua hesab edir. Mərhum alim Seyyid ibn Tavusun "İqbal" kitabına əsaslanaraq özünün "Zadul – Məad" kitabında yazır: "Kumeyl deyir ki, bir gün Bəsrə şəhərində Mövlam Əlinin yanında oturmuşdum. Şə`banın on beşinci gecəsindən söz düşdü. Həzrət Əli (ə) buyurdu ki, hər kəs bu gecəni oyaq qalıb ibadət etsə Həzrət Xızrın (ə) duasını oxusa, duası hökmən qəbul olar. Sonra Həzrətin xidmətinə gedib xahiş etdim ki, bu duanı mənə öyrətsin. O buyurdu: "Ey Kumeyl! Elə ki, bu duanı öyrəndin, ya hər cümə axşamı, ya ayda bir dəfə' ya ildə bir dəfə' ya

da ömründə bir dəfə onu oxu. Bu dua səni düşmənlərin şərrindən qoruyar, sənə ruzi yetirər və günahlarını bağışladar. Ey Kumeyl! Belə bir ne`mət və kəramətlə ucalmağının səbəbi uzun müddət göstərdiyin xidmətlərdir. Otur, yaz...” Rəbbani alim Mərhum Kəf`əmi “Misbah” kitabında yazır ki, Həzrət Əli (ə) bu duanı səcdə halında oxuyardı.

Bu duanı oxuyan şəxs bir sıra şərtlərə əməl etməklə yanaşı üzü qibləyə olmalı, müt`i görkəm, sınıq qəlb, xalis niyyət, ağlar göz və qəmli səslə oxumalıdır. Sözsüz ki, bu halda oxunan duanın qəbuluna ehtimal çoxdur.[21]

Ağlar göz Allah hüzurunda böyük e`tibara və dəyərə malikdir. Göz yaşı günahların bağışlanmasına, Allahın qəzəbinin soyumasına və ilahi rəhmətə qovuşmağa səbəb olur. İmam Sadiq (ə) buyurur: “Bir damla göz yaşı dəryalarca atəşi söndürür. Göz yaşardığı vaxt zülmət və xarlıq çöhrədən çəkilər. Göz yaşı axıdan kəsə Allah Cəhənnəmi haram edər. Doğrudan da gözü ağlar bir ümmət hər halda mərhəmətə çatar.”[22] Həzrəti İmam (ə) başqa bir hədisdə buyurur: “Yalnız üç göz Qiyamətdə ağlamaz: Allahın haram buyurduğuna qapanan göz, Allah yolunda yuxusuz qalan göz, gecə yarı Allah qorxusundan ağlayan göz.”

### *BISMILLAHIR-RƏHMANIR-RƏHIM*

“Kumeyl” duasının sonsuz nur mənbəyi olan “bismillah” ilə başlanmasının bir neçə səbəbi var:

---

[21] “Мәһәччәтул-бәјза”, 2-285.
[22] “Кафи”, 2-481.

1. Həzrət Əli (ə) Həzrət Peyğəmbər (s)-dən, Həzrət Peyğəmbər (s) isə Allah-Taaladan rəvayət etmişdir ki: "Hər hansı böyük bir iş Allahın adı ilə başlanmazsa puç və nəticəsizdir."[23]

2. Mərhum Təbərsi "Məkarimul - əxlaq" kitabında nəql edir ki, Həzrət Musa ibn Cə`fər (ə) buyurmuşdur: "Qəm-qüssəyə düşmüş şəxs üzünü göyə tutub üç dəfə "bismillahir-rəhmanir-rəhim" deyərsə mümkün deyildir ki, Allah onun narahatlığını və qəm-qüssəsini aradan qaldırmasın. Əgər Allah istəyərsə!"

3. Mühüm bir hədisdə buyurulur: «Bismillahir-rəhmanir-rəhim» ilə başlayan dua Allah dərgahında rədd edilməz.[24]

4. Həzrət Peyğəmbər (s) Cəhənnəm odunun dillərinin sayının on doqquz olduğunu bildirmişdir. Həzrət (s) buyurur ki, bu on doqquz dildən qurtulmaq istəyən kəs on doqquz hərfdən ibarət olan "bismillahir-rəhmanir-rəhim" kəlmələrini oxumalıdır. Mehriban Allah bu kəlmələrin hər bir hərfini Cəhənnəm odunun bir dili qarşısında sipər edər.

5. İslam Peyğəmbəri (s) buyurmuşdur: "Əgər bir müəllim bir uşağa "bismillahir-rəhmanir-rəhim" öyrədərsə Allah-Taala bu uşağa, bu uşağın ata-anasına və müəllliminə Cəhənnəmdən qurtuluş vəsiqəsi verər."

6. Həzrət Peyğəmbər (s) buyurur: "Qiyamət günü ümmətimi əməllərin hesab yerinə gətirər və əməllər tərəziyə qoyular. Yaxşı əməl pis əməllərdən ağır gələr. Qədim ümmətlər fəryad qoparalar ki, «nə üçün

---

[23] "Вәсаилүш – шиә", 7-107.

[24] "Мүстәдрәкүл-вәсаил", 5-304.

yaxşılıqlar az olduğu halda pisliklərdən ağır gəldi?» Onların peyğəmbərləri cavab verərlər ki, bu ümmət sözə üç haqq adla, "Allah", "Rəhman", "Rəhim" adları ilə başladığından tərəzinin bu adlar olan gözü bütün əməllərin yığıldığı o biri gözdən ağır gəlir."

7. İmam Riza (ə) buyurur: "bismillahir-rəhmanir-rəhim" "ismi-ə`zəmə" gözün qarasının ağına yaxınlığından daha yaxındır. Şəksiz ki, dua ismi-ə`zəmlə başlayarsa, Allah-Taala tərəfindən qəbul olunar.

"Bismillah" vəsfə gəlməyən hal yaradan pak bir şərbətdir. Bu şərbətin tə`siri ilə mə`şuqun cazibəsinə düşən aşiq vüsal yolunu yorğunluq bilmədən addımlayır.

Bu eşq şərbətindən məst olasıyam,
Bir baxışla lalə tək solasıyam.
Büdrəyib ucaboy sərvin başından,
Parça-parça olub alçalasıyam.

O sevimli yarın qəmzəsi olsa,
Badədən içməmiş məst olasıyam.
Əlimdən çıxsa da bu nurlu şərbət,
Yenə də torpağa üz salasıyam.

Ayaqlarım gücdən düşsə də bil ki,
Əlimlə sürünüb kam alasıyam.
Gəncliyi bu yolda versəm də əldən,
Yenə də eşqdən məst qalasıyam.

## *"BISMILLAHıN" LƏTIF GÖRÜNTÜLƏRI*

Sərf-nəhv, yə`ni qrammatika alimlərinin fikrincə "ism" kəlməsi böyüklük və üstünlük bildirir. Allah-Taala bu nurani kəlmə ilə insanın diqqətini böyük dosta yönəltmək istəyir. İnsan bilməlidir ki, sadəcə dostun adını çəkməklə ona qovuşmaq olmaz. Bu böyük dosta yaxınlaşmaq üçün qəlb səhifələri əxlaqi çirkinliklərdən təmizlənməlidir. İnsan öz dilini tövbə suları ilə boş sözlərdən təmizləməli, batinində məhbuba yaxınlaşma ruhu yaratmalıdır. Qəlbi təmizləmədən Allahın mübarək adını dildə zikr etmək ədəbsizlikdir.

Gülabla ağzımı yusam da mən çox,
Adını çəkməyə ləyaqətim yox.

Allah-Taala ən üstün müqəddəslik mərtəbəsindədir. Torpaqdan yaranmış insan durduğu alçaq mərtəbədən vasitəsiz ucala bilmir. Rəbbimiz "bismillah" kəlməsini özü ilə insan arasında vasitə qərar vermişdir. Bu kəlmənin həqiqi mə`nasını anlamaqla tərəqqi nərdivanında qalxmaq olar. İlahi camal və cəlalın müşahidəsi üçün bu yolla şərait yaranır.

Aşiq ariflər "bismillah"ın əvvəlindəki "bə" hərfinin hərəkətə başlama işarəsi olduğunu bildirirlər. "B" hərfindən "s" hərfinədək olan sirli mə`rifət yolu nəhayətsizdir. "B" "ism"-ə birləşərkən yazıda "ism" kəlməsinin "əlif"-i itir. Ərəb qrafikası ilə tanış olmayan oxuculara aydın olsun - deyə bu prosesi belə ifadə edə bilərik: "bismillah" kəlməsində "b" "ism"-ə birləşərkən yazıda bir hərf itir. Ariflər bu itmiş hərfin insandakı eqoist "mən"-ə işarə olunduğunu göstərirlər. Yə`ni

Allaha yaxınlaşmaq məqsədi ilə yola çıxmış insan öz "mən"-ini məhv etməsə böyük dostun məhəbbətinə nail ola bilməz.

Hal əhli belə hesab edir ki, "bismillah" kəlməsindəki "b" hərfi Allahın bütün varlıq aləminə xüsusi ilə nəfs əhlinə olan yaxşılığına işarədir. "S" hərfi qəlb sahibi olan xüsusi bəndələrə aid olan sirləri bildirir. "M" hərfi isə seçilmiş bəndələrin çatdığı ilahi məhəbbət nişanəsidir.

"Kafi" kitabında nəql olunur ki, İmam Sadiq (ə) buyurmuşdur: "Bu üç hərfin hər biri Allahın gözəl adlarından birinə işarədir. "B" Allahın bəhasını, yə`ni dəyərini, "S" Allahın sənasını, yə`ni ucalığını, "M" Allahın məcdini, yə`ni böyüklüyünü bildirir. Bir qrup aşiq isə belə hesab edir ki, "b" – "bəsir" (görən), "s" – "səmi" (eşidən), "m" – "muhsiy" (hesab aparan) sifətlərinə işarədir.

"Bismillah" oxuyan insana bildirilir ki, Allah-Taala onun aşkar və gizli olan bütün əməllərini görür, bütün dediklərini eşidir, çəkdiyi nəfəsləri sayır. İnsan dərk etməlidir ki, belə bir bəsirət qarşısında riyakarlığı, belə bir dinləmə mühitində artıq sözə və belə bir hesab aparıldığı vaxt çəkdiyin nəfəsdən xəbərsizliyə yer yoxdur.

Məhəbbət eşqində yananlar deyir: "Bismillah" kəlməsinin ilahi mə`nasını o insan dərk edə bilər ki, Allahın bəlasına səbir etsin, nurani "m" fəzasını müşahidə etmək üçün sirati-mustəqimə yə`ni doğru yola vəsl olsun.

Nə qədər ətəkdən üzülməyib əl
Hər iki dünyada yerimiz gözəl.
İnsan möhtaclığı duyduğu qədər
Fəna sədalardan üzün döndərər.
Bu məstlik badədən ucadır, uca.
Bu sevgi şərbəti sonsuz dəryaca.
Bütün gecə boyu axan göz yaşı
Bu böyük sevginin nurlu qaş-daşı.
Məhbubu yolunda candan keçənə
Sultanlıq, taxt-tac, şan-şöhrət heç nə.
Aşiqə sütunlu saray gərəksiz,
Xoşbəxtdir səhrada susuz-çörəksiz.

"Allah" bütün ilahi sifətlərin toplandığı mübarək addır. Deyirlər ki, "Allah" adında üç mə`na mövcuddur:

Həzrəti Haqq əzəli və əbədidir;

Ağıl və düşüncələr onu tanımaqda acizdir;

Bütün yaranmışların qayıdışı onadır.

Ariflər deyirlər ki, "Allah" ismi-ə`zəmdir və tovhid ona əsaslanır. Bu kəlməni səmimi qəlbdən deyən kafir küfrdən imana yol tapır. Bu kəlmə insanı qəflətdən oyadıb ünsiyyət dairəsinə daxil edir. Allah-Taalanın başqa adları da var. "Allahdan başqa bir mə`bud yoxdur" deməklə insan müsəlman olursa, "Rəhman"dan başqa mə`bud yoxdur" demək müsəlman olmaq üçün kifayət etmir. Hər bir insanın küfrdən qurtuluşu yalnız bu nurani kəlmənin zikri sayəsində mümkündür. Bu kəlmə ilə başlayıb, bu kəlmə ilə sona yetməyən iş naqisdir. Peyğəmbərlik və

vilayət sütunları bu kəlmə ilə möhkəmlənir: “Muhəmmədən Rəsulullah”, “Əliyyən Vəliyyullah”.

Bu kəlmənin özünəməxsus xüsusiyyətlərindən biri də budur ki, onun hər bir hərfi atıldıqda qalan hissəsi mə`nasını itirmir. “Rum” surəsinin 4-cü ayəsində “lilləh”, “Təğabun” surəsinin 1-ci ayəsində “ləhu”, “İxlas” surəsinin 1-ci ayəsində “huvə” kəlmələri ilə rastlaşırıq. Bütün bu kəlmələr “Allah” adından alınır. Belə bir xüsusiyyət yalnız ismi-ə`zəmə məxsusdur.

Könlünü sevdana verənə əhsən,
Əhsən o qəlbə ki, sevginlə həmdəm.
Aşiqə mələklər qibtə edəsi,
Göyləri isidir qaynar nəfəsi.
Vüsal həsrətilə vurur ürəyim,
Sevgidən başqa yox, inan, istəyim.
Həyatım eşqindən güc almaqdadır,
Xəyalım göylərə ucalmaqdadır.
Bu xəyalı Sənə doğru aparan
Munis mələklərdir, hər biri heyran.
Hicran sahilinə üzüb balıq tək
Canımı eşqinə tapşıram gərək.
Bu könül, bu ürək Sənindir,Sənin,
Anlamışam ki, yox başqa həmdəmim.
Başqası önündə əyilmək əbəs,
Yalnız Səni deyir içimdəki səs.
Bu məcnun aşiqi qovma qapından,
Bil dərdinə çarə yox başqasından.
Arzusu, xəyalı eşqinə bağlı,
Qəbul et, başından çıxsa da ağlı.

“Rəhman” kəlməsi “rəhmət” kökündəndir. Qrammatika alimlərinin fikrincə bu söz mübaliğə siğəsində yə`ni daha şiddətli mə`nadadır. «Rəhman» bütün mövcudlara rəhmət edən mə`nasındadır. Yə`qin əhlinin dilincə desək, rəhmət bütün zərrələrin qabiliyyəti qədərində kamalı dadmasıdır. Rəhmət olmayan yerdə nə varlıq, nə də kamal var. Bəsirət əhli belə hesab edir ki, “rəhman” kəlməsinin mə`nası mövcudlara xeyir verilməsi və onlardan şərrin də`f edilməsi üçün iradədir. Bütün ne`mətlər Allahın rəhmaniyyətindən cilvələnir. Bu cilvələrdən bir qismi mübarək “Ər-Rəhman” surəsində bəyan olunmuşdur.

O böyük Yaradan, o böyük Xaliq,
O qüdrət sahibi, o Rəbb, o Sadiq
Yaratdı insanı gözəl şəkildə
Gözəl xasiyyətdə gözəl əsildə.
Balıq dərinlikdə quş ucalıqda,
Qismətini yeyir quş da, balıq da.
Hər bir yaranmışın ruzisi hazır.
Hər kəsin qismətin Yaradan yazır.
Qarışqa yuvasın ucaldırsa çox,
Xaliqdən öyrənmiş, şübhəyə yer yox.
İşə bax, nütfədən yaranır insan,
Yarpaqlar cücərir quru budaqdan.
Arı çiçəklərdən toplayıb şirə
Bir bal düzəldir ki, gəlməz nəzərə.
Bu Xaliq kimsədən deyil asılı,
Amma yenə eşqə nura təmaslı.

Zatını qavramaq çətindən çətin,
Yalnız sifətləri olar qismətin.
Baxsan bu dünyada hər bir yaranmış
Səcdəyə qapılıb, şükrə dayanmış.
Bu günün şükrünü çıxarsan əldən
Sabahkı təəssüf gətirəcək qəm.
Ey böyük Yaradan, ey böyük Mövla,
Ağlar aşiqləri kölgəndə saxla.
Layiqli tərifə qüdrətimiz yox.
Eşqin sorağında saxlama gəl çox.
Sə`dinin şe'rinə oxşar bu sözlər
Kərəminə baxıb, lütfünü gözlər.

"Rəhim" kəlməsi ərəb dili mütəxəssislərinin fikrincə davamlılıq bildirir. Yə`ni, Allah-Taalanın rəhmət və mehribanlığı həmişəlik və sabitdir.

Din əhli bu fikirdədir ki rəhmət, bağışlama mö`min insanların xüsusiyyətidir. Onlar Allahdan istiqamət alıb halal-harama riayət etdikləri üçün, gözəl əxlaqla bəzənib, ne`mətlərə şükür etdikləri üçün bu sifətə layiq görülmüşlər. İslami mənbələrdə bildirilir ki, rəhmət rəhmaniyyə və rəhimiyyə ola bilər.

«Rəhmaniyyə rəhmət» dedikdə mö`min və ya kafir olmasından asılı olmayaraq, rəhmətin bütün mövcudlara verilməsi nəzərdə tutulur.

«Rəhimiyyə rəhmət» isə insana mə`nəvi kamillik verilməsi, iman əhlinin dünya və axirətdə bağışlanmasıdır.

"Rəhmaniyyət" və "rəhimiyyət" kəlmələrində qurtuluş mə`nası vardır. Birində dünyəvi, digərində

üxrəvi qurtuluş. «Rəhimiyyə rəhmət» ibadətləri qəbul olunmuş, günahları bağışlanmış müt`i bəndələrə aiddir. Saleh bəndələr ibadətlərinə görə rəhmət intizarındadırlarsa, günahkarlar ehtiyac ucbatından bu rəhmətə göz dikmişlər. İbn Mübarək deyir: "Rəhman odur ki, istəyəndə verir, Rəhim isə istəməyənə qəzəblənir." Ariflərin tə`birincə Rəhman bütün canlılara ruzi verəndir, Rəhim isə iman əhlinin günahlarını bağışlayandır. İnsan ruzi üçün öz ticarətinə yox, Allahın rəhmanlığına bel bağlamalıdır. Amma şəriət və əql baxımından ticarəti, işi atmaq olmaz. İnsan günahlarının bağışlanmasında öz saleh əməlinə yox, Allahın rəhimliyinə bel bağlamalıdır. Amma saleh əməli tərk edib şeytanı sevindirmək olmaz.

Ariflərin fikrincə bəndə üçün üç hal mövcuddur: varlığa möhtac yoxluq halı, yaşamağa möhtac varlıq halı, bağışlanmağa möhtac qiyamət halı. Bu üç hal Allah-Taalanın üç adında dərc olunmuşdur. Bütün sifətlərin cəmləşdiyi "Allah" adı; insanı ne`mətlərdən faydalandıran "Rəhman" adı; Qiyamət günü günahların üstünə pərdə çəkəcək "Rəhim" adı.

Bəsirət sahibləri belə düşünürlər ki, insanda qəlb, nəfs və ruh fəaliyyətdədir. Nəfs ruzi və gözəllik, qəlb mə`rifət və iman, ruh isə rəhmət və razılıq sorağındadır. Qəlb - "Allah" adında mə`rifət və iman, nəfs - "Rəhman" adında ruzi və gözəllik, ruh - "Rəhim" adında rəhmət və razılıq tapa bilər.

Qəlb və canına bu üç mübarək ad nüfuz edən bəndə Allahdan başqa mə`bud tanımır. O, Allahın bütün bəndələrinə qarşı mehriban olur. Bu nurani kəlmələrin

zikri bütün məqamlarda zəruridir. Öz batinlərini paklamaq məqsədi ilə səmimi qəlbdən bu kəlamı zikr edib onun mə`nasına diqqət edənlər böyük faydalara çatırlar.

Həzrət Peyğəmbər (s) buyurur: "Hər kəs gündə on dəfə "bismillahir-rəhmanir-rəhim" və "la həvlə və la quvvətə illa billahil-əliyyil-əzim" deyərsə günahlarından paklanar və Allah-Taala onu yetmiş bəladan hifz edər." Başqa bir rəvayətdə Həzrət Peyğəmbər (s) buyurmuşdur: "Hər kəs "bismillah" deyərsə Allah-Taala ona dediyi hər hərfə görə dörd min savab yazar və onun dörd min günahını məhv edər." Digər bir rəvayətdə buyurulur ki: "Hər kəs yeməyə başlayarkən "bismillah" deyərsə şeytan onunla süfrə yoldaşı olmaz. Yeməkdən qabaq "bismillah" deməyi unudanlara şeytan yoldaş olar.

Ey lütfüylə kimsəsizlərə yoldaş,
Səndən başqa varmı bizlərə sirdaş?!
Bikəsəm, tutmuşam Sənə üzümü,
Bir başqası yoxdur deyəm sözümü.
Camalın dünyanı bürümüş nura,
Bu nurla gəlmişdir aləm zühura.
Varlığın görünür altı cəhətdə
Başqa hər nə varsa puçdur həyatda.
Məhv olur önündə hər iki dünya,
Yox Səndən başqası Səni tanıya.

"Allahummə inni əs'ələukə-birəhmətikəl-ləti vəsiət kullə şəy'"

("Pərvərdigara! Səni hər şeyi bürümüş rəhmətinə and verib, Səndən istəyirəm."

Bu cümlənin hər bir ilahi kəlməsi o qədər rəmz və sirlərə malikdir ki, şərhə ehtiyac duyulur. "Allahummə" kəlməsi "ya Allah" kəlməsindən yaransa da Allah-Taalanın əzəmətini daha üstün şəkildə göstərir. Allaha müraciət edən duaxanlar, yə`ni dua oxuyanlar dərin bir duyumla "Allahummə" çağırırlar. Mə`şuqdan icazəsi olmayan aşiqlərin bir kəlmə belə danışmağa qüdrəti yoxdur. Yalnız ilahi qüdrətdən güc almaqla "Allahummə" deyərək Allahı çağırmaq mümkün olur. Dua oxuyanlar unutmamalıdırlar ki, Allahın istəyi olmazsa ağız duaya açılmaz. Bəli, dua Onun tə`limidir. Dua oxuyanın varlığı Allahın hökumətindədir. Dua oxuyanın sözü, halı Allahın iradəsinə tabedir.

Ya Rəbb, qurtar bu bəndəni özündən,
Qurtar zəmanənin oynaq gözündən.
Qurtar məni oda çəkən Mənimdən,
Bu dünyanın qüssəsindən, qəmindən.
Yalan dünya qorxu salmış qəlbimə
O gedəsi, Sən qalasısan yenə.
Əmmarə nəfs qənim kəsilmiş cana,
Qorumasan, qurtuluş yox insana.

"İnni" kəlməsi "mən" mə`nasını verir. Amma bu "mən" fir`onsayağı eqoist "mən" deyil. Bu ilahi cümlədə zikr olunmuş "mən" zati bir fəqirlik, acizlik,

möhtaclıq mə`nasındadır. Dua oxuyan şəxs özündə acizlik və çarəsizlikdən başqa bir şey görmür. O, öz məhbubunda rəhmət, kəramət, lütf, məhəbbət, ehsan, ədalət müşahidə etdiyindən möhtac halda ona əl açır və bu işdə Allahın hər şeyi bürümüş rəhmətinə ümid bağlayır.

"Birəhmətikəl-ləti vəsiət kullə şəy`": Məhbubun rəhməti hər şeyi bürümüş, zahirdə və batində hər şeyi əhatə etmişdir. Məhz bu geniş ilahi rəhmət hər şeyi yoxluq zülmətindən varlıq işığına çıxarmışdır. Hər bir varlıq öz qabiliyyətinə ləyaqətinə tutumuna uyğun yer almışdır.

"Ənisül-ləyl" kitabında belə buyurulur: " Allahın ümumi feyzi Günəş kimidir. Bütün Yer üzündəkilər istisnasız olaraq Günəşin nurundan faydalandıqları kimi Allahın da ümumi feyzindən kimsə məhrum edilməmişdir. Bütün görünən və görünməyən mövcudlar bu geniş rəhmətdən faydalanmaqdadırlar. Ən böyük mikroskop altında görünməyən zərrə belə bu rəhmət dairəsindən kənar deyil. Hər bir şey öz iste'dadı çatan qədər bu feyz və rəhmətdən faydalanıb təkamül yolunda irəli gedir. İstər nəhəng planetlər, istərsə də mikroskopik hüceyrələr Allahın rəhməti sayəsində hərəkət etməkdədir. Bu rəhmət dairəsindən çıxmaq üçün kimsədə güc yoxdur və bu dairədən çıxmaq - məhv olmaq deməkdir. Varlıq aləminin yaranması, məxluqun ruziyə çatması, təbiətin inkişafı, peyğəmbərlərin və ayələrin göndərilməsi, azğınların hidayəti, Qiyamət dirçəlişi, Cənnət və Cəhənnəm -

Allah-Taalanın ümumi feyz və geniş rəhmətinin şüalarıdır.

Biz gədalar bəndəyik bir sultana
Əzəl gündən malikdir hər imkana.
Adımızı nə qoysalar qəbuldu,
Həqiqət budur ki, bəşər bir quldu.
Ya qovalar, ya keçələr günahdan
Başqa bir yol aramarıq heç zaman.
Vursalar da boynumuzu astaca
Şikayətlə boylanmarıq qılınca.
Mə`şuqla söhbətdə kimi xuraman,
Bizlərinsə çöhrələri pərişan.
Bu aşiqlər hər eybindən xəbərdar,
Nə qədər cahilik xəbərimiz var.
Hər bağçada yeni bir gül görəndə
Yenə də fikrimiz, vallahi, Səndə .
Hər ne`mətin qüdrətinə bir sübut,
Bu qüdrət önündə rəvamı sükut?!
Tərifindən özgə nə var hədərdir,
Səndən kənar keçən anlar xətərdir,
Sən birinə baxsan onun çöhrəsi
Bizlərə sevginin böyük müjdəsi.
Rəhmətindən uzaq dünya fənadır,
Nə qədər sevgi var, dünya bəqadır.
Canı tərk etməkdə qorxu yox əsla,
Cananı tərk etmək böyük bir bəla.

Biz insanlar bu geniş rəhməti anlamaq gücündə deyilik. İnsan əqli bu həqiqəti dərk etməkdə acizdir. "Kullə şəy`", yə`ni hər şey dedikdə nəzərdə tutulan yaranmışları sayıb qurtarmaq mümkün deyil. Meşələr qələm, okeanlar mürəkkəb, mələklər, cinlər və insanlar mirzə olsalar belə bu siyahını yazıb qurtarmaq olmaz. Biz Allahın geniş rəhmətini çox cüz`i şəkildə qavraya bilirik. Sanki bizim bu mə`nada susuzluğumuzu ilahi qüdrət okeanının bir damlası yatırır. İnsan övladı bu rəhmət günəşinə yalnız bir göz qırpımı qədər baxa bilir.

## *VARLıQ ALƏMI*

İlahi rəhmətə bürünmüş varlıq aləmini kəmiyyət nöqteyi-nəzərindən təsəvvür etmək mümkün deyil. Amma bu varlıq aləminin kiçik bir hissəsi olan Yer planetini elmin köməyi ilə təsəvvürdə canlandırmaq olur. Bu təsəvvürlər ən kiçik zərrəni belə ağuşuna almış ilahi rəhmətin əzəmətini aydınlaşdırır. Varlıq aləmindəki bütün mövcudlar atom adlı hissəcikdən təşkil olunmuşdur. Ən güclü mikroskoplar belə atomu müşahidə etməkdə acizdir. Təsəvvür edin ki, ən iti iynənin ucunda 55x10(18) atom yerləşir. Əgər iynənin ucunu dağ ölçüsünə gətirə bilsək, hər atom milçək böyüklükdə olar. Atom üç hissədən təşkil olunmuşdur: mənfi yüklü elektron, müsbət yüklü proton və işarəsiz neytron. Protonlar və neytronlar atomun nüvəsini təşkil edir. Elektronlar isə bu nüvə ətrafında Ay Yer ətrafında fırlandığı kimi fırlanırlar. Varlıq aləminin atomlardan hansı üsulla yaranması yalnız Allaha bəllidir. "Kəhf" surəsinin 51-ci ayəsində oxuyuruq:

**“Biz insanı göylərin, yerin və onun özünün yaranışına şahid etmədik.”**

Qur`ani-Kərimin buyurduqlarından aydın olan və alimlərin uzun-uzadı elmi araşdırmalardan sonra gəldikləri nəticə budur: Fəzada səpələnmiş tüstü və qaz zərrələri yalnız təsadüfən bir-birləri ilə toqquşurlar. “Fussilət” surəsinin 11-ci ayəsində oxuyuruq: «**Sonra göylərin yaranışına diqqət etdi. Hansı ki, bir tüstü topası halında idi.**»

Allah-Taala ulduzları yaratmaqla bizə ən yaxın olan səmanı bəzədi. Milyonlarla zərrə bulud topaları tək dövr etməklə mərkəzə doğru cəzb olundu. Bu fırlanma nəticəsində elə bir istilik yarandı ki, zərrə buludları alışıb qaranlığı işıqlandırdı. Nəhayət, milyon-milyon qızmış topalardan ulduzlar yarandı. Beləcə qaranlıq dünya işıqlandı və səma ulduzlarla bəzəndi.

Geniş bir ərazidə formasız bulud ətrafı eyni sıxlıqla doldurdu. Maddi zərrələr bir-biri ilə birləşdi. Bulud təlatümə gəlmiş qaz dəryasına döndü və fırlanmağa başladı. Hər biri bir iqlim boyda olan dalğalar bir-biri ilə toqquşub bu dəryada gözdən itirdi. Bu coşqun dəryada maddələrin fırlanması tə`sirindən sanki yivlər yaranırdı. Bu görüntülər asta-asta formalaşıb nizamlı varlığa çevrilirdi. “Süd yolu” kəhkəşanının bir tərəfində Günəş sistemi formalaşırdı. Bu sistem Allahın rəhməti sayəsində nizama düşürdü. Kəhkəşanın bir hissəsində təlatümlü bir tufan qopdu. Tünd qaz cərəyanları hərəkətə gəlib böyük fırfıra şəklində genişlənir, onun ətrafında işıq yaranırdı. Bu fırfıra hərəkət etdikcə qazlar yavaş-yavaş mərkəzə doğru

irəliləyir və mərkəzdə əzəmətli bir nur mənbəyi olan Günəş işıqlanırdı. “Nuh” surəsinin 16-cı ayəsində oxuyuruq: **“Onların arasında Ayı işıqlandırıb, Günəşi nurlu çıraq etdi.”**

Sonra Günəşin ətrafındakı qaz və toz hissəcikləri bir-birindən ayrılıb burulğanlara çevrildi. Bu burulğanlar Günəş ətrafında müxtəlif yollarla hərəkətə başladılar. Günəşə yaxın hərəkət edən burulğanlarda istilik, Günəşdən uzaq hərəkət edən burulğanlarda soyuq hakim idi. Hər bir burulğanda qaz və toz hissəcikləri əlaqəli hərəkət edirdi. Bə`zi qaz hissəciklərindən yaranmış buxar toz hissəciklərinə hopur və rütubətli hissəciklər bir-birinə yapışırdı. Bə`zən də bu prosesdə buz və gil parçaları da formalaşırdı. Hər bir burulğanda milyonlarla belə parçalar formalaşmaqdadır. Cazibə qüvvəsi onları bir-birinə doğru çəkir. Onlar bir-birinə yapışaraq nəhəng və fırlanan şarlar şəklinə düşür. Bu nüvələr ətrafındakı parçaları özünə cəzb edərək günü-gündən nəhəngləşir. Nəhayət, Allahın qüdrət və rəhməti sayəsində Yer planeti yaranır.

Digər burulğanlarda formalaşan planetlər Günəş ətrafında özünə yol seçir. Günəşə ən yaxın planet Ütarid, yə`ni Merkuridir. Merkuridən sonra Zöhrə (Venera), Yer, Mərrix (Mars), Müştəri (Yupiter), Zühəl (Saturn), Uran və Neptun gəlir. Sonuncusu isə Plutondur.

Atom nə qədər kiçikdirsə kainat bir o qədər böyükdür. İnsan heç zaman bu ölçünü dərk edə bilməyəcək. Saniyədə 300 min km. sür`ətə malik olan işıq ən yaxın ulduzdan dörd il müddətində yerə gəlib

çatır. Kaliforniyadakı 5m. diametrli güzgüyə malik teleskop işığı yerə 10x10 (8) ilə çatan ulduzları müşahidə edə bilir. Müasir teleskoplarla müşahidə edilən ulduzları yüz illər boyu saysaq da qurtara bilmərik. Kəhkəşan o qədər əzəmətlidir ki, uzunluğu yüz min işıq ilini ötür. Ən güclü teleskopların görmə məkanında yüz əlli milyondan çox kəhkəşan mövcuddur. İki qonşu kəhkəşan arasındakı məsafə iki milyon işıq ilidir. İndi özünüz fikirləşin ki, teleskopun görmə məkanından kənarda nələr mövcuddur! Həzrət Əli (ə) buyurur: "Yaranış Allahın rəhməti əhatəsindədir. Elə bir rəhmət ki, yaranış və inkişaf, xeyir vermə və şərrin dəfi, formalaşma və nizam mayasıdır."

## *CAHANıN ƏN ŞƏRƏFLI QONAĞı*

Varlıq evinin bu sayaq bəzənib nizama salınması, müxtəlif ne`mətlərdən ibarət kamil bir süfrənin açılması şərəfli bir qonağın gəlişini zəruri edir. Bu qonaq ne`mətlərdən faydalanıb enerji əldə etməklə ilahi kitablara, peyğəmbərlər və imamların göstərişlərinə uyğun bəndəlik yolu seçməlidir. Dünya həyatını başa vurduqdan sonra bu möhtərəm qonaq ölüm dalanından keçib başqa bir dünyada əməllərinin əvəzini almalıdır. Öz bəndəlik vəzifələrini layiqincə yerinə yetirənlər ilahi rəhmət sayəsində Behiştdə sakin olasıdır.

## *İNSANıN FORMALAŞMA MƏRHƏLƏLƏRI*

Qur`ani-Məcid insanın bətndəki "cənin" (döl) həyatını müxtəlif mərhələlərə bölür: "Allah-Taala sizi müxtəlif mərhələlərdə yaratdı."[25]

**1. İlk mərhələ: torpaq.**

"Mu`minun" surəsinin 12-ci ayəsində oxuyuruq: "Biz insanı torpaq ünsürlərindən yaratdıq." İnsan nütfəsi müxtəlif qidalardan, bitki, ət və süddən yaranır. Demək, sonradan insan şəklinə düşən nütfə torpaqdan hasil olur. Müasir elmi nailiyyətlərdən mə`lum olur ki, torpaq və insan eyni ünsürlərdən təşkil olunmuşdur. Həm torpağın tərkibində həm də insan orqanizmində dəmir, mis, kalsium, yod və s. elementlər mövcuddur.

**2. İkinci mərhələ: su.**

"Furqan" surəsinin 54-cü ayəsində buyurulur: "Bəşəri sudan yaradan Odur." Bioloqlar insanı su tərkibli dəniz bitkisinə oxşadırlar, 70 kq. çəkiyə malik insan orqanizmində 50 l. su vardır. Bu nisbət, demək olar ki, sabitdir. Bədəndəki suyun 20 %-ni itirmiş insanın sağlamlığını bərpa etmək imkansızdır. Orqanizmdə hüceyrələrin suyu duzsuzdur. Amma hüceyrələrdən kənarda kalsium olmadığından suyun böyük hissəsini duzlar təşkil edir. Bu su dəniz suyuna oxşayır. Bir vaxt dəniz həyatını tərk edib quruya çıxan heyvanlar sanki dəniz suyunun bir hissəsini özləri ilə gətirmişlər.

**3. Üçüncü mərhələ: ələq.**

"Ələq" surəsinin 2-ci ayəsində oxuyuruq: "Allah-Taala insanı ələqdən yaratdı." "Ələq" kəlməsinin lüğət

[25] "Hyh", 14.

mə`nası "soxulcan, zəli" deməkdir. Lakin ələq mikroskop altında müşahidə edilən nütfədəki "soxulcanlardır". Ələq bətnə daxil olduqdan sonra onun divarlarına yapışır. Spermanın ölçüsü 4 $sm^2$-dır. Onun hər santimetrində 100-200 milyon ələq hərəkətdədir. Bu ələqlər dişi hüceyrəyə doğru hərəkət edirlər.

Gənc anada 300x10(6) yetişməmiş yumurta mövcuddur ki, onlardan yalnız dörd yüzə qədəri yetişir.

**4. Dördüncü mərhələ: dəyərsiz sudan yaranış.**

"Səcdə" surəsinin 8-ci ayəsində buyurulur: "Sonra bəşər nəslini nütfədən – bir qətrə zəif, dəyərsiz sudan əmələ gətirdi." Ələq, yə`ni sperma bətnə düşdükdən sonra toqquşma baş verir. Bu toqquşmada 200 milyon spermatozoid iştirak edir. Bu spermatozoidlər 15 km/saat sür`ətlə yumurtalara doğru hərəkət edirlər. Qəfildən minlərlə ələq toxumları əhatə edir. Ələq yumurtaya çatanadək bu proses davam edir. Toxumlardan ayrılan maye yumurtanı artıq ələqlərdən qoruyur. Beləcə 200 milyon spermatozoiddən yalnız biri insanın yaranışı üçün kifayət edir.Əgər iki ələq toxuma çata bilərsə bətndə iki insanın bünövrəsi qoyulur.

**5. Beşinci mərhələ: yumurta hüceyrəsi.**

"İnsan" surəsinin 2-ci ayəsində buyurulur: "Biz insanı qarışıq nütfədən yaratdıq." İnsanın yaranması üçün ələqə qovuşmuş toxum bətnə düşməlidir. Ağ rəngdə olan toxumcuq spermatozoiddən 250 min dəfə böyükdür. Bu zaman yaranmış yeni hüceyrə "əmşac" adlandırılmışdır. Əgər müxalif hüceyrələr əmşac şəklində qarışmazsa, yaranış davam edə bilməz.

Hamiləliyin ilkin dövründə əmşac parçalanmağa başlayır və heceyrə dəstələri yaranır.

**6. Altıncı mərhələ: cəninin (dölün) formalaşması.**

"Həşr" surəsinin 24-cü ayəsində buyurulur: "O, yaradan, yoxdan var edən və surət verən Allahdır. "Hüceyrələr təkmilləşdikdən sonra bətndə dölün, yə`ni insan mayasının inkişafı başlayır. Hüceyrələr əvvəlcə Allahın qüdrəti və rəhməti sayəsində ayrı-ayrılıqda inkişaf edirlər. Beyin, göz, qulaq və s. üzvlərin yaranışı müxtəlif hüceyrə qruplaşmalarında gedir. Dölün sol tərəfindəki kiçik şar onu qidalandırır. Qanda üzən bu şar qandan aldığı qida, su və havanı göbək vasitəsi ilə insana çatdırır.

**7. Yeddinci mərhələ: dölün üç pərdəyə bükülməsi.**

"Zumər" surəsinin 6-cı ayəsində oxuyuruq: "O sizi analarınızın bətnində üç zülmət içində yaranışdan yaranışa salaraq yaradır." Bəli, bətndəki döl üç pərdə ilə əhatə olunmuşdur. Körpəni əhatə edən ilk pərdənin fəzası zülalla doludur və bu pərdə onu kənar zərbələrdən qoruyur. İkinci pərdənin də vəzifəsi körpəni digər tə`sirlərdən qorumaqdır. Üçüncü pərdə körpənin qarın hissəsini bürüyür və onun qidalanmasına kömək edir.

**8. Səkkizinci mərhələ: ruhun üfürülməsi.**

"Mu`minun" surəsinin 14- cü ayəsində oxuyuruq: "Sonra nütfəni laxtalanmış qana çevirdik, daha sonra laxtalanmış qanı bir parça ət etdik, bu əti sümüklərə döndərib yenə də ətlə bürüdük. Nəhayət, onu yeni bir məxluq olaraq yaratdıq. Yaradanların ən gözəli olan Allah necə də uca və uludur." Əlbəttə ki, bu yaranışda

bir çox həqiqətlər gizlidir. Xüsusilə bətndəki körpəyə ruhun üfürülməsi olduqca əsrarəngizdir. Allah-Taala öz rəhmət və iradəsi ilə cansız bir varlığa can verir. Vücuduna ruh üfürülmüş döl barmağını ağzına aparır, bu vərdiş anadan olandan sonra ananın döşünü əmməkdə ona yardımçı olur.

**9. Doqquzuncu mərhələ: doğuş.**

"Nəhl" surəsinin 78- ci ayəsində buyurulur: **"Allah sizi analarınızın bətnindən çıxardı."** Körpənin doğulması prosesi yaranışda ən maraqlı hadisələrdəndir. Doqquz ay sakit və qaranlıq ana bətnində qalmış döl Allahın iradəsi ilə yeni bir dünyaya qədəm qoyur. O, bu yeni dünyaya alışmaq istedadına malikdir. 37° istiliyə malik ana bətnini tərk etmiş körpə gəldiyi dünyanın fərqli temperaturuna asanlıqla vərdiş edir. Uzun müddət qaranlıqda qalmış bu kiçik gözlərin işığa dözümü çox təəccüblüdür. Rütubətdən quru mühitə çıxmış körpə az əvvəl göbəyindən qidalandığı halda doğulduğu andan ağzı ilə qidalanmağa başlayır. Bütün bu incə gedişlər yalnız Allahın hər şeyi bürümüş geniş rəhməti sayəsində mümkün olur. Bu rəhməti anlayan insan astadan pıçıldayır: "Allahummə inni əs`əlukə birəhmətikəl-ləti vəsiət kullə şəy`".

## *İLAHI RƏHMƏTIN ƏSRARƏNGİZ CİLVƏSİ*

Qəlb aynamızdan qəflət hicabını qaldıra biləcək maraqlı məsələyə - İlahi rəhmətin bir təcəllisinə nəzər yetirək:

İnsanın beyin mexanizmi elmi nöqteyi-nəzərdən ən maraqlı bir mexanizmdir. Bu mexanizmin gördüyü işi

ən böyük zavodlar belə yerinə yetirmək iqtidarında deyil.

Beyinin funksiyalarından biri müxtəlif hadisələri qeydə alıb yaddaşa köçürməkdir. Yaddaş qurğusu beyində çox kiçik yer tutur. İnsanın əlli illik xatirəsini dərc etmək üçün 160 milyon nüsxə böyük formatlı iyirmi səhifəlik qəzet lazımdır. Beyin isə uyğun mə`lumatları analoqsuz mikromaqnitofon kimi qoruyur və bu işdə orqanizmin ümumi enerjisindən istifadə edir. Bəli, eyni işi görmək üçün nəhəng zavodlara və çox böyük miqdarda enerjiyə ehtiyac vardır.

Uşağın ana döşündən süd əmməsi üçün onun beynindən dodaqlarına siqnal gəlir və o heç bir çətinlik çəkmədən qidalanmağa başlayır. Ananın orqanizmində isə qandan süd yaradan avtomatik bir zavod işləyir. Bu zavodda gedən texnoloji proseslər, hələ ki, elmi izahını tapmışdır. Zavodun hasil etdiyi məhsul ananın döş xəzinələrində toplanır. Döş giləsi körpənin ağzı ilə mütənasib ölçüdə olur. Bu glədəki mikro-deliklər yalnız uşaq əmdiyi zaman açılır. Uşaq ana bətnində formalaşdığı zamandan ana orqanizmində süd istehsalına başlanır. Belə ki, uşaq doğulan kimi misilsiz qidasını hazır görür. Uşaq böyüdükcə südün də keyfiyyətində dəyişikliklər baş verir.

Yuxarıda sadalanan gerçəkliklər Allahın hər şeyi bürümüş rəhmətinin əsrarəngiz nümunələrindəndir. Bu gerçəklikləri dərindən düşünən insan hökmən təşəkkür üçün Allah dərgahına üz tutmalı və yeni-yeni feyzlər əldə etmək üçün deməlidir: «Allahummə′ inni əs′əlukə birəhmətikəl-ləti vəsiət kullə şəy′.»

## *TƏNƏFFÜS ORQANLARı*

Ağ ciyər bir orta həyat dövründə təqribən 500 milyon dəfə nəfəs alıb-verilməsini tə`min edir. Tənəffüs sistemində yüz minlərlə vəzi yapışqanlı maye ixrac etməklə məşğuldur. Bu vəzilər müxtəlif zərrə və tozların orqanizmə daxil olmasının qarşısını alır. Əgər bu maye olmasaydı, həmin zərrələr qısa bir müddətdə nəfəs borularını tutardı. Tənəffüs borularındakı mikro-tükcüklər daxil olan havanı müxtəlif zərrələrdən təmizləyir. Bu tükcüklər bir saniyə ərzində on iki dəfə artıq zərrələri təmizləyib həzm sisteminə göndərir.

Bəli, tənəffüs sistemi çox kiçik olmasına baxmayaraq, olduqca böyük işlər görür. Bu orqanın fəaliyyətində Allahın rəhməti açıq-aşkar nəzərə çarpır.

## *DƏRI*

İnsan dərisində orqanizmin tənəffüs prosesində iştirak edən mikro-dəliklər mövcuddur. Bu dəliklərin tutulması ölümlə nəticələnə bilər.

Dəridə tər ifraz edən vəzilər mövcuddur. Bu vəzilər təri ifraz etməklə bədənin temperaturunu həmişə sabit saxlayır.

Dəridə mövcud olan yağ vəziləri tükləri və dərini yumşaq saxlamaqda xüsusi rol oynayır.

Dəri bədəni zərərli xarici tə`sirlərdən müdafiə edir, mikrob hücumlarının qarşısını alır.

Bədəndə yaranmış zəhərli maddələr məhz dəri vasitəsilə tər şəklində xaric edilir.

Bədəndə insan həyatı üçün zəruri olan bir çox mayelər məhz dəri vasitəsi ilə qorunur.

İsti-soyuğu, mexaniki tə`sirləri hiss edən üzvlər dəridə yerləşir.

Ey çətin dərdlərin dəvasın qılan,
Ey uzun yolları mənzilə salan,
Xidmətində qul tək dayanmışam mən,
Yerinə yetəcək hər an nə desən.
Vücudum önündə səcdəyə düşmüş,
Könlüm mələklərlə göydə görüşmüş.
Nə bəla göndərsən qəbuldur yenə
Təki qovmayasan özündən genə.
Eşqinlə dövr edir damarda qanım,
Döyünməz ürəyim sussa imanım.
İnan, xəyalındır yaşadan məni,
Sənsiz zəhər dadır ömrün hər dəmi.
Başsız bir bədəndir varlığım Sənsiz,
Sərsəm bir yolçuyam doğma vətənsiz.
Əlbət ki, bir zaman şirin vüsalın
Dəyişər ömrümün ruhun, camalın.
Nə dünya istərəm, nə də can, ey Yar!
Dünyam da, canım da eşq vardırsa, var!

## *BƏDƏNIN MÜDAFIƏ SISTEMI*

Allah-Taala insanı yaradarkən onun cismini qorumaq üçün beş müdafiə xətti qərar verdi:

1. Dəri insanın bədənini qala tək əhatə etmişdir.

2. Limfa vəzləri dərinin altında yerləşir və orqanizm üçün ikinci istehkam rolunu oynayır. İlk müdafiə xətti olan dərini keçən tə`sir limfa qatında müqavimətlə rastlaşır.

3. Selikli qişa pərdəsi orqanizmin bə`zi üzvlərini əhatə edir və həmin üzvlə eyni rəngdə olur. Məsələn, ürəyin iki selikli qişa pərdəsi var. Bu pərdələrdən biri ürəyi kənardan, digəri isə daxildən əhatə edir.

4. Mə`də turşusu bütün müdafiə xətlərini keçib mə`dəyə daxil olmuş mikrobu məhv edir.

5. Ağ qan kürəcikləri qana daxil olmuş mikroblarla mübarizə aparır və onları zərərsizləşdirir.

Bəli, bütün bu incəliklər, insanın kənar tə`sirlərdən həssaslıqla qorunması təsadüf deyil, "hər şeyi bürümüş rəhmətin" nümunəsidir.

## *BITKILƏR VƏ ONLARıN FAYDALARı*

Saysız-hesabsız bitkilər, bitki orqanizmlərindəki vitaminlər insan həyatının davamında müstəsna rol oynayır. Nəbatat aləminin əsl dəyəri yalnız Allaha mə`lumdur. Bitkilər də başqa mövcudlar kimi "kulli şəy''"ə , yə`ni duada zikr olunan "hər şeyə" aiddir. Deməli, nəbatat da ilahi rəhmətə bürünmüşdür.

Havanın tərkibində olan oksigen bütün canlı orqanizmlərin hərarətini qoruyan əsas amildir. Nəfəs alınan zaman oksigen ciyərə daxil olub qana qatılır. Qan tənzimləyən sistem bu oksigeni orqanizmin bütün nöqtələrinə çatdırır. Oksigen müxtəlif hüceyrələrdəki qidanı alışdıraraq həyat üçün zəruri olan enerjini istehsal edir. Bu prosesdə yaranan zəhərli karbon qazı qan vasitəsi ilə ağ ciyərə qaytarılır və tənəffüs yolu ilə havaya xaric olur.

Burada belə bir sual yaranır: bütün canlı orqanizmlər oksigeni qəbul edib karbon buraxmaqla məşğuldurlarsa, nə üçün atmosferdəki oksigen tükənmir – hər bir insan

sutka ərzində tənəffüs vasitəsilə 250q. xalis karbon xaric edir. Təsəvvür edin ki, altı milyard insan və bir o qədər də heyvan fasiləsiz olaraq havanı karbon qazı ilə zəhərləyir. Bəs bu zəhərli qazlar hara gedir?

Allah-Taala öz rəhməti sayəsində bu müşkülü asanlıqla həll etmişdir. O, insanın tənəffüs prosesinin tam ziddinə olan tənəffüsə malik nəbatat aləmini yaratmışdır. Bu aləm insan nəslinin əksinə olaraq tənəffüs zamanı karbonu qəbul edib, havaya oksigen qaytarır. Nəticədə havanın tərkibindəki oksigen-karbon nisbəti nizamlanır.

Bitkilər yarpaq vasitəsilə havadan karbonu qəbul edir. Bitki orqanizminin mühüm bir hissəsini karbon tutur. Bəli, ilahi rəhmət hər bir bitki yarpağını belə əhatə etmişdir. Bitkinin gövdəsi, budaqları, yarpaqları, qönçələri, çiçəkləri ilahi rəhmət ağuşundadır. Bunu görməyən kəs kor, bunu düşünməyən kəs cahildir. İnsan Allahın ona verdiyi əql vasitəsilə ətrafdakı bütün ne`mətlərdən öz ehtiyaclarını ödəmək üçün istifadə edir.

Bəsirət gözünü açıb nəzər sal,
Görünməyə’ni gör, eşq ilə kam al.
Döyünsə ürəyin eşq ilə bir an
Görərsən ki, dünya tamam gülüstan.
Aldanma çəp gözə’ yalanı çoxdur,
Həqiqi bildiyi çox şey nahaqdır.
Könül sevəsidir gözün gördüyün,
Göz də görəsidir könül dərdiyin.
Həqiqət gözündə miskinlər xaqan,

Xaqanlar qarınçün otlayan heyvan.
Gədalıq çarıqsız qalmaqla deyil,
Qəlbi boş insanlar gədadır əsil.
Torpaq altda qalmış fədailər var,
Qiyamət günündə məşhurdur onlar.
İşdir, nəzər salsan hər zərrədə sən
İbrətlər, mə`nalar, hikmət görərsən.
Zahirdə nə varsa rəngə bürünmüş,
Daxilinə baxsan ayələr enmiş.
Bəsirət gözüylə gördüyün nə var
Bir Allah haqqında sənə danışar.
Əlbət ki, rənglərə uyan hər insan
Sorğu səhnəsində olar peşiman.
Amma eşq odunda işıqlananlar
Görərlər bu canda nə səhnələr var.
Xaliqin varlığın dərk eləyən kəs
Ötəri dünyaya göstərməz həvəs.
Eşit bu qulağın eşitmədiyin,
İç gözünlə seyr et rəhmət ətəyin.
Haqqa gedən yollar könüldən keçir,
Eşq odunu yandır, bax göz nə seçir.
O birdir, qeyrisi fənaya məhkum,
Hər nə var uçası, olmasa Qəyyum.

## *VARLıQ ALƏMINDƏ HƏŞƏRAT VƏ HEYVANLARıN ROLU*

Müxtəlif həşəratların, quru və dəniz heyvanlarının, quşların və sürünənlərin nə qədər faydalı olduğu tam mə`nada yalnız Allah-Taalaya mə`lumdur. Bu vücudların həyatın davamına müsbət tə`sirinin əsas səbəbi onların hər birinə hakim olan ilahi rəhmətdir.

Təbiət aləmində bitki və ağacların tozlanması ilə məşğul olan həşəratlar vardır. Ağaclar da insanlar kimi iki cinsə malikdir. Əgər erkək və dişi ağaclar arasında tozlanma getməsə heç bir meyvə gözləməyə dəyməz. Uyğun tozlanma prosesini həyata keçirən həşəratlar mövcuddur. Bu kiçik varlıqlar öz işlərini böyük ustalıqla yerinə yetirirlər. Maraqlı nöqtələrdən biri budur ki, bu həşəratlar armudun tozunu alma tozu, almanın tozunu heyva tozu ilə görüşdürmür. Ağaclar da bu həşəratları öz çiçəklərinin şirəsi ilə mükafatlandırırlar.

İri və xırda buynuzlu heyvanların xüsusiyyətlərinə nəzər salaq. Təbiətşünas alimlər deyirlər ki, təbiətdə hər bir şey mövcudların ehtiyacı qədərincədir. Əksər məməlilərin döşü sinəsindədir. Süd yığılan döşlərin bu nahiyədə yerləşməsi balaların qidalanması üçün daha münasibdir. Amma inək və qoyunlarda döş elə yerləşmişdir ki, bu döşdəki südü insanlar da rahat sağa bilirlər. Əgər başqa məməlilərdə yalnız balaların ehtiyacı qədərində süd olursa, inək və qoyundakı süd insana da çatır. İnsanların təkamülü üçün zəruri olan südlə bu sayaq tə`minat Allah-Taalanın rəhmət və lütfünün təzahürü deyilmi?

Qoyunun bütün üzvləri insan üçün çox faydalıdır. Onun yunu, əti, südü daim insanın ixtiyarındadır. Allah-Taala öz qüdrəti ilə bir heyvanda neçə növ xeyir qoymuşdur.

Bal arısına nəzər salaq. Nəbatat alimləri bildirirlər ki, bütün çiçəklərdə yalnız günün müəyyən bir vaxtında üç saat müddətində şirə olur. Bə`zi çiçəklər sübh erkən,

bə`ziləri günorta, bə`ziləri isə günortadan sonra şirə verir. Bal arısı çiçəkləri çox yaxşı tanıyır. O hansı çiçəyin nə vaxt şirə verdiyini bildiyindən yalnız həmin vaxt çiçəyə yaxınlaşır. Bal arısı çiçəkdən çəkdiyi şirəni bütün dünya ne`mətlərinin fövqündə dayanan, çürüməyən bala çevirir. "Nəhl" surəsinin 69- cu ayəsində buyurulur: **"Onda insanlar üçün şəfa vardır."** Bal arısının əsrarəngiz həyatı haqqında cildlərlə kitablar yazılmışdır. Bəli, Allahın rəhməti "hər şeyi" bürümüşdür.

### *MISILSIZ HIDAYƏT NE`MƏTI*

Allah-Taala öz misilsiz rəhmət və lütfü ilə belə müəyyənləşdirmişdir ki, insanı müəyyən bir müddət dünyanın müəyyən bir guşəsində yerləşdirib onu təbiətin min bir ne`məti ilə bəhrələndirsin. Beləcə müxtəlif bitkilər, meyvələr onun ixtiyarına verildi, süfrəsi halal ətlərlə dada gəldi, yaşayışı zəruri vasitələrlə tə`min edildi. Bütün bu ne`mətlərin fövqündə insanı doğru yola yönəldən əql və düşüncə ne`məti durur. İnsan məhz əql yolu ilə Allah qarşısındakı vəzifələrini tanıyıb, bu vəzifələrə əməl edir. İnsan əql ne`məti vasitəsilə dünyanın müvəqqətiliyini anlayıb axirət həyatına üstünlük verir. İnsan bütün maddi və mə`nəvi ne`mətlər haqqında diqqətlə düşünə bilsə anlayar ki, Allahın «rəhimiyyə rəhməti» zahir və batini, qeyb və aşkarı, yeri və göyləri bürümüşdür. Hər bir ne`mət haqqında dərin mütaliədən sonra insan hiss edir ki, geniş ilahi məhəbbət ağuşundadır. Məhz bu zaman insan mə`rifət çırağının işığında imanın köməyi ilə dosta doğru hərəkətə başlayır. Eşq yoluna çıxmış

insan bütün varlığı, könlü, cismi ilə Allahın hüzurunu hiss edib, təvazökarlıqla ibadətə məşğul olur.

Deyirəm ki, paksan, yoxdur şərikin,
Getmərəm ardınca başqa məlikin.
Yalnız dərgahında gəzərəm işıq,
Tovhid sarayına Sənsən yaraşıq.
Kərimsən, Həkimsən, Rəhimsən Allah,
Böyüklərdən böyük, Əzimsən Allah.
Ehtiyacdan, dərddən-qəmdən uzaqsan,
Hər zaman, hər yerdə varsan, oyaqsan.
Acizdir vəsfində ən iti qələm,
Oxşarsız, misilsiz, yeganəsən Sən.
İzzət də cəlal da, yəqin də Səndə
Ruh olmasa, nə var bu boş bədəndə?!
Gizlini, aşkarı bilməz özgəsi,
Həmd edir içimdə ruhumun səsi.
Görməkdə bilməkdə yoxdur oxşarın,
Sənsən düzümçüsü bağlı məzarın.
Çarəsiz dil-dodaq sitayişində
Yol birdir dünyanın keşməkeşində.

İnsan doğru yol və ilahi hidayəti seçməklə vəzifəsinə və halal-harama əməl etməklə Qur`ani-Kərimin buyurduğuna əsasən, çox böyük bir mükafata, rəhmətə çatır və Behiştə nail olur.

## *İLAHI RƏHMƏT*

Əgər insan qəflət və azğınlıq səbəbindən günahlara yol vermişsə həqiqi tövbə yolu ilə bağışlanıb, ilahi rəhmətə qovuşa bilər. Əgər insan cümə axşamı

"Kumeyl" duasını oxuyub tövbə edərsə rəhmət yağışının nazil olduğu bu gecədə hökmən bağışlanar. "Zumər" surəsinin 53-cü ayəsində oxuyuruq: **"Ey özünə israfı rəva bilənlər, Allahın rəhmətindən mə`yus olmayın. Heç şübhəsiz, Allah bütün günahları bağışlayır. Doğrudan da O, bağışlayan və mehribandır."** Qur`ani-Kərimdə Allahın rəhmətindən danışan ilahi ifadələr çoxdur: **"O Allah bağışlayan və rəhimdir."**[26] "Allah Öz bəndələrinə qarşı mehribandır."[27] **"Allah sizi Öz icazəsi ilə Cənnətə bağışlanmağa çağırır."**[28] **"Həqiqətən Allah bağışlayan və həlimdir."**[29] **"Allah böyük mərhəmət, ne`mət sahibidir."**[30] **"Allah əfv edən və bağışlayandır."**[31] **"Allah tövbələri qəbul edən və bağışlayandır."**[32] **"Allah rəhimlilərin ən rəhimlisidir."**[33]**"Həqiqətən, sənin Rəbbin çox bağışlayandır."**[34] Bu ayələrə diqqətlə nəzər saldıqda mə`lum olur ki, Allaha üz tutub günahlara görə tövbə etmək vacib, Onun rəhmətindən ümidsizlik isə haram və böyük günahdır.

---

[26] "Бәгәрә", 173.
[27] "Бәгәрә", 207.
[28] "Бәгәрә", 221.
[29] "Бәгәрә", 235.
[30] "Бәгәрә", 105.
[31] "Ниса", 43.
[32] "Ниса", 16.
[33] "Јусиф", 64.
[34] "Нәчм", 32.

## *RƏHMƏT HAQQıNDA RƏVAYƏTLƏR*

Əbu Səid Xidri İslam Peyğəmbəri (s)-in belə buyurduğunu nəql edir: "Günahkar mö`minlər Cəhənnəmə aparıldığı zaman onlar Cəhənnəmdən çıxarılanadək Cəhənnəm odu onlara qarşı soyuyar. Bu zaman Allah-Taala mələklərinə buyurar: "Bunları Mənim fəzl və rəhmətimlə Behiştə aparın. Mənim mərhəmət və lütf dəryam sahilsiz, fəzl və ehsanım sonsuzdur."

Əhli-beyt (ə)-dan belə bir rəvayət nəql olunmuşdur: "Qiyamət günü Allah-Taala iman əhlini bir nöqtəyə toplayıb buyurar: "Mən sizin boynunuzda olan haqqımdan keçdim, siz də bir-birinizə olan haqqınızdan keçin ki, Behiştə daxil ola biləsiniz."

Başqa bir rəvayət də buyurulur: "Qiyamət günü gətirilən iman əhlinə belə buyurular: "Ey mənim bəndəm, ne`mətlərimə günahla cavab verdin, ne`mətlər artdıqca günahlarını artırdın." Bəndə xəcalətdən başını aşağı salar. Rəhmət dərgahından ona xitab olunar: "Ey mənim bəndəm, başını qaldır. Səni günah etdiyin vaxt bağışlamış, günahlarına əfv qələmi çəkmişdim."

Digər bir rəvayətdə oxuyuruq: "Bəndəni yaxın gətirərkən günahların çoxluğu səbəbindən başını aşağı salıb, xəcalətdən ağlayar. İzzət və rəhmət dərgahından xitab olunar ki: "O gün ki, günah edib gülərdin, səni utandırmadım. Bu gün ki, günah etməyə-etməyə xəcalət çəkib ağlayırsan, sənə necə əzab verim?! Günahlarını bağışladım, Cənnətə girməyin üçün icazə verdim!"

İslam Peyğəmbəri (s) buyurur: "Allahın rəhməti yüz qisimdir. Onlardan yalnız birini dünyada göstərib, bəndələri arasında paylayar. Rəhmətinin 99 qismini isə öz ehsan xəzinəsində saxlayaraq axirətdə üstünə bir qisim də əlavə edib bəndələrinə şamil edər."[35]

Mühəddislər rəisi Şeyx Səduqdan rəvayət olunmuşdur ki, Mə`sum İmamlar (ə) buyurur: "Qiyamət qurulan zaman Allahın geniş rəhməti elə cilvələnər və günahkarlar dəstə-dəstə bağışlanar ki, hətta qovulmuş şeytan da bağışlanmaq tamahına düşər."

"Biharul-ənvar"da (7-286) bir rəvayətdə buyurulur: "Mö`min bəndə qəbrə qoyulduqdan sonra qəbrin üstü torpaqlanar, dost-tanışlar onu tənha qoyub gedərlər. Allah-Taala lütf və rəhməti ilə xitab edər: "Ey Mənim bəndəm, bu qaranlıqda tək qaldın. Razılıqlarını qazanmaq üçün Mənə qarşı günah etdiyin kəslər səni tək qoyub getdilər. Bu gün öz rəhmətimlə sənə elə bir nəvaziş göstərərəm ki, xəlq olunmuşlar təəccüb edərlər." Sonra mələklərə xitab olunar: "Ey Mənim mələklərim! Bəndəm qərib, kimsəsiz, çarəsiz qalmışdır. İndi qəbirdə Mənim qonağımdır. Gedin ona kömək edin, onun üçün Behiştə qapı açın, ətirli bitkilər və təamlar hazırlayın. Sonra onu Mənim ixtiyarımda qoyun. Ona Qiyamət gününə qədər munis olacağam."

### *RƏHMƏT HAQQıNDA DASTANLAR*

Bir rəvayətdə buyurulur: "Qiyamət günü bəndə hesab yerinə gətirilər. Günahla dolu əməl naməsi onun sol

---

[35] "Мəhəччəтул-бəјза", 8-384.

əlinə verilər. Bəndə bu naməni əlinə alarkən adəti üzrə "bismillah" deyər. Allahın rəhmətinə ümidlə naməni açdıqda onu ağ görər və deyər ki, burada bir şey yazılmayıb. Mələklər cavab verərlər ki, bu kitabda günahların yazılmışdı, amma Allah-Taala öz rəhmətinə görə onları məhv etdi."[36]

## *İSA (Ə) VƏ GÜNAHKAR*

Eyni mənbədə belə bir rəvayət nəql olunur: "Bir gün İsa (ə) öz həvariləri ilə birlikdə yoldan ötərkən, həmin günah dolu dövrün fasiqlərindən biri onları görüb özünü danlamağa başladı:

Ya Rəbb, günah ərşə çıxır köçümdə
Ürəyim həsrətdən alov içində.
Əməl namənm qara, işlərim xarab,
Yalnız rəhmətindən gözlərəm cavab.

Bu günahkar şəxs şər içində keçirdiyi ömrünü yadına salıb, rastlaşdığı pak insanların məqamına qibtə etdi, düşündü ki, onun bu insanlarla yoldaş olmağa ləyaqəti yoxdur. Amma ümid etdi ki, onların ardınca bir neçə addım getməklə xeyir tapa bilər. Bu məqsədlə onların ardınca düşdü. Həvarilərdən biri məşhur bir günahkarın onları izlədiyini görüb Həzrət İsa (ə)-a dedi: "Ya Ruhullah! Bu qəlbi ölmüş çirkin şəxsdə bizimlə yol getmək ləyaqəti varmı? Nə qədər ki, onun günahından zərər görməmişik, qov getsin." İsa (ə) düşündü ki, bu şəxsə nə desin. Bu vaxt vəhy nazil oldu: "Ya Ruhullah!

[36] "Тəфсири-Фатиhəтул – Китаб", 74.

Özünü bəyənən dostuna de ki, müflisə həqarətlə baxdığı üçün bu günədək etdiyi bütün xeyir əməlləri onun əməl naməsindən pozduq. O günahkar fasiqə müjdə ver ki, hüzurumuzda çəkdiyi həsrət və peşmançılığa görə onun üçün qurtuluş qapısı açdıq.”

## *GÜNAHKAR CAVAN*

Molla Fəthullah Kaşani “Mənhəcus-sadiqin” təfsirində və Ayətullah Kəlbasi “Ənisül-ləyl” kitabında nəql edir:

Malik Dinarın dövründə günahkar bir cavan dünyasını dəyişdiyi vaxt camaat onun cənazəsini gətirib bir zibilliyə atdı.

Həmin gecə Malik Dinara yuxuda buyuruldu: “Bizim bəndəmizin bədəninə qüsl ver, onu kəfənə bürü və salehlərin qəbristanlığında dəfn et.” Malik soruşdu ki, «bu qədər günaha batmış insan necə bağışlana bildi?» Cavab verildi ki, «o, can verdiyi vaxt ağlar gözlə belə deyirdi: “Ey dünya və axirət sahibi, rəhm et o kəsə ki, nə dünyası var, nə axirəti.” (“ya mən ləhud-dünya vəl-axirətu irhəm mən ləysə ləhud-dünya vəl-axirətu”). Malik! Qapımıza gəlmiş hansı dərdliyə dəva qılmadıq?! Kim bizim dərgahımıza üz tutub nalə çəkdi və istədiyi qəbul olunmadı?!»[37]

## *QƏBUL OLMUŞ DUA*

Böyük alim Mənsur ibn Əmmar dövründə varlı bir şəxs günah məclisi qurmaq üçün öz quluna dörd dirhəm verib onu bazarlığa göndərdi. Qul yoldan

[37] “Әнисүл – ләјл”, 45.

ötərkən Mənsur ibn Əmmarın məclis keçirdiyini gördü. Söhbəti eşitmək üçün onlara yaxınlaşdı. Qul gördü ki, Mənsur miskin bir şəxsin əlindən tutub ətrafındakılara deyir: "Kim bu şəxsə dörd dirhəm sədəqə versə ona dörd dua edəcəyəm." Qul düşündü ki, əlindəki dörd dirhəmə pozğun bir məclis üçün təam və şərab almaqdansa, bu pulu fəqirə verib, Mənsurun duasına nail olmaq daha yaxşıdır. Beləcə dörd dirhəmi fəqirə verib, Mənsurdan və`d olunmuş duaları istədi. Mənsur soruşdu ki, hansı işlərinə dua edim? Qul dedi: "Əvvəla, dua et ki, Allah məni əsirlikdən azad etsin. İkincisi, ağama tövbə qismət etsin. Üçüncüsü, bu dörd dirhəmin əvəzi əlimə yetişsin. Dördüncüsü, mən və ağamın məclisindəkilər bağışlansınlar."

Dörd istəyinə dua etdirən qul boş əllə ağasının yanına qayıtdı. Ağa soruşdu ki, haradaydın? Qul cavab verdi ki -"dörd dirhəmə dörd dua almışam", və həmin duaları sadalamağa başladı. Ağa buyurdu: "Əvvəla səni azad etdim. İkincisi, günahlarımdan tövbə edirəm. Üçüncüsü, verdiyin dörd dirhəmin əvəzinə al bu dörd dirhəmi. Amma dördüncü duanın yerinə yetməsi, yə`ni mənim, sənin və məclis əhlinin bağışlanması mənim öhdəmdə deyil." Ağa yatıb yuxuda Cənab Haqq tərəfindən belə bir buyuruq eşitdi: «Ey bəndə sən öz fəqir halınla vəzifələrinə əməl etdinsə necə ola bilər ki, Biz sonsuz kərəmimizlə həmin istəyə əməl etməyək?! Biz səni, sənin qulunu və bütün məclis əhlini bağışladıq.»

## *ALLAHA DOĞRU*

Hikmətli bir şəxs yoldan keçərkən bir qrup insanın günahkar bir gənci məntəqədən çıxardığına və bir qadının kənardan baxıb ağladığına şahid olur. Həmin şəxs bu qadının kimliyini soruşur. Bildirirlər ki, bu qadın həmin günahkar gəncin anasıdır. O xahiş edir ki, günahkar gənci bu dəfə bağışlasınlar.

Bir müddət sonra həmin yerdən keçən hikmətli şəxs nalə səsi eşidir. Zənn edir ki, yəqin həmin oğlanı yenə də qovublar və anası ağlayır. Səs gələn qapını döyür və oğlu haqqında soruşur. Ana belə cavab verir: "Oğlum dünyasını dəyişdi. Can verdiyi zaman dedi ki, ana can, qonşuları çox incitmişəm, istəmirəm ki, mənim dəfnimdə iştirak etsinlər. Ölümümü onlara xəbər vermə. Məni özün dəfn et. Üzərində "bismillahir-rəhmanir-rəhim" yazılmış bu üzüyü mənimlə dəfn et. Qəbrimin yanında durub, Allahdan məni bağışlamasını istə... «Oğlumun bu vəsiyyətlərinə əməl etdim. Sonra mənə əyan oldu ki, oğlum belə deyir: "Ana can, narahat olma. Mən Kərim Allahın hüzurundayam.»[38]

## *TÖVBƏ ARDıNCA TÖVBƏ*

Əttar "Məntiqüt-təyr" kitabında belə rəvayət edir: Bir şəxs xeyli günah etdikdən sonra tövbə qılmağa müvəffəq olur. Amma nəfsinin istəkləri yenidən onu günaha sövq edir. Bununla belə Allahın yardımı ilə yenidən tövbə edir. Amma yenə də tövbəsini pozub günaha batır. Nəhayət, anlayır ki, günah içində keçirdiyi ömrünü başa vurmaqdadır. Lakin yenidən

---

[38] "Тәфсири-руһул-бәјан", 1-337.

tövbə etməyə üzü gəlmir. Tavada qovrulan buğda dənəsi tək yanıb-yaxılır. Xoşbəxt bir səhər çağı qulağına qeybdən səs gəlir: "Ey günahkar, mehriban Allah buyurur ki, sən təkrar-təkrar tövbələrini pozduğun zaman intiqam ala biləcəyim təqdirdə səni bağışlayıb möhlət verdim. Əgər yenə tövbə etmək istəyirsənsə yubanma. Bil ki, tövbəni qəbul edərəm."[39]

### *AZĞıNıN DUASıNA CAVAB*

Eyni mənbədə başqa bir rəvayətdə nəql olunur:

Bir gecə «Sidrətül-müntəha»da olan Ruhul-Əmin Allahın "ləbbeyk" nidasını eşidir. O, Allahın cavab verdiyi şəxsi tanımaq istəsə də göydə və yerdə bir kəsi tapa bilmir. Nə qədər axtarırsa, layiqli bir bəndə görə bilməyib, belə ərz edir: "İlahi! Məni cavab verdiyin bəndəyə yönəlt." Xitab olunur ki, Rum torpağına nəzər sal. İntizarda olan mələk nəzər salıb görür ki, bir bütpərəst öz bütünü çağırır. Ruhul-Əmin, yə`ni mələk Cəbrayıl (ə) gördüyü mənzərədən heyrətə gəlib Allaha ərz edir: "İlahi, qarşımdan hicabı qaldır. Necə ola bilər ki, bütü çağıran bütpərəstə cavab verirsən?" Xitab olunur: "Bəndəmin qəlbi qaraldığından doğru yolu itirib. Amma çağırışındakı səmimiyyət o qədər xoş oldu ki, ona "ləbbeyk"deyə cavab verdim. Bu cavab onun doğru yolu tapıb Mənə üz tutmasına səbəb oldu."

---

[39] "Әнисул – ләјл", 45.

## *BƏDBƏXTLƏR SIYAHıSıNDAN XOŞBƏXTLƏR SIYAHıSıNA KEÇƏN AD*

Məşhur irfan və elm kitabı olan "Təfsiri-Fatihətül-Kitab" əsərində belə bir rəvayət nəql olunur:

Bəni-İsrail tayfasında xalqdan kənarlaşıb tənhalığa çəkilmiş bir abid var idi. İbadətinə görə mələklər onu sevir, mələk Cəbrail (ə) onu ziyarət etmək istəyirdi. Bu ziyarət üçün icazə istəyən Cəbrail Allahdan belə bir cavab aldı: "Bax, gör Lövhi-Məhfuzda onun adı haradadır." Abidin adını bədbəxtlər siyahısında tapan Cəbrayıl heyrətə gəldi və belə ərz etdi: "İlahi, sənin hökmün qarşısında durmağa, bu təəccüblü işləri müşahidə etməyə güc yoxdur." Allah-Taala belə buyurdu: "Çoxdan onunla görüş arzusundasan. Get onunla görüş və gördüklərini ona de."

Cəbrail abidin ibadət yerinə endi. Abid zəif bir bədənlə ibadətə məşğul idi. Onun qəlbi ilahi məhəbbətdən alovlanır, ah-naləsi ərşə qalxırdı. Cəbrail ona salam verib dedi: "Ey abid! Lövhi-Məhfuzda adını bədbəxtlər səhifəsində görmüşəm, özünü artıq əziyyətə salma." Bu sözləri eşidən abidin çöhrəsi çiçək tək açıldı, dodaqlarına təbəssüm qondu və xoş bir dillə "Həmd olsun Allaha" dedi. Cəbrail heyrətə gəlib dedi: "Bu cür qara xəbəri eşidib "Əlhəmdulillah" deyirsən?! Bu şadlığın səbəbi nədir?" Abid belə cavab verdi: "Mən bəndəyəm, O isə ağadır, ağanın istəyi qarşısında bəndənin nə istəyi ola bilər? Qüdrət Onun əlindədir, hara istəsə oraya da aparar!"

Abidin sözlərini eşidən Cəbrail riqqətə gəlib öz məqamına qayıtdı. Buyuruldu ki, "Bax, gör Lövhi-

Məhfuzda nəqqaş nə nəqşələyib, rəssam necə rəng salıb."

**"Allah (həmin Kitabda) istədiyi şeyi məhv edər, istədiyini də sabit saxlayar."[40] "Allah istədiyini edər."[41]**

Cəbrail bu dəfə baxanda abidin adını xoşbəxtlər siyahısında gördü. O, heyrətə gəlib ərz etdi: "İlahi, bu nə mö`cüzədir?" Allah-Taala buyurdu: "Ey Əmin, abidi onu gözləyən pis aqibətdən xəbərdar etdiyin zaman peşman olmadı, səbir yolunu seçib, Mənim iradəmə razı oldu, "Əlhəmdulillah" dedi. Həmin "Əlhəmdulillah" xatirinə onun adını bədbəxtlər siyahısından xoşbəxtlər siyahısına keçirdim."

İlahi, rəhmətin sonsuz dəryadır
Kamala yetməyə damlası çatır.
Bütün günahları yusaq da onda
Bulanmaz, durular qısa zamanda.
Bir rəhmət damlası yuyar min qanı,
Bürüyər işığa bütün dünyanı.
Ya Rəbb, şər içində qovruluruq biz,
Yığılsa günahlar, yaranar dəniz.
Var ikən günahdan heçə dönmüşük,
Şər karvanda fani köçə dönmüşük.
Ümidimiz bircə rəhmətindədir,
Rəhm etmək istəsən - əlində nədir!

«Və bi quvvətikəl-ləti qəhərtə biha kullə şəy'»

---

[40] "Рə`д", 39.

[41] "Ибраһим", 27.

(«Səni vasitəsilə hər şeyə qalib gəldiyin qüvvənə and verirəm.»)

Allahın mübarək zatının eyni olan Onun qüdrət və qüvvəsi bitib-tükənməzdir. Bütün qüdrətlər bu qüdrətin qarşısında puçdur. Ümumiyyətlə hansısa bir müstəqil qüdrətdən danışmağa dəyməz. Bütün qüdrətlər ilahi qüdrətin şüalarıdır.

Əvvəlki araşdırmalardan aydın oldu ki, "kullə şəy`", yə`ni "hər şey" dedikdə Allah-Taalanın yaratdığı sayı-hesabı bilinməyən bütün məxluqlar nəzərdə tutulur. Əlbəttə ki, kainatda mövcud olan milyonlarla varlığın sayını, heyvanların, quşların, sürünənlərin, amöblərin, virusların, mikrobların, bitkilərin qədərini Allahdan başqa kimsə bilməz. Mehriban Allah öz qüdrəti ilə bütün bu şeylərə hakimdir və kimsə Onun qüdrət dairəsindən kənarda deyildir. Göy təbəqələri və onda olanlar, kəhkəşanlar və ulduzlar itaətkarlıqla Allahın göstərdiyi yollarda hərəkətdədirlər. Bütün bu mövcudlar orbitini itirməkdən, parçalanıb dağılmaqdan hifz olunmaq üçün Allahın qüdrətinə sığınırlar.

«Və xəzəə ləha kullu şəy` və zəllə ləha kullu şəy'»
(«Onun (qüvvəsinin) qarşısında hər şey baş əymiş və hər şey xar olmuşdur.»)

Allah-Taalanın qüdrət və qüvvəsi qarşısında qeybi mövcudlardan şuhudi mövcudlaradək, ən böyük varlıqlardan ən kiçik varlıqlaradək, əzəmətli

kəhkəşanlardan atomlaradək hər şey baş əyib xar olmuşdur. Onun hikmətli göstərişləri qarşısında hər şey itaətdədir. Heç bir varlıqda itaətsizlik və üsyan müşahidə edilmir.

Arifanə bir duada oxuyuruq: "Heç şübhəsiz, Sən o Allahsan ki, qüdrət və qüvvənlə hər şeyi zəlil etmisən. Sənin əzəmətin qarşısında hər şey boyun əymişdir. Sən istədiyin varlığa istədiyini edirsən. Hər şeyi yaradıb qüdrət əli ilə idarə edən müqəddəs zat Sənsən. Sən hər şeyin mövlasısan və hər şey Sənin qüdrətin qarşısında məğlubdur. Sən Əziz və Kərimsən."

Yerdə-göydə nə zərrə varsa, inan
Allah hüzurunda verir imtahan.
Küləyi gördünmü Ada (Ad tayfasına) neylədi,
Sular qalxdı, gedişatı əylədi.
Fir`onu qərq edən olmadımı su,
Torpaqda yarıldı Qaruna quyu.
Babildə gördünmü filin işini,
Nəmrudun başında çibin dişini?!
Üç yüzə bölünmüş Davud daşını,
Düşmənin al qana qəltan başını?!
Lut qövmünə göydən yağan kəsəyi,
Tük ürpədən səsdən çıxan bəbəyi?!
Elçilər söylədi sözün gözəlin,
Qoy öpsün şairlər onların əlin.
Kaş doğru deyimlər elə çoxalsın
Qırx dəvə bu yükü aparmaz olsun.

Bəli, Sənin rəhmətin hər şeyi bürümüş, sonsuz qüdrətin hər şeyi məğlub etmiş, mübarək vücudunun qarşısında hər şey zəlil olmuşdur. Cümə axşamı kimi bir vaxtda göz yaşları və səmimiyyətlə dua edən bəndəsinin duasını qəbul etmək Onun üçün çox-çox asandır. Göy və yer qoşunlarını səfərbər edib bəndəsinin dünya və axirət istəklərini yerinə yetirmək Onun üçün heç bir çətinlik törətmir. Çətin vaxtında Allahın qüdrətindən başqa qüdrət tanımayan bəndənin duası qəbul olunmaya bilərmi? Heç vaxt!

Hər zəif və gücsüz mövcud bizim istəyimizi yerinə yetirə bilməz. Yalnız geniş rəhmət və sonsuz qüdrətə malik Allah bütün bəşəriyyətin dualarını qəbul etmək gücündədir.

"Səhifeyi-Səccadiyyə"nin 13-cü duasında belə deyilir:

"Yaratdıqlarını ehtiyaclı etmisən. Onlar da "nə üçün, niyə"siz Sənə möhtacdırlar. Öz həyat müşküllərinin həllini Səndən istəyən insan doğru yoldadır. Amma istəklərinə çatmaq üçün özü kimi yaranmışlara üz tutan şəxs Sənin ehsanından məhrum olasıdır.

Böyük bir şövqlə Sənə üz tutub, yəqinliklə ümidimi Sənə bağlamışam. Bilirəm ki, nə qədər böyük şey istəsəm də bu şey Sənin dəryanda damla da deyil. Sənin qüdrətin qarşısında bütün istəklər çox-çox kiçikdir. Sənin rəhmət və qüdrət dairən bütün istəkləri əhatə edir.

Sənin rəhmət və qüdrətin sayəsində imkansız görünən işlər gerçəkləşir. Heç kəs Səndən kənarda müstəqil ola bilmir, alnına yazılmış möhtaclıqda xar olur."

Nəhayətsiz qüdrət qarşısında insanın öz qüdrətindən danışıb "mənəm-mənəm" deməsi layiqli iş deyil. Bir ovuc torpaqdan, bir üfürümlük ruhdan ibarət olan varlıq hansı əsasla qürrələnə bilər?! Ən kiçik hacətləri qavramaqda aciz olan ağıl sahibi hər şeyi əhatə etmiş rəhmət sahibi Rəbbinə qarşı təkəbbür göstərməkdə yanılır. İnsanın bu sayaq özünə güvənməsi onu rəhmət ehsanından məhrum edir, nəhayət, əbədi əzaba qovuşdurur.

«Və bi cəbərutikəl-ləti ğələbtə biha kullə şəy`»
(«Səni vasitəsi ilə hər şeyə qələbə çaldığın cəbərətuna and verirəm»)

"Cəbərut" lüğət baxımından mübaliğə siğəsində yə`ni şiddətli mə`nadadır. "Cəbərut" dedikdə ehtiyacların və nöqsanların ali həddə tə`mini və bərpası başa düşülür. Bütün mövcudlar ilkin yaranış mərhələsində nöqsanlıdır. Bütün bu nöqsanlar cəbərut vasitəsilə tamlaşır, kamilləşir.

## *MEHRIBAN ALLAH NÖQSANLARı ARADAN QALDıRıR*

Allah-Taala tərəfindən nöqsanların aradan qaldırılması diqqət nəticəsində mümkün olur. Elmi kitablardan imanımızı gücləndirəcək bə`zi nümunələrə nəzər salaq:

## *GÜNƏŞ ENERJISININ BƏRPASı*

Yerin enerjiyə olan ehtiyacının əsas tə`minatçısı Günəş varlıq aləminin kiçik bir nöqtəsidir. O, olduqca böyük

istiliyə malikdir. Günəşin səthində 6093º c. istilik mövcuddur. O, hər saniyədə fəzaya 12 400 000 t. enerji buraxır. Günəşin bir dəqiqədə buraxdığı enerji 679x10(15) t. daş kömürün yanmasından ayrılan enerjiyə bərabərdir. Maraqlıdır ki, bu qədər enerji ayıran mənbə kənardan qidalanmadığı halda nə üçün sönmür? Əgər Günəş xalis daş kömürdən hazırlanmış olsaydı, hər dəqiqə enerjisi azalmaqla 60 əsrə sönərdi.

Bu suala yalnız Allahın "Cəbərut" sifətinin köməyi ilə cavab vermək olar. Allah-Taala Günəşi böyük qaz kütləsindən yaratmışdır. Bu qaz kütləsində buraxdığı enerjini geriyə qaytarmaq xüsusiyyəti vardır. Bu nəticə məşhur dünya fiziklərinin uzun-uzadı zəhmətləri nəticəsində əldə edilmişdir. Bəli, Rəbbimiz əşyanın itirdiyi enerjini müxtəlif vasitələrlə "cübran" edir, yə`ni onun özünə qaytarır. Bu, Allahın "cəbərut" sifətidir.

## *XƏZƏR DƏNIZINDƏ QABARıB-ÇƏKILMƏNIN ƏVƏZI*

Xəzər dənizinin səviyyəsi azad dəniz səviyyəsindən 27.6 m. aşağıdır və onun dünya sularına çıxışı yoxdur. Bu səbəbdən də okean qabarıb-çəkilmələri ilə Xəzər arasında əlaqə müşahidə edilmir. Xəzər dənizi kiçik olduğundan Ayın cazibə qüvvəsi ona bir o qədər də tə`sir göstərmir. Əslində bu tə`sirdən kənarda qaldığı üçün Xəzərin suları bulaşmalı və o, ölü dənizə çevrilməlidir. Bəs nə üçün Xəzərdə canlılar yaşayır?

Bu dənizi yaradan Rəbbimiz onun nöqsanlarını da müəyyən vasitələrlə aradan qaldırmışdır. Bulanmanın qarşısını almaq, dənizin sularını hərəkətə gətirmək üçün "xəzri" və "gilavar" adlı küləklər fəaliyyət göstərir. Bu

küləklər vasitəsilə buludlar dənizin şimalından cənubuna doğru qovulur. Nəticədə sahil ərazidə yağan yağışlar canlı təbiəti oyadır. Lilli, ölü sular Ənzəli sahillərində "dirilmə" prosesindən keçir. Gilan çaylarının gətirdiyi toxumlar bu sulara qatılır və cücərir. Amma bu gölməçə min ildir ki, qurumur. Nə üçün? Çünki, dənizin bu hissəsində sel suları fəaliyyət göstərir. Eləcə də dənizin şor suyu bitki toxumlarının ifrat cücərməsinin qarşısını alır. Buludları cənuba qovan "xəzri" külək sakitləşən kimi "gilavar" küləklər hərəkətə başlayır. Bu küləklər gil dolu sahilyanı gölməçələrin gilini dənizə govub onu durulaşdırır.

### *MEYVƏ TOXUMU QıTLıĞıNıN ƏVƏZI*

Meyvə toxumları nə qədər ki, əkilməyib, nə qədər ki, Allah-Taala onların cücərməsi üçün mövcud maneələri aradan qaldırmayıb, onlar cücərə bilmir.

Qarşımızdakı alma ağacı nə vaxtsa kiçik, cansız bir toxum formasında idi. Bu toxum nə qədər ki, torpağa əkilib, hava, işıq, su və istilikdən faydalanmamışdı, ölü halında qalmışdı. Amma bir gün Allahın iradəsi ilə maneələr aradan qaldırıldı və kiçik toxum qollu-budaqlı ağaca çevrilib, öz dadlı meyvələrini insanların ixtiyarına verdi. Allahın «cəbərut» sifətilə daha dərindən tanış olmaq üçün bə`zi nöqtələrə nəzər salaq. Almanın tərkibində olanlar: protein və amin turşuları, yod və kalsium kimi mə`dən maddələri, nişasta və şəkər, yağlar, boyalar, vitaminlər və 84% su. Diqqət edin Yaradanın qüdrətinə!

Daşa bir e`tibar verər ki, bu daş

Tacları bəzəyər, bil, yavaş-yavaş.
Torpağı qaldırar elə hörmətə
Çəkərlər gözə ki, gələ qüdrətə.
Dərədə cücərmiş ən görkəmsiz ot
Yuxusuza layla çalıb deyər "yat".
Hər bitki bir dərdə çarədir inan,
Heyif ki, diqqətsiz yaşayır insan.
Yalın ayağını çalan tikanda
Şəfa var, tə`siri qısa zamanda.
Dərd varsa, dərmanın verənimiz var,
Ehsan süfrəsini sərənimiz var.
Ehtiyacı olan baxsa dörd yana
İnan, axtardığın tapar bir ana.
Ne`mət yağışını yağdıran o kəs
Həqiqi aşiqə verəsidir səs.
Bir kimsə lütfünə qovuşa bilsə
Qiyamətdə geyər nurdan əlbisə.
Kimsənin könlünə salmasa işıq,
Şübhəsiz, işləri düşər dolaşıq.

«Və biizzətikəl-ləti la yəqumu ləha şəy`»
(«Səni and verirəm qarşısında bir şeyin dura bilməyəcəyi izzətinə»)

Hər şeyi qüdrəti ilə yaradıb rəhmətinə bürümüş, bütün çatışmazlıq və nöqsanları cəbərut sifəti ilə aradan qaldırmış müqəddəs vücud qarşısında nə dayana bilər?! Tərkibi yer və göydən götürülmüş bütün mövcudlar yerlə göy arasında qərar tutmuşdur. Onların varlığı qadir Yaradanın varlığının olduqca cüz`i bir

nümayişidir. Bu cüz`i yaranmış Yaradanın əzəli və əbədi, sonsuz qüvvəsi qarşısında necə dura bilər?!

"İzzət" güc və qüdrət mə`nasındadır. Bütün mövcudlarda bu izzətin şüası vardır. Bir zərrə qığılcım hara, əzəli və əbədi nur mənbəyi hara! Bəli, "bütün izzətlər Ondandır" ("Fatir", 10). Hər kəsə layiq olduğu qədər verilir. Layiq olmayanlar isə bu izzətdən məhrum edilir. Demək, Onun qarşısında heç bir müstəqil izzət, qüdrət yoxdur. İlahi izzət qarşısında isə kimsə tab gətirə bilməz. O, sarsılmayan qüvvə' məğlub olmayan qalibdir.

«Və biəzəmətikəl-ləti mələət kullə şəy`»
(«Səni hər şeyi doldurmuş əzəmətinə and verirəm»)

### *FAILIN ÖZ FE`LI ILƏ TANıNMASı (İŞ GÖRƏNIN ÖZ IŞI ILƏ TANıNMASı)*

Aydın məsələdir ki, hər bir fe`l, yə`ni iş öz faili, yə`ni bu işi görən haqqında müəyyən mə`lumatlar verir. Yüz on təbəqədən ibarət olan göydələn (bina) asiman, sözsüz ki, öz yaradıcısının əzəmətindən danışır.

"Əsfar" və digər məşhur kitabların müəllifi olan Sədrül Mütəəllihinin şəxsiyyəti və ali düşüncəsi onun kitablarından bəlli olur. Əlbəttə ki, bu gün dünyamızın gecələrini işıqlandıran elektrik enerjisi bu enerjinin ixtiraçısının dərin düşüncəyə malik olduğunu təsdiq edir.

Biz çox-çox məhdud və kiçik varlıq olduğumuzdan Allahın əzəmətini bir o qədər də dərk edə bilmirik. Amma varlıq aləminə diqqət etməklə bu əzəmətin cilvələri aydın olur.

## *MÜXTƏLIF CAHANLARıN YARANıŞı*

Müxtəlif mö`təbər mənbələrdə eləcə də Səduqun "Xisal" kitabının 2-ci cildinin 639-cu səhifəsində İmam Sadiq (ə)-dan belə bir rəvayət nəql olunur: "Allah-Taalanın 12 min aləmi vardır. Onların hər biri yeddi qat göy və yerdən daha böyükdür. Bu aləmlər bir-birinin varlığından xəbərsizdirlər."

Müasir astronomlar deyirlər: "Varlıq aləmi minlərlə aləmdən təşkil olunmuşdur. Onların hər birinin səması və yeri bizim səmamız və yerimizdən böyükdür." Müxtəlif mənbələrdə mövcud aləmlərin sayı bildirilsə də əslində bu aləmlər sonsuzdur.

## *GÜNƏŞ SISTEMI*

Seyyid Ne`mətullah Cəzairi Həzrət Peyğəmbər (s)-dən belə bir rəvayət nəql edir: "Allah-Taala 100 min qəndil, yə`ni işıq mənbəyi xəlq edib Ərşdə yerləşdirmişdir. Başımız üstəki səma və ayağımız altındakı yer, yerlə göy arasında olanlar, hətta Behişt və Cəhənnəm arasında olanlar bir qəndilə yerləşmişdir. Digər qəndillərdə də nə olduğu yalnız Allaha mə`lumdur." Əllamə Şəhristani bildirir ki, qəndil ilə Günəş sistemi arasında bir sıra oxşarlıqlar vardır. İstər qəndil, istərsə də Günəş sistemi yumurta formasındadır. Qəndil lətif bir cism olub işığı mərkəzdən ətrafa yaydığı kimi, Günəş sistemində də işıq mərkəzdə dayanmış Günəşdən ətrafa yayılır. Qəndil havadan asıldığı kimi, Günəş sistemi də fəzada asılmışdır. İstər qəndil, istərsə də Günəş sisteminin işıqlanmasını tə`min edən nöqtə həqiqi mərkəzdə yerləşmir.

Uyğun oxşarlıqlardan aydın olur ki, yuxarıda zikr olunmuş rəvayət qədim fəlsəfə ilə təzad təşkil edir. Eləcə də sübut olunur ki, Günəş sistemindən də əlavə minlərlə ulduz sistemləri vardır.

### *HƏR BIRI BIR GÜNƏŞ OLAN SAYSıZ-HESABSıZ ULDUZLAR*

İyirminci əsrin əvvəllərində mə`lum oldu ki, yalnız bizim kəhkəşanda 30 milyondan çox ulduz görünür. Böyük heyrətlə qarşılanan bu mə`lumat dövrümüzün elmi nailiyyətləri tərəfindən bir daha təsdiqləndi və sübut olundu ki, yalnız bizim kəhkəşanda 10(4) milyon ulduz mövcuddur.

Adi gözlə gecələr müşahidə zamanı ulduzlar aləmi bir o qədər də əzəmətli görünmür. Amma böyük optik cihazlarla, məsələn, "Vilson"dağ rəsədxanasının müşahidə borusu ilə kəhkəşana nəzər salsaq, ulduzlar aləminin əzəmətinə heyran qalarıq.

Bizim kəhkəşandakı ulduzlar bir-birlərinin ardınca elə düzülmüşdür ki, onları dəqiq saymaq qeyri-mümkündür. 10 (4) rəqəmi də təxminlərə əsaslanır. Bu ulduzlar arasında bizim Günəşdən 10 milyon dəfə böyük ulduzlar mövcuddur. Kainatda milyonlarla kəhkəşanlar vardır və bu kəhkəşanlar arasındakı məsafə iki milyon işıq ilinə çatır. Bu gün dünyanın ən güclü müşahidə borusu ABŞ-ın Polumer rəsədxanasındadır. Bu optik cihaz $10^3$ milyon işıq ili məsafəsində yerləşmiş kəhkəşanları müşahidə etməyə imkan verir. Günəş sisteminin daxil olduğu kəhkəşan Günəşdən 165x $10^3$ milyon dəfə ağır çəkiyə malikdir. Bütün varlıq aləminə səpələnmiş bu əzəmətli cisimləri

nəhayətsiz boşluqlar əhatə edir. Bizimlə ən yaxın ulduz arasındakı məsafə 40x10 (6) milyon kilometrdir. Varlıq aləmindəki kəhkəşanların əzəmətini dərk edə bilməyən insan Allahın sonsuz əzəmətini dərk edə bilərmi? Bu əzəmətli aləm Allah-Taalanın fe`li, sənəti, işidir. Uyğun əzəmət, qismən də olsa, öz yaradıcısından danışır. "Allah vəsf olunası hər şeydən böyükdür."[42] Bəli, ən güclü vəsf edənlər Onun vəsfində aciz, ən bəlağətli dillər Onun tərifində lal, ən iti düşüncələr Onun əzəmətini dərk etməkdə gücsüzdür.

Haqqında soruşan olarsa əgər,
Kimsə yetərli söz çətin ki deyər.
Həqiqət budur ki, eşqi şirindir,
Hər kəsə boy verməz, çünki dərindir.

"Və bisultanikəl-ləzi əla kullə şəy`"
("Səni hər şeydən üstün səltənətinə and verirəm")

Ötən söhbətlərdə qismən də olsa, varlıq aləminin əzəməti mövzusuna toxunuldu. O əzəmətli hakim, heç şübhəsiz, dünya və dünya əhlinin zahir və batinindən çox-çox ucadır. Onun qüdrəti hər şeyin fövqündədir və hər şey Onun səltənətində O Sultan qarşısında müt`idir.

Bu dünyada Allaha müt`i olanların müt`iliyi əslində Allahın hədiyyəsidir. Ləyaqətini itirənlər bu hədiyyədən məhrum edilirlər. Hər bir insan öz itaətini ilahi mənbədən bilməlidir. Ədalət və ehsan dairəsindən çıxan insan zalımlar zümrəsinə daxil olur. Qur`an

---

[42] "Кафи",1-118.

ayələrindən, eləcə də tarixi təcrübədən aydın olur ki, heç kim Allahın intiqamından qaçmaq iqtidarında deyil. Müqavimət göstərmək istəyən əbədi əzaba düçar olur.

O, səmadan enən və torpaqdan qaynayıb çıxan suya əmr edir ki, tufan halına gəlsin və Nuha qarşı çıxanları həlak etsin. Onun əmri ilə külək üsyankar Ad qövmünü qurumuş ot tək kökündən qoparıb göyə sovurdu. Onun buyruğu ilə Nil çayı zalım Fir`onu azğın qövmü ilə birlikdə Cəhənnəmə yola saldı.

"Və bivəchikəl-baqi bə`də fənai kulli şəy`"

("Səni hər şey fəna olduqdan sonra qalacaq zatına and verirəm")

Onun müqəddəs zatı varlığın eynidir. O, əzəli və əbədidir. O, həmişə və daim olmuş və vardır. Onunla yanaşı heç nə olmamış və yoxdur. Hər şeydən ehtiyacsız olduğu halda öz iradəsi ilə hər şeyi yaratmışdır. Hər şeyin ömrü bitər, O isə daimidir. Varlıq aləmində Ondan başqa müstəqil varlıq yoxdur və bütün digər varlıqlar Ondan nəfəs alır. Ondan savayı hər şey fəna olasıdır. Fəna naqislik, əbədiyyət isə kamal sifətidir. Mütləq kamal üçün mütləq əbədiyyət, bəqa lazımdır. Fəna isə bütün yaranmışların alnına vurulmuş möhürdür.

"Və biəsmaikəl-ləti mələət ərkanə kulli şəy`"

(“Səni hər şeyin sütunlarını doldurmuş adlarına and verirəm”)

“Əsma” dedikdə bir neçə hərfdən ibarət olan adlar yox, bu adların həqiqəti, məfhumu nəzərdə tutulur. Bəli, həqiqi rəhmət, lütf, elm, ədalət, qüdrət hər şeyin əsasını doldurmuşdur. Başqa sözlə varlıq aləmindəki bütün mövcudlar Allah-Taalanın sifətlərinin, adlarının cilvəsidir. Mövcudlar bu həqiqətlərlə vücuda gəlmiş və bu həqiqətlərin sayəsində həyat tapmışlar. Bu həqiqətlərə diqqət yetirdikdə aydın olur ki, “kulli şəy`”, yə`ni “hər şeyin” taleyində tə`sirli olan sadəcə söz yox, bu sözün mahiyyətini təşkil edən həqiqi adlar və sifətlərdir. Həqiqi adlar varlıq aləmindəki həqiqətlərin araşdırılmasında vasitədir. Mə`sumlardan nəql olunmuş bir duada oxuyuruq:

“Pərvərdigara, Səni böyük adına and verib istəyirəm. O daha böyük, daha əziz, daha dəyərli adına ki, Sən bu adla çağrıldığın zaman bağlı qapılar rəhmətinlə açılar, müşküllər həll olar, ölülər dirilər, ehtiyac və pərişanlıq aradan qalxar...”

Sadalanmış işlər araşdırıldığı zaman aydın olur ki, məqsəd “qüdrət” kəlməsi yox, bu kəlmənin arxasında durmuş həqiqətdir. “Hər şeyin “əsasını dolduran adlar Qur`an və rəvayətlərdə “adlar” kimi zikr olunmuş həqiqətlərdir.

Bu adlar bütün mövcudlardan seçilən, Allah və insanlar arasında Qiyamət gününədək vasitə olan Mə`sum İmamlarda təzahür edir. Rəhmət, hidayət, lütf, kərəm, bağışlama kimi sifətlər məhz bu Mə`sumlar

vasitəsi ilə xalqa aydın olur. İnsanların yaxşı əməlləri bu Mə`sumların mə`rifət və vilayəti sayəsində qəbula yetişir.

Böyük rəbbani alim Feyz Kaşani "Safi" təfsirində İmam Sadiq (ə)-dan belə bir rəvayət nəql edir: "And olsun Allaha, Onun gözəl adları bizik. İnsanların əməlləri yalnız bizi, bizim vilayət və məqamımızı tanımaqla qəbul olunar."

Deməк, yalnız sözə diqqət etməklə heç bir həqiqətə çatmaq olmaz. Hərf və söz dairəsindən çıxıb, varlıq aləmində cilvəsi müşahidə edilən həqiqi adlara bağlanmaq lazımdır. "Səni and verirəm o adının haqqına ki, onun vasitəsi ilə ərşi yaratdın, kürsünü vücuda gətirdin, ruha varlıq verdin."

"Və biilmikəl-ləzi əhatə bikulli şəy`"

("Səni hər şeyi əhatə etmiş elminə and verib istəyirəm...")

Allah-Taalanın bütün mövcudların zahir və batinini əhatə etmiş «fe`li» və «hüzuri» elmindən milyardlarla bir iynə ucunda yerləşən atom da məxfi deyil. Torpaqda gizlənmiş buğda dənəsi, bir-birini qovan qar dənələri, bütün digər mikro-zərrəciklər Allahın elm dairəsindədirlər. "Ali-İmran" surəsinin 29-cu ayəsində oxuyuruq: **"Göylərdə və yerdə olanı bilir;"** "Ən`am" surəsinin 59-cu ayəsində isə belə buyurulur: **"Quruda və dənizdə olanı bilir. Ondan xəbərsiz bir yarpaq belə düşməz"**. Daha iki ayəyə nəzər salaq: **"Allah sizin**

**gizlin və aşkar işlərinizi bilir."**[43] **"Yerə batanı və yerdən çıxanı, səmadan enəni və səmaya qalxanı bilir. O, mehriban və bağışlayandır"**[44]

Bu günədək zooloqlar 700 minədək həşərat növü qeydə almışlar. Bu həşəratların ümumi sayını hesablamaq qeyri-mümkündür. İsti yay günündə havada və torpaqda olan kiçik canlıların sayı sonsuzdur. Bir təpənin qoynunda, çatlarında olan həşəratlar bir materikdəki insanlardan çoxdur.

"Və binuri vəchikəl-ləzi əzaə ləhu kullu şəy`"

("Səni hər şeyi işıqlandırmış zatının nuruna and verib istəyirəm...)

Qur`ani-Kərim və rəvayətlərdə kamillik və insani dəyərlər nur adlandırılmışdır. Nur hidayət, yə`ni imana doğru hərəkət üçün yardım deməkdir. İslam, mə`rifət, elm, Qur`an – hər biri nurdur. "Maidə" surəsinin 15-ci ayəsində buyurulur: "Sizin üçün Allah tərəfindən nur və aydın bir kitab gəlmişdir". Nur ilahi hökmlər, əxlaqi məsələlər, e`tiqadi həqiqətlərdir. "Maidə" surəsinin 44-cü ayəsində oxuyuruq: **"Biz hidayət və nur olan Tövratı nazil etdik".**

Bütün bu mə`nalara diqqət etdikdən sonra deyə bilərik ki, nur Allah-Taalanın sifət və adlarıdır. Hər bir məxluq öz iste`dadı həddində bu nurdan faydalanır və zülmətdən işığa hərəkət edir. İste`dadlı insan bu nurun sayəsində zülmdən, küfrdən xilas olub ədalət və iman

---

[43] "Нəhл", 19.

[44] "Сəбa", 2.

yoluna qədəm qoyur. Ayə və rəvayətlərdən belə görünür ki, "nuri vəch" "Covşən kəbir" duasında min dəfədən artıq təkrarlanmış həqiqət və kamilliklərə işarədir. Bəs nə üçün "nur" kəlməsi tək haldadır? Çünki ali sifətlər və gözəl adlar ilahi zatın özü, eynidir. Elm, hikmət, ədalət, rəhmət və sair sifətlər müqəddəs zatı təşkil edir. "Nur" kəlməsinin "hidayət" mə`nasında tez-tez işlənməsini nəzərə alaraq bu duanın mə'nası bəlkə də belədir:

"Pərvərdigara! Səni bütün mövcudların doğru yol tutmasına səbəb olmuş hidayətinə and verib, Səndən istəyirəm." Hər halda, "Nur" kəlməsində bütün ilahi mə`nalar vardır.

"Ya nuru, ya quddusu, ya əvvələl-əvəlinə və ya axirəl-axirinə"

("Ey nur, ey hər eybdən pak, ey əvvəllərin əvvəli və ey axırların axırı")

Ey kamilliklərin tamı, ey mütləq zühur, ey aşkar, ey zahir! Ərəfə günü Ərəfat səhrasında "mətləil-fəcr" nurun, xalis bəndən Həzrət Hüseyn (ə) Sənin dərgahına belə ərz etdi: "Başqası üçün elə bir zühur varmı ki, Sənin üçün olmasın və həmin başqası Sənin zühuruna vasitə olsun?! Nə vaxt gizli olmusan ki, varlığına dəlil axtarıla və nə vaxt uzaq olmusan ki, Sənə yaxınlaşmaq üçün vasitələr tapıla?!"[45]

"Pərvərdigara! O zaman ki, özümə gəlib diqqətlə baxıram, görürəm cəlal və camalın varlıq aləmində

---

[45] "Биһарул-әнвар", 95-226.

aşkardır. Müqəddəs vücudunda məxfilik yoxdur ki, əlimə çıraq götürüb dərgahını axtaram. Tutduğum yolun həqiqi olduğuna bir dəlil tapanda görürəm ki, bu dəlilləri də Sən yaratmısan."

İnsan puç xəyallardan ayılıb azca düşündükdə anlayır ki, Allah-Taalanın varlığı hər zaman aşkardır və onun varlığına tapılan dəlilləri də özü yaratmışdır. Ey bütün eyblərdən pak, ey bütün vəsflərdən uca, ey nur, ey başlanğıcların başlanğıcı, ey nəhayətlərin nəhayəti! Sən özün əzəli olaraq hər şeyə başlanğıc vermiş və hər şey məhv olduqdan sonra əbədi qalasısan!

Başlanğıc və son, yaranmışlara aid olan sifətlərdir. Əvvəl və axır, yaranmış üçün qaçılmaz bir həqiqətdir. Başlanğıc odur ki, bir zaman olmayanları Allah var etdi. Axır odur ki, bütün yaranmışlar nə zamansa fəna olasıdır. "Ey əvvəllərin əvvəli və ey axırların axırı"

"Allahumməğfirliyəz-zunubəl-ləti təhtikul-isəm"

("Allahım,bağışla o günahlarımı ki, əzabların qarşısını almış pərdələri aradan qaldırar")

Günah nədir? Allahın, peyğəmbərlərin və imamların göstərişlərinə zidd olan hər bir hərəkət, iş, söz günah hesab olunur. Bə`zi günahlar o qədər ağırdır ki, günahkar şəxs Allah və peyğəmbərlərlə savaşa qalxmış hesab olunur.[46] Dünyada baş vermiş hər hansı bir günah Qiyamət günü insanın yaxasından yapışmış oda çevriləcək. "Nisa" surəsinin 10-cu ayəsində buyurulur: **"Şübhəsiz ki, yetimlərin malını zorla yeyənlər**

---

[46] "Бəгəрə", 279.

**qarınlarına od doldururlar".** Günah Allah-Taalanın süfrəsində duz yeyib, min bir ne`mətdən istifadə edib, duzqabını sındırmaqdır. Tarix boyu duz-çörəyi itirmək insafsızlıq hesab olunmuşdur.

## *SÜFRƏ SAHIBINƏ HÖRMƏT*

Yə`qub Ləys Sistanın görkəmli şəxsiyyətlərindən olmuş və qaniçən Abbasi hökumətinə qarşı inqilabın bünövrəsini qoymuşdur. Gənclikdə bir müddət misgərliklə məşğul olan Yə`qub qazancını tay-tuşlarına xərcləyərdi. O, səxavətli, azad düşüncəli olduğundan ətrafına xeyli gənc toplaşmışdı.

Az sonra misgərliyin daşını atan Yə`qub nəhayət, Sistan əmirinin xəzinəsini yarmaq qərarına gəlir. Xəzinə güclü mühafizə dəstələri tərəfindən qorunduğu üçün Yə`qub dostları ilə birlikdə yerin altı ilə lağım atmağa başlayır. Bu tunelin qazılması altı ay vaxt aparır. Nəhayət, bir gecə xəzinəyə yol açılır. Xəzinədə olan bütün lə`l-cəvahirat, dinar-dirhəm, qızıl-gümüş kisələrə doldurulur. Yə`qub xəzinədə öz parlaqlığı ilə diqqəti cəlb edən bir daş görür. O, daşı tanımaq üçün dilinə toxundurur. Yə`qub dilinə gələn daddan hiss edir ki, bu parlaq şey duz parçasıdır. Dostlarına əmr edir ki, bütün yüklər boşaldılsın və hamı xəzinədən çıxsın. Bütün gənclər müt`i halda xəzinəni tərk edirlər. Yə`qub deyir: "Dilimə Sistan əmirinin duzu dəydi. Bir insanın duzunu daddıqdan sonra onun xəzinəsini yarmaq namərdlikdir!"

Xəzinədar xəzinədə baş vermiş təəccüblü hadisəni əmirə xəbər verdikdən sonra əmir şəhərdə car çəkdirir

ki, bu işi görmüş adam onun yanına gələrsə mükafat alacaq.

Yə`qub tərəddüd etmədən əmirin yanına gedir və bu təəccüblü işin arxasında dayanan duz məsələsini ona aydınlaşdırır. Əmir bu şücaətli cavanı öz qoşunuda mühüm vəzifələrdən birinə tə`yin edir. Məhz bundan sonra Yə`qub zalım Abbasilər hökuməti ilə mübarizəyə başlayır.

Günah insanın ruhunu, düşüncəsini, qəlbini bulaşdıran mə`nəvi çirkinlikdir və o, insanı Allahın lütf və mərhəmətindən məhrum edir. Günah insanı bəlalardan qoruyan pərdələri yırtır. Günah insanın dünya və axirət sirlərini faş edir, onu bəndəlik məqamından uzaqlaşdırır.

Din alimləri ayə və rəvayətlərə əsaslanaraq günahları iki qismə bölmüşlər: böyük ("kəbirə") və kiçik ("səğirə") günahlar. İmam Sadiq (ə) buyurmuşdur ki: "Müqabilində Cəhənnəm əzabı və`d edilmiş günahlar böyük günahlardır."[47] Böyük günahdan çəkinən insanların kiçik günahları bağışlanasıdır. "Nisa" surəsinin 31-ci ayəsində buyurulur: **"Əgər qadağa olunmuş böyük günahlardan çəkinsəniz, kiçik günahlardan təmizlənərsiniz..."** İmam Riza (ə) böyük günahları bu ardıcıllıqla sadalayır: günahsız insanı qətlə yetirmək, zina – qanunsuz cinsi əlaqə oğurluq, məst edən maddələrin qəbulu, ata-anaın üzünə ağ olmaq, döyüşdən qaçmaq, yetimin malını zorla yemək, şər`i qaydada kəsilməmiş və haram ət yemək, sələm, haram maldan istifadə qumar, ölçüdə və çəkidə

[47] "Кафи", 2-276.

əksiklik, pak insana böhtan, həmcinsbazlıq – ləvat, Allahın rəhmətindən ümidsizlik, özünü Allah əzabından amanda bilmək, zalıma kömək, zalıma məhəbbət, yalan and, haqqı qəsdən yubatmaq, yalan, təkəbbür, israf, tələf etmə′ xəyanət, həcci yüngül saymaq, Allah dostları ilə vuruş, puç işlərlə əylənmə′ günahın təkrarı...

## *GÜNAHıN TƏ`SIRLƏRI*

Ayə və rəvayətlərdə günahın bir çox tə′sirləri bəyan olunmuşdur. Günah yaxşı əməli puça çıxarır, insanı dünya və axirət bəlalarına düçar edir. Günah duaların qəbuluna mane olur. Günahkar insan şəfaətçilərin şəfaətindən məhrum olur. Günah qəlbi bərkidir, qaraldır, imanı aradan aparır. Günahkarlara olunan nəsihət nəticəsiz qalır. Günah insanı rüsvay edir, onun ruzisini əksildir. Günah insanı ibadət və bəndəlikdən uzaqlaşdırır. Günah insanı şeytanla mübarizədə məğlubiyyətə düçar edir, ailə və cəmiyyətdə rabitələri qırır. Günah nəticəsində insanlar arasındakı e`tibar itir. Günahkar insan çətin can verir, onun qəbir əzabı ağır olur.

İmam Sadiq (ə) buyurur: “Əgər günah olmasa heç bir damar kəsilməz, heç bir ayağa daş dəyməz, qarşıya heç bir çətinlik çıxmaz, heç bir xəstəlik baş verməz. Ona görə Allah-Taala öz kitabında buyurur: “Düşdüyünüz müsibətlərin səbəbi yol verdiyiniz günahlardır və Allah çox günahlarınızı bağışlayır.”[48] Başqa bir rəvayətdə İmam (ə) buyurur: “Şübhəsiz ki, insan günaha batdığı

---

[48] “Кафи”, 2-269.

üçün gecə namazından məhrum olur və günah bıçaqdan daha kəsərlidir.”[49]

İmam Riza (ə) buyurur: “Allah-Taala öz peyğəmbərlərindən birinə belə vəhy etdi: “Mənə itaət olunsa razı qalaram. Razı qalsam, bərəkətimi göndərərəm və mənim bərəkətim sonsuzdur. Mənə itaətsizlik göstərilsə qəzəblənərəm. Qəzəblənsəm, lə`nət edərəm və lə`nətim yeddi qatdan keçər.”[50]

Tarixə nəzər salsaq görərik ki, bir çox övladlar atalarının günahı səbəbindən xəstəliyə kasıblığa, çətinliyə düçar olmuşlar. Onların düşdükləri vəziyyət əslində Allahın rəhmətidir. Əziyyət görən övladlar, adətən, atalarının günahlarını təkrar etmirlər.

Günahların davam etdirilməsi haqqında Həzrət Əli (ə) buyurmuşdur: “Bütün bəndələrin qırx günahını örtəcək pərdələr vardır. Allah-Taala öz mələklərinə vəhy edər ki, bəndəmi qanadlarınızla gizlədin. Mələklər bəndəni qanadları altına alar. Günahlar davam etdikdə mələklər deyər: “Pərvərdigara! Bəndən hər bir günaha batır və biz onun işlərindən xəcalət çəkirik”. Allah-Taala buyurar: “Qanadlarınızı çəkin”. İş Əhli-beytlə (ə) düşmənçilik həddinə çatdıqda hörmət pərdələri yarılar. Mələklər deyərlər: “Pərvərdigara, bəndən örtüksüz qaldı”. Allah-Taala vəhy edər: “Əgər Allah ona diqqət yetirsəydi, sizə göstəriş verməzdi ki, qanadlarınızı qaldırın.”[51]

---

[49] “Кафи”, 2-272.
[50] “Кафи”, 2-275.
[51] “Кафи”, 2-279.

Qiyamətə günahın nəticəsinə diqqətli insan diri, günaha batmağın ağrılı nəticələrindən çəkinməyən insan isə ölüdür!

### *HƏYA PƏRDƏSINI YıRTAN GÜNAHLAR*

Məşhur mühəddis Şeyx Səduq İmam Zeynəl-abidin (ə)-dan belə bir hədis nəql edir: "Hörmət pərdələrini yırtan günahlar bunlardır: məstedici maddə qəbul etmək, qumarbazlıq, xalqı güldürmək üçün mə`nasız işlər görmək, xalqın eyibini açmaq, günahda ittiham olunanla yoldaşlıq."

"Kumeyl" duasındakı "əzabların qarşısını alan pərdələri yırtan günahlar" ifadəsi yuxarıda zikr olunmuş hədis vasitəsilə aydınlaşır.

### *SPIRTLI IÇKI IÇMƏK*

İmam Musa ibn Cə`fər (ə) və İmam Cavad (ə) spirtli içki içməyi böyük günahlardan sayır. Təbabət elminin tanınmış simaları spirtli içkiləri insan orqanizmi üçün zərərli hesab edirlər. Alkoqolun beyin, mə`də ciyər, böyrək və digər daxili orqanlara dağıdıcı tə`siri bir çox hallarda faciə ilə nəticələnir. "Butulka şeytan" olduqca təhlükəli və amansız bir düşməndir. Qur`ani-Kərim məstedici mayeləri, alkoqolu murdar sayır. Alkoqolun bəşəriyyətə vura biləcəyi zərbə nəzərə alınaraq, o, haram buyurulmuşdur. Bu əməldən tövbə etməyən şəxsi ağrılı axirət əzabı gözləyir.

İslam Peyğəmbəri (s) alkoqolla əlaqədar on nəfərə lə`nət oxumuşdur: şərab məqsədi ilə üzüm əkən, bu bağa bağbanlıq edən, meyvəni bu məqsədlə sıxıb suyunu çıxaran, onu içən, onu məclisə paylayan, onu

bir yerdən başqa yerə daşıyan, onu təhvil götürən, onu satan, onu alan, onun qazancını yeyən. Şərab içən şəxs Qiyamət günü Məhşər səhnəsinə üzü qara, ağzı əyri, dili çıxmış, susuz halda gətirilər. Ona zinakarların çirki ilə dolmuş quyudan içirərlər.[52]

Həzrət Əli (ə)-dan soruşurlar: "Siz buyurmusunuz ki, şərab oğurluq və zinadan pisdir?" Həzrət (ə) buyurur: "Bəli, demişəm.Çünki zinakar növbəti günaha getməyə də bilər. Amma şərab içən şəxs zina da edər, adam da öldürər, namazı da atar."[53]

İslam Peyğəmbəri (s) buyurur: "Allah mənim dilimlə şərabı haram e`lan etdikdən sonra şərab içən şəxs elçiliyə gəldikdə ona müsbət cavab vermək layiq deyil. Şərab içənin şəfaəti qəbul olunmaz, dedikləri təsdiq edilməz. Ona əmanət tapşırmaq olmaz. Şərab içənə əmanət tapşıran kəsə Allah tərəfindən zəmanət yoxdur."[54]

## *QUMAR*

Böyük günahlardan biri də qumardır. Vəsailüş-şiə kitabının 17-ci cildində nəql olunmuş bir rəvayətdə İmam Sadiq (ə) qumarı böyük günahlara aid edir. "Bəqərə" surəsinin 219-cu ayəsində buyurulur: **«Səndən məstedici maye və qumar haqqında soruşurlar. De ki, məstedici maye və qumar böyük günahdır.»**

Qumar alətlərini düzəltmək, onları düzəltmək üçün haqq almaq, onları satmaq və almaq haramdır. Böyük

---

[52] "Вәсаилүш-шиә", ч.25.

[53] "Кафи", 1-403.

[54] "Вәсаилүш-шиә", ч.25.

şiə fəqihlərinin əksəriyyəti hətta udub-uduzmadan bu oyunları oynamağa icazə vermir. Bu alətləri saxlamaq haram, məhv etmək isə vacibdir. Qumar məclisində oturub tamaşa etmək haram və bu məclisdən uzaqlaşmaq vacibdir.

## *XALQı GÜLDÜRMƏK ÜÇÜN GÖRÜLƏN BOŞ IŞLƏR*

Boş işlər dedikdə bu işi görən və bu işə tamaşa edən insanlar üçün dünya və axirət faydası olmayan, qiymətli ömrü puça çıxaran işlər nəzərdə tutulur. İnsan unutmamalıdır ki, ömrün hər dəqiqəsi milyardlarca amil hesabına başa gəlir.

Şübhəsiz ki, qiymətli ömrünü boş yerə xərcləmək naşükürlükdür. Ömür Allah-Taalanın insana verdiyi ən böyük ne`mətdir. Bu ne`mətin şükrü onun hər dəqiqəsini qiymətli bilib ibadət və saleh işlərə sərf etməkdir.

Mühəddis Qumi "Mənazilül – axirət" kitabında yazır: "İbn Səməd adlı bir şəxs günün böyük hissəsini özünü hesaba çəkərdi.Bir gün ona mə`lum oldu ki, ömrünün altmış ili arxada qalıb. Altmış il 21900 gün edirdi. İbn Səməd fəryad çəkərək öz-özünə dedi: "Vay olsun mənə əgər gündə bir günah etmiş olsam, Allahın görüşünə 21900 günahla gedəsiyəm". Bu sözlərdən sonra huşunu itirdi və dünyasını dəyişdi".

## *XALQıN EYIBLƏRINI AÇMAQ*

İslam dinində müsəlmanların və mö`minlərin təmiz adını qorumaq vacibdir. Mö`minin abır-həyası onun

qanı kimi möhtərəm sayılır. Əgər xalqın abır-həyasına zərbə dəyərsə cəmiyyətdəki e`tibar viran qalar.

Yalnız peyğəmbərlər, imamlar və övliyalar eyibsiz olmuşdur. Bütün qalan insanların gizli eyibləri vardır. Çox az insanlar üçün təmiz ad əhəmiyyətsizdir. Əksər insanlar eyibləri açıqlandığı zaman narahat olurlar. Başqalarının istənilən bir eybini açıb-ağardanlar böyük günaha yol verir və axirət əzabı qazanırlar. İmam Baqir (ə) və İmam Sadiq (ə) belə buyurmuşlar: "İnsan üçün küfrə ən yaxın əməl odur ki, bir şəxslə din əsasında qardaşlıq əqdi bağlayıb, onun səhvlərini öyrənsin və sonradan bu səhvləri açıb-ağartmaqla danlaq vursun."[55]

İmam Sadiq (ə) nəql edir ki, Həzrət Peyğəmbər (s) buyurmuşdur: "Ey dildə İslamı qəbul edib, qəlbinə iman nüfuz etməyənlər! Müsəlmanları məzəmmət etməyin, onlarda eyib axtarmayın. Hər kəs müsəlmanlarda eyib axtarsa, Allah da onda eyib axtarar, Allahın eyib axtardığı kəs isə evində belə rüsvayçılıqdan gizlənə bilməz".[56]

## *GÜNAHKARLA YOLDAŞLıQ*

Hər bir insan oturub-durduğu şəxsin tə`siri altına daha tez düşür. Ona görə də Qur`ani-Məciddə və Əhli-beyt (ə) rəvayətlərində dost seçiminə münasibətdə çox ciddi göstərişlər vardır. İslam kitabxanasında sırf bu mövzudan bəhs edən kitablar kifayət qədərdir.

---

[55] "Кафи", 2-354.
[56] "Кафи", 2-354.

İslam dini insanları kafir, müşrik, günahkar şəxslərdən uzaqlaşmağa çağırır. Məqsəd mö`minlərin mədəniyyətini, əxlaqını, xarakterini şeytani tə`sirlərdən qorumaqdır.

İmam Sadiq (ə) buyurur: «Əgər mö`min şəxs Allaha itaətsizlik olunan məclisin istiqamətini dəyişməkdə gücsüzdürsə bu məclisdə oturmaq ona yaraşmaz (layiq deyil).»[57]

Əbu Haşim Cə`fəri deyir: "Həzrət Riza (ə) mənə buyurdu: "Nə üçün səni Əbdürrəhman İbn Yə`qubla görürəm?" Dedim: "O mənim dayımdır." İmam buyurdu: "O, Allah haqqında qeyri-məqbul sözlər danışır. Onun sözləri Qur`an və Əhli-beyt göstərişləri ilə uyuşmur. O, Allahı əşya kimi təsvir edir. Sən ya onunla qalıb bizdən uzaqlaşmalısan, ya bizimlə qalıb onu tərk etməlisən." Ərz etdim ki, o hər nə deyirsə desin. Mən ki, onun dediklərini təkrar etmirəm. Həzrət (ə) buyurdu: "Ona gəlmiş əzabın səni də bürüyəcəyindən qorxmursanmı? Özü Həzrət. Musa (ə), atası isə Fir`onla dost olanın əhvalatını eşitməmisən? Fir`onun qoşunu Musa və onun ardıcıllarını tə`qib edib çaya yetişdikləri vaxt oğul atasını nəsihət etmək üçün ona yaxınlaşdı. Bu an Fir`onun qoşununa gələn bəlaya oğul da düçar oldu. Bu xəbəri eşidən Həzrət Musa (ə) buyurdu: "Günahkara gələn bəla onun yanındakıları da bürüyər. Amma mö`min oğul Allahın rəhmətindədir."[58]

---

[57] "Кафи", 2-374.
[58] "Кафи", 2-374.

Həzrət Əli (ə) buyurmuşdur: "Allah və Qiyamət gününə imanı olan kəs şəkk-şübhəli yerdə dayanmamalıdır."[59]

İmam Sadiq (ə) buyurur: "Allah dostlarına qara yaxılan yerdə oturan kəs Allaha itaətsizlik etmişdir."[60]

Həzrət Məsih (ə) buyurmuşdur: "Allahla dostluğunuzu günahkara pis münasibətinizlə göstərin və onlardan uzaqlaşıb Allaha yaxınlaşın. Onların qəzəbi əvəzində Allahın razılığını istəyin." Soruşdular ki, belə isə kiminlə yoldaşlıq edək? Həzrət İsa (ə) buyurdu: "O şəxslə əyləşin ki, görüşü Allahı xatırlatsın, danışığı elminizi artırsın, rəftarı ilə sizi axirətə rəğbətləndirsin."[61]

Bəli, təqva, paklıq, təvazö', sədəqə ibadət insanla bəla arasında pərdə çəkirsə alkoqol, qumar, təlxəklik, qeybət, böhtan bu pərdələri aradan qaldırır. Əlbəttə ki, şeytan vəsvəsələrinə və nəfsinin istəklərinə uyan insan min bir günaha batmaqla öz əli ilə bəlaların qarşısını almış pərdələri yırtır.

Bu dərdə mübtəla olmayan insan
Çətin iki dünyada tapsın aman.
Hər kimsənin batin gözü kor olsa,
Çöl gözüylə çətin ki, görsün nəsə.
O çiçəyin ətrini almayan kəs
Sinəsində qəlbi gəzdirir əbəs.
Ey eşqdən, sevgidən dəm vuran könül,

[59] "Кафи", 2-377.
[60] "Кафи", 2-379.
[61] "Мəhəччəтүл–бəјза", 3-288.

Bəlaların qoynundadır yerin, bil.
Od içində yanmağa layiq olan
Sultan sarayından uzaqdır, inan.
Çalış uzaq dayan zənni-gümandan,
Zənnə uyan sorğu günü peşiman.

"Allahumməğfirliyəz-zunubəl-ləti tunzilui-niqəm" ("Pərvərdigara! Cəzaları endirən, yaxınlaşdıran günahlarımı bağışla")

Bir çox günahlar əməllərin cəzasını yaxınlaşdırır, tezləşdirir. "Məanil-əxbar"da nəql olunmuş bir rəvayətdə İmam Səccad (ə) doqquz belə günah sadalayır:

1. Zülm (bəğy);
2. Başqalarının hüququna təcavüz;
3. Allahın bəndələrinə məsxərə etmək;
4. Əhdi pozmaq;
5. Aşkar günah;
6. Yalanı açmaq;
7. Dinə zidd mühakimə;
8. Zəkat ödəməmək;
9. Ölçüdə çəkidə əskiklik.

## *"BƏĞY"*

"Bəğy" dedikdə həqiqət qarşısında itaətsizlik, ilahi hədlərin pozulması, fəsad, günah nəzərdə tutulur. "Qəsəs" surəsinin 76-cı ayəsində buyurulur: "Doğrudan da Qarun Musa qövmündən idi və onlara zülm etmişdi". "Şura" surəsinin 27-ci ayəsində

oxuyuruq: "Əgər Allah bəndələrinin ruzisini gen-bol edərsə onlar yer üzündə fəsad törədərlər". "Məryəm" surəsinin 28-ci ayəsində isə belə buyurulur: **"Ey Harunun bacısı! Atan pis, anan isə zinakar deyildi."**

İslam Peyğəmbəri (s) buyurmuşdur: "Doğrudan da ən üstün yaxşılıq xalqa yaxşılıq, ən böyük pislik isə başqalarının hüququna təcavüz etməkdir."[62]

İmam Sadiq (ə) buyurur: "Mö`mində altı xüsusiyyət olmaz: acizlik, xəsislik, düşmənçilik, yalan, həsəd, xalqa zülm".[63]

## *XALQıN HÜQUQUNA TƏCAVÜZ*

Allah-Taala insanlar arasında hüquqlar müəyyənləşdirmişdir ki, bu hüquqlara riayət etmək vacib, onları pozmaq isə günahdır. Qur`ani-Kərim ayələri və Əhli-beyt hədislərində ata-ananın övlada, övladın ata-anaya, qohumluq və qonşuluq hüquqları, xalqın hökumət, hökumətin də xalq qarşısında vəzifələri, varlıların kasıblar qarşısındakı məs`uliyyəti ətraflı şəkildə bəyan olunur. Hüququn ən kamil şəkildə bəyan olunduğu risalə İmam Zeynəl-abidin (ə)-ın hüquq risaləsidir. Bu risalə ilə yaxından tanışlıqdan sonra insan müsəlman hüququ qarşısında özünü vəzifəli hiss edir. Bu hüquqlardan hər hansı birini pozmaq aşkar günahdır və onun cəzası vardır.

## *ALLAH BƏNDƏLƏRINƏ MƏSXƏRƏ*

İnsanların geyiminə kasıblığına, əqidəsinə sənətinə məsxərə etmək böyük günahdır və bu günahın dünya

---

[62] "Биһарул - әнвар", 72-273.
[63] "Биһарул-әнвар", 72-273.

və axirət cəzası vardır. İnsanı məsxərəyə qoymaq onun şəxsiyyətini təhqir etmək deməkdir. Qur`ani-Məcid məsxərə edənləri münafiq, zalım, günahkar adlandırır və onlara dərdli əzab və`d edir.

"Bəqərə" surəsinin 14-cü ayəsində oxuyuruq: **"Onlar mö`minlərlə qarşılaşdıqları zaman "biz də iman gətirdik" deyirlər. Öz şeytanları ilə təklikdə qaldıqda isə "biz də sizinləyik, biz onlara ancaq istehza edirik" deyirlər".**

İslam Peyğəmbəri (s) bildirir ki, Allah-Taala belə buyurmuşdur: "Mənimlə dostluqdan çəkinən, mənimlə döyüş üçün pusqu qurmuşdur".[64]

İmam Sadiq (ə) buyurmuşdur: "Qiyamət zamanı bir nida ucalar: "Mənim dostlarımdan üz çevirənlər haradadırlar?" Üzündə ət olmayan bir dəstə insan ayağa qalxar. Bu zaman deyilər: "Bunlar iman əhlinə əziyyət verənlər, onlarla düşmənçilik edənlər, onlara inad göstərib, onların dininə məsxərə edənlərdir". Sonra əmr olunar ki, onları Cəhənnəmə aparsınlar".

İslam Peyğəmbəri (s) buyurmuşdur: "Allah-Taala buyurur: "Mö`min bəndəmi xar edən şəxs Mənimlə döyüşə qalxmışdır."[65] Bəli, insanlara rişxənd etmək onları kiçik saymaqdır. Qur`ani-Kərim bu işi pisləyir və tövbə etməyənləri zalım adlandırır.

## *ƏHDİ POZMAQ*

Əhd–peyman və ona vəfa etmək Qur`ani-Məcid və əhli-beyt buyruqlarında diqqət mərkəzində olan əxlaqi

---

64 "Кафи", 2-351.

65 "Кафи", 2-351.

və insani həqiqətlərdir. Əhd-peymanın Allah, Peyğəmbər (s), imamlar (ə) və ya xalqla bağlanmasının heç bir fərqi yoxdur. İbadət, xalqa xidmət, ticarət və sair sahələrdə bağlanmış istənilən müsbət əhd-peymana əməl etmək vacib, onu pozmaq isə haramdır.

"Nəhl" surəsinin 91-ci ayəsində buyurulur: **"Əhd bağladığınız zaman Allahın əhdinə vəfa edin".** "Bəqərə" surəsinin 27-ci ayəsində oxuyuruq: **"O kəslər ki, Allahla əhd bağladıqdan sonra onu pozur, Allahın birləşdirilməsini buyurduğu şeyləri parçalayır və yer üzündə fitnə-fəsad törədirlər, məhz belələri ziyana uğrayanlardır".** "İsra" surəsinin 34-cü ayəsində isə belə buyurulur: **"Əhdə vəfa edin. Doğurdan da, əhd barəsində soruşulacaqdır"**. "Maidə" surəsinin 1-ci ayəsində oxuyuruq: **"Ey iman gətirənlər, əhdlərə sadiq olun".**

İslam Peyğəmbəri (s) buyurmuşdur: "Hər kəsdə üç xüsusiyyət olsa, o, münafiqdir - hətta namaz qılıb oruc tutsa, özünü müsəlman bilsə də: onu əmin bildikləri halda xəyanət edər, ağzını açanda yalan danışar, verdiyi və`də vəfa etməz."[66] İmam Sadiq (ə) buyurur: "Xalqla rəftarında zülmə yol verməyən, onlara yalan danışmayan, və`dini pozmayan insanın mürüvvəti kamil, qeybəti haram, ədaləti aşkardır və onu din qardaşı bilmək lazımdır".[67]

[66] "Кафи", 2-чи чилд, səh.290.
[67] "Кафи" 2-чи чилд, səh.239.

## *AŞKAR GÜNAH*

Qur`ani-Məcid xalqı aşkar və gizli günahdan çəkinməyə çağırır ("Ən`am" surəsi, ayə 151).

Aşkar günah həyasızlıq və ədəbsizlik, İslam cəmiyyətinin qanunlarına hörmətsizlik nişanəsidir. İslam dinində ictimai mühitin çirkləndirilməsi olduqca sərt məzəmmət edilir. İslam ümmətinin həyatında qarışıqlıq salanlar üçün ciddi cəzalar nəzərdə tutulur.

Mö`min insanlar, xüsusilə ictimai asayiş keşikçiləri cəmiyyətdəki əxlaqsız və həyasız hərəkətlərin qarşısını almalıdırlar. Cəmiyyətdəki aşkar günahlar qorxulu mikrob kimi xalqın, xüsusi ilə də gənc nəslin həyatını məhv edir. Əmr be mə`ruf və nəhy əz münkərin, yə`ni yaxşıya də`vət və pisdən çəkindirmənin əsas rolu cəmiyyəti aşkar günahkarlıq bəlasından qorumaqdır. Əgər tə`lim-tərbiyə mərkəzlərində və ailədə gənclər həyalı və iffətli tərbiyə olunarsa, nə gizli, nə də açıq günahkarlığa yer qalmaz.

Həya, Allaha diqqət, günahın nəticəsini düşünmək insanı günahdan çəkindirən ən tə`sirli vasitədir. İmam Sadiq (ə) buyurur: "Həya imandandır, iman isə behiştədir". İslam Peyğəmbəri (s) buyurur: «Allahdan həya edib, bu haqqı yerinə yetirin. Hər biriniz ölüm gözlərinin qarşısında gecəni sübh etməklə göz, qulaq və dili haramdan hifz etməklə qarını haramdan gözləməklə qəbir və bədənin onda çürüməsini xatırlamaqla bu haqqı gözləyin. Axirəti istəyən kəs dünya həyatının aldadıcı bər-bəzəyini boşlayar.» [68]

---

[68] "Биһарул-әнвар", 68-чи чилд, səh.333.

Bir şəxs Həzrət Peyğəmbərdən (s) nəsihət istədiyi vaxt Həzrət (s) buyurdu: "Qövmünün layiqli şəxsindən həya etdiyin kimi Allahdan həya et."[69]

## *İMANLI QADININ HƏYASI*

İmam Səccad (ə) buyurur:

Bir şəxs ailəsi ilə birlikdə dəniz səfərində ikən gəmi qəzaya uğrayır və onun arvadından başqa bütün müsafirlər həlak olur. Qadın bir taxta parçasından yapışıb, yaxındakı adalardan birinə çıxa bilir.

Bu adada yaşayan günahkar bir quldur ölümdən xilas olmuş qadınla rastlaşır. "Sən insansan, yoxsa cin", deyə qadından soruşur. Qadın cavab verir ki, «insanam». Zalım quldur qadınla bir söz danışmamış ona öz arvadı kimi yaxınlaşır. Qadın onun bu hərəkətindən həyəcanlanıb, titrəməyə başlayır. Quldur soruşur ki, «nə üçün narahatsan?» Qadın əli ilə yuxarıya işarə edib, "ondan qorxuram" deyir. Quldur sual verir: "Nə etmisən ki, Ondan qorxursan?" Qadın elə bir iş görmədiyinə and içir. Quldur deyir: "Sən elə bir iş görmədiyin halda Allahdan qorxursan, səni ki, bu işə mən məcbur edirəm. Ona görə də mən daha çox qorxmalıyam". Quldur bu sözləri deyib, qadına toxunmadan ondan uzaqlaşır.

Bir gün bu şəxs yolda bir rahiblə yoldaş olur. Günəşin yandırıcı şüaları hər iki yolçunu taqətdən salır. Rahib öz yoldaşına deyir: "Dua et ki, Allah bir bulud yetirib, bizi günəşin istisindən qorusun". Gənc cavab verir: "Mənim elə bir yaxşı əməlim yoxdur ki, Allahdan nə

---

[69] "Биһарул-әнвар", 68-чи чилд, səh.336.

isə istəməyə cür`ət edim". Rahib deyir: "Onda mən dua edim, sən "amin" de". Rahib dua edir, gənc "amin" deyir. Tezliklə başlarının üzərində görünən bulud onların üstünə kölgə salır. Günün yarısını kölgədə gedən yolçular, nəhayət yol ayrıcına çatırlar. Bulud gəncin getdiyi yola yönəlir. Rahib gənci çağırıb deyir: "Sən məndən üstünsən. Duamız da sənə xatir qəbul oldu. Mənə bu üstünlüyün sirrini aç". Gənc, qadınla adada olan görüşünü açıb söyləyir. Rahib deyir: "Sən Allahdan qorxduğun üçün günahların bağışlanıb. Bundan sonra gələcəyini düşün".[70]

### *YALAN*

Həzrət Peyğəmbər (s), Həzrət Sadiq (ə) və Həzrət Riza (ə) yalanı ən böyük günahlardan hesab etmişlər. ("Kafi", 2-ci cild, səh-338). Yalanın ən çirkini Allah, Peyğəmbər (s) və İmam (ə) adından yalan danışmaqdır. Çünki bu yalanlar böyük kütlələri doğru yoldan azdırır.

Kafirlər və onların azğın başçıları açıq-aşkar yalana uğramış insanlardır. Bu yalançı qövm tarix boyu öz yalanlarını sistemləşdirib elm adı ilə bəşəriyyətin Allaha doğru hərəkətində maneə yaratmağa çalışmışlar. Bu hiyləgər şeytanlar öz şirin yalanları ilə milyon-milyon insanları cəhənnəm oduna sürükləmişlər. Onlar öz yalanlarına həqiqət donu geyindirməklə insanları əsil həqiqətdən yayındırmışlar. Səmavi kitablar inkar olunmuş, ilahi ayələrə müqavimət göstərilmiş, bu

[70] "Кафи" 2-чи чилд, сəh.69.

göstərişlərin Allah tərəfindən nazil olmadığı iddia olunmuşdur.[71]

Kafirlər insanları ilahi hidayət feyzindən məhrum etmək, onları dünya və axirət səadətindən uzaqlaşdırmaq üçün peyğəmbərlərə böhtanlar yağdırmış, onları yalançı, sehirbaz, şair adlandırmış, hətta dəlilikdə ittiham etmişlər. Heç bir yalandan çəkinməyən bu qövm İlahi həqiqətləri təhrif etmiş, hətta Tövrat, İncil, Zəbur kimi İlahi kitablarda təhriflər etmişlər. Əgər bu insanların imkanı olsaydı, əlbəttə ki, Qur`an da təhrifə mə`ruz qalardı. Amma Qur`an ayələrini dəyişə bilməsələr də bu ayələri öz istədikləri kimi mə`nalandıran kafirlər xalqı çaşdırmaqla cəhənnəm əzabını qazanmışlar.

Bu yalançı dəstə peyğəmbərin həqiqi varisi olan Əhli-beyti (ə) hökumətdən uzaqlaşdırmaqla bəni-Üməyyə və bəni-Abbas kimi zalım sülalələri taxta çıxarmışlar. Beləcə insanlar həqiqi elm və maarifdən məhrum edilmiş, onlara cildlərlə saxta hədislər təqdim olunmuşdur. Əgər imamlar, xüsusi ilə də İmam Baqir (ə) və İmam Sadiq (ə) peyğəmbər adından uydurulan saxta göstərişləri batil etməsəydilər, bu gün həqiqi İslamdan əsər-əlamət belə qalmazdı. Bu gün də mə`sum imamların (ə) göstərişləri həqiqəti yalandan seçmək üçün əsas vasitədir. Bəli, imamların (ə) və fədakar şiə alimlərinin şəhadəti və zəhmətləri hesabına həqiqi Məhəmməd (s) dini hifz olunmuşdur.

Fırıldaqçı kafirlər son iki yüz ildə Asiya, Avropa və Amerikada elm, siyasət və mədəniyyət sahələrində

---

[71] "Јасин" сурəси, ajə 15.

dərya-dərya yalanlar uydurmuşlar. Gözəl libas geyindirilib, boyaqlanmış bu yalanları tanımaq üçün dərin düşüncəyə ehtiyac var. Bə`zən bu yalanlar qarşısında hətta ruhani tələbə və alimlər də özünü itirib tora düşmüşdür. Bu fırıldaqçıların zahirən şirin, daxilən zəhərli şüarlarına baxın: "Din millətlər üçün tiryəkdir"; "Hakimiyyətə mədəni insan layiqdir"; "Elm bütün müşkülləri həll edir»; "Demokratiya, azadlıq, xalqın-xalqa hakimiyyəti - Allahın saleh insanlar vasitəsilə hakimiyyətinin əvəzində". Ənlik-kirşanı, həyəcanlandırıcı geyimi ilə göz qamaşdıran liberalizm milyonlarla insanı Allahdan, həqiqi dindən uzaqlaşdırmışdır.

Əziz oxucular, Qur`ani-Kərimin bu müqəddəs şüarına haqq verin: **"Yalançılara Allahın lə`nət etməsini diləyək."**[72] "Zumər" surəsinin 3-cü ayəsində buyurulur: **"Allah yalançı, nankor olan kimsəni doğru yola müvəffəq etməz".** İslam Peyğəmbəri (s) və onun Əhli-beytinin (ə) yalan haqqında göstərişlərini unutmayın. Həzrət Peyğəmbər (s) buyurur: "Sizə ən böyük günahı xəbər verimmi? Allaha şərik qoşmaq, ata-ana ilə pis rəftar, yalan danışıq"; "Ən pis danışıq yalan danışıqdır"; "Yalan danışanın kişiliyi hamıdan aşağıdır".[73]

İslam Peyğəmbərindən (s) soruşdular ki, «mö`min qorxaq ola bilərmi?» Həzrət (s) buyurdu ki, bəli. «Soruşdular ki, xəsis ola bilərmi?» Buyurdu ki, bəli. Soruşdular ki, mö`min yalançı ola bilərmi? Həzrət

---

[72] "Али-Имран» сурəси, ajə 61.

[73] "Биhарул-əнвар", 69-чу чилд.

buyurdu: “Yox!”[74] Həzrət Əli (ə) buyurmuşdur: “İnsan zarafat və ya ciddi olan yalanı tərk etməmiş imanın ləzzətini dadmaz”.[75] “Yalandan çirkin iş yoxdur”.[76] “Düzlük əmanət, yalan isə xəyanətdir.”[77]

İmam Sadiq (ə) buyurur: “Allah-Taala pisliklər üçün qıfıl qərar verib. Bu qıfılların açarı şərabdır. Yalan şərabdan da pisdir.”[78]

Musa (ə) Allah-Taalaya belə ərz etdi: “Əməlinə görə hansı bəndən daha yaxşıdır?” Allah buyurdu: “O kəs ki dilini yalandan qoruyur, qəlbi həqiqətdən dönmür, zina etmir.”[79]

Dini maarifdə deyilir ki, yalançı fasiq, günahkardır. Mələklər yalançıya lə`nət yağdırır. Yalançının nəfəsi üfunət, özü imansız, üzü qaradır. O, Allahın qəzəb və lə`nətinə düçardır. Yalançı ən böyük günahkarlardandır və münafiqdir. Onunla dostluq və yoldaşlıq yaramaz. İlahi hidayətdən məhrum olan yalançı zahirdə insan, daxildə əti haram olan heyvan kimidir!

## *ALLAH HÖKMÜNÜN ZİDDİNƏ MÜHAKİMƏ*

İnsanı əzaba düçar edən günahlardan biri də hakimin Allah hökmünün ziddinə hökm verməsidir. Əgər qazi ilahi hökmü bildiyi halda kimisə razı salmaq üçün bu hökmün ziddinə qərar çıxararsa, kafir, zalım və

---

74 “Биhарул-әнвар”, 69-чу чилд, сəh.262.

75 “Кафи” 2-чи чилд, сəh-340.

76 “Төвhиди-Сәдуг», сəh-72.

77 “Биhарул-әнвар”, 69-чу чилд, сəh-261.

78 “Биhарул-әнвар”, 69-чу чилд, сəh-261.

79 “Чамеүл-әхбар”, сəh-173.

fasiqdir.[80] Allahın hökmünü rədd etmək küfr, kimisə haqqından məhrum etmək zülm, iman dairəsindən çıxmaq isə günahdır. İmam Sadiq (ə) buyurur: "Hər kəs iki dirhəmə görə Allah buyruğunun ziddinə çıxsa, kafir olmuşdur."[81]

## *ZƏKAT ÖDƏMƏMƏK*

Dördayaqlı heyvanların, qızıl və gümüşün zəkatını vermək vacibdir. Vacib olmuş zəkatdan boyun qaçırmaq ağır günahdır. Əksər Qur`an ayələrində namazın ardınca zəkata işarə olunur. Bu ardıcıllıq bir daha zəkatın əhəmiyyətini göstərir. Zəkatı tərk etmək namaz və həccin tərk edilməsi kimidir. Zəkat hökmünü inkar edən şəxs kafir olur. İmam Sadiq (ə) bir hədisdə buyurur: "Zəkat varlıların imtahana çəkilməsi və möhtacların ehtiyacının ödənməsi üçün vacib oldu. Əgər hamı zəkat ödəsəydi, bir müsəlman belə möhtac qalmazdı. Bir çox insanların səfalət içində yaşamasının səbəbkarı zəkat ödəməyən varlılardır. Malının zəkatını ödəməyən kəsin ilahi rəhmətdən faydalanması rəva deyildir. Yalnız zəkat ödənmədiyi üçün kimlərinsə var-dövləti tələf olur".[82]

Həzrət Fatimə (s) peyğəmbər məscidində xalqa üz tutub belə buyurdu: "Allah sizə imanı vacib edib ki, şirkdən pak olasınız. Namazı vacib buyurub ki, təkəbbür xəstəliyindən qurtulasınız. Zəkatı vacib buyurub ki, xəsislikdən təmizlənəsiniz."[83]

---

[80] "Маидә" сурәси, ајә 44-45-47.

[81] "Ҝүнаһани-кәбирә" 2-чи чилд, сәһ-365.

[82] "Вәсаилуш-шиә", 9-чу чилд, сәһ-12.

[83] "Биһарул-әнвар", 29-чу чилд, сәһ-223.

Həzrət Riza (ə) öz xidmətçisinə buyurdu: "Bu gün Allah yolunda bir şey vermisənmi?" Xidmətçi bildirdi ki, yox. Həzrət buyurdu: "Bəs Allah bizə nəyə görə inayət etsin?"[84]

## *ƏSKİK SATMA*

Ölçüdə və çəkidə əskiklik, müştərini və şəriki malın qədərində aldatma Qur`an ayələri və Əhli-beyt (ə) hədislərinə görə haram və böyük günahdır. Qur`ani kərimin 114 surəsindən biri olan "Mutəffifin" surəsi bu mövzuya həsr olunmuşdur. Bu surədə oxuyuruq: "Vay halına çəkidə və ölçüdə aldadanların; O kəslər ki, özləri xalqdan bir şey aldıqları zaman onu tam ölçüb alar; xalq üçün bir şey ölçdükdə və çəkdikdə isə onu əskildərlər; məgər onlar diriləcəklərini düşünmürlərmi?! Özü də dəhşətli bir gündə! O gün bütün insanlar aləmlərin Rəbbi olan Allahın hüzurunda duracaqlar! Xeyr! Şübhəsiz ki, pis əməllərə uyanların əməl dəftəri siccindədir!"[85]

Allahın Rəsulu (s) buyurur: "Hər kəs peyman və vəzndə xəyanət edərsə qiyamət günü onu cəhənnəmin dibinə gətirər və iki yanar dağ arasında yerləşdirərlər. Ona deyilər ki, bu dağları çək. O da daim bu işə məşğul olar».[86]

Uyğun ayələrin təfsirində İslam Peyğəmbəri (s.ə.v.v) buyurur: «Beş şey beş şeylə yanaşıdır: qövmlər əhd-peymanı pozdular və Allah-Taala düşmənləri onlara qalib etdi, zina kimi çirkin günaha batdılar və ölüm

[84] "Ҝүнаhани-кәбирә", 2-чи чилд, səh-223.
[85] «Мутәффифин, ajə 1-7.
[86] «Күнаhани-кәбирә», 1-чи чилд, səh.418.

onların sorağına gəldi, Allah - hökmünün ziddinə hökm verdilər və fəqirliyə tuş gəldilər, zəkat ödəmədilər və yağışdan məhrum oldular, ölçüdə və çəkidə aldatdılar və quraqlığa məhkum edildilər».

«Əllahumməğfirliyəz-zunubəl-ləti tuğəyyirun-niəm» («Pərvərdigara, ne'mətləri dəyişən günahlarımı bağışla»).

Ne'mət dəyişən günahlar İmam Səccaddan (ə) nəql olunmuş bir hədisə görə bunlardır: xalqa zülm, xeyir iş ruhunu itirmək, xeyir işlərdən kənarlaşmaq, ne'mətlərə küfr etmək (naşükürlük), şükür etməkdən uzaqlaşmaq.

Bu günahlar insanı ne'mətlərdən məhrum edib əvəzində bəla, müsibət və əzaba salır.

## *XALQA ZÜLM*

Xalqa zülm etmək çox çirkin, ağır və şeytani bir işdir. İnsan yol verdiyi ən kiçik zülmə görə qiyamət günü hesab verəsidir. «Ənbiya» surəsinin 47-ci ayəsində oxuyuruq: **«Əgər sizin əməliniz xardal dənəsi ağırlıqda olsa belə ölçü üçün qiyamət səhnəsinə gətiriləcək və biz hesab çəkəcəyik».**

## *XEYİRXAHLIQ RUHİYYƏSİNİ TƏRK ETMƏK*

Allahın yardımı ilə insanda yaranan və rəhmət qapılarını onun üzünə açan xeyirxahlıq ruhiyyəsi çox dəyərli ne'mətlərdəndir. İnsan bütün vücudu ilə bu ne'məti qorumalıdır ki, xənnaslar, şeytanlar bu dəyəri onun əlindən almasınlar.

Mə'rifət qazanmaq, təvazökarlıq ruhiyyəsi əldə etmək, bəndələrə xidmət göstərmək yolunda bir çox təhlükələr

vardır. İnsan bu ruhiyyə'ni özündə qorumaq üçün ayıq olmalıdır. İstənilən bir zəiflik xeyirxahlıq adətlərini süstləşdirir. Bu ruhiyyə'ni qoruya bilməyən insan günaha yol verir və nəticədə ilahi ne'mətlərin yerini çətinliklər tutur.

### *XEYİRXAHLIQDAN UZAQLAŞMA*

Xalqa yaxşılıq və ehsan iman və insanlıq nişanəsidir. Xeyir əməl sahiblərinin mükafatı ilahi məhəbbətdir.[87]

Xeyirxah insanlar kiçik maneələr səbəbindən yaxşılıq və ehsanı tərk etməməlidirlər. Xalqa yaxşılıq Allaha ibadətdir. Bu əməllərin böyük mükafatı vardır və xeyirxah insan Allahın razılığını qazanır.

Heç şübhəsiz, xeyirxahlıqdan uzaqlaşmaq böyük günahdır. Bu uzaqlaşma insanı Allahın razılığından və gözəl əxlaqdan məhrum edir.

### *NE'MƏTƏ QARŞI KÜFR ETMƏK*

Qur'ani-Kərimin ağır əzab və'd etdiyi günahlardan biri də ne'mətlər qarşısında naşükürlük etməkdir.[88]

Ne'mətə qarşı küfr etməyin ən çirkin forması ne'məti günaha, haram işlərə puç istəklərə sərf etməkdir.

### *ŞÜKRÜN TƏRKİ*

İnsanın fiziki və mə'nəvi inkişafı üçün ona ne'mətlər bəxş etmiş Allaha şükür etmək vacibdir. Misilsiz ne'mətlər qarşısında şükür etməmək insanlıqdan uzaq bir xüsusiyyətdir.

---

[87] «Али-Имран» сурəси, ajə 134.
[88] «Ибраhим» сурəси, ajə 7.

Şükür ne'mət verəni və ne'məti tanımaq, bu ne'məti halal yerlərdə sərf etməkdir. Qəlb ne'mətinin şükrü onu imanla bəzəmək, Allah, qiyamət, peyğəmbər və imamlara inanmaqdır. Göz ne'mətinin şükrü Allahın əzəmətini seyr etmək, elm öyrənmək, Qur'an oxumaq və onu haramlardan qorumaqdır.

Qulaq ne'mətinin şükrü haqqı dinləmək, batil, haram musiqi, qeybət və böhtana qulaq asmamaqdır. Dil ne'mətinin şükrü gözəl danışıq, suallara doğru cavab, Qur'an oxumaq və s. Dili qeybətdən, yalandan, böhtandan, puç danışıqdan qorumaq lazımdır.

Qarın ne'mətinin şükrü halal və qədərincə yeməkdir. Şəhvət ne'mətinin şükrü bu yolda haram işlərdən çəkinməkdir.

Ayaq ne'mətinin şükrü məscidə getmək, elmi məclislərdə iştirak etmək, qohumları və din qardaşlarının görüşünə getməkdir. Var-dövlət ne'mətinin şükrü onu ailə-övlada xərcləmək, fəqirlərə yardım etmək, xüms və zəkat ödəməkdir.

Bəli, bu işlərdən istənilən birinin tərki günahdır və gec-tez ne'məti bəlaya çevirəsidir.

«Allahumməğfirliyəz-zunubəl-ləti-təhbisud-dua»

(«Pərvərdigara! Dualarımı həbsə salmış günahlarımı bağışla»).

Həzrət Səccad (ə) duanın qəbuluna mane olan yeddi günah göstərir: 1. Pis niyyət; 2. Gizli çirkin sifət; 3. İkiüzlülük və din qardaşı ilə nifaq; 4. Duanın qəbuluna inamsızlıq və onun vaxtını əldən buraxmaq; 5. Vacib namazı tə'xirə salıb vaxtını ötürmək; 6. Yaxşılıq və

sədəqəni tərk etmək; 7. Xalqla danışarkən yersiz sözlərə yol verib söyüş işlətmək.[89]

## *PİS NİYYƏT*

Niyyət dedikdə məqsəd və iradə başa düşülür. İslam dini öz ardıcıllarını - nəinki insanlara, hətta heyvanlara və təbiət aləminə qarşı - xoş münasibətə çağırır. İnsan hamı üçün xeyir və səadət istəməli, imkan daxilində xalqın çətinliyini aradan qaldırmağa çalışmalıdır. Xoş niyyət o qədər dəyərlidir ki, onun müqabilində böyük mükafatlar və’d edilir.

İmam Sadiq (ə) buyurur: «Fəqir mö’min belə dua edir: «Pərvərdigara, mənə ruzi əta et ki, xeyir işlər görə bilim». Əgər onun niyyəti xalis olsa, hələ heç bir xeyir iş görməmiş onun əməl naməsinə savab yazılar ...»[90]

Rəvayət olunur ki, çınqıllı yerdən keçən bir ac kişi «əgər bu çınqıllar təam olsaydı, onları xalq arasında bölərdim» deyə düşünür. Allah öz peyğəmbərinə vəhy edir ki, bu şəxsə «sədəqən qəbul olundu və mükafatına çatdın» - söylə».[91]

İnsan bütün ətrafdakılara münasibətdə pis niyyətdən çəkinməlidir. Pis niyyət insanın qəlbini qaraldır, onu çirkləndirir və günah üçün şərait yaradır.

## *GİZLİ VƏ ÇİRKİN SİFƏTLƏR*

Nifaq, bədgümanlıq, kin, eqoizm, riya, təkəbbür, lovğalıq, paxıllıq, xəsislik, tamah, həsəd, Allah düşməninə məhəbbət olduqca təhlükəli günahlardır.

---

[89] «Мəаниул-əхбар» cəh-269.
[90] «Мəhəччəтул-бəјза» 8-чи чилд, cəh-106.
[91] «Мəhəччəтул-бəјза» 8-чи чилд, cəh-104.

Bu günahların dünyəvi və üxrəvi əzabından əlavə' duanın qəbulunu əngəlləməyi də var.

İmam Baqir (ə) münafiq haqqında buyurur: «Pis o bəndədir ki, eyib axtarır, pis danışır, abır aparır, dost kimi gəlib, düşmən kimi arxa çevirir».[92]

## *BƏDGÜMANLIQ (SUİ-ZƏNN)*

Allaha, Onun övliyalarına, müsəlman xalqa qarşı bədgümanlıq çox ağır günahlardandır. Bu günahlar insanın qəlbində gizli olsa da, sətir-sətir əməl naməsinə yazılır. Bədgümanlıq edən şəxs dünyadan gedənədək tövbə etməzsə, axirət əzabına düçar olar. «Hücurat» surəsinin 12-ci ayəsində buyurulur: «Ey iman gətirənlər! Çox zənnə-gümana qapılmaqdan çəkinin. Şübhəsiz ki, zənnin bə'zisi günahdır».

İslam Peyğəmbəri (s) buyurmuşdur: «And olsun pərəstişə layiq olana, Allah-Taala heç bir mö'mini tövbədən sonra əzaba düçar etməz. İnsan o zaman əzaba düçar olur ki, Allaha bədgüman, Onun rəhmətindən ümidsiz, pis əxlaqlı olub, mö'min şəxslərin qeybətini etsin».[93]

Batini imanla bəzənmiş, zahiri saleh əməllərə bağlı insan Allahın rəhmət və mükafatından ümidini üzməyib nikbin olmalıdır. Əgər tövbə qapısı açıqdırsa, günahları yumaq mümkündürsə və Allah bağışlamaq və'di vermişdirsə insan nə üçün naümid olmalıdır?! Əksinə insan nikbin olub, Allahın rəhmətinə inanmalıdır.

---

[92] «Сəвабул-ə'мал», səh-269.

[93] «Кафи», 2-чи чилд, səh-71.

Mərhum Əllamə Məclisi bədgümanlıq haqqında olan hədisin şərhində deyir: «İnsan bağışlanmaq istədiyi vaxt Allahın onu bağışlaması üçün nikbin olmalıdır. İnsan tövbə edərkən əmin olmalıdır ki, tövbəsi qəbul ediləcək. Səmimi qəlblə dua edirsənsə inanmalısan ki, duan qəbul olacaq. Bir işə kömək istədiyin zaman Allahın yardımına şübhə etmə. Allaha xatir gördüyün iş hökmən qəbul ediləcəkdir. Bütün bunların ziddi Allaha bədgümanlıqdır və bədgümanlıq da böyük günahdır. Onun müqabilində əzab və'd edilmişdir».[94]

Əgər mö'min insanların gördüyü iş zahirən xoşa gəlmirsə, pis fikrə düşmək olmaz. Mö'minin işini imkan qədərincə düzgün hesab etmək lazımdır. Məsələn, mö'mini qumar, şərab, musiqi olan günah məclisində görən insan onun haqqında pis fikrə düşməməlidir. Bu yerdə bədgümanlıq Qur'an və Əhli-beyt nəzərindən haramdır və cəzası vardır. Dini göstərişlərə əsasən mö'mini günah məclisində görən insan tam sakitliklə özünə deməlidir: «Xoş bu mö'minin halına ki, Allahın yardımı ilə günah məclisində islah aparır, günahkarlara yol göstərir. Kaş bu iş mənə də qismət olaydı, şeytana əsir olanlara yardım əli uzada biləydim».

## *KİN*

Allah düşmənləri istisna olmaqla insanlara sevgi və məhəbbət vacibdir. Yaxınları yoxlamaq (sileyi-rəhm) dində vacib buyurulmuş xeyir əməllərdəndir. Kinli insan bu xeyir işdən məhrum olur. Kin insanın qəlbini

---

[94] «Биһарул-әнвар» 67-чи чилд, səh-365.

çirkləndirir, onun ruhunu zülmətə qərq edir, nəhayət insanı Allahın rəhmətindən uzaq salır.

Həzrət Peyğəmbər (s) buyurur: «Cənab Cəbrayıl hər dəfə mənim yanıma gələndə dedi: «Ey Məhəmməd, xalqla düşmənçilikdən çəkin.»[95]

Həzrət Əli (ə) buyurmuşdur: «Nadanlığın başı xalqla düşmənçilikdir»; «Xalqla düşmənçilik nadanların xüsusiyyətidir.»[96]

İmam Sadiq (ə) buyurmuşdur: «Xalqla düşmənçilikdən çəkin. Bu, həlakətə və eyiblərin açılmasına səbəb olar».[97]

## *ÜCB (ÖZÜNDƏN RAZILIQ)*

Özünə güvənmək, öz əməlindən razı qalmaq çox çirkin günahdır. İnsan Allahın mülküdür, onun həyat və ölümü Allahın əlindədir. Ruzi, ibadət və istənilən hər hansı bir başqa xeyir iş yalnız Allahın iradəsi ilə mümkün olur. Əgər insan müstəqil halda heç bir iş bacarmırsa, hansı əsasla başını dik tutmalıdır?!

İmam Sadiq (ə) buyurur: «Xudpəsəndliyə düçar olan şəxs həlak olasıdır.»[98] «Alim bir şəxs abidin yanına gəlib dedi: Necə namaz qılırsan? Abid cavab verdi ki, mənim kimidən soruşursan ki, necə namaz qılırsan? Mən elə əvvəldən Allaha belə-belə ibadətlər edirəm. Alim soruşdu ki, ağlamağın necədir? Abid cavab verdi: Gözümdən yaş sellələnədək ağlayıram. Alim dedi: Düzü, ağlayıb lovğalanmaqdansa, gülüb Allahdan

---

[95] «Кафи» 2-чи чилд, səh-301.

[96] «Ғурəрул-һикəм», səh-461.

[97] «Ихтисас», səh-230.

[98] «Кафи», 2-чи чилд, səh-313.

qorxmağın daha yaxşıdır. Doğrudan da, özünü bəyənənin heç bir işi Allah dərgahına qalxmaz.»[99]

İslam Peyğəmbəri (s) buyurur: «Allah-Taala Davuda buyurdu: Ey Davud! Günahkarlara müjdə ver, siddiqləri (mö'minləri) qorxut. Davud ərz etdi ki, günahkarlara müjdə verim siddiqləri qorxudum? Allah-Taala buyurdu: Ey Davud! Günahkarlara müjdə ver ki, tövbələrini qəbul edər, günahlarını bağışlayaram. Siddiqləri qorxut ki, əməllərini bəyənib lovğalanmasınlar. Çünki mənə hesab verən bəndə (bağışlamasam) həlak olar».[100]

## *RİYA*

İstənilən bir əməl və ibadətdə özünü xalqa göstərmək haramdır və Allahın qəzəbinə səbəb olar. Qur'ani-Kərimdə riyakar namaz qılanlara müraciətlə buyurulur: **«Vay o namaz qılanlara ki, namazlarında qəflətdə olub riya edirlər».[101]**

Bir şəxs Həzrət Peyğəmbərdən (s) soruşdu: «İnsanın qurtuluşu nədədir?» Həzrət (s) buyurdu: «Xalqın diqqətini cəlb etmək üçün ibadət etməməsindədir.»[102]

Bir rəvayətdə deyilir: Kimi cihadda öldürülür, kimi var-dövlətini sədəqə verir, kimi Qur'an oxuyur. Əgər cihad edənin məqsədi özünü şücaətli göstərmək, sədəqə verənin məqsədi səxavətli tanınmaq, Qur'an oxuyanın istəyi qari kimi məşhurlaşmaqdırsa onların

---

[99] «Кафи», 2-чи чилд, сəһ-313.
[100] «Кафи», 2-чи чилд, сəһ-314.
[101] «Маун» сурəси, ајə 4-6.
[102] «Мəһəччəтул-бəјза», 6-чы чилд, сəһ-139.

heç birinin mükafatı yoxdur və riya əməllərini puça çıxarmışdır.[103]

Bir hədisdə İslam Peyğəmbəri buyurur: «Allah taala mələklərə buyurar ki, bu şəxs iş gördüyü vaxt bizi nəzərdə tutmadığı üçün onu cəhənnəmə göndərin» (eyni mənbə).

İslam Peyğəmbəri (s) buyurur: «Sizin üçün qorxduğum ən təhlükəli şey kiçik şirkdir, yə'ni riya»; «Bir əməldə zərrə qədər riya olarsa, Allah o əməli qəbul etməz»[104]

Şəddad ibn Ous deyir: «Gördüm ki, Həzrət Peyğəmbər (s) ağlayır. Səbəbini soruşdum. Buyurdu ki, ümmətimin şirk edəcəyindən qorxuram, onlar bütə günəşə' aya, daşa pərəstiş etməyəcəklər, amma əməllərində riya və xudpəsəndlik olacaqdər.»[105]

## *TƏKƏBBÜR*

İstər Allah və Onun göstərişləri, istərsə də xalq qarşısında özünü çəkib təkəbbür göstərmək şeytani sifətdir. İblis Allah hökmü qarşısında təkəbbür göstərdiyi üçün Allahın hüzurundan əbədilik qovuldu və lənətə düçar oldu. Təkəbbürlü insan Allahın məhəbbət dairəsindən kənardır. «Nəhl» surəsinin 23-cü ayəsində buyurulur: **«Həqiqətən O, təkəbbürlüləri sevməz».** Qur'ani-Kərim təkəbbürlü insanları cəhənnəm əhli hesab edir: «Cəhənnəm təkəbbürlülər üçün pis yerdir.»[106]

---

[103] Һəмəн мəнбə.

[104] Һəмəн мəнбə.

[105] Һəмəн мəнбə.

[106] «Нəһл» сурəси, ajə 29.

Bəli, özünü başqalarından üstün bilmək, özünü hamıdan ağıllı hesab etmək, ilahi göstərişlərə itaətdən boyun qaçırmaq böyük günahdır və bu günahın müqabilində ağır əzab və’d edilmişdir. İnsanın öz biliyinə ibadətinə, saleh əməlinə, əsil-nəcabətinə, gözəlliyinə, var-dövlətinə, övladlarına, dostlarına rəğmən xalq qarşısında özünü yuxarı tutması çox çirkin işdir. İmam Sadiq (ə) buyurur: «İzzət və əzəmət, üstünlük və böyüklük Allaha məxsus xüsusiyyətlərdir. Özünü belə göstərmək istəyənləri Allah cəhənnəmə atar».[107]

Həzrət Baqir (ə) və İmam Sadiq (ə) buyururlar: «Qəlbində bir zərrə ağırlığında təkəbbür olanlar behiştə daxil olmaz».[108] İmam Sadiq (ə) buyurur: «Doğrudan da, cəhənnəmdə təkəbbürlülərə məxsus «səqər» adlı yer var. Buranın istisindən Allaha şikayət edər, nəfəs almaq üçün icazə istəyərlər. Elə ki, nəfəs çəkərlər, nəticədə cəhənnəm alışar.[109]

Əbdül-Ə’la deyir: «İmam Sadiqdən (ə) soruşdum ki, təkəbbür nədir? İmam (ə) buyurdu ki, təkəbbürün ən böyük dərəcəsi həqiqəti yüngül, xalqı alçaq saymaqdır. Soruşdum ki, həqiqəti yüngül saymaq nədir? Buyurdu ki, onu anlamayıb, əhlinə tənə etmək.»[110]

## *ALDANIŞ (QÜRUR)*

İnsanı həqiqətdən qafil saxlayan maddi və mə’nəvi işlərə aldanış çox təhlükəlidir. Dünyanın bər-bəzəyinə

---

[107] «Биһарул-әнвар», 70-чи чилд, cəh-213.

[108] «Кафи», 2-чи чилд, cəh-310.

[109] «Кафи», 2-чи чилд, cəh-310.

[110] «Кафи», 2-чи чилд cəh-311.

aldanıb həqiqəti inkar edənlər, dünyanın müvəqqəti olduğunu, bir gün qəbrə sakin olacaqlarını, bərzəx səhnəsində çirkin əməllərə görə əziyyət çəkəcəklərini və cəhənnəm əzabına düçar olacaqlarını unudurlar.

Onlar dünyanı nağd, axirəti isə nisyə zənn edirlər. Müvəqqəti dünya ləzzətləri ardınca qaçır və əbədi axirətə şəkk edirlər. Onlar Allahın, 124 min peyğəmbərin, mə'sum imamların axirət və'dələrini qəbul etmək, iman yolunda addım atmaq, günahdan çəkinmək və əxlaqlarını zinətləndirmək fikrində deyildirlər. Bu insanlar düşünmürlər ki, axirət ne'mətləri dünyadakı zəhmətlərin məhsuludur. İslam Peyğəmbəri (s) buyurur ki, dünya axirətin tarlasıdır. Axirət dünyadan təcrid olunmuş bir şey deyil. O, dünya həyatının bir başqa formasıdır. Dünyanı nağd, axirəti nisyə bilmək isə nadanlıq əlamətidir. İlahi göstərişlərdən qəflətdə olanlar elə düşünürlər ki, əgər Allahın rəhməti hər şeyi bürümüşsə ibadətə təqvaya, günahdan çəkinməyə ehtiyac yoxdur. Onların fikrincə Allahın nəhayətsiz rəhməti müqabilində insanın günahları o qədər kiçikdir ki, bu günahlar əzaba səbəb ola bilməz. Onlar anlamırlar ki, şeytan və azğın nəfs insanı zahiri gözəl, batini isə çirkin və'dələrlə aldadır.

İslam Peyğəmbəri (s) buyurur: «Ayıq və zirək o kəsdir ki, nəfsinə qarşı çıxıb, ölümdən sonra üçün çalışsın. Nadan o kəsdir ki, nəfsinə tabe olub, Allaha əsassız ümidlər bağlasın».[111]

Bu insanlar unudurlar ki, yalnız rəhməti haqqında düşündükləri Allah bir çox Qur'an ayələrində

---

[111] «Мәчмуеје-вәррам», 1-чи чилд səh-243.

günahkarlara, xeyir işdən uzaq düşənlərə özünü bəyənənlərə əzab və'd etmişdir. Allah-Taala öz rəhmətini yalnız iman və təqva əhlinə aid edir: «Heç şübhəsiz, iman əhli, Allaha xatir yurdundan hicrət edənlər və Allah yolunda cihada qalxanlar Allahın rəhmətinə ümid edə bilərlər».[112]

Günaha qərq olub, Allahın vacib buyurduğu əməllərdən çəkinərək Onun rəhmətinə ümid etmək aldanışdır. İmam Sadiq (ə) buyurur: «Bir dəstə insan növbənöv günahlara bulaşıb Allahın rəhmətinə ümidvar olduqlarını söyləyir. Belələri ümid və arzularda iztiraba düşənlərdir. Onlar yalan deyirlər və ümidvar deyildirlər. Bir şeyə ümid bağlayan insan ona çalışar, bir şeydən qorxan insan ondan qaçar».[113]

Həzrət Əli (ə) buyurur: «Qəflət, qürur, aldanış məstliyindən oyanmaq şərab məstliyindən oyanmaqdan çətindir»; «İnsan günah batlağında qərq ola-ola Allahdan bağışlanmaq ümidindədirsə Allah haqqında yanılır».[114]

İslam Peyğəmbəri (s) ibni Məs'uda buyurur: «Ey ibni Məs'ud! Allaha məğrur olma (əsassız ümid etmə), bər-bəzəyə elminə əməlinə yaxşılığına, bəndəliyinə aldanma.»[115]

## *XƏSİSLİK*

Allah-Taalanın maddi və mə'nəvi ne'mətlərindən faydalanan insanın bu ne'mətlərdən sədəqə zəkat

---

[112] «Бәгәрә» сурәси, ajə 218.

[113] «Сәфинәтул-биһар», 3-чү чилд, сәһ-319.

[114] «Мәчмуеје-вәррам», 2-чи чилд, сәһ-72.

[115] «Мәкаримүл-әхлаг», 451.

verməkdə xəsislik göstərməsi çox çirkin bir sifətdir. Var-dövlət Allah-Taalanın insana verdiyi əmanətdir. İnsan bu əmanətdən özü üçün istifadə etməli və artıq qalan hissəsini ehtiyacı olanlara verməlidir. İnsan ixtiyarına verilmiş mülkü mülk sahibinin istəyinə uyğun sərf etməlidir. Əgər bir şəxs başqasının əmanətini öz nəfsinin istəyinə uyğun sərf edərsə sözsüz ki, cəzalandırılmalıdır.

Allah razılığının ziddinə olan var-dövləti şeytan və nəfs istəyinə uyğun xərcləmək böyük günahdır və bu günahın ağır əzabı vardır. Xəsislik şeytani bir sifətdir və bu sifətə malik olan insan ayə və rəvayətlərdə əzaba layiq bilinir. «Nisa» surəsinin 37-ci ayəsində buyurulur: **«O kəslər ki, özləri xəsislik etməklə bərabər, başqalarını da xəsisliyə təhrik edir və Allahın Öz lütfündən bəxş etdiyi ne'mətləri gizlədərlər. Biz (belə) kafirlər üçün rüsvayedici əzab hazırlamışıq.»**

İslam Peyğəmbəri (s) buyurur: «Behişt minnət qoyana, xəsisə və söz gəzdirənə haramdır».[116]

Həzrət Əli (ə) eşitdi ki, bir kişi belə deyir: «Xəsis zalıma nisbətən üzürlüdür». Həzrət (ə) buyurdu: «Yalan deyirsən, zalım tövbə edər, Allahdan bağışlanma diləyər və xalqın haqqını qaytarar. Xəsis isə xəsislik edib zəkatı, sədəqəni sileye-rəhimi, qonağın qəbulunu, Allah yolunda xərcləməyi, xeyir işləri tərk edər və behişt ona haram olar».[117]

---

[116] «Вәсаилуш-шиә», 9-чу чилд, сәһ-452.
[117] «Биһарул-әнвар», 70-чи чилд, сәһ-302.

İslam Peyğəmbəri (s) buyurur: «Müsəlmanda iki xislət olmaz: xəsislik və pis əxlaq».[118]

İmam Sadiq (ə) buyurur: «Əgər Allah yolunda sərf olunmuş bir malın əvəzi Allah-Taala tərəfindən veriləcəksə, xəsisliyin mə'nası nədir?!»[119] Həzrət Musa ibn Cəfər (ə) buyurur: «Xəsis o şəxsdir ki, Allahın ona vacib etdiyini yerinə yetirməkdə xəsislik göstərir».[120]

İslam Peyğəmbəri (s) buyurmuşdur: «Səxavətli şəxs Allaha, xalqa və behiştə yaxındır. Xəsis şəxs isə Allahdan, xalqdan və behiştdən uzaqdır».

## *HƏRİSLİK*

Ehtiyacdan artıq olan var-dövlətə meyl insanın fikrini dolaşıq salır, onu ilahi əhkam və əxlaqdan, insanlıqdan uzaqlaşdırır. Xalqın malına və haqqına göz dikən insan harama, qarətə və günaha düçar olur.

Allahı, qiyaməti düşünmək, Allahın əzabından qorxmaq, əxlaq məsələlərinə riayət etmək, insanların hüququnu pozmamaq insanı hərislikdən və həddi aşmaqdan qoruyur. Əgər Allah-Taala insan üçün kamil bir süfrə sərmişsə qazanc üçün müxtəlif yollar qoyulmuşsa və insan qismətindəki son tikəni yeməmiş dünyadan getmirsə hərislik nəyə lazımdır?! İslam Peyğəmbəri (s) buyurur: «Ən ehtiyacsız şəxs o şəxsdir ki, tamaha əsir olmasın».[121] Həzrət Peyğəmbər (s) Həzrət Əliyə (ə) vəsiyyətində buyurur: «Ya Əli, səni üç

---

[118] «Биһарул-әнвар», 70-чи чилд, сəh-301.

[119] «Биһарул-әнвар», 70-чи чилд, сəh-300.

[120] «Кафи», 4-чү чилд, сəh-45.

[121] «Әмалије-Сәдуг», сəh-20.

ən çirkin xüsusiyyətdən çəkinməyə çağırıram: paxıllıq, hərislik və yalan.[122]

İmam Sadiq (ə) buyurur: «Nuh gəmidən düşdüyü zaman İblis ona yaxınlaşıb dedi: «Yer üzündə boynumda sənin qədər minnəti olan insan yoxdur. Günahkarlara əzab istəməyinlə məni rahatlığa çıxardın. Səni iki xüsusiyyətdən xəbərdar edirəm. Həsəddən çəkin, gör başıma nələr gətirdi! Hərislikdən uzaq ol, gör Adəmin başına nələr gətirdi».[123]

İslam Peyğəmbəri (s) buyurur: «Həris şəxs yeddi çətin bəla içindədir: bədəninə zərərli və faydasız fikir; sonsuz qəm-qüssə; yalnız ölümlə sona çatan əziyyət; nə vaxtsa düçar olacağı qorxu; şirini acıya döndərən kədər; İlahi əzaba düçar edən hesab (əfv olunmazsa); xilas yolu olmayan əzab».

## *TAMAH*

Xalqın əlində olana məhəbbət tamahkarlıqdır. İmam Səccad (ə) buyurur: «Bütün xeyirləri xalqın sərvətindən, malından, məqamından tamahı kəsməkdə gördüm».[124] İmam Sadiqdən (ə) soruşdular ki bəndəni imanlı edən və onun imanını əlindən alan nədir? İmam (ə) buyurdu: «Təqva imanlı edər, tamah imanı əldən alar».[125]

İmam Hadi (ə) buyurur: «Tamah çirkin bir sifətdir».[126] İmam Sadiq (ə) buyurur: «Əgər xoşhal olub dünya və axirət xeyrinə çatmaq istəyirsənsə, xalqın əlində olana

---

[122] «Биhарул-әнвар», 70-чи чилд, сəh-162.

[123] «Биhарул-әнвар», 70-чи чилд, сəh-163.

[124] «Биhарул-әнвар», 70-чи чилд, сəh-171.

[125] «Биhарул-әнвар», 70-чи чилд, сəh-171.

[126] «Биhарул-әнвар», 69-чу чилд сəh-199.

tamah salma».[127] Həzrət Əli (ə) buyurur: «Ömür boyu azad qalmaq istəyən kəs qəlbində tamaha yer verməz».[128]

## *HƏSƏD, PAXILLIQ*

Çox çirkin sifət olan həsəd odur ki, camaatın var-yoxunun onların əlindən çıxmasını arzulayasan. Paxıllıq Allahın bölgüsünə Onun başqalarına ne'mət verməsinə e'tirazdır. Təkəbbür və özünü bəyənmək, rəyasətə və üstünlüyə məhəbbət insanda həsəd doğuran amillərdir. İmam Sadiq (ə) buyurur: «Alov çör-çöpü yandırdığı kimi, həsəd də imanı yandırır».[129] «Həsəd, xudbinlik və lovğalıq dinin bəlasıdır.»[130]

İmam Sadiq (ə) buyurur: «Həzrət Musa (ə) Allah-Taala ilə münacat etdiyi vaxt buludun bir kişiyə kölgə saldığını görür. Allaha ərz edir ki, bu şəxs kimdir? Allah-Taala buyurur: «Bu o şəxslərdəndir ki, Allahın ehsan əta etdiyi insanlara paxıllıq etmir».[131]

## *ALLAH DÜŞMƏNLƏRİNƏ MƏHƏBBƏT*

Allah düşmənlərinə sevgi qəlbin xəstəliyindən doğur. İnsan yaxşı insanları və yaxşı işləri sevməli, pis işlər və pis insanlara düşmən olmalıdır. Əgər qəlb bunu istəmirsə, deməli xəstədir. Əgər bu xəstəlik ayə və rəvayətlərlə müalicə olunmazsa, böyük çətinliklərə səbəb olar.

---

[127] «Хисал», 1-чи чилд, səh-121.
[128] «Мәчмуеје-вәррам», 1-чи чилд, səh-49.
[129] «Кафи», 2-чи чилд, səh-306.
[130] «Кафи», 2-чи чилд, səh-307.
[131] «Биһарул-әнвар», 70-чи чилд səh-255.

Qur'ani-Kərimdə Peyğəmbər (s) və mö'minlər kafirlərə qarşı amansız, öz aralarında isə mehriban tanıtdırılırlar. «Fəth» surəsinin 29-cu ayəsində oxuyuruq: «Məhəmməd (s) Allahın rəsuludur. Onunla olanlar kafirlərə qarşı amansız, öz aralarında isə mehribandırlar». Mö'minlərə belə buyurulur: **«Nə mənim düşmənimi, nə də öz düşməninizi dost tutun. Onlar sizə gələn haqqı inkar etdikləri halda siz onlarla dostluq edir, mehribanlıq göstərirsiniz».**[132] «Mucadilə» surəsinin 22-ci ayəsində oxuyuruq: **«Allaha və axirət gününə inanan bir tayfanın - ataları, oğulları, qardaşları, qohumları olsalar da belə - Allah və onun rəsuluna qarşı çıxanlarla dostluğunu görməzsən».**

## *İKİÜZLÜLÜK VƏ NİFAQ*

Nifaq, ikiüzlülük, üzdə özünü mö'minlərə dost kimi göstərib, arxada düşmənçilik etmək o qədər çirkin sifətlərdir ki, Allah-Taala Qur'anda bu sifətlərə görə ağır əzab və cəhənnəm və'd edir. Münafiq, düşmənlərlə müntəzəm əlaqə saxlayıb, mö'minlər üçün çətinlik yaradan şəxsdir. O, mö'minlərin sirrini xain şeytansifətlərə fir'onməslək zalımlara açmaqla məşğuldur. Münafiq çox çətin müalicə olunan bir xəstədir. Münafiqin imanı dilində küfrü qəlbindədir. Onun ruhu çirkin, əxlaqı puç, əməli ləyaqətsiz, düşüncəsi şeytanidir. Münafiq, işi-gücü hiylə qurmaq olan təhlükəli bir mövcuddur.

---

[132] «Мумтəhинə» сурəси, ajə 1.

Bu xainlərin nişanələrini açıqlayan Qur’an ayələrindən əlavə, onların iç üzünü göstərən mö’təbər hədislər də vardır.

Həzrət Riza (ə) Məhəmməd ibn Fuzeylə yazdığı cavab məktubunda münafiqlər haqqında buyurur: «Allaha, İslam ayinlərinə Peyğəmbərə (s) və müsəlmanlara hiylə quran ikiüzlülər Peyğəmbər (s) ardıcıllarından, iman əhlindən, müsəlman zümrəsindən deyildirlər. Onlar özlərini zahirdə imanlı və mö’min kimi göstərir, küfr və inkarlarını gizlədirlər. Allah onların hamısına lə’nət etsin».[133]

İmam Sadiq (ə) buyurur: «Nifaqın nişanələri daşqəlblilik, gözüyaşsızlıq, günahda israr, dünyaya həddindən artıq rəğbətdir».[134] İslam Peyğəmbəri (s) buyurmuşdur: «Batini zahiri ilə bir olmayan şəxs - kim olur-olsun, necə olur-olsun, harada olur-olsun, hansı məqamda olur-olsun, münafiqdir».[135]

Duanın qəbul olmasına mane olan səbəblərdən biri də inamsızlıq, sui-zəndir. Ötən söhbətlərdə bu barədə ətraflı danışdığımız üçün bu mövzunun üzərində dayanmırıq.

## *NAMAZI TƏ’XİRƏ SALMAQ*

Namaz kamil bir ibadət, bəndəliyin ən gözəl mərasimi, Allah qarşısında kiçikliyin izharıdır. Ayə və rəvayətlərdə namaz haqqında çox mühüm həqiqətlərə işarə olunmuşdur.

---

[133] «Биһарул-әнвар», 69-чу чилд, сəh-175.
[134] «Ихтисасе-муфид», сəh-228.
[135] «Мисбаһуш-шәриә», сəh-25.

Namaz insanı çirkin işlərdən uzaqlaşdırır. Namaz qılmaq mö'minlik nişanəsidir. Bütün peyğəmbərlər namaz qılmış, öz ailə üzvləri və yaxınlarını namaza də'vət etmişlər.

Namazı hifz etmək vacib vəzifələrdəndir. Namaz qılmayan şəxs Allahın rəhmətindən və şəfaətçilərin şəfaətindən məhrumdur. Namaz dinin qanunlarından, Allahı razı salan məqamlardan və peyğəmbərlərin aşkar yollarından biridir. Dini qəbul edən insan üçün ilk vəzifə namazdır. Namaz dinin şərəfi və qüdrətidir. Şeytanın həmlələri qarşısında namaz möhkəm bir səddir. Namaza görə İlahi rəhmət nazil olar. Allaha doğru ən sevimli əməl namazdır. Həzrət Peyğəmbərin (s) son vəsiyyəti də namaz olmuşdur. O, namazı gözünün nuru adlandırırdı. Namaz insanı təqvaya və pəhrizə yaxınlaşdırır. İlahi mə'rifətdən sonra ən üstün əməl namazdır. O, dinin sütunudur. Qaydasınca qılınan namaz bağışlanma səbəbidir. Qiyamətdə də ilk öncə onun haqqında soruşular. Allah-Taalanın nəzər saldığı ilk əməl də namazdır. İlk hesaba çəkilən də namaz olar. Namaz insanı təkəbbürdən uzaqlaşdırır. Namazın qəbul olunması üçün təqvalı və pak olmaq, günaha yol verməmək lazımdır.

Namazı əvvəl vaxtında qılmaq axirəti dünyadan üstün tutmaqdır. Mö'min şəxs üçün vaxtında qılınan namaz var-dövlətdən, ailə-övladdan, bir sözlə bütün dünya işlərindən üstündür. Namaz qılmayan kafirdir və öləndən sonra yəhudilər cərgəsində durar. Namazı yüngül sayan şəxs Allahı və onun rəsulunu inkar edir.

Eləcə də namazı qaydasınca qılmamaq duanın qəbul olmasına maneçilik törədir.

## *YAXŞILIQ VƏ SƏDƏQƏNİN TƏRKİ*

Xalqa ehsan, ehtiyaclılara sədəqə vermək Allahın razılığına, Onun rəhmətinə duanın qəbuluna nail olmaq üçün əsas səbəblərdəndir. İslam Peyğəmbəri (s) buyurur: «Sədəqə insandan yetmiş bəlanı uzaqlaşdırar...».[136] «Sədəqə verin, xəstəliklərinizi sədəqə vasitəsi ilə sağaldın. Şübhəsiz ki, sədəqə narahatlıqları aradan qaldırar, xəstəlikləri dəf edər, ömrü və yaxşılıqlarınızı artırar».[137]

## *SƏDƏQƏ HAQQINDA DASTAN*

Musa qövmündən olan Abod adlı bir saleh şəxs otuz il dua edib Allahdan övlad istəsə də duası qəbul olmurdu. O, bəni-İsrail peyğəmbərlərindən birinin yanına gedib dua istədi. Peyğəmbər ona dua etdikdən sonra dedi: «Ey Abod, sənin haqqındakı duam qəbul oldu və sənə tezliklə bir övlad əta ediləcək. Amma ilahi qəzavü-qədərdən həmin övlad toy gecəsi dünyasını dəyişəcək!»

Abod evə gəlib əhvalatı arvadına danışdı. Arvadı «hər halda, Allahın qəzavü-qədəri ilə razılaşmalıyıq», dedi. Abod dedi: «Hər ikimiz qocalmışıq. Olsun ki, övladımız yetkinlik yaşına çatanadək dünyamızı dəyişək və onun fərağını görməyək».

Doqquz aydan sonra Abodə gözəl bir oğlan uşağı əta edildi. Bu uşağın böyüməsi və tərbiyəsi üçün qocalar

---

[136] «Кәнзул-әммал», 15982.
[137] «Кәнзул-әммал», 16113.

çox əziyyət çəkdilər. Nəhayət, oğlan ata-anasından ailə qurmaq üçün icazə istədi. Ata-ana övlada xatir bu işi nə qədər yubatdılarsa da, axırı ki, bir gün toy mərasimi quruldu. Toy gecəsi bəla saatını gözləməyə başladılar. Bəy və gəlin bu gecəni salamatlıqla başa vurdular. Bir həftə ötdü. Ata-ana sevinc içərisində dövrün peyğəmbərinin yanına gəldilər və dedilər: «Dua edib bizim üçün övlad istədin və dedin ki, toy gecəsi ölüm onu haqlayacaq. Amma bir həftə ötüb, oğlumuz isə sağ-salamatdır». Peyğəmbər (ə) dedi: «Təəccüblüdür! Mən o sözləri özümdən deməmişdim, Allahdan ilham edilmişdi. Görəsən, oğlunuzun hansı əməli bu qəzanı ondan sovuşdurub?» Bu vaxt Cəbrail-Əmin gəlib dedi: «Allah salam göndərib deyir: Qəza sənin dilinə gətirdiyim sözlər idi. Amma o gənc elə bir xeyir iş gördü ki, hökmünü ləğv etdim, başqa bir hökm verdim. Həmin gənc toy gecəsi yeməyə məşğul olduğu vaxt möhtac bir qoca gəlib yemək istədi. Gənc öz yeməyini qocaya verdi. Qoca yeməyi yeyib belə dua etdi: «Pərvərdigara! Onun ömrünü artır!» Mən bu duaya görə həmin gəncin ömrünü səksən il artırdım. Dünya əhli bilsin ki, mənimlə müamilədə kimsə zərər görməz və kimsənin mükafatı batmaz».[138]

## *SÖYÜŞ SÖYMƏK VƏ BİABIRÇI SÖZLƏR DANIŞMAQ*

Dil haqq və müsbət sözlər danışıb xalqı doğru yola yönəltməklə böyük savab qazana bildiyi kimi, məntiqsiz və çirkin sözlər danışıb qeybət və böhtana

[138] «Əс-ситтинил-чаме», səh-44.

yol verməklə, əbədi əzaba düçar ola bilər. Din böyükləri deyirlər: «Dil kiçik günahı isə böyükdür».

Həzrət Peyğəmbər (s) buyurur: «Şübhəsiz ki, insanın bir çox xataları onun dilindədir».[139] İmam Sadiq (ə) buyurmuşdur: «İnsanın işində şeytanın iştirak əlamətləri bunlardır: Söyüş söyən olsun, nə danışmaqdan və onun haqqında nə danışılacağından qorxmasın».[140] «Söyüş söymək batildir, batil isə atəşdədir.»[141]

Bir sıra rəvayətlərdə belə nəql olunur: «Müsəlman qardaşına söyüş söyən şəxsin ruzisindən bərəkət götürülər, o özbaşına buraxılar, yaşayış vasitələri məhv olar».[142]

«Allahumməğfirliyəz-zunubəl-ləti tunzilul bəla»
(«Pərvərdigara, bəla nazil edən günahlarımı bağışla»)

Üç günah insana bəla nazil edər:

1. Qəlbisınıq insanın fəryadına diqqətsizlik;
2. Məzluma kömək etməmək;
3. Əmr be mə’ruf və nəhy əz munkərin, yə’ni yaxşıya də’vət və pisdən çəkindirmənin tərki.

## *QƏLBİSINIQ İNSANIN ÇAĞIRIŞINA DİQQƏTSİZLİK*

Maddi ziyana düşmüş, əzizlərindən birini itirmiş, hər hansı bir müsibətə düçar olmuş insanın fəryadına səs

[139] «Кәнзул-әммал», 3-чү чилд, сәh-549.
[140] «Кафи», 2-чи чилд, сәh-323.
[141] «Кафи», 2-чи чилд, сәh-325.
[142] «Кафи», 2-чи чилд, сәh-225.

vermək istəyi fitri bir xüsusiyyətdir. Qəlbisınıq insanın səsinə səs verməmək müsəlmanlığa, insanlığa sığmayan bir işdir.

Şərik deyilsənsə özgə qəminə
Heç ümid bağlama vüsal dəminə.

İslam Peyğəmbəri (s) buyurur: «Hər kəs müsəlmanların işinə yarımadan sübhü açarsa, müsəlman deyil».[143] Öz din qardaşına yardım və onun fəryadına çatmaq Allah əmri, Peyğəmbər (s) və imamların (ə) sifarişidir.

İmam Sadiq (ə) buyurur: «Allah mö'minin qəm-qüssəsini aradan qaldıran kəsin axirət qəm-qüssəsini aradan qaldırar. ... Mö'minin aclığını doyuran kəsə Allah behişt meyvəsi yedirər. Mö'minin susuzluğunu şərbətlə yatıran kəsin susuzluğunu Allah «rəhiqi məxtum» ilə yatırar».[144]

İmam (ə) başqa bir hədisdə belə buyurur: «Hər kəs çətinlik zamanı mö'min qardaşının fəryadına çatıb, onun qüssəsini aradan qaldırsa və ona istəyinə çatmaqda yardımçı olsa, Allah onun üçün 72-rəhmət yazar ki, birini dünya işlərinin həllinə ayırıb, 71-ni qiyamət qorxusu üçün ehtiyat saxlasın».[145]

## *MƏZLUMA KÖMƏKDƏN ÇƏKİNMƏ*

Məzluma yardım, ona kömək əli uzatmaq İslam dinində o qədər əhəmiyyətli iş hesab olunur ki, Həzrət

[143] «Кафи», 2-чи чилд, səh-163.
[144] «Кафи», 2-чи чилд, səh-199.
[145] «Кафи», 2-чи чилд, səh-199.

Əli (ə) ramazan ayının 21-ci gecəsi, ömrünün son dəqiqələrində övladları Həsənə (ə) və Hüseynə (ə) vəsiyyətində buyurur: «Zalıma düşmən, məzluma yardımçı olun».[146] Bəli, bu sözlər zülm və məzlum qarşısında mö'minin ən gözəl şüarıdır.

İslam Peyğəmbəri (s) buyurur: «Hər kəs zalımdan məzlumun haqqını alsa, behiştdə mənə yoldaşdır».[147] Həzrət Əli (ə) buyurur: «Məzlum görəndə zalıma qarşı ona kömək et».[148] «Ən gözəl ədalət məzluma yardım göstərməkdir».[149]

İmam Sadiq (ə) buyurur: «Mö'minin zülmə düşmüş mö'minə yardımı bir ayın orucu, Məscidül-həramda e'tikafdan üstündür. Yardım etməyə qüvvəsi çatan mö'min öz mö'min qardaşına yardımçı olarsa, dünya və axirətdə Allah ona yardımçı olar. Gücü çatdığı halda mö'minə yardım etməyi boşlayanı Allah dünya və axirətdə boşlayar».[150]

İslam Peyğəmbəri (s) buyurur: Allah-Taala buyurmuşdur: «And olsun izzət və cəlalıma, dünya və axirətdə zalımdan hökmən intiqam alaram. Məzlumu görüb, gücü çatdığı halda ona yardım etməyəndən də intiqam alacağam».[151]

---

[146] «Нәһчүл-бәлағә» cəh-421.
[147] «Биһарул-әнвар», 72-чи чилд, cəh-359.
[148] «Ғүрәрул-һикәм», cəh-450.
[149] «Ғүрәрул-һикәм», cəh-446.
[150] «Сәвабул-әммал», cəh-147.
[151]«Кәнзул-әммал», 7641.

## *ƏMR BE MƏ’RUF VƏ NƏHY ƏZ MÜNKƏRİN TƏRKİ*

Qeyd etdik ki, «əmr be mə’ruf və nəhy əz münkər» «yaxşıya də’vət və pisdən çəkindirmək»dir. Bu iki göstəriş dinin vacib buyruqlarındandır. Zəruri şəraitdə özü pak və uyğun hökmlərdən xəbərdar olan insan üçün bu vəzifələr vacibdir. Vacib olduğu halda bu iki vəzifəni tərk etmək böyük günahdır və əzabı vardır.

Bütün peyğəmbərlər dinin əsasını təşkil edən bu iki əmri yerinə yetirmək üçün göndərilmişlər. Bu əmrlər pozularsa, elm və elmə əməl etmək məhv olar, din aradan qalxar, azğınlıq ayaq tutub yeriyər, nadanlıq baş qaldırar, xalq arasında fəsad yayılar, şəhərlər xaraba qalar, insanlar uçuruma yuvarlanarlar.

«Ali-İmran» surəsinin 104-cü ayəsində buyurulur: **«İçərinizdə yaxşılığa çağıran, xeyirli işlər görməyi əmr edən və pis əməlləri qadağan edən bir camaat olsun. Bunlar, həqiqətən, nicat tapmış şəxslərdir».** «Tövbə» surəsinin 71-ci ayəsində oxuyuruq: **«Mö’min kişilərlə mö’min qadınlar bir-birlərinin vəlisidirlər. Onlar yaxşı işlər görməyi əmr edər, pis işləri yasaqlayar, namaz qılıb zəkat verər, Allaha və Onun rəsuluna itaət edərlər».**

İslam Peyğəmbəri (s) buyurur: «Siz yaxşı işləri əmr, pis işləri qadağan etməlisiniz. Əks təqdirdə Allah pislərinizi (şər adamlarınızı) sizə qalib edər. Əgər belə olarsa, yaxşılarınız dua edər, amma duaları qəbul olmaz».[152]

---

[152] «Мәһәчҹәтул-бәјза», 4-ҹү ҹилд, сəh-99.

Həzrət (s) başqa bir rəvayətdə buyurur: «Xalqın gediş-gəliş yolunda oturmaqdan çəkinin». Ərz edilir ki, «bu, bizim söhbət yerimizdir, çarə nədir?» Həzrət (s) buyurur: «Onda yolun haqqına, qayda-qanuna əməl edin ... Naməhrəmə baxmayın, xalqa əziyyət etməkdən çəkinin, salama cavab verin, yaxşını əmr və pisi qadağan edin».[153] «Yaxşını əmr və pisi qadağan etmək, Allahı zikr etməkdən savayı bütün danışıqlar insanın zərərinədir».[154]

İmam Baqir (ə) buyurur: Allah Şüeyb peyğəmbərə belə vəhy etdi: «Sənin qövmündən yüz min nəfərə əzab edərəm. Onların qırx mini şər, altmış mini yaxşı insan olar». Şüeyb ərz edir ki, bəs yaxşılara nə üçün? Allah buyurur: «Yaxşılar pislərə əl tutub onları pislikdən çəkindirmədilər, onlara e'tiraz etmədilər, mənim qəzəbimə xatir onlara qəzəblənmədilər».[155]

Həzrət Peyğəmbərdən (s) soruşdular ki, «İslamda ən yaxşı iş nədir?» Həzrət (s) buyurdu: «Allaha iman». «Sonra nədir»-deyə soruşdular. Buyurdu ki, «sileyi-rəhm.» Dedilər: «Bəs sonra?» Həzrət (s) buyurdu: «Yaxşını əmr və pisi qadağan etmək». Allahın qəzəbinə səbəb olan əməl haqqında soruşdular. Buyurdu: «Allaha şərik qoşmaq». Dedilər ki, bəs sonra? Buyurdu: «Sileyi-rəhimi kəsmək». Dedilər ki, sonra? Buyurdu: «Pis işə əmr və yaxşı işə qadağa.»[156]

---

[153] «Мәһәччәтул-бәјза», 4-чү чилд, сәһ-99.

[154] Һәмән мәнбә, сәһ-100.

[155] «Кафи», 5-чи чилд, сәһ-55.

[156] «Кафи», 58-5.

«Allahumməğfirli kullə zənbin əznəbtuhu və kullə xətiətin əxtə’tuha»
(«Pərvərdigara, batdığım günahları və yol verdiyim xətaları bağışla»)

İnsanın qəlbinə iz salmamış, sadəcə onu bə’zən səhvə düçar edən günahlar «zənb» adlanır. Amma qəlbdə iz qoymuş, xasiyyətə çevrilmiş, insanı hər yerdə və hər vaxt özünə cəzb edən günaha «xətiə» deyilir.
İnsan Allah və bəndə arasında hörmət pərdəsini yırtan, əzaba düçar edən, ne’mətləri dəyişən, duanın qarşısını alan günahlarından tövbə etdikdən sonra Allaha belə ərz edir: «Allahım, istər kiçik, istər böyük, bilərəkdən və ya səhvən yol verdiyim, istər uşaqlıqda, istərsə cavanlıqda baş vermiş, istər gizlin, istər aşkar günahlarımı və xətalarımı bağışla. Çünki səndən başqa bu günahları və xətaları bağışlaya biləcək kəs yoxdur.»
Qur’ani-Kərimin «Zumər» surəsinin 53-cü ayəsində Allah-Taala buyurur: **«Allahın rəhmətindən naümid olmayın. Heç şübhəsiz, Allah-Taala bütün günahları bağışlayar. O çox bağışlayan və həmişə mehribandır».**

Ya Rəbb, bədnam oldum min bir günahla,
Günlərim ötüşür fəryadla, ahla.
Bu dövrün zülmünə çatmadı gücüm,
Zülmətə qərq oldu gündüzüm, gecəm.
Nəfsin hiyləsindən bəlaya düşdüm,
Həvəslər ardınca həddimi aşdım.
Saralıb könlümün sevgi qönçəsi,
Ulduzlara həsrət görüş gecəsi.

Bəlalar odunda yanır ciyərim,
Sanki aqibətdən yoxmuş xəbərim.
Düşüncə bağımda amansız xəzan
Vaxtı dayandırmış zalım hökmüran.
Bütün addımlarım günah, xətadır,
Ümidlər qırılsa, həyat cəfadır.
Rəhmət yağışında islat ruhumu.
Dərgahına yetir tövbə' ahımı.
Vüsal hərəminə bir yol aç mənə
Bu qurumuş könül cücərsin yenə.
Səndən özgəsinə axmasın gözüm,
Pak olsun əməlim, pak olsun sözüm.
Tofiq şərbətindən içim doyunca,
Üyüdülüm, sınım haqqa uyunca.

«Allahummə inni ətəqərrəbu iləykə bizikrikə»
(«Pərvərdigara, Səni zikr etməklə Sənə yaxınlıq axtarıram»)

## *HİCRAN XARABASI*

Maddi işlərə ifrat surətdə bağlılıq, şəhvətə əndazəsiz meyl, ləzzətə aludəçilik, bütün vaxtı dünya malı qazanmağa sərf etmək, qafil insanlarla yoldaşlıq, xeyir işlərdən uzaqlıq, israfçılıq, xalqın problemlərinə biganəçilik, vacib işlərdə süstlük, günaha batmaq, elm və maarifdən xəbərsizlik hicran xarabasında sakinliyin nişanələridir. Bu xarabada ilan-çayandan, hiyləgərlikdən, heyvanlıq və şeytançılıqdan, qarətçilik və quldurluqdan, yalan və xəyanətdən, riyakarlıq və eqoizmdən, qeybət və böhtandan, zina və oğurluqdan, təkəbbür və lovğalıqdan, bir sözlə günahdan başqa bir

şey tapılmaz. Bu xarabalıqda qiymətli ömür puça çıxır, mə’nəvi dəyərlər havaya sovrulur, Adəm övladı əbədi bədbəxtliyə düçar olur. Bu xarabada bütün ixtiyar şeytansifət cin və insanların əlindədir. Burada əksər insanlar daxilən heyvandır. Bu xarabadakı varlıqlar həqiqətə arxa çevirərək, zənn və gümana əsaslanırlar. Günahla qol-boyun olan bu dəstə ismət pərdəsini aradan qaldırmış, azğın nəfsin laylasından yatmışdır. Onların arvadları günahkar, qızları hiyləgər, oğlanları qəddar, cavanları şəxsiyyətsiz, qocaları fasiq və bədəməldir. Onlar siçovul, dovşan, ilan, əqrəb xislətlidirlər. Biri dişi, o biri isə quyruğu ilə sancır. Bu xarabanın adı təbiət, padşahı cəhalət, ordusu çirkinliklər, tərkibi haram, məqsədi insanı məhv etməkdir.

## *VÜSAL MƏMLƏKƏTİ*

Hicran xarabasının sakininə əqlən və şər’ən vacibdir ki, səmərəsiz və zərərli şeyləri qəlbindən çıxarıb, vüsal məmləkətinə doğru hicrət etsin. İnsan eşq və çalışqanlıqla hərəkətə gəlməli, zikrdən güc alaraq mə’rifət və fəzilət, sədaqət və düzlük, haqq və həqiqət, vəfa və səfa, bəndəlik və ibadət, səbir və təvəkkül... məmləkətinə qədəm qoymalı, Allahla yaxınlığın şirinliyini duymalı, vüsal çiçəyinin ətrini almalı, İlahi əxlaqla bəzənməli, peyğəmbərlər, siddiqlər, şəhidlər və salehlərlə yoldaşlığa nail olmalıdır. Qur’ani-Kərim çirkinlikdən gözəlliklərə doğru yönəlmiş bu aşiqanə hicrət haqqında buyurur: «Allah yolunda hicrət edən şəxs yer üzündə çoxlu sığınacaq və genişlik tapar. Kim evindən çıxıb Allaha və onun peyğəmbərinə tərəf hicrət

etsə sonra isə ölüm onu haqlasa, həmin şəxsin mükafatını Allah özü verər. Allah bağışlayan və rəhm edəndir.

İstəklər tüğyanda, mənzilsə uzaq,
Doğru yol gərəkmiş hər şeydən qabaq.
Qəflət yuxusunda sovuşmuş ömür,
Könül qəm odunda qızarmış kömür.
Bu dəryada dalğa qılıncdan iti,
Təkində gövhəri düşünmə qəti.
Dəyərli anları xərcləmə heçə'
Haqqı sevən gərək dünyadan keçə.
Sevgi günəşidir zülməti yaran,
Kölgədə oturan gətirməz davam.

## *ZİKR*

Araşdırmalara əsasən, «bizikrikə» kələməsindəki «b» hərfi səbəb mə'nasındadır. Deməк, cümlənin mə'nası belə olur: «Pərvərdigara, mən Sənin zikrinin səbəbi ilə Sənə yaxınlıq axtarıram». «Zikr» kəlməsi üç mə'na ifadə edə bilər: Allah-Taalaya diqqət və onu qəlbən xatırlamaq; Qur'an; Peyğəmbər (s) və Əhli-beyt (ə).

Zikr qəflətin ziddidir. Allahdan qəflətdə olan şəxs ömrünün puça çıxmasından, günaha batmaqdan, haqqı tapdamaqdan, haram yeməkdən qorxmur. Amma daim Allahı xatırlayıb qəlbində Onu zikr edən şəxs inanır ki, peyğəmbərlər və kitablar hidayət üçün göndərilib, itaət edənləri behişt, etməyənləri cəhənnəm gözləyir. Bu qəbil insanlar yalnız Allahın razılığını qazanmaq üçün ibadət edir, insanlara xidmət göstərir, haramdan uzaq

olur, başqalarının hüququna riayət edir, elm və mə’rifət öyrənir və s. Batinə aid olan zikr və diqqət o qədər qüdrətlidir ki, qısa bir müddətdən sonra insanı ibadət şirinliyinin duyulduğu bir məqama çatdırır.

Ağır qəflətə düçar olmuş Yunus qövmü alim və aşiq bir şəxsin köməkliyi ilə qəflətdən oyandılar. Allah zikrinin köməyi ilə qəflət pərdələri yırtıldı, üzlər torpağa sürtüldü, göz yaşları qəlbləri çirkinlikdən təmizlədi. Onlar həqiqi tövbə etməklə öz vətənlərini ölüm saçan şimşəklərin bəlasından qorudular. Bütün qalan ömürlərini ibadət və bəndəlikdə keçirib, nəhayət, əbədi behiştdə sakin oldular. İbadət və bəndəlik, zikr və diqqət vasitəsi ilə qaranlıq keçmişlərinin üstündən xətt çəkən bu günahkarlar qaranlıqdan işığa çıxmağın yolunu bütün dünyaya göstərdilər. Bəşər tarixinin səhifələrini öz qəlblərinin nuru ilə işıqlandırmış Asya, Əshabi-Kəhf, Bəhlul Nəbbaş, Hürr ibn Yəzid, Fuzeyl Əyaz kimi şəxsiyyətlər zikr və diqqət vasitəsi ilə şeytan qurğusundan qurtulub Allahın rəhmətinə qovuşdular.

Haqqı axtaran insan
Könül verməz dünyaya.
Tutar Tanrı yolunu,
Təslim olmaz xülyaya.
Düşər tamah atından,
Gedər üzü mə’şuqa.
Cilovu buraxansa
Uçar başı aşağa
Bu dünya öz quluna
Çətin yandıra ürək.

Ölümə sürünən qul
Özü qurtulsun gərək.
Tamahına «sus» deyən
Çatdı mənzil başına.
Qənaəti seçənlər
Otdu elçi daşına.

## *QUR'AN*

Allah-Taala müxtəlif ayələrdə Qur'anı «zikr» adlandırır: **«Şübhəsiz ki, zikri (Qur'anı) Biz nazil etdik və Biz də onu hifz edəcəyik».**[157] Qur'ani-Kərim öz maarif, əhkam və göstərişləri vasitəsi ilə insanın dünya və axirət səadətini tə'min edir. Qur'an həyat kitabıdır və insanın hidayət nöqteyi-nəzərindən ehtiyaclı olduğu bütün məsələlər bu İlahi Kitabda işıqlandırılmışdır. Qur'an insanı ən e'tibarlı yola yönəldir və İlahi ayələrə əməl edənləri böyük mükafatla müjdələyir. Qur'ana dərin diqqət, onun ayələri haqqında düşüncə cəhalət xəstəliyinin dərmanıdır.

Qur'anın göstərişlərinə əsasən, yaxşıya əməl edib, pisdən çəkinmək Allaha yaxınlığın səbəbidir. Qur'ana əməl edən insan gözəlliklərlə bəzənir, çirkinliklərdən paklanır. Keçmişə aid biliklər və gələcəyə aid xəbərdarlıqlar dərdlərin dərmanı və ictimai nizamın əsasıdır. Həzrət Peyğəmbər (s) Qur'an vasitəsi ilə ən alçaq kütləni ən üstün cəmiyyət məqamına qaldırdı.

---

[157] «Һичр» сурәси, ajə 9.

Cahil ərəb və azğın əcəm cəhənnəmdən qurtulub əbədi səadətə üz tutdu.

İslam Peyğəmbəri (s) buyurur: «Fitnələr qaranlıq gecə tək sizə çətinlik yaratdığı vaxt Qur'ana üz tutun. Çünki Qur'an, şəfaəti qəbul olunan şəfaətçidir. Şikayəti qəbul olunan şikayətçi də Qur'andır. Qur'an onu özünə rəhbər tutanı behiştə ona arxa çevirəni cəhənnəmə aparar».[158] İmam Səccad (ə) buyurur: «Şərq və qərb arasında olan bütün insanlar ölərlərsə Qur'an mənimlə olsa (tənhalıqdan) qorxmaram».[159] Bəli, tövhid ayələri vücuduna hopmuş, Allahı bəsirət gözü ilə müşahidə etmiş, əzəli və əbədi məhbubu ilə ünsiyyət bağlamış, əxlaq ayələri daxilini işıqlandırmış İmam Səccad (ə) üçün tənhalığın nə qorxusu?! O Həzrət (ə) buyurur: «Qur'an ayələrində xəzinələr var. Bu xəzinələr açıldığı zaman orada olanları düşüncə ilə nəzərdən keçirmək yaxşıdır».[160]

Qur'an ayələrini düşünən, bu ayələrin ilahi mə'nalarını anlayan və əməl edən, zahirini və batinini Qur'anla tənzimləyən, mə'buduna doğru hərəkət edən insan qəlb gözü ilə Onun camalının tamaşasından doymur.

Bəsirət gözündə olarsa işıq
Haqqın camalını bilər yaraşıq.
Taleh gülsə sənə salsa bir nəzər

---

[158] «Кафи», 2-чи чилд, сəh-598.
[159] Һəмəн мəнбə, сəh-602.
[160] Һəмəн мəнбə, сəh-609.

Bu nəzər saralmış ömrünü bəzər.
Ondan gözlərini qaçırsan əgər
Labüddür olasan bir dəli kafər.
Onun qəzəbindən bal zəhər dadar,
Rəhmiylə hənzəl də şirinlik tapar. (Hənzəl-acı meyvə)
Bu odlu sinədən ucala fəryad
O qadir mə'buddan istəyə imdad.
İnan ki, sübh səhər edilən dua
Sözsüz ki, tezliklə qılacaq dəva.
Qəflət bəlasından qurtula bilməz
Həqiqət haqqında düşünməyən kəs.
Qəflət bir bəladır tiyəsi qanlı,
Xilas olar yalnız doğru imanlı.

## *PEYĞƏMBƏR (S) VƏ ƏHLİ-BEYT (Ə)*

İmam Baqir (ə) «Doğrudan da, namaz insanı çirkin və pis işlərdən uzaqlaşdırar. Allahın zikri daha böyükdür» ayəsinin haqqında buyurur: «Bizik Allahın zikri və bizik böyük».[161]

Sözsüz ki, «zikr» dedikdə peyğəmbər və on iki mə'sum imam nəzərdə tutulur. Bu imamlar Həzrət Peyğəmbərin (s) iman, əxlaq, elm, agahlıq və bəsirət varisləridir. Məhz bu ilahi şəxsiyyətlər Qur'anı təfsir etmiş, hökmləri çatdırmış, cəmiyyətdə dini və haqqı qorumuşlar. On iki mə'sum imam həqiqi Qur'an nümunəsi, hidayət çırağı, insanları həqiqi səadətə yönəldən rəhbər, dünya və axirət xeyrinin tə'limatçısıdırlar. Onlar həqiqətləri xatırladır, hadisələri

[161] «Кафи», 2-чи чилд, səh-598.

işıqlandırır, elm və ürfan xəzinələrini açırlar. Bu səbəbdən də onlar «danışan Qur'an» adlandırılırlar.

Onların rəhbərliyini qəbul etmədən, onların elminə inanmadan, onların göstərişlərinə tabe olmadan, onların vilayət dairəsində durmadan kamil iman, əxlaq və əmələ çatmaq, cəhənnəm əzabından qurtulmaq mümkün deyildir.

İslam peyğəmbəri (s) ömrünün son anlarında öz ümmətinə belə e'lan edir: «Mən sizin aranızda iki qiymətli şey qoyuram: Qur'an və Əhli-beytim. Bu iki şey mənə çatanadək bir-birindən ayrılmaz. Nə qədər ki, bu iki şeydən ayrılmamısınız, heç vaxt yolunuzu azmayacaqsınız». (Bütün şiə və sünni mənbələri).

Rəhmət dəryasının dürrü imamət,
Sevgi dolu qəlbin sirri imamət.
İmamətdir həqiqətə yol açan,
İmamətdir qaranlığa nur saçan.
Bu rəhbərlik Allah əmrinə bağlı,
Hər kəlməsi haqq-ədalət soraqlı.
Həqiqəti axtaranın çırağı,
Zülm önündə vuruşanın yarağı.
Xalqın Xaliqinə səfərdə gücü,
Hər doğru yolçunun bir ehtiyacı.
Doğru yolçu imama ehtiyaclı,
On ikidən birinci Əli adlı.
Əli «Allah şiri», vilayət şahı,
Qaranlıq dünyanın nurlu sabahı.
Əli nə vardırsa sirrinə vaqif,
Döyüşdə kəsərli, həyatda lətif.

İman üfüqündə doğan bir günəş,
Haqqı sevər, ayırmaz əcəm, həbəş
Namaz üstə var sədəqə verməyi,
Ən sadədə ən ucanı görməyi.
Bir sultandır çarıqları yamaqlı,
Gecə ruzi payla üzü duvaqlı.
Peyğəmbərin canişini, vəsisi,
Məzlumların haqqa ucalan səsi.
Dünyada doğru söz itərdi tamam,
Olmasaydı on bir övladı imam.

Qəlbi çirkinliklərdən təmizləmək, ilahi ad və sifətləri anlamaq, bu böyük həqiqətləri şeytansifətlərdən qorumaq, addım-addım Ona yaxınlaşmaq, bir an belə qəflətdə qalmamaq, vacib ibadətləri yerinə yetirmək, Allahın razılığı xatirinə xalqa xidmət göstərməyin hər biri «zikrdir».

Dünyapərəstlik toz-torpağından təmizlənmiş hal əhli olan bir qrup arif «zikr» kəlməsinin batini mə'nalarını əsas götürürlər. Onlar Qur'an ayələrinin cilvələndirilməsini, Peyğəmbər (s) və Əhli-beyt (ə) buyruqlarının həyata keçməsini «zikr» nümunəsi saymışlar. Bəli, həqiqətə yalnız hal əhlinin nəzərdə tutduğu gerçək zikr vasitəsi ilə yaxınlaşmaq olar. Könül mülkümüzə Allahın zikrini hakim edək, Qur'an göstərişlərini yerinə yetirək, bütün vücudumuzla peyğəmbər və imamların göstərişlərinə tabe olaq. Yalnız bu yolla yaxın bəndələrdən, ibadətin şirinliyini duyanlardan, səadətə çatanlardan ola bilərik. Könül mülkü Allahın ad və sifətlərinə tapındığı, bu mə'nalar

bütün əzalar və ruha süzüldüyü, qəlb mə'rifət ətrinə büründüyü, vücud Allah eşqinə əsir olduğu vaxt insan Allahla yaxınlığın şirinliyini duyur. Bu məqama çatmış insan şeytanın hiylələrindən amandadır. Onu kimsə Allahdan döndərə bilməz və o, Allahdan qeyrisini tanımaz, görməz, istəməz və tapmaz.

Ariflər həlqəsinin başı, pəhrizkarların imamı, pakların rəhbəri, aşiq könüllərin şamı, kamil insanların iqtida etdiyi ilahi insan bütün vücudu ilə bu sözləri tərənnüm edirdi: «Hər bir şeydən əvvəl, hər bir şeylə yanaşı və hər bir şeydən sonra yalnız Allahı gördüm».

Mə'rifət və bəsirət qoynunda tərbiyə olunmuş imam Hüseyn (ə) aclıq və susuzluğun son həddində bütün müsibətlərin onu mühasirəyə aldığı vaxt, tikə-tikə doğranmış yetmiş bir şəhidin arasında, Əhli-beyt (ə) xanımlarının dözülməz nalələrini eşidən halda qanlı çöhrəsini Allah hüzurunda torpağa qoyub deyir: «Pərvərdigara, Sənin qəzandan xoşhal və razıyam, imtahan və bəlana səbirliyəm, göstərişlərinə təsliməm. Mənim üçün Səndən başqa bir mə'bud yoxdur.»

Ya Rəbb, bilirsənmi, nədir istəyim?
Anlamışam yalnız Sənsən gərəyim.
Sənsiz yoxdur əldə səbrim, qərarım,
Əgər üz döndərsən, yanar məzarım.
Bu könüldə başqa mə'şuqa yer yox,
Ötən zamanlarda aldanmışam çox.
Yuxum xəyalınla çıxsa da ərşə'
Səninləyəm, qəlbə min bir xal düşə.
Bu bülbül bir gülün ətrinə müştaq,

Unutmaz eşqini düşsə də iraq.
Çalsa da cismini acı tikanlar
Bilir ki, qarşıda şirin vüsal var.
Ümidsiz şeytandır, ümidvaram mən
Bu qəlb qurtulacaq nə vaxtsa qəmdən.

«Və əstəşfiu bikə ila nəfsikə»

(«Səni günah və cəza bəndindən qurtulmaq üçün özümə şəfaətçi qərar verirəm»)

Duanın bu hissəsi bir neçə həqiqəti göstərir:

Əvvəla, dua edən şəxs bütün səbəb və vasitələrdən ayrılıb Həzrət Haqqa üz tutmuşdur. Allahdan qeyriləri səhnədən çıxmış və ümid yeganə mə'buda bağlanmışdır. Şəfaətçi elə bir kəs olmalıdır ki, şəfaəti qəbul olsun. Allahın şəfaətinə isə heç bir şübhə yoxdur. Bütün bunları anlayan insan günahlarının bəlasından qurtulmaq üçün Allahı şəfaətçi seçir.

İkincisi, insan özünü o qədər günahkar, üsyankar bilir ki, Allahdan qeyrisinin şəfaətində heç bir tə'sir görmür. Bəli, yalnız Allah şəfaət verərsə bu ağır bəlalardan qurtulmaq olar. Elə bu səbəbdən də dua edən şəxs ağlar qəlb və göz yaşları, tam təvazö' ilə pərişan halda əl açıb deyir: «və əstəşfiu bikə ila nəfsikə».

## *ŞƏFAƏTİN MƏ'NASI*

Mə'rifət əhlinin fikrincə şəfaət güclünün zəifə yardımından ibarətdir. Bu zəif insan mə'rifət, iman, saleh əməl, gözəl əxlaqdan məhrum deyil. Onun zəifliyinin səbəbi yol verdiyi günahlardır. Bu günah iman nurunu söndürən günah yox, mə'nəvi yüksəlişdə

süstlük yaradan və behişt yolunda maneə olan günahdır. Allah-Taala öz lütf və mərhəmətinə xatir şəfaəti qərar vermişdir. Yalnız qüdrətli şəfaətçinin sayəsində günahkar mö'min günah əsarətindən qurtulub, kamillik yolunda addım atır, günahların cəzasından xilas olur.

Deməks, qiyamətdə şəfaət kafirlərə müşriklərə münafiqlərə imandan üz döndərənlərə şamil edilmir. «Muddəssir» surəsinin 38-48-ci ayələrində oxuyuruq: «Hər kəs öz əməlinin girovudur; sağ tərəf sahibləri istisna olmaqla; onlar cənnətdədirlər, bir-birindən soruşacaqlar; günahkarlar barəsində; sizi cəhənnəmə salan nədir; onlar deyəcəklər: Biz namaz qılanlardan deyildik; yoxsulu da yedirtməzdik; batilə uyanlarla biz də uyardıq; haqq-hesab gününü yalan sayardıq; ölüm bizi haqlayana qədər; şəfaət edənlərin şəfaəti onlara fayda verməz».

Şəfaət güclünün mə'nəviyyatdan məhrum olmamış zəifə yardımıdır və qiyamətin son mərhələsində gerçəkləşər. Şəfaətin tə'siri şəfaətçinin məqamından və günahkarın ləyaqətindən asılıdır.[162]

## *ŞƏFAƏTİN ŞƏRTİ*

Ayə və rəvayətlərə əsasən, şəfaət intizarında olan şəxsin müəyyən həddə qədər imanı və saleh əməlləri olmalıdır. Yalnız bu yolla dünyada yol verilmiş nöqsanları ilahi şəfaətlə aradan qaldırıb, qiyamət səhnəsində behiştə yol tapmaq olar. Bu da mümkündür

---

[162] «Тәрҹүмеје-Әлмизан», 1-ҹи ҹилд, səh-231.

ki, günahların ağırlığından cəhənnəmə düşmüş şəxs şəfaətə nail olub bu əzabdan qurtulsun.

## *DÜNYA VƏ AXİRƏT ŞƏFAƏTÇİLƏRİ*

Ayə və rəvayətlərdən mə'lum olur ki, insanı ilahi rəhmətə qovuşdurub səadətə çatdıran şəfaətçilər bunlardır: iman, saleh əməl, tövbə' Qur'an, peyğəmbərlər, imamlar, şəhidlər, həqiqi mö'minlər, rəbbani alimlər. Məhz bu şəfaətçilərin köməyi ilə bir çox kafirlər, müşriklər, qafillər dünyada azğınlıqdan xilas olur. Dünyada günaha yol verib tövbəyə müvəffəq olmayan iman əhli isə məhz qiyamətdə şəfaət hesabına bədbəxtlikdən nicat tapır.

Bəli, şəfaət İslam dinin əsas müddəalarındandır və onu inkar edən şəxs imandan xaricdir.

İmanın şəfaəti haqqında «Hədid» surəsinin 28-ci ayəsində belə buyurulur: «Ey iman gətirənlər, Allahdan qorxun və onun peyğəmbərinə iman gətirin ki, Allah sizə öz mərhəmətindən iki pay versin. Sizə getməyiniz üçün nur bəxş etsin və sizi bağışlasın. Allah bağışlayan və rəhm edəndir».

Saleh əməlin şəfaətinə işarə ilə «Maidə» surəsinin 9-cu ayəsində buyurulur: **«Allah iman gətirib yaxşı işlər görənlərə və'd etmişdir ki, onları bağışlanma və böyük mükafat gözləyir.»**

## *TÖVBƏNİN ŞƏFAƏTİ*

Müaviyyə ibn Vəhəb deyir: İmam Sadiq (ə) buyurdu: «Bəndə xalis tövbə etdiyi vaxt Allah ona məhəbbət göstərib, dünya və axirətdə onu pərdəyə bürüyər». Soruşdum ki, pərdəyə necə bürüyər? Buyurdu: «İki

mələyin bu bəndə üçün yazdığı günahları onun yadından çıxarar və onun bədən və əzalarına vəhy edər ki, sizin üstünüzdə edilmiş günahları gizlədin. Bu bəndə Allahla görüşdüyü vaxt onun ziyanına şəhadət verəcək heç bir şey qalmaz.»[163]

### *QUR'ANIN ŞƏFAƏTİ*

Həzrət Peyğəmbər (s) buyurur: «Fitnələr qaranlıq gecə tək sizi bürüdüyü vaxt Qur'ana üz tutun. Çünki Qur'an şəfaəti qəbul olunan şəfaətçi və şikayəti qəbul olunan şikayətçidir».[164]

Şəfaət haqqında ətraflı mə'lumat almaq istəyənlər «Biharul-ənvar», «Məhəccətul-bəyza» və digər mö'təbər mənbələrə müraciət edə bilərlər.

«Və əs'ələukə bicudikə ən tudniyə'ni min qurbikə və ən tuziəni şukrəkə və ən tulhiməni zikrəkə»

(«Bəxşişin və səxavətin vasitəsi ilə məni yaxın məqamına çağırmağını, şükrünü mənə ruzi etməyini və zikrini qəlbimə ilham etməyini istəyirəm.»)

Həzrət Əli (ə) bu ilahi cümlələrlə Allah-Taaladan üç böyük məqam istəyir: Allaha yaxın məqam, şükür məqamı və zikr məqamı. Heç şübhəsiz, Allah-Taalanın bəxşiş və səxavəti olmadan bu məqamlara çatmaq mümkün deyildir.

Əgər Allah-Taala haqq yolçusuna sevgi halı və saleh əməl verərsə onu ilahi məqama çatmaq üçün vasitələrlə

---

[163] «Кафи», 2-чи чилд, сəh-436.

[164] «Вəсаилуш-шиə», 6-чы чилд, сəh-171.

təchiz edərsə nailiyyətdən danışmaq olar. Zülmət hicablarından keçməkdə Allahdan yardım almayan kəs yüksək mə'nəvi məqamlara çata bilməz. Ona görə də dua edən şəxs uyğun üç məqama çatmaq üçün Allahın bəxşiş və səxavət sifətlərinə üz tutur.

Bu sifətlərin müşahidəsi üçün Həzrət Hüseynin (ə) «Ərəfə» duasının bə'zi cümlələrinə diqqət edək:

«Bütün sitayiş və təşəkkürlər Sənə məxsusdur, ey nöqsanlarıma göz yuman, qəmimi aradan qaldıran, duamı qəbul edən, eybimi örtən, günahımı bağışlayan, istəklərimi verən, düşmənimə qalib edən! Əgər sənin ne'mətlərini və qiymətli hədiyyələrini saysam, heç vaxt qurtara bilmərəm. Ey mənim sərvərim, ey mənim ağam, Sənsən əta edən, Sənsən ne'mət verən, Sənsən ehsan buyuran, Sənsən gözəllik bağışlayan, Sənsən davam verən, Sənsən kamala yetirən, Sənsən ruzi verən, Sənsən yardım edən, Sənsən ehtiyacları ödəyən, Sənsən var-dövlətə çatdıran, Sənsən pənahında saxlayan, Sənsən kifayət edən, Sənsən yol göstərən, Sənsən hifz edən, Sənsən pərdə çəkən, Sənsən bağışlayan, Sənsən görməməzliyə vuran, Sənsən güc verən, Sənsən izzətə çatdıran, Sənsən yardımlardan faydalandıran, Sənsən icazə verən, Sənsən təsdiqləyən, Sənsən qalibiyyət əta edən, Sənsən dəva qılan, Sənsən salamatlıq buyuran, Sənsən əziz edən».

Uyğun sifətlərlə daha dərindən tanış olmaq üçün «Əbu Həmzeye-Sumali» duasının İmam Səccadın (ə) dilindən çıxmış bə'zi cümlələrinə nəzər salaq: «Ey mənim ağam, mən Sənin boya-başa çatdırdığın uşağam, mən o nadanam ki, elm öyrətdin, mən o azmış

bəndəyəm ki, yol göstərdin, mən o yıxılmış şəxsəm ki, Sən ucaltdın, mən o qorxanam ki, aman verdin, mən o acam ki, Sən doyurdun, mən o təşnəyəm ki, sirab etdin, mən o çılpağam ki, libasa bürüdün, mən o fəqirəm ki, imkan verdin, mən o zəifəm ki, güc bəxş etdin, mən o zəliləm ki, əziz etdin, mən o xəstəyəm ki, şəfa verdin, mən o ağız açanam ki, istəyimi verdin, mən o günahkaram ki, günahımı örtdün, mən o xatakaram ki, görməməzliyə vurdun, mən o azam ki, çoxaltdın, mən o çarəsizəm ki, xilas etdin, mən o qovulmuşam ki, Sən sığınacaq verdin».

Bəli, haqq yolçusu Allahın səxavət və kərəm sifətlərindən faydalanaraq üç böyük məqama çata bilər.

## *YAXINLIQ MƏQAMI*

Bu məqam haqq yolçusu üçün ən üstün məqamdır. Bu məqam Allahın bəxşiş və kərəmi, mö'minin gözəl əxlaqı, günahdan çəkinməsi, saleh əməli, Peyğəmbər (s) və Əhli-beytə (ə) itaəti, Allah dostları ilə yoldaşlığı və bütün məqamlarda diqqəti vasitəsi ilə əldə edilə bilər. Sözsüz ki, bütün haqq aşiqlərinin itaət və ibadət yolu ilə bu məqama yetişməsi mümkündür. Bu məqama çatan yolçunun vücudunda tövhid həqiqəti cilvələnir, Allahdan qeyri nə varsa, fani olur. O, Allahın izni ilə xilafət kürsüsünə oturub, ilahi qüdrətdən faydalanır. «Ənisül-ləyl» kitabında nəql olunmuş qüdsi hədisdə Allah-Taala buyurur: «Ey mənim bəndəm, mənə itaət et ki, səni Özüm kimi edim. Mənim «ol» dediyim dərhal olur. Sən də bir şeyə «ol» desən, dərhal olar».

Digər bir hədisdə buyurulur: «Mən əbədi ölməyən diri bir sultanam. Ey mənim bəndəm, mənə itaət et ki, səni də əbədi, ölməz sultan edim».[165]

Mə'rifət əhli bu fikirdədir ki, bütün zahiri və batini ibadətlərdə məqsəd Allaha yaxın məqama çatmaqdır. İtaət və ibadətləri qaydasınca yerinə yetirən şəxs bu ali mərtəbəyə çatası və öz iradəsini Allahın iradəsinə tabe edəsidir. Haqq yolçusu öz itaət və ibadəti ilə Həzrət Haqqa doğru hərəkət etdiyi zaman Allahın rəhməti, ad və sifətləri sür'ətlə ona yaxınlaşır. Qüdsi hədisdə deyilir: «Mənə bir qarış yaxınlaşana bir dirsək yaxınlaşaram. Mənə bir dirsək yaxınlaşana bir «ba'» (qollar üfüqi açıldıqda alınan məsafə) yaxınlaşaram. Hər kəs mənə doğru addım atsa, mən sür'ətlə ona tərəf gedərəm.»[166]

Bəli, ibadət və itaət, Allaha yaxınlaşma nəticəsində Allah da insana yaxınlaşar. Ayə və rəvayətlərdə bu məqam «yaxın məqam» adlandırılmışdır və bu məqama çatanlara «muqərrəbin» deyilir. Hal əhli o şəxsləri müqərrəbin adlandırır ki, onların fe'l və sifətləri Allahın fe'l və sifətləri qarşısında fani olmuşdur. Müqərrəbinin iradəsi Allah iradəsi, danışığı Allah danışığıdır. Qüdsi hədisdə buyurulur: «Allah-Taala buyurur: «Haqq yolçusu daim nafilələrlə (əlavə ibadətlərlə) Mənə yaxınlıq axtarır. Ona eşq bağladığım vaxt eşidən qulağı, görən gözü, danışan dili oluram.

---

[165] «Руһул-бәјан».

[166] «Мүстәдрәкул-вәсаил», 5-чи чилд, səh-298.

Ona düşünən qəlb oluram. Məni çağırdığı zaman cavab verir, istədiyini əta edirəm.»[167]

Həzrət Peyğəmbər (s) buyurur: «Müttəqinin sözü vəhy mərtəbəsindədir. Onlardan bə'zilərinin dilindən çıxan söz haqqında «səninlə bu şəkildə kim danışıb» soruşulduqda belə deyər: qəlbim fikrimdən, fikrim batinimin dərinliyindən, batinimin dərinliyi Allah tərəfindən mənimlə danışdı».[168]

Bu məqamın ən üstün mərhələsində İslam Peyğəmbəri (s) olmuşdur. Həzrət (s) buyurur: «Məni görən kəs şübhəsiz haqqı görmüşdür.»[169] «Allahla mənim aramda elə bir zaman var ki, heç bir yaxın mələk və mürsəl peyğəmbər həmin zamana mənimlə sığmaz».[170]

Həzrət Peyğəmbərdən (s) sonra bu məqamın ən üstün mərhələsinə çatanariflər mövlası Həzrət Əli (ə) buyurur: «Batin nuru ilə məni tanımaq Allahı tanımaqdır.»[171]

Arif şair Cəlaləddin Rumi Allahın müqərrəb bəndəsi olan Həzrət Nuhun (ə) məqamını onun dilindən qələmə almışdır. (İstər Rumi, istər Sədi, istərsə də başqa arif şairlərin şe'rlərini olduğu kimi tərcümə etmək gücündə olmadığımızdan tərcümələrdə sadəcə şe'rin əsas mövzusunu saxlaya bilirik. -Mütərcim.

Ey azğınlar, məndə məndən əsər yox,

---

167 «Кәнзул-әммал», 1155.

168 «Бәһрул-мәариф», 1-чи чилд, сәh-40.

169 «Биһарул-әнвар», 58-чи чилд, сәh-234.

170 «Биһарул-әнвар», 18-чи чилд, сәh-360.

171 «Биһарул-әнвар», 26-1.

Onda fani olmayandan səmər yox.
Dünya sevgisindən yığıldım cana,
Qatıldım büsbütün o bir canana.
Dediklərim ol mövlanın sözləri,
Oda çəkər ondan dönən üzləri.

## *MÜQƏRRƏBLƏRİN KƏRAMƏTLƏRİ*

**1-Hacı Seyyid Əli Qazi.**

Böyük ustadım mərhum ayətullah Hacı Şeyx Əbülfəzl Nəcəfi Xansari ölümündən bir neçə ay əvvəl yanında olduğum vaxt öz ustadı mərhum Hacı Seyyid Əli Qazinin kəramətini belə yad edirdi:

Bir gecə biz bir neçə tələbə ustadla birgə Kufə məscidinə ibadətə getdik. Onunla yanaşı ibadətə dayanıb, Allah-Taala ilə münacata başladıq. İbadətimizi bitirəndən sonra məsciddən çıxarkən qarşımıza çox zəhərli bir ilan çıxdı. Ustaddan başqa hamı özünü itirdi. O isə həmişəki kimi çox sakit bir halda ilana yaxınlaşıb pıçıltı ilə «öl!» dedi. İlan qurumuş budaq tək hərəkətdən düşdü. Heyrət içində ilanın yanından ötüb keçdik.

**2-Daha bir hekayət.**

Hekayət edirlər dində böyüklər,
Həqiqəti tanımışlar bəs qədər.
Bir arif oturub pələng belində
Tutmuşdu zəhərli ilan əlində.
Dedilər ki, ey doğru yol yolçusu,
Bizimçün də ol hidayət elçisi.
Nə etmisən, yırtıcılar olub ram,

Səadətdə çatmaz sənə bir adam.
Söylədi bu pələng, bu qorxunc ilan
Allahın əmriylə dayanmış aram.
Hər kim öz Rəbbindən döndərməsə üz
Onun da önündə vəhşi durar düz.
Hər vücudun halı Onun əlində
İtaət var haqqa, mə'sum gülündə.
Səni sevən əlbət qoruyar oddan.
Onu razı salsan, hər bir iş asan.
Doğru yol bir budur, qaçma kənara,
Qədəm atsan ömür dönər bahara.
İnsan, haqq yolçunun sözü kəsərli,
Baxışı şimşəkdən qat-qat hünərli.

**3-Mirza Tahir Tonkabuninin hekayəti.**

Son dövrün böyük filosoflarından olan Mirza Tahir buyurur ki, bir gün Tehranda keçmiş tələbə yoldaşlarımdan olan bir Seyyidlə rastlaşdım. Nə etdiyini soruşdum, dedi ki, «bekaram». Onu mədrəsəyə də'vət etdim. Oturub çay içdikdən sonra soruşdu ki, «Quma getmək istəyirsən. Dedim ki, hava soyuqdur, gecədir, nəqliyyat tapmaq çətin olar.» Amma o, israr etdi. Razılaşdım. Qəfildən «bu da Qum»- deyə pıçıldadı. Özümü Həzrət Mə'sumənin (ə) hərəmində gördüm...

**4-Cabir Co'fidən iki hekayə.**

Bir qrup şəxs Həzrət Baqirin (ə) yaxınlarından olmuş Cabirin yanına gəlib ondan məscid tikintisi üçün kömək istədi. Cabir dedi ki, mən mö'min bir kişinin

düşüb öləcəyi binaya kömək etmirəm. Gələnlər Cabirin yanından çıxıb onu xəsis və yalançı hesab etdilər.

Camaat pul toplayıb məscidin tikintisinə başladılar. Tikinti zamanı ehtiyatsızlıq edən bənna yıxılıb həlak oldu. Cabiri qınayanlar öz səhvlərini anladılar.

Ə'la ibn Şərik nəql edir ki, «bir gün Hişam ibn Əbdülməlik Cabiri yanına çağırdı. Mən də ona yoldaş oldum. Yolda istirahət üçün bir çobanın yanında əyləşdik. Sürüdən camış səsi gəldi. Cabir gülümsündü. Səbəbini soruşdum. Dedi camış balasına deyir ki, yaxın gəl, ötən il canavar burada balamı apardı. Cabirin sözlərinin düzlüyünü yoxlamaq üçün çobana yaxınlaşıb «bu camışı mənə sat» dedim. Cavab verdi ki, bu camış sürünün ən doğumlu və südlü heyvanıdır, ötən il balasını canavar apardı...»

Yolumuza davam edib Kufə körpüsünə çatdıq. Cabir yaxında durmuş kişidən barmağındakı yaqut üzüyü istədi. Kişi sakitcə üzüyü çıxarıb Cabirə verdi. Cabir üzüyə baxıb onu çaya atdı. Cabirin bu hərəkətindən qəzəblənən kişi «sən nə edirsən» deyə qışqırdı. Cabir «narahat olma» dedi. Əlini çaya uzadıb ovcundakı suda olan üzüyü sahibinə qaytardı ...

## *ŞÜKÜR MƏQAMI*

Şükür məqamı haqq yolçularının çatmaq istədiyi ən dəyərli məqamlardandır. Bu məqama çatmaq çətin olduğundan ona nail olanlar çox azdır.

Mərhum Molla Məhəmməd Baqir Məclisi şükür haqqında deyir: «Şükür zahiri və batini ne'mətin e'tirafı,

ne'mət sahibini tanımaq və ne'məti Onun göstərişinə uyğun sərf etməkdir».[172]

İmam Sadiq (ə) buyurur: «Şükür bütün haramlardan çəkinməkdir».[173]

Aşura gecəsi İmam Hüseyn (ə) xütbəsinin sonunda deyir: «Pərvərdigara, bizi şükür edənlərdən qərar ver».[174]

Rağib İsfəhani deyir: Şükrün üç mərtəbəsi var: qəlb şükrü, dil şükrü və əməl şükrü. Qəlb ne'mət verəni və ne'məti tanıyır, dil e'tiraf edir. Ne'məti Allah buyuran yerlərdə sərf etmək isə əməli şükürdür.

İmam Sadiq (ə) buyurur ki, Musaya belə vəhy olundu: «Ey Musa, Mənə layiq olduğum kimi şükür et». Musa ərz etdi: «Pərvərdigara, şükrünü yerinə yetirdiyim ne'mət yoxdursa, şükür edən dili Sən əta etmisənsə Sənə layiq necə şükür edim?» Allah-Taala buyurdu: «Ey Musa! Şükür edən dilin də məndən olduğunu bilməklə şükrü yerinə yetirdin».[175]

İmam Hüseyn (ə) ərəfə duasında ərz edir: «Əgər mən və ne'mətlərini sayan bütün insanlar yalnız bir ne'mətinin şükrünü yerinə yetirmək istəsək, Sənin tofiqin olmasa bacarmarıq».

Həzrət Davud (ə) belə ərz edir: «Pərvərdigara! Sənə necə şükür edim ki, şükür etməyim özü də bir ne'mətdir və ikinci bir şükrə ehtiyaclıdır ...» Allah buyurdu: «Ey Davud! Əgər hər bir ne'mətin mənim

---

[172] «Биһарул-әнвар», 64-чү чилд, сәһ-268.
[173] «Кафи», 2-чи чилд, сәһ-95.
[174] «Әл-Иршад», 2-чи чилд, сәһ-91.
[175] «Кафи», 2-чи чилд, сәһ-98.

tərəfimdən əta olunduğunu anlamısansa, elə şükür etmisən».

Yuxarıda deyilənlər dil şükrünə aid idi. Şükrün ən üstün mərtəbəsi isə əməli şükürdür. Həqiqi iman qazanmaq, saleh işlər görmək, gözəl əxlaqa sahib olmaq, bütün haramlardan çəkinmək əməli şükrün nümunələridir.

### *MARAQLI BİR ƏHVALAT*

Səm′ ibn Əbdülməlik belə nəql edir: Minada Həzrət Sadiqin (ə) yanında əyləşib üzüm yeyirdik. Bu vaxt bir fəqir gəlib imamdan kömək istədi. Həzrət (ə) buyurdu ki, ona bir miqdar üzüm verin. Amma fəqir üzüm almaqdan imtina edib, pul istədi. İmam (ə) buyurdu: «Allahın əta etsin». Fəqir uzaqlaşıb, tez də qayıtdı və üzüm istədi. Həzrət (ə) buyurdu: «Allahın əta etsin».

Bu vaxt ikinci bir fəqir göründü. Həzrət (ə) bir salxımdan üç gilə üzüm qoparıb fəqirə uzatdı. Fəqir üzüm gilələrini alıb dedi: «Əlhəmdulillahi rəbbil-aləmin».

İmam (ə) ona buyurdu ki, səbir etsin, sonra hər iki əlini üzümlə doldurub ona verdi. Fəqirin yenidən şükür etdiyini görən İmam (ə) evində olan son iyirmi dirhəmi gətirib fəqirə verdi. Fəqir təkrar şükür edərək dedi: «Həmd olsun Allaha. Pərvərdigara bütün bu bəxşişlər Səndəndir, Sən təksən və şərikin yoxdur». İmam Sadiq (ə) otağa daxil olub köynəyini çıxartdı və gətirib fəqirə verdi. Fəqir dedi: «Həmd olsun o Allaha

ki, mənə libas yetirdi». Sonra üzünü imama tutub «Allah sənə xeyir əta etsin»-deyə ərz etdi.[176]

Böyük alim və filosof Molla Möhsin Feyz Kaşani «Vafi» kitabında mə'sumlardan belə rəvayət edir:

Əgər namaz qılan şəxs namazını bitirdikdən sonra şükür səcdəsi edib, mehriban Allahın ona əta etdiyi ne'mətləri bir-bir xatırlayarsa, Allah-Taala mələklərə belə xitab edər: «Ey mələklər, bəndəm vacib namazını qılıb, mənə şükür etdi, onunla necə müamilə edim?» Mələklər deyər: «İstəklərini ver». Yenə xitab olunar ki, bəs sonra? Mələklər deyər: «Ona axirət qurtuluşu əta et». Xitab olunar ki, bəs sonra? Deyərlər: «Onun ruzisini artır». Allah-Taala bunu da əta edib yenə soruşar ki, bəs sonra? Deyərlər: «Ona saleh övladlar nəsib et». Nəhayət, mələklər «daha bir şey bilmirik» deyərlər. Allah-Taala buyurar: «O mənə şükür etdi, mən də ona təşəkkür edirəm və ne'mət qapılarını onun üzünə açıram».

## *ZİKR MƏQAMI*

Öz bəndəsinin qəlbini təmizlədikdən sonra Allahın ona ilham etdiyi zikr dua kitablarındakı zikrlərdən fərqlənir. Bəndəyə ilham olunmuş zikr dünya və axirət səadətinin əsasıdır. Qafil kəslər bu zikrlərdən məhrumdurlar.

İlham olunmuş zikr dil yox, hal zikridir. Bu zikr vasitəsi ilə insanın bəsirət gözü açılır və o, sonsuz gözəl bir görüşə nail olur.

---

[176] «Кафи», 4-чү чилд, səh-49.

Bir sevgidir ki, yeri könüldə
Çətin ki, bir kimsə saxlaya əldə.
Bu sevgidir qəlbi nura bürüyən,
Yalnız könül içrə odda əriyən.
Endiyi məkanın itmiş qərarı,
Gecə də gündüz də axtarır yarı.
Xəyalı dağınıq, addımı titrək,
Dil-dodaq nə bilsin nə çəkir ürək.
Özgədən yalandır tapıla çarə
Vüsala yetincə əlbət avarə.
Müxlisdir, riyadan büsbütün uzaq,
Dünyaya, varına göstərməz maraq.
Mələklər də «amin» söylər bu eşqə
Anlayarlar onun sevdası başqa.

İlhami zikr imam Səccad (ə)-ın «bizi gizli zikrə mə’nus et, pak əmələ və bəyənilmiş səyə yetir» duasıdır.

İslam Peyğəmbəri (s) öz «mənzilət» hədisində, güman ki, bu həqiqətə işarə etmişdir: «Hər zaman Allahı xatırlayan mö’min üçün beş nur mövcuddur: daxil olduğu yer, çıxdığı yer, dediyi sözlər, yediyi qida nurdur və qiyamət günü üzü nura tərəfdir».

Mə’rifət əhli, haqq yolçusu üçün varlıq aləmində Allahın zikrindən şirin şey yoxdur. İnsan dünyəvi bağlılıqların və heyvani istəklərin əsarətindən çıxmasa heç zaman bu zikrə nail ola bilməz.

«Əllahummə inni əs’alukə sualə xaziin mutəzəllilin xaşiin, ən tusamihəni və tərhəməni və təc’ələni biqismikə raziən qaniən və fi cəmiil-əhvali mutəvaziən»

(«Pərvərdigara, Səndən təvazökar, zəlil, itaətkar bir bəndə kimi mənim riayətə etməyimi etməyini, mənə rəhm etməyini, qismət etdiyindən razı salmağını və bütün hallarda təvazökar saxlamağını istəyirəm».)

## *ALLAHDAN DÖRD İSTƏK*

Heç şübhəsiz ki, sınıq qəlb və göz yaşları ilə gecə yarısı xəlvətdə edilən dua qəbula çox yaxındır. Allah-Taala Musa ibn İmrana belə xitab edir: «Ey İmran oğlu! Mənim hüzuruma qəlbindən sınıqlıq, cismindən təvazö', gözündən gecə yarısı olan yaş gətir. Məni çağır, yəqin ki, icabət edəcəyəm».[177]

Dua edən şəxs duanın bu hissəsində Allah-Taaladan dörd şey istəyir. O, inanmalıdır ki, duadakı itaətkarlıq və təvazökarlığın duanın qəbulunda tə'siri olacaqdır. İstənilən dörd şeyə nəzər salaq: 1-Allahın müdara ilə yumşaq rəftarı; 2-Rəhmətə qovuşmaq; 3-Verilən ruziyə qane olmaq; 4-Bütün hallarda təvazö'.

Dua edən şəxs anlamalı və unutmamalıdır ki, yaxşılıq edən insan özünə edir. («İsra» surəsi, ayə 7). Allahdan mehribanlıq görmək üçün hökmən müsəlmanlara, layiqli şəxslərə mehriban olmaq lazımdır. Öz ətrafındakılara qarşı mərhəmətli, mehriban olmayan insan Allah-Taaladan mehribanlıq görə bilməz.

**1-Müdara və xoş rəftar.**

Müqəddəs İslam ayinləri bütün ardıcıllarını bir-birləri ilə düşmənçilikdən, nifaqdan çəkinməyə eləcə də mərhəmət və mehribanlığa çağırır. İslamda mö'minlər bir-birlərinə qardaş bildirilir və bu qardaşlıq əlaqələri

---

[177] «Биһарул-әнвар», 67-чи чилд, səh-14.

xüsusi hüquqlarla tənzimlənir. Bu hüquqlara riayət etmək bə'zən əxlaqi, bə'zən isə şər'i cəhətdən vacibdir.

Qardaşlıq əlaqələrinin möhkəmləndirilməsi, mə'nəvi bağlılıqlar və onların davamı yalnız əxlaqi çirkinliklərdən təmizlənməklə mümkündür. Lovğalıq, təkəbbür, mənəm-mənəmlik, paxıllıq, tamahkarlıq və xəsislik kimi çirkin sifətlər yoldaşlar, ailə və cəmiyyət arasında münasibətləri viran edən amillərdir.

İslam Peyğəmbəri (s) çox mühüm bir rəvayətdə xalqı əxlaqi çirkinliklərdən çəkinməyə və qardaşlıq hüquqlarına riayət etməyə çağırır: «Bir-birinizlə düşmənçilik etməyin. Bir-birinizə qəzəblənməyin. Bir-birinizə həsəd etməyin. Dostluq və qardaşlıq əlaqələrini kəsməyin. Müsəlman müsəlmanın qardaşıdır, qardaşına zülm etməz, onu tənha qoymaz».[178]

Həzrət Peyğəmbərin (s) digər buyruqlarına nəzər salaq: «Xalqla müdara imanın yarısı, onlarla xoş rəftar həyatın yarısıdır».[179] «Allah rəhmət etsin o şəxsə ki, satanda, alanda, borcludan pulunu alanda yumşaq rəftar edər».[180] İmkansız borcluya möhlət verənlə, onu rahat buraxanla Allah yüngül hesab çəkər».[181]

Həzrət (s) bir rəvayətdə belə buyurur: «Qiyamət günü günah və israfla özünə zülm edəni sorğuya çəkərkən onun xilası üçün bir savab tapılmadıqda deyərlər: «Hər hansı xeyir bir iş görmüsənmi?» Belə cavab verər: «Xeyir iş görməmişəm. Amma itaətimdə olanlara

---

[178] «Məhəччəтул-бəјза», 3-чү чилд, cəh-329.
[179] «Məhəччəтул-бəјза», 3-чү чилд, cəh-401.
[180] «Məhəччəтул-бəјза», 3-чү чилд, cəh-186.
[181] Һəмəн мəнбə.

tapşırardım ki, borc verdiyim insanlarla yumşaq rəftar edib, onlara möhlət versinlər». Allah-Taala buyurar: «Yaxşılığa mən daha layiqəm». Sonra isə həmin şəxsin günahlarını bağışlayar».[182]

Həmmam ibn Osman deyir: «Bir şəxs İmam Sadiqə (ə) onun səhabəsindən şikayət etdi. Çox keçməmiş həmin səhabə gəldi və Həzrət İmam (ə) ondan bu şikayət haqqında soruşdu. Səhabə bildirdi ki, verdiyi borcu son dinarədək tələb etməsi bu kişini narazı salıb. İmam Sadiq (ə) narahat halda buyurdu: «Elə güman edirsən ki, pis iş görməmisən?! Yoxsa Allahın «onlar pis haqq-hesabdan qorxarlar» buyruğunu eşitməmisən? Elə bilirsən ki, Allahın hesabı zamanı Onun zülmündən qorxarlar? And olsun Allaha ki, yox! Onların qorxduğu şey dəqiq, tükü-tükdən ayıran hesabdır. Belə hesab «pis hesab» adlandırılır. Öz haqqını istəyən şəxs belə rəftar edərsə pis iş görmüşdür».

İslam Peyğəmbəri (s) buyurur: «Agah olun ki, yer üzündə Allah üçün yerlər var və bu yerlər qəlblərdir. Ən yaxşı yer isə ən xalis, ən möhkəm və ən yumşaq qəlbdir. Günahdan xalis, dində möhkəm və din qardaşı ilə mehriban olan qəlb![183]

Həzrət (s) başqa bir rəvayətdə buyurur: «Allah-Taala mənə xalqla yumşaq davranmağı əmr etmişdir...»; «Hər kəsdə üç şey olmazsa, əməli kamil deyildir: Allaha qarşı günah etməkdən çəkindirən təqva, xalqla mehribanlığa səbəb olan əxlaq, cahilin cəhlini rədd edən helm»; «Şübhəsiz ki, yumşaq rəftar hər şeyi

---

[182] «Məhəччətул-бəјза», 3-чү чилд, сəh-186.
[183] «Муhəччəтул-бəјза», 3-чү чилд, сəh-322.

gözəlləşdirir, müdarasız rəftar isə hər şeyi çirkinləşdirir»; Əgər xoş rəftar gözə görünsəydi, yaranmışların ən gözəli olardı».[184]

Həzrət Əli (ə) bir rəvayətdə buyurur: «Əqlin meyvəsi xalqla xoş rəftardır».[185] Həzrət (ə) buyurur: «Xalqla mülayim rəftar ən üstün əməldir»; «Xalqla mülayim rəftar et, onlarla qardaşlıqdan bəhrələn, xoş üzlə görüş, kinlərini aradan apar».[186]

İslam Peyğəmbəri (s) bildirir ki, Allahın öz bəndəsi ilə mehriban rəftarı həmin bəndənin xalqla mehriban rəftarının nəticəsidir: «Xalqla mülayim rəftar et ki, səninlə də mülayim rəftar olunsun».[187] Müdara Allahın əxlaqıdır və əgər Həzrət Peyğəmbərin (s) «Allah əxlaqı ilə əxlaqlanın» buyruğuna əməl edilsə, insanlar dünyada və axirətdə səadətə nail olarlar.tmək gözəl olardı.

Ənbərlə yazılmış o gözəl yazı,
Müşk qoxusu verir kəlməsi, sözü.
Mərhəmət, sevgiylə ucalır səsi,
İncitməz özündən inan bir kəsi.
Bu xətt arxasında duran o pak ruh
Varlıq aləminə yağdırmış nurun.
Qəm sevdalısının dodaqlarından
Damdırır görməyən gözlərə dərman.
Reyhana yazılmış bu sirli nüsxə

---

[184] «Кафи», 2-чи чилд, сəh-116-120.
[185] «Ғүрəрул-һикəм», сəh-53.
[186] «Ғүрəрул-һикəм», сəh-445.
[187] «Мəһəччəтул-бəјза», 3-чү чилд, сəh-186.

Yasəmən ətirli şəfadır dərdə.
Surətindən azca vermiş mələyə
Gözəllikdən ucalmış o fələyə.

**2-Rəhmət və mehribanlıq.**

Kitabın əvvəlində imkan daxilində ilahi rəhmət haqqında danışıldı. Qeyd edildi ki, ilahi rəhmət bəndəlik vəzifələrini yerinə yetirənlərin, digər bəndələrlə mehriban olanların, «rəhm et ki, rəhmət görəsən» şüarına əməl edənlərin halına şamildir. Vacib vəzifələri yerinə yetirməkdə süstlük göstərən, günahdan çəkinməyən, xalqla qəzəbli rəftar edən kəs heç kimdən mehribanlıq gözləməməlidir.

Həzrət Peyğəmbər (s) buyurur: «Allahın yüz rəhməti var. Cinlər və insanlar, quşlar və heyvanlara nazil edilmiş bir rəhmət vasitəsi ilə onlar bir-birləri ilə mehribandırlar. Allah qalan doxsan doqquz rəhməti ilə qiyamət günü bədənlərinə rəhm edər».[188] «Allah-Taala qiyamət günü mö'minlərə deyər: «Mənimlə görüşüməyi sevərdinizmi?» Deyərlər: «Bəli, ey Rəbbimiz». Soruşular ki, nə üçün? Deyərlər: «Çünki bağışlayacağına ümidvar idik». Allah-Taala buyurar: «Sizi bağışlamağım vacib oldu.»[189] «Allah-Taala qiyamət günü buyurar ki, Məni bircə gün yada salanı və ya hansısa məqamda Məndən qorxanı oddan

---

[188] «Məhəччəтул-бəјза», 8-чи чилд, səh-384.
[189] «Məhəччəтул-бəјза», 8-чи чилд, səh-384.

çıxarın.[190] «Allah-Taala öz mö'min bəndəsinə qarşı övladına mehriban anadan daha mehribandır».[191]

Mə'sum imamların kəlamından mə'lum olur ki, ilahi rəhmət qazanmağın yolu ibadət və itaət, günahdan uzaqlıq və xalqa mehribanlıqdır. Allah Rəsulu (s) buyurur: «Rəhm edənlərə Allah rəhm edər. Yer üzündə olanlara rəhm edin ki, Allah da sizə rəhm etsin».[192]

«Ənisül-ləyl» kitabında belə nəql olunur: Həzrət Musa (ə) Allah-Taalaya ərz etdi ki, Sənin razılığını hansı xasiyyətlə qazanmadım? Buyurdu: «Şüeybin qoyunlarını otarıb çobanlıq etdiyin vaxt, çox isti bir yay günü sürüdən qaçmış çəpişin ardınca getdin. Uzun yol və isti hava səni çox incitdi. Keçini tutduğun vaxt dedin ki, özünü də məni də məşəqqətə saldın. Sonra onu çiyninə alıb sürünün yanına qayıtdın. Keçiyə göstərdiyin mehribanlığa görə başına tac qoyub, belinə kəramət kəməri bağladım və səni peyğəmbərliyə seçdim».

Bir kişi Həzrət Peyğəmbərə (s) ərz etdi ki, istəyirəm Allahım mənə rəhm etsin. Həzrət (s) buyurdu: «Özünə və yaranmışlara rəhm et ki, Allah da sənə rəhm etsin».[193]

Həzrət Peyğəmbər (s) buyurur: «Allahın əmrinə itaət etməklə özünüzü onun rəhmətinə çatdırın».[194] Həzrət Əli (ə) buyurur: «Rəhməti artırmaq üçün ən tə'sirli iş,

---

[190] «Məhəччəтул-бəјза», 8-чи чилд, сəh-384.

[191] "Məhəччəтул-бəјза», 8-чи чилд, сəh-385.

[192] «Мүстəдрəкул-вəсаил», 9-чу чилд, сəh-55.

[193] «Тəфсире-Муин», сəh-570.

[194] «Мəчмуеје-вəррам», 2-чи чилд, сəh-119.

bütün xalqa mərhəmət istəyidir».[195] «Xalqı bağışlamaqla rəhmət nazil olar».[196] «Zəiflərə mərhəmət Allahın mərhəmətini nazil edər[197]

**3-Ruzidən razılıq və ona qənaət.**

Allah-Taala bütün gizlində və aşkarda olan mövcudları elm və hikmət, ədl və rəhməti ilə yaratmış, hər birinə yer verib, ruzisini öhdəsinə götürmüşdür. Çalışıb fəaliyyət göstərən insan onun üçün müəyyən olunmuş ruziyə çatır. «Hud» surəsinin 6-cı ayəsində buyurulur: «Allah yer üzərində olan bütün canlıların ruzisini öhdəsinə götürmüşdür».

Ruzi bəndələrə iki surətdə çatır: kiminə gen-bol, kiminə məhdud. Şəksiz ki, burada bir hikmət vardır. «İsra» surəsinin 30-cu ayəsində oxuyuruq: «Şəksiz ki, sənin Allahın istədiyi kəsə ruzini artırar, istədiyi kəsə azaldar. Doğrudan da, O öz bəndələrindən xəbardar və görəndir».

İnsanların halal ruzi qazanması üçün əkinçilik, heyvandarlıq, ticarət və sairə sahələr müəyyənləşdirilmişdir. Heç kəsə oğurluq, rüşvət, sələm, haram yolla ruzi müəyyənləşdirilməmişdir. Haram yolla qazanan insan onun üçün ayrılmış halal ruzini azaldır. Ayə və rəvayətlər insanları halal yolla, halal ruzi qazanmağa çağırır. İnsan halal yolla az qazansa belə, Allahın məsləhətindən razı qalmalıdır.

---

195 ″Ғурəрул-һикəм», cəh-450.

196 ″Ғурəрул-һикəм», cəh-246.

197 ».″Ғурəрул-һикəм», cəh-449.

İslam dinində halal ruzi qazanmaq vacibdir və böyük ibadət hesab olunur. İslam Peyğəmbəri (s) buyurur: «Halal ruzi ardınca getmək hər bir müsəlman kişi və qadına vacibdir».[198] «Halal ruzi ardınca getmək Allah yolunda cihaddır».[199]

Rəvayətlərdən mə'lum olur ki, bə'zi işlər vasitəsi ilə ruzini artırmaq olar. Həzrət Peyğəmbər (s) bu istəkdə olan bir şəxsə belə buyurdu: «Paklıqda davamlı olsan, ruzin artacaqdır».[200]

Həzrət Əli (ə) buyurur: «Din qardaşına kömək etmək ruzini artırır».[201] «Əmanətdarlıq ruzini artırır».[202]

İmam Baqir (ə) buyurur: «Din qardaşına gizlində edilən dua sənə gen-bol ruzi nazil edər».[203]

İmam Sadiq (ə) buyurur: «Hər kəs öz ailəsinə gözəl xeyirxahlıq göstərsə, ruzisi artırılar».[204] «Gözəl əxlaq ruzini artırır».[205]

Həzrət Peyğəmbər (s) buyurur: «Hər kəs səy və zəhmətlə ruzi qazanarsa, Allah ona mərhəmət nəzəri ilə baxar və heç vaxt əzab etməz».[206] «Təlaş və zəhmətlə ruzi qazanan kəs qiyamət günü peyğəmbərlər sırasındadır və o, peyğəmbərlərin savabını alar».[207]

---

198 «Чамеүл-әхбар», cəh-139.
199 ″Кәнзүл-әммал», 9205.
200 ″Кәнзүл-әммал», 44 154.
201 «Хисал», 2-чи чилд, cəh-504.
202 «Мизанул-һикмәт», 5-2056.
203 «Биһарул-әнвар», 90-чы чилд, cəh-386.
204 «Биһарул-әнвар», 66-407.
205 «Мизанул-һикмәт» 5-2056.
206 «Чамеүл-әхбар» cəh-139.
207 «Чамеүл-әхбар», cəh-139.

«İbadət on qisimdir, doqquz qismi halal ardınca getməkdir».[208]

İmam Riza (ə) buyurur: «Şübhəsiz ki, hər kəs halal yolla ruzi ardınca gedib ailəsini möhtac olmaqdan qorusa, Allah yolunda cihad edəndən çox savab qazanar».[209]

Hər halda, ruzi dünya süfrəsinə qoyulmuş bir gerçəklikdir və Allahın məsləhətinə uyğun olaraq bu ruzidən hərənin öz payı vardır. Ruzinin gen-bolluğu ilahi məhəbbət dəlili deyildir. Eləcə də kasıbçılıq Allahın qəzəbini göstərmir. İstər var-dövlət, istərsə də kasıbçılıq bir imtahandır. Bu imtahanda varlıdan şükür, kasıbdan isə səbir intizarı var. Varlı malını sədəqə verməklə kasıb isə şəxsiyyətini qoruyub əl açmamaqla böyük savablar əldə edə bilər.

Varlı şəxs bilməlidir ki, öz sərvətini düzgün sərf etmək şükrünə nail olmasa dünya və axirət əzabını dadmalıdır. Eləcə də kasıb şəxs öz səbri ilə şükrə nail olmasa, ehtiyacını aradan qaldırmaq üçün dinini satsa əzaba düçar olasıdır. Həzrət Əli (ə) bu barədə buyurur: «Allah-Taala xalqın ruzisinin qədərini müəyyən etmiş, kimə çox, kimə də az əta etmişdir. Bu bölgü ədalət əsasındadır. Kimi ruzinin çoxluğu, kimi ruzinin azlığı ilə imtahan olunur. Bu yolla sərvətlinin şükrü, kasıbın səbri sınağa çəkilir». («Nəhcül-bəlağə»).

Digər bir tərəfdən mö'min şəxs Allahın onun üçün ayırdığı ruzi payından razı olmalıdır. Ayrılmış ruzi payından narazılıq Allahdan narazılıqdır. Bu işdə

---

[208] «Чамеул-əхбар», səh-139.

[209] «Кафи», 5-чи чилд, səh-88.

ariflər imamı, mö’minlər ağası Həzrət Əlidən (ə) ibrət götürüb, ardıcıl olaraq Allahdan dünya və axirət səadəti istəmək lazımdır: «Pərvərdigara, mənə mərhəmət buyur, mənimlə müdara et və məni nəsib etdiyin ruzidən razı sal».

İmam Həsən (ə) buyurur: «Ruzi payından narazı qalan, məqamını kiçik hesab edən şəxs necə mö’mindir?!»[210]

Həzrət Peyğəmbər (s) buyurur: «Cəbraildən soruşdum ki, riza nədir?» Cəbrail dedi: «Razı o şəxsdir ki, qismətinə bir şey düşsə də düşməsə də öz ağasına qəzəblənməz. Amma öz az əməlindən razı qalmaz».[211] İmam Sadiq (ə) buyurur: «Əgər Allahın sənə nəsib etdiyi ruzidən razı qalsan, ehtiyacsız olarsan».[212] «Allahın öz məsləhəti ilə ayırdığı ruzi payından narazı qalan şəxs Allahın hökm və tədbirini müttəhim etmişdir.»[213]

Həzrət Əli (ə) buyurur: «Allahın ayırdığı ruzi payından razı olan şəxsin cismi rahatlanar».[214]

Həzrət Əlidən (ə) «Nəhl» surəsinin 97-ci ayəsi haqqında soruşulduqda Həzrət (ə) «təyyibə həyat qənaətdir»- deyə buyurdu və əlavə etdi: «Hərislikdən qənaətlə intiqam al ...»[215]

Əhli-beyt (ə) maarifində buyurulur: «Hərislik və tamah halal ruzini artırmır. Əksinə insanı harama

---

[210] «Мизанул-һикмәт», 5-2090.

[211] ″Биһарул-әнвар», 66-чы чилд, сәһ-373.

[212] «Хисал», 1-чи чилд, сәһ-169.

[213] «Биһарул-әнвар», 75-чи чилд, сәһ-201.

[214] ″Биһарул-әнвар», 68-чи чилд, сәһ-139.

[215] «Ғурәрул-һикәм», сәһ-391.

düçar edir. Haram isə öz növbəsində imanı süstləşdirir, əxlaqı puça çıxarır, dünya və axirətdə çətinliklər yaradır. Halal ruziyə qane olmaq insanın dünya və axirət səadətini tə’min edən tükənməz xəzinədir.

Allahın Rəsulu (s) buyurur: «Ümmətimin yaxşıları qane’ pisləri isə tamahkarlardır».[216]

İmam Baqir (ə) buyurur: «Əli (ə) xurmanın ən pisini yeyər, üstündən su içib deyərdi: «Hər kəsi qarını cəhənnəmə aparsa, onu Allah öz rəhmətindən uzaqlaşdırmışdır.»[217]

İmam Baqir (ə) və İmam Sadiq (ə) buyururlar: «Xalqın ən ehtiyacsızı Allahın verdiyi ruziyə qane olanlardır.»[218] Həzrət Sadiq (ə) buyurur: «Allahın nəsib etdiyi ruziyə qane ol, başqalarının əlində olandan gözünü çək, xalqın malına tamah salma, gücün çatmayanı arzu etmə. Şəksiz ki, qane olan şəxs doydu, qane olmayan isə ac qaldı».[219] Həzrət Əli (ə) buyurur: «Az ruziyə və sərvətə qane olmayan kəs hansı güclə özünü islah edə bilər?!»[220]

Bir qoca əynində dərviş libası
Çör-çöp toplayırdı meşə arası.
Yığdığı şələni çatıb dalına,
Şükr edirdi gününə iqbalına.
Deyirdi: ya Rəbbi, min şükür sənə

[216] «Кәнзул-әммал», 7095.
[217] «Кәнзүл-әммал», 8741.
[218] «Кафи» 2-чи чилд, сәһ-139.
[219] «Кафи» 7-чи чилд, 243.
[220] «Ғурәрул-һикәм», сәһ-237.

Bir beləcə ne'mət vermisən mənə.
Çatdırmısan izzətimi səmaya,
Gücüm çatmır layiqli həmd-sənaya.
Bəsirət gözümü açan da Sənsən,
Mənə xoşbəxtliyi seçən də Sənsən.
Məndə qüdrət yoxdu bu yerə çatım,
Rəzilliyi atıb, kamalı tutum.
Bax beləcə qoca sınıq səs ilə
Danışırdı ruzi verən kəs ilə.
Bu vaxt yoldan ötən məğrur bir cavan
Üz tutdu qocaya sanki bir heyvan.
Dedi nə gününə şükr eyləyirsən,
Yoldan çör-çöp yığmaq deyilmi peşən?
Tikanlar belini çalır ilan tək,
Ayaqların, çiyinlərin döyənək.
Bu işi izzətli bilirsən, qoca,
Alçaq həyat görünür sənə uca.
Qoca dedi: xoşbəxtlikmi bilirsən
Veyil gəzib, müftə dolanmağı sən?
Bilirsənmi nəyə şükr edirəm mən,
Şükür sənin kimi nankor deyiləm.
Şükr edirəm çırpı yaranmamışam,
Ayı olmamışam sənin tək çaşam.
Ağa qapısında durmaqdansa qul,
Azad çırpıçı ol, budur doğru yol.

**4-Bütün hallarda təvazökar olmaq.**

Təvazökarlıq ilahi həqiqətlərə çatmaq üçün olduqca tə'sirli olan əxlaqi bir dəyərdir. Təvazökarlıq o qədər qiymətlidir ki, Həzrət Əli (ə) «Kumeyl» duasında

Allah-Taaladan bu sifəti təmənna edir. Təvazökar və sadə insan axirət əzabından qurtular, əbədi səadətə və Allahın razılığına nail olar.

Təvazökarlıq iki yerdə işlənməlidir: Allah və xalq qarşısında. Allah qarşısında təvazö′ odur ki, insan öz Rəbbinin göstərişlərini səmimi qəlbdən qəbul edib böyük eşqlə əməl etsin. Xalq qarşısında təvazö′ isə insanın özünü başqa müsəlmanlardan üstün bilməməsi, onlara həqarətlə baxmamasıdır. Mö′min şəxs öz din qardaşlarına yardım əli uzatmalı, onların səhvini bağışlamalı, gizlində və aşkarda mö′minlərin hörmətini saxlamalıdır.

### *QUR′ANDA TƏVAZÖKARLIQ HAQQINDA*

Qur′ani-Məcid bütün insanları Allah qarşısında təvazökarlıqa çağırmaqla bərabər, mö′minlər qarşısında da təvazökar olmağı tapşırır. Hətta mələklərdən üstün olan İslam Peyğəmbəri (s) də təvazökarlığa də′vət edilir. «Hicr» surəsinin 88-ci ayəsində oxuyuruq: **«Bütün mö′minlərə qarşı təvazökar ol».** «Qəsəs» surəsinin 83-cü ayəsində oxuyuruq: **«Biz axirət evini yer üzündə üstünlük və fəsad istəyində olmayanlar üçün qərar vermişik».**

Qur′ani-Kərimdə açıq-aşkar bəyan olunur ki, Allah təkəbbürlüləri sevmir və bu sifətdə olanlar cəhənnəm əhlidirlər. «Nəhl» surəsinin 23-cü ayəsində buyurulur: «Şübhəsiz ki, Allah təkəbbürlüləri sevmir». «Zumər» surəsinin 60-cı ayəsində isə belə bəyan olunur: «Məgər təkəbbürlülər üçün cəhənnəmdə yer yoxdurmu?

## *RƏVAYƏTLƏRDƏ TƏVAZÖKARLIQ HAQQINDA*

Həzrət Peyğəmbər (s) buyurur: «Nə olub ki, sizdə ibadət şirinliyi görmürəm?» Soruşdular ki, ibadətin şirinliyi nədir? Buyurdu: «Təvazökarlıq».

Həzrət Əli (ə) qədim mö'minlərin təvazökarlığından danışaraq xalqa belə nəsihət edir: «Pak Allah onlar üçün təkəbbürü yox, təvazökarlığı bəyəndi. Onlar surətlərinin bir hissəsini ibadət nişanəsi olaraq torpağa qoydular, üzlərini bəndəlik əlaməti olaraq yerə sürtdülər və bütün mö'minlər qarşısında təvazökar oldular».[221] Həzrət (ə) başqa bir hədisdə buyurur: «Təvazökarlığı gözlə çünki təvazökarlıq ən böyük ibadətlərdəndir».[222]

İmam Sadiq (ə) təvazökarlığın sərhədlərini bəyan edir: «Təvazö' odur ki, öz böyüklüyündən aşağı yerdə oturmaqdan xoşhal olasan. Görüşdüyün şəxsə salam ver, höcətləşmədən haqlı olsan belə çəkin. Xeyirlərin üstünü təvazödür».[223]

Allahın Rəsulu (s) buyurur: «Şübhəsiz ki, bəndəlik cəhətindən ən üstün olan şəxs məqamının yuxarı olduğu halda təvazökarlıq göstərən şəxsdir».[224] «Təvazökarlıq öz sahibinin məqamını qaldırar. Təvazökar olun ki, Allah sizi uca məqamlı etsin».[225]

Əxlaq alimlərinin fikrincə, şeytani sifət olan təkəbbür ifrat, hər bir kəsin qarşısında özünü alçaltmaq isə

---

[221] «Нәһҹүл-бәлағә».
[222] «Биһарул-әнвар», 72-чи ҹилд, səh-119.
[223] «Биһарул-әнвар», 72-чи ҹилд, səh-123.
[224] «Биһарул-әнвар», 74-чи ҹилд, səh-181.
[225] «Кафи», 2-чи ҹилд, səh-121.

təfritdir. Orta hədd isə təvazökarlıqdır. Mə'sum imamlardan rəvayət olunmuşdur ki, Allah qarşısında təvazökarlıq bütün vücudunu bəndəlik məqamında qərarlaşdırmaq və insanlarla ədalətlə rəftar edib, onların hüququna riayət etməkdir.

## *HƏZRƏT PEYĞƏMBƏR (S) VƏ HƏZRƏT ƏLİNİN (Ə) TƏVAZÖKARLIĞI*

Həzrət Peyğəmbər (s) kasıblar, məzlumlar, fəqirlərlə oturub-durardı. Hətta kiçik uşağa da salam verər, torpaq üstündə oturar, ən zəif imkanlılarla ünsiyyətdə olar, ən adi at minər, qoyunlarını özü sağar, paltarını özü yuyar, xidmətçilərlə bir süfrədə oturar, cəmiyyətdə ən adi fərd kimi keçinərdi.

Həzrət Əli (ə) də çox təvazökar halda yaşayardı. İbn Abbas nəql edir ki, bir gün onun öz ayaqqabılarını yamadığını gördüm. Dedim ki, bu ayaqqabını yamamağa dəyməz. Buyurdu: «And olsun Allaha, bu ayaqqabı mənim üçün sizin dünyanızdan daha əzizdir... Ayaqqabını yamamaqdan xoşum gəlir və bu işi eyib saymıram. Əgər əlimdə hakimiyyət olsa, istəyərəm ki, haqqı bərpa edib batini aradan qaldırım».

## *HƏZRƏT SÜLEYMANIN (Ə) TƏVAZÖKARLIĞI*

Həzrət Süleyman (ə) o qədər cah-cəlallı, əzəmətli idi ki, tayı-bərabəri yox idi. Amma belə bir məqam sahibi özünü o qədər təvazökar apardı ki, hətta qarışqa da onu mühakimə edib haqqını istəyərdi.

Bir gün Süleyman əlinin üstündəki qarışqanı yerə qoydu. Amma Süleyman o qədər təvazökar idi ki, qarışqa ona e'tiraz edib dedi: «Bu xudpəsəndlik nədir?

Məgər bilmirsən ki, mən də sənin kimi Allah bəndəsiyəm? Sənin nə üstünlüyün var ki mənimlə belə rəftar edirsən?»

Qarışqanın sözləri Süleymanı mütəəssir etdi. Düşündü ki, qiyamət günü bu sayaq mühakimə edilsə çətin olacaq. Bu fikirlərdən ayrıldıqdan sonra özünə gəlib əmr etdi ki, qarışqanı onun hüzuruna gətirsinlər. Süleyman dedi: «Nə üçün belə qəzəblə e’tiraz etdin?» Qarışqa belə cavab verdi: «Mənim bədənim zəifdir. Sən məni tutub yerə atanda bədənim əzildi, narahat oldum. Bu rəftarına görə də e’tiraz etdim». Süleyman həmişəki təvazökarlıqla dedi: «Mən bu işi pis niyyətlə etməmişəm, sənə verdiyim əziyyətə görə üzr istəyirəm».

Bəli, misilsiz əzəmətə malik Süleyman ən zəif bir varlığı bilmədən azacıq incitdiyi üçün üzr istəyir!

Qarışqa deyir: «Mən səni bağışladım. Bir şərtlə ki, dünyaya şəhvət və nəfs istəkləri ilə üz tutmayasan, sərvəti insanlara sərf etmək üçün istəyəsən, israfa yol verməyəsən, ləzzətlərə uyub milləti unutmayasan, kömək istəyənlərə öz yardım əlini uzadasan». Qəlbi zəiflərə mərhəmətlə dolu olan Süleyman qarışqanın şərtlərini qəbul etdi, qarışqa da Süleymanı bağışladı.

Ariflər özünə salmamış nəzər,
Baxışları daim fələkdə gəzər.
Böyüklük sayılmaz görkəm, danışıq,
İmandır insana verən yaraşıq.
Özün kiçildəni, Allah ucaldar,
Özün böyük bilən özün aldadar.

Həqiqəti görən keçir «mən»indən,
Ucalır göylərə qopur tənindən.
Məğrurda, lovğada gəl axtarma din,
Üsyankar bəndəyə taleh də bədbin.

«Allahummə və əs’ələukə sualə mənişteddət faqətuhu»

(«Pərvərdigara! Səndən ehtiyacı son həddə çatmış şəxs kimi istəyirəm.»)

## *HƏQİQİ MALİK ALLAHDIR*

Dua oxuyan şəxs duanın bu hissəsini oxuyarkən, ayə və rəvayətlərin yardımı ilə bəsirət gözünü açaraq iki həqiqəti müşahidə etməlidir: əvvəla, mehriban Allahdan savayı mütləq malik, feyz mənbəyi, bağışlayan, ehtiyacsız və qəni yoxdur; ikincisi, insanın və digər mövcudların vücudu fəqirlik və ehtiyacdan başqa bir şey deyildir. Qəni və ehtiyacsız olduğu halda varlıq aləmini ərsəyə gətirən, hər bir mövcudun ehtiyacını ödəyən Allahdır. Heç bir mövcudda Onunla qarşılaşmaq gücü yoxdur və hamı zatən Onun qüdrətinə təslimdir. Kainatı bir «ol» kəlməsi ilə yaradan və «olma» kəlməsi ilə də aradan götürə biləcək varlıq Odur. Əgər O, ehtiyacsız və hamı Onun rəhmətinə möhtacdırsa, nə üçün varlıq aləmini bu rəhmətə bürüməməlidir?! İnsan hansı əsasla Onun rəhmətindən ümidsiz olmalıdır?! O, Xaliq, Rəzzaq, Müsəvvir, Vədud, Rəhim, Kərim, Ğəfur, dirildən və öldürəndir. Onun heç bir işdə şəriki yoxdur və heç bir yaranmış bir an olsun belə, Ondan ehtiyacsız deyil. O,

bütün dünya əhlinin maliki, bütün mövcudların tərbiyəçisidir.

Dünya malına başı qatılıb Ona möhtaclığını hiss etməyənlər var. Amma bu hisslər şeytani bir haldır və bu qəflət ağacının meyvələri çox acı olasıdır. Bu bəsirət gözü kor olan qafillər Allah hüzurunda durub, ehtiyaclarını izhar etməkdən məhrumdurlar. Bu zərəri ödəmək mümkünsüzdür. Bu insanlar səhradakı heyvanlar tək yalnız maddi ehtiyaclar ardınca qaçır və ilahi fəzilətlərdən məhrum olurlar. Qur'ani-Kərim o mütləq qəni, nəhayətsiz feyz sahibi, bütün kamal sifətlərinin toplandığı zat haqqında buyurur:

**«Göylərin və yerin hökmü Allaha məxsusdur. Allah hər şeyə qadirdir».**[226]

**«Göylərin, yerin və onların arasında olan hər bir şeyin ixtiyarı Allahın əlindədir və axır dönüş də Onun hüzurunadır».**[227]

**«Göylərin və yerin hökmü Onun əlindədir. Dirildən də öldürən də Odur. O hər şeyə qadirdir».**[228]

**«Göylərin və yerin hökmü Allahın əlindədir. O, istədiyini bağışlayar, istədiyinə də əzab verər. Allah bağışlayan və rəhm edəndir».**[229]

«Fatir» surəsinin 15-ci ayəsində insan haqqında buyurulur: «Ey insanlar! Siz Allaha möhtacsınız. Allah isə möhtac deyildir və hər cür şükrə tərifə layiqdir. Doğrudan da, insanın bütün vücudu ehtiyacdan

---

[226] «Али-Имран» сурəси, ajə 189.

[227] «Маидə» сурəси, ajə 18.

[228] «Һəдид» сурəси, ajə 2.

[229] «Фəтһ» сурəси, ajə 14.

ibarətdir. Yaranmaqda, yaşamaqda, xeyir qazanmaqda və zərəri dəf etməkdə onun nə qüdrəti vardır?! İnsanı yaradan, yaşadan, onu xeyrinə çatdırıb zərərdən uzaqlaşdıran şəxs qadir olan Allahdır. Bir belə ehtiyacı olan insan nə üçün xalis qəlblə, cümə axşamı Allahın dərgahına üz tutub fəryad etməməlidir ki: «Allahummə və əs'əlukə sualə məniştəddət faqətuhu».

İnsan üçün ən gözəl və ən faydalı hal dua halıdır. İnsan zatən fəqir olduğunu anlayıb, Allaha əl açmalı, qəlbən nalə çəkib öz məhbubunu çağırmalıdır.

Bir qəlbdə O varsa, qəmə nə hacət,
O kəs ağlasın ki, etməz itaət.
Əlbət, sənsiz könül zülmətə məhkum,
Körpə nalə çəkər olmasa qəyyum.
Biganədir Səni uzaqda görən,
Ağlamaz üzünü Sənə döndərən.
Sözsüz, divanədir eşqdən xəbərsiz,
Aşiqə divanə söyləmə yersiz.
Böyüklər mə'rifət sahibi olmuş,
Arif olmayana kiçiklik qalmış.
Sədəf gərəklidir qiymətli dürrə
Daşda nə hal var ki, sədəfə girə.
Onu görən könül eşqini dadır,
Görməyən könülsə özün aldadır.
Səni canan bilən uymaz özgəyə
Aşiq olan girməz boş bütxanəyə.
«Yusif» surəsini oxusan əgər,
həqiqi sevgiyə verərsən dəyər.
Bəzərsən könlünü sevgi nuruyla,

Görüşər bu qərib aşiq yarıyla.

«Və ənzələ bikə indəşşədaidi hacətəhu»

(«Çətinliklər içində istəyini qarşına gətirmiş kəs kimi...»)

Əlbəttə ki, mehriban Allah istək və dua olmadan da çətinliyə, müsibətə düşmüş bəndəsinin halından xəbərdardır. Amma ayə və rəvayətlərdən belə mə'lum olur ki, Allah öz bəndəsinin ah-zarla dua etməsini, öz ehtiyaclarını mövlasından istəməsini sevir.

Ey mehriban, ey mənim məhbubum! Öz lütf və inayətinlə çətinliklərimi aradan qaldır, müsibətləri məndən uzaqlaşdır, məni bəlalar zindanından xilas et, rəhmət və ehsanınla duamı qəbul et, istəklərimi yerinə yetir, boş könlümü ilahi feyzlərinlə doldur!

İnsanın öz möhtaclığını, ah-nalədən başqa bir şeyə malik olmadığını izhar etməsi Həzrət mövlanın istəyincədir. Elə buna görə də Allah-Taala dua etməyə çağırır və bu duaları qəbul edəcəyinə zəmanət verir.

Bəli, dua və ehtiyacın izharı istəkləri dilə gətirmək və göz yaşları ibadət və Allah əmrinə itaət etməyin bir növüdür. Allah çətinliyə düşmüş bəndəsinin Ondan qeyrisini çağırmasını sevmir.

Mühüm kitablarda nəql olunmuş qüdsi bir hədisdə qeyd edilir ki, bəndə öz müşkülünü yalnız Allaha izhar etməlidir. Uyğun hədisdə Allah-Taala buyurur: «Məgər çətinliyə düşmüş bəndəm başqalarına bel bağlayıb, çətinliklərin onlar tərəfindən həll olunacağınımı gözləyir?! Halbuki, çətinlikləri aradan qaldırmaq yalnız mənim əlimdədir. Mənim bəndəm başqaları tərəfindən

ehtiyaclarının ödənməsinimi gözləyir?! Halbuki, imkanlı, bağışlayan, kərim olan Mənəm və bütün dərdlərin açarı Mənim əlimdədir.

Nə üçün bəndəm Məndən üz döndərib?! Halbuki, bütün istəklərini vermişəm. İndi isə o bir bu qədər ehtiyacla başqalarına üz tutub onlara ağız açır.

Mənəm Allah və Məndən başqa bir mə'bud yoxdur. İstəmədiyini əta etdiyim halda, istədiyini əta etmərəmmi?! Məgər sonsuz səxavət dəryası Məndən deyilmi?! Dünya və axirət Mənim əlimdə deyilmi?!

Əgər göylərin və yerin əhli göylərcə və yercə bir şey istəsələr və Mən onlara əta etsəm, mülkümdən milçək qanadı qədər də azalmaz. Vay halına Məndən üz döndərib başqasına ağız açanın və çətinliklərinin həllini özgəsindən gözləyənin».[230]

«Və əzumə fima indəkə rəğbətuhu»

(«Səndə olana rəğbətim, meylim böyükdür»)

Həzrət Əli (ə) Allah-Taalanın nəzərində olanlardan yaxşı xəbərdar idi. Ona görə də bu duanı oxuyarkən üzünü torpağa qoyar, sızıltı ilə ərz edərdi: «Və əzumə fima indəkə rəğbətuhu».

Əgər Allah-Taalanın hər bir insan üçün müyəssər olanlarını sadalayıb açıqlamaq istəsək, bir neçə yüz cild kitab yazmalı olarıq və ömrümüz sona çatar. Lakin həmin kitablar Allahın nəzdində olanlarla münasibətdə bir damlanı xatırladar. Sadəcə rəğbət və sevgilimizi artırmaq üçün bə'zi həqiqətlərə işarə edirik.

---

[230] «Əнисүл-ләјл», cəh-196.

## *ƏMƏL MÜQABİLİNDƏ MÜKAFATLAR*

Allah-Taala öz lütf və mərhəmətindən bütün bəndələrini namaz, oruc, həcc, cihad, sədəqə xalqa xidmət, hüquqlara riayət, günahdan uzaqlığa də’vət etmiş, hər bir əməl müqabilində də mükafat tə’yin etmişdir. Qur’ani-Kərimdə qəti şəkildə e’lan olunur ki, heç kimin saleh əməli mükafatsız qalmayacaqdır.

Allah-Taala mö’min və saleh bəndələri üçün bir neçə növ mükafat tə’yin etmişdir: 1. Əzim əcr; 2. Kərim əcr; 3. Daimi əcr; 4. Böyük əcr; 5. İkiqat əcr.

**«Yaxşı işlər görüb pis işlərdən çəkinənləri əzim bir mükafat gözləyir».**[231]

«Şübhəsiz ki, sədəqə verən kişi və qadınların, Allah yolunda gözəl borc verənlərin mükafatları qat-qat artırılacaq. Onları həm də yaxşı, kərim bir mükafat gözləyir». («Hədid» surəsi, ayə 18).

«Doğrudan da, iman gətirib saleh işlər görənləri daimi mükafat gözləyir». («Fussilət» surəsi, ayə 8).

«İman gətirib yaxşı işlər görənləri bağışlanma və böyük bir mükafat gözləyir» («Fatir» surəsi, ayə 7).

**«Səbir edib, pisliyi yaxşılıqla dəf etdikləri və verdiyimiz ruzidən sərf etdikləri üçün onlara ikiqat mükafat veriləcəkdir».**[232]

İman və saleh əməl sahiblərinə veriləcək daimi mükafat Allaha məxsusdur və Ondan qeyri kimsə belə bir qüdrətə malik deyildir. Bu mövzuda Qur’an ayələrini açıqlayan bə’zi rəvayətlərə nəzər salaq:

---

[231] «Али-Имран» сурəси, ajə 172.

[232] «Гəсəс» сурəси, ajə 54.

Həzrət Əli (ə) buyurur: «Sizin yaxşı əməllərinizin mükafatı əməllərinizdən üstündür»,[233] «Səbir və dözümün mükafatı ən yaxşı mükafatdır».[234] «Doğrudan da ən böyük mükafat insaf mükafatıdır».[235] «Cihadın mükafatı ən böyük mükafatlardandır».[236]

Həzrət Baqir (ə) buyurur: «Məkkədə yatan ziyarətçi şəhərlərdə çalışanlar kimidir. Məkkədə səcdə edən kəs Allah yolunda qanına bələnmiş şəhid kimidir. Ziyarətçinin yerinə onun ev işlərini idarə edən kəsin savabı qara daşa toxunan ziyarətçinin savabı kimidir».[237]

Həzrət Peyğəmbər (s) buyurur: «Allah yolunda bir gün cihad bütün dünya və onda olanlardan üstündür».[238] «Allah yolunda bir gecə keşik çəkmək gecələri ibadət edilən, gündüzləri oruc tutulan min gecədən üstündür».[239] «Gecə yarı xəlvətdə Allahla münacata duran bəndənin qəlbində Allah öz nurunu sabit edər».[240] «Qiyamət günü bir bəndənin oda çəkilməsi əmri olunduğu vaxt mö’min kişilər və qadınlar deyərlər ki, Pərvərdigara, o daim bizim üçün dua edib, xilası üçün şəfaətimizi qəbul et. Allah onların şəfaətini qəbul edib, həmin şəxsə nicat verər».[241] «Agah

---

[233] «Тəфсире-Муин», сəh-299.
[234] «Ғүрəрул-һикəм», сəh-281.
[235] «Ғүрəрул-һикəм», сəh-394.
[236] «Ғүрəрул-һикəм», сəh-333.
[237] «Мəhəччəтул-бəјза», 2-чи чилд, сəh-153.
[238] «Тəфсире-Муин», сəh-193.
[239] «Тəфсире-Муин», сəh-193.
[240] «Мустəдрəкул-вəсаил», 5-чи чилд, сəh-207.
[241] «Кафи», 2-чи чилд, сəh-507.

olun ki, Qur'anı öyrənən, başqalarına öyrədən, ona əməl edən şəxsi behiştə doğru çəkib, ona cənnətin yolunu göstərəcəyəm».[242]

Həzrət Əli (ə) buyurur: «Gündəlik ibadət bədəni sağlam edir, Allahı razı salır və peyğəmbər əxlaqına çatdırır».[243]

## *BEHİŞT*

Allah yanında olan, mə'rifət və iman əhlinin rəğbət göstərdiyi həqiqətlərdən biri behiştdir. Allah-Taala Qur'ani-Kərimdə bütün bəndələrini bu əbədi məkana də'vət edir və bildirir ki, behiştə çatmağın yolu iman, saleh əməl, təqva və halal-haramı gözləməkdir.

**«Rəbbinizin məğfirətinə və müttəqilər üçün hazırlanmış, genişliyi göylər və yer qədər olan cənnətə tələsin».[244]**

**«Rəbbinizin tərəfindən bağışlanmağa, Allaha və Onun Peyğəmbərinə (s) iman gətirənlər üçün hazırlanmış, göylər və yer qədər geniş olan cənnətə nail olmaq üçün bir-birinizdən qabağa düşməyə çalışın. Bu, Allahın dilədiyi kimsəyə əta etdiyi mərhəmətdir. Allah çox böyük mərhəmət, kərəm sahibidir».[245]**

Ayə və rəvayətlərə görə behişt iman, saleh əməl, təqva və haramdan uzaqlığın mükafatıdır. Bu həqiqətlərdən kənar düşüb, küfrə şirkə müxtəlif günahlara bulaşanlar bu ne'mətdən məhrum olub,

---

[242] «Тәфсире-Муин», səh-496.
[243] «Вәсаилүш-шиә», 8-чи чилд, səh-150.
[244] «Али-Имран» сурәси, ajə 133.
[245] «Һәдид» сурәси, ajə 21.

cəhənnəmə düşərlər. «Mu'min» surəsinin 40-cı ayəsində buyurulur: **«Hər kişi və hər qadın mö'min olaraq bir yaxşılıq etsə cənnətə daxil olub saysız-hesabsız ruziyə çatar.»** «Tövbə» surəsinin 71-72 ayələrində buyurulur: **«Mö'min kişilərlə mö'min qadınlar bir-birlərinə vəli və yardımçıdırlar. Onlar yaxşı işləri əmr, pis işləri yasaq edər, namaz qılıb zəkt verərlər, Allaha və peyğəmbərinə tabe olarlar. Əlbəttə ki, Allah onlara rəhm edəcəkdir. Allah, həqiqətən, yenilməz qüdrət və hikmət sahibidir; Allah mö'min kişilərə və qadınlara altından çaylar axan cənnətlər və Ədn cənnətlərində gözəl məskənlər və'd etmişdir. Onlar orada əbədi qalacaqlar. Allahdan olan bir razılıq isə daha böyükdür. Bu, ən böyük qurtuluş və uğurdur.»**

Həzrət Səccad (ə) buyurur: «Bilin ki, behiştə müştaq olan kəs yaxşılığa tələsib, şəhvəti unutdu. Kim ki, oddan qorxdu, günahdan tövbə etməklə Allaha doğru tələsdi və haramlardan üz döndərdi».[246]

Həzrət Əli (ə) buyurur: «Cənnətin qiyməti saleh əməldir».[247]

İmam Baqir (ə) buyurur: «Hər kəs on xüsusiyyətlə Allahın görüşünə getsə behiştə daxil olar: Allahdan başqa mə'bud olmadığına şəhadət, Məhəmmədin (s) peyğəmbər olmasına şəhadət, peyğəmbərin Allah tərəfindən gətirdiyi Qur'anın təsdiqi, namaz qılmaq, zəkat ödəmək, ramazan ayı oruc tutmaq, həccə getmək,

---

[246] «Биһарул-әнвар», 75-чи чилд, səh-139.
[247] «Ғурәрул-һикәм», səh-154.

Allah dostları ilə dostluq, Allah düşmənləri ilə düşmənlik, bütün məstedicilərdən uzaqlıq».[248]

## *ALLAHIN RƏHMƏTİ*

Qur'ani-Məciddə və Əhli-beyt (ə) buyruqlarında Allahın rəhməti geniş şəkildə açıqlanmış və insanlar bu rəhməti qazanmaq üçün iman və saleh əmələ tövbə və təqvaya də'vət olunmuşlar. «Nisa» surəsinin 175-ci ayəsində oxuyuruq: **«Allah Ona iman gətirən və Ondan möhkəm yapışan kimsələri öz mərhəmətinə daxil edər və doğru yola salar».** «Ən,am» surəsinin 54-cü ayəsində oxuyuruq: «**Ayələrimizə iman gətirənlər sənin yanına gəldikləri zaman de: «Salam olsun sizə! Rəbbiniz özü üçün mərhəməti vacib etmişdir». Bu surənin 147-ci ayəsində belə buyurulur: «De ki, Rəbbiniz geniş rəhmət sahibidir».** Bu mə'na «Ə'raf» surəsinin 156-cı ayəsində bir daha təsdiqlənir: **«Rəhmətim hər şeyi əhatə etmişdir».**

İlahi rəhmətə çatmaq üçün nəzərdə tutulmuş göstərişlərə əməl etmədən bu rəhmətə nail olmaq mümkün deyildir. Həzrət Baqir (ə) buyurur: «Gözəl qayıdışla ilahi rəhmət və bəxşişə can at və gözəl qayıdışın gerçəkləşməsi üçün gecənin zülmətində xalis duadan kömək istə».[249]

Bir şəxs Həzrət Peyğəmbərə (s) ərz etdi: «Allahın rəhmətinə çatmaq istəyirəm». Həzrət (s) buyurdu: «Özünə və Allahın xalqına rəhm et, Allah sənə rəhm edəcək».

---

[248] «Хисал», 2-чи чилд, səh-432.
[249] «Биhарул-әнвар», 75-чи чилд, səh-162.

Ah-naləmə yetməz Səndən özgəsi,
Bir Sənsən bu ağlar könlümün bəsi.
Unutmayıb daim yada salan kim,
Deyilməyən dərdi duya bilən kim?!
Kimdir Səndən başqa bu işə qadir,
Ümidim, pənahım rəhmətindədir.
Bu rəhmət çeşməsi sevgilə dolu,
Nuş edənin eşqdən dəyişir halı.
Bu badədən içmək olsa qismətim,
İbadətin, zikrin olar adətim.

## *ALLAHIN ƏFVİ*

«Əfv» günahı bağışlamaq, nöqsanlara göz yummaq deməkdir. Allah-Taala bu həqiqəti həqiqi tövbə qılıb, doğru yola qayıdanlar üçün qərar vermişdir. «Nisa» surəsinin 43-cü ayəsində buyurulur: **«Şübhəsiz ki, Allah əfv edən və bağışlayandır».**

Həzrət Əli (ə) buyurur: «Onun fərmanı vacib, hikmətlidir. Razılığı aman və rəhmətdir. Elm və agahlıqla hökm edər, helmlə bağışlayıb göz yumar». («Nəhcül-bəlağə»); «Allahın mərhəməti haramdan uzaqlaşan şəxsə tərəf tələsər».[250]

Bir ərəb Həzrət Peyğəmbərdən (s) soruşur ki, qiyamət günü insanları hesaba kim çəkəcək? Həzrət (s) buyurur ki, Allah-Taala. Ərəb deyir: «And olsun kəbənin

---

[250] «Биhарул-әнвар», 75-чи чилд, сəh-90.

Allahına, nicat tapdıq. Çünki Kərim qüdrətə çatanda bağışlayar».[251]

Bəli, savab, behişt, rəhmət, əfv kimi həqiqətlər yalnız Allaha məxsus olduğundan möhtac aşiqlər Onun dərgahına üz tuturlar: «və əzumə fima indəkə rəğbətuhu».

«Allahummə əzumə sultanukə»
(«Pərvərdigara, sultanlığın əzəmətə çatmış.»)

Allah-Taalanın səltənəti zati və həqiqi, başqa səltənətlər isə e’tibari və müvəqqətidir. Digər səltənətlər zaman və məkanca məhdud olduğu halda, ilahi səltənət əbədi və sonsuzdur.

İlahi səltənət qeybi və aşkarı tam əhatə edir. Digər bütün səltənətlər hər biri ilahi səltənətə möhtacdır. Onun dəlilləri qüvvətlidir və Onun qarşısında heç bir dəlil yoxdur. Əql, peyğəmbərlik, Qur’an, imamət qiyamət günü bütün yaranmışlara şahidlik edəcək dəlillərdir. Bu dəlillər vasitəsi ilə bütün bəhanələr kəsiləcəkdir.

«Və əla məkanukə»
(«Və Sənin məqamın ucadır.»)

«Şura» surəsinin 11-ci ayəsində buyurulur: «**Ona bənzər heç bir şey yoxdur».** Bəli, Həzrət Haqq bütün eyiblərdən pakdır, bütün kamal, camal və cəlal sifətlərinə malikdir. Bu sifətlər Onun zatının eynidir.

---

[251] «Məчмуеjе-вəррам», 1-чи чилд, cəh-9.

Bütün qeybi və aşkar mövcudlar Onun qəyyumluğu ilə qiyam edir. Kainat Onun elm və iradəsinin, qüdrət və rəhmətinin təzahürüdür. O, vəsfə sığılmazdır. Onun qüdrət və qüvvəsi bütün qüdrət və qüvvələrin fövqündədir. Şə'ni və məqamı isə hər şeydən üstündür.

«Və xəfiyə məkrukə»
(«Və Sənin məkrin gizlidir.»)

Adi halda «məkr» dedikdə hiyləgərlik, aldatma başa düşülür. Əlbəttə ki, Allaha münasibətdə işlədilən məkr sözü cahil insanlara məxsus məkr mə'nasını daşımır. Elm, qüdrət, rəhmət, səxavət sahibi olan Allahın öz yaratdığı mövcudlardan ehtiyacsızlığı aşkar bir həqiqətdir.

Allah haqqında işlədilən məkr kəlməsi «cəza» mə'nasını verir. Allah-Taala bu cəzaya layiq bildiyi kəsi qurtuluş yolu qoymadan əzaba düçar edər. Allahın qəflət içində günaha qərq olmuş insanlara cəzası müxtəlif formalarda gerçəkləşə bilər. Məsələn, azğın günahkarı ne'mətlərə qərq etməklə onun başını qatar və o şəxs qarşıdakı günahlardan xəbərsiz qalar. «Məkr» günahkar insanı bu sayaq qəfildən yaxalayan məxfi əzabdır.

Həzrət Sadiq (ə) buyurur: «Allah xeyirini istədiyi bəndə günaha batdığı vaxt ona qulaqburması verər və bu qulaqburması vasitəsi ilə ona tövbəni xatırladar. Amma şərə layiq bilinmiş adam günaha batdığı vaxt Allah ona ne'mət verməklə başını qatar və tövbəni onun yadından çıxarar...»

«Və zəhərə əmrukə»
(«Və Sənin əmrin aşkardır.»)

Allahın əmri ilkin mərhələdə təkvinidir, yə'ni bu əmr vasitəsi ilə varlıq aləmi vücuda gəlmişdir. Təkvini əmrdən sonra təşrii əmr gəlir. Yə'ni yaradılmış şüurlu insana peyğəmbərlər vasitəsi ilə göstərişlər verilir, doğru yol göstərilir.

«Və ğələbə cəhrukə və cərət qudrətukə»
(«Sənin qəhrin hər şeyə qalib və qüdrətin hər şeyə hakimdir.»)

Əvvəlki söhbətlərdə «qəhr» və «qüdrət» haqqında kifayət qədər danışıldığı üçün təkrar izahata ehtiyac görmürük.

«Və la yumkinul-firaru min hukumətikə»
(«Hökumətindən qaçmaq mümkünsüzdür.»)

Hər bir varlıq Onun hökuməti daxilindədir və heç kim bu mühitdən xaric ola bilməz.

Bütün mövcudlar Onun iradəsi ilə yaranmışdır. Demək, o hər şeydən əvvəldir, hər şey Onun qüdrət və rəhməti sayəsində həyatını davam etdirir. O, bütün yaranmışlarladır və hər şey nəhayətdə, Ona tərəf qayıdasıdır. Demək, O hər şeyin axırıdır. Belə bir halda hansı mövcud Onun hakimiyyətindən qaça bilər?!

Bir rəvayətdə nəql olunur ki, bir kişi İmam Hüseynə (ə) dedi: «Mən günahkar bir adamam və günah qarşısında səbrim yoxdur. Məni nəsihət et». Həzrət İmam (ə) buyurdu: «Deyəcəyim beş işi gör, sonra hansı günaha istəyirsən, bat. Əvvəla, Allahın ruzisini yemə. İkincisi, Onun vilayətindən və hökumətindən çıx. Üçüncüsü, elə bir yer tap ki, Allah səni görməsin. Dördüncüsü, ölüm mələyi canını almağa gələndə onu qov. Beşinci, cəhənnəm mələyi səni cəhənnəmə atanda sən cəhənnəmə girmə».[252]

Bəli, qaçmaq istəyən insan yaxşı olar ki, cəhalətdən mə'rifətə eşitdiyindən gördüyünə və nəhayət, xalqdan Xaliqə doğru qaçsın. Bu qaçışda dünya və axirət səadəti və Allah razılığı vardır.

Aşiqə dünyanı versən də əgər
Gözlərini yumub ruhunu dinlər.
Mə'şuqla görüşü olan bir insan
Dünya sevgisinə uymaz heç zaman.
Bu hicran çölündə göz yaşlarından
Çiçəklər açılır dərdlərə dərman.
Kim yaşlar axıtsa göz bulağında
Vüsala yetişər yar sorağında.

«Allahummə la əcidu lizunubi ğafirən, və la liqəbahi satirən, və la lişəy'in min əməliyəl-qəbihi bilhəsəni mubəddilən ğəyrəkə»

---

[252] «Биһарул-әнвар», 75-чи чилд, сәһ-126.

(«Pərvərdigara, Səndən başqa günahlarımı bağışlayacaq, qəbahətlərimi örtəcək və pis əməllərimi yaxşıya döndərəcək bir kəs tapmıram.»)

## *GÜNAHLARI BAĞIŞLAYAN*

«Ğafir» və «Ğəfur» adları mehriban Allahın gözəl adları və ali sifətlərindəndir. Yə'ni, Onun müqəddəs vücudu çox-çox bağışlayandır. Bu bağışlanmanı əldə etmənin şərti həqiqi tövbə və haqqa qayıdışdır. Günahkar insan Allahın ğəfur sifətinə əsasən ümidvar olmalıdır ki, günahlarına tövbə etsə mütləq bağışlanacaqdır. Bağışlanmağa ümidsizlik böyük günahdır və əzabı vardır. «Yusif» surəsinin 87-ci ayəsində buyurulur: **«Allahın mərhəmətindən yalnız kafirlər ümidini üzər».** «Zumər» surəsinin 53-cü ayəsində oxuyuruq: **«De ki, ey mənim özlərinə zülm etməkdə həddi aşmış bəndələrim, Allahın rəhmətindən ümidsiz olmayın. Allah bütün günahları bağışlayar».**

«Nisa» surəsinin 23-cü ayəsindən görünür ki, Allah-Taala hər bir günahkarın tövbəsini qəbul edir: **«Həqiqətən Allah bağışlayan və rəhm edəndir».** «Maidə» surəsinin 39 ayəsini oxuyuruq: **«Hər kəs gördüyü haqsız işdən sonra tövbə edib özünü düzəltsə Allah onun tövbəsini qəbul edər».**

Bəli, tövbə edib, tövbədən sonra böyük günaha və təkrar kiçik günaha yol verməyən, qəzaya verdiyi vacib əmrləri yerinə yetirən, xalqın haqqını ödəyən şəxs hökmən bağışlanasıdır.

Həzrət Peyğəmbər (s) buyurur: «Həqiqi tövbəkarın dörd əlaməti vardır: Əməldə Allah əmrlərinin sözsüz

icrası, batildən uzaqlaşmaq, həqiqətə bağlılıq və xeyirxahlığa güclü rəğbət».[253] Həzrət Əli (ə) buyurur: «Allah-Taala bəndəsinin üzünə şükür qapısını açıb, ne’mətin artım qapısını bağlamaz. O, dua qapısını açıb, qəbul qapısını örtməz. Allah tövbə qapısını açıb, bağışlanma qapısını bağlamaz».[254]

## *GÜNAHLARI ÖRTƏN*

Allah-Taala gizlində günah edib, onu kimsəyə açmayan bəndənin günahını açmağı sevməz. Həzrət Haqq özünü «Səttarul-uyub» adlandırır ki, hamı Onun gizli günahı açmadığını bilsin. Əlbəttə ki, həyasızcasına xalqın gözü qarşısında günah edən şəxsin günahını örtməyə dəyməz.

Həzrət Peyğəmbər (s) buyurur: «Allah tövbə edən şəxsin tövbəsini qəbul edib, onun əzalarına əmr edər ki, onun günahlarını özündən gizlətsinlər. Torpağa əmr olunar ki, günahları örtsünlər. Hətta bu günahı onun əməl naməsinə yazanların belə yadından çıxarılar.»[255]

Müaviyə ibn Vəhəb nəql edir ki, İmam Sadiq (ə) belə buyurdu: «Allah-Taala xalis tövbə etmiş mö’min bəndəsinə məhəbbət bəsləyir, günahlarını dünya və axirətdə örtər. Yazdıqları günahları mələklərin yadından çıxarar. Onlar Allahla görüşdükləri vaxt şahidlik etməyə günah tapmazlar».[256]

Rəvayətə görə qiyamət günü bəndə Allah hüzuruna gətirildiyi vaxt Allah-Taala əmr edər ki, qübbə qurub

---

[253] «Мизанул-һикмәт» 2-чи чилд, сәһ-638.

[254] «Нәһчул-бәлағә».

[255] «Биһарул-әнвар», 6-чы чилд, сәһ-28.

[256] «Кафи», 2-чи чилд, сәһ-430.

bəndəmi orada yerləşdirin. Sonra bəndəyə buyurar: «Ey mənim bəndəm, ne'mətlərimi günaha xərclədin, ne'mətimi artırdıqca, günahlarını artırdın». Bəndə xəcalətdən başını aşağı salar: Xitab olunar: «Ey mənim bəndəm, başını qaldır. Günah etdiyin saat günahını bağışladım». Sonra başqa bir bəndə gətirilər. O da danlanar və xəcalətdən ağlayar. Allah-Taala buyurar: «Günah edib güldüyün vaxt səni utandırmadım. Bu gün ki, günah etməyib ağlayırsan, səni necə rüsvay edim?! Səni bağışladım və behiştə getməyinə icazə verdim».[257]

## *PİSLİYİ YAXŞILIĞA ÇEVİRƏN*

Mehriban Allahın sifətlərindən biri də budur ki, tövbə edən bəndənin günahını savaba çevirər. «Fürqan» surəsinin 70-ci ayəsində oxuyuruq: «Tövbə edib iman gətirən və yaxşı işlər görənlərin pis əməlləri yaxşı əməllərə çevrilər. Allah bağışlayan və rəhm edəndir». «Hud» surəsinin 114-cü ayəsində oxuyuruq: **«Namazı gündüzün iki başında və gecənin bə'zi saatlarında qıl. Həqiqətən, yaxşı əməllər pis işləri yuyub aparar».**

Pis işin yaxşı işə çevrilməsi barədə elmi, fəlsəfi, ürfani söhbətlər çoxdur. «Təfsire-nümunə»də bu əvəzolmanın bir neçə təfsiri bəyan olunur:

1. İnsan tövbə edib Allaha iman gətirdikdən sonra onun bütün vücudunda böyük bir təlatüm yaranır. Bu insan əvvəllər qatil olubsa, indi məzlumları müdafiə edir, əvvəllər zina edibsə indi iffətini qoruyur. Bu daxili inqilab nəticəsində günahlar savaba çevrilir.

---

[257] «Мəнһəчүс-садигин».

2. Əbuzər nəql edir ki, Həzrət Peyğəmbər (s) belə buyurdu: «Qiyamət günü Allah-Taala bə'zi insanlar haqqında əmr edər ki, bu bəndənin kiçik günahlarını çıxarın, böyük günahlarını isə örtün. Kiçik günahlarına e'tiraf edən bəndə böyük günahlarının qorxusundan qəlbi titrəyər. Bu an Allah istəsə lütf edib göstəriş verər ki, hər günahın yerinə bir savab verilsin. Bəndə ərz edər ki Pərvərdigara, mən mühüm günahlarımı görmürəm». Əbuzər nəql edir ki, Peyğəmbər (s) söhbətinin bu yerində gülümsündü və bu ayəni oxudu: «Allah onların pis əməllərini (günahlarını) yaxşı əməllərlə əvəz edər.»[258]

3. Savaba çevriləcək pis işlər dedikdə bu pis işlərin özü yox, onların insanda qalmış tə'sirləri nəzərdə tutulur. Yə'ni insan tövbə etdiyi zaman, vaxtilə gördüyü pis işdən vücuduna düşmüş ləkə təmizlənəcəkdir.

Aşiqdə əğyara zərrə maraq yox,
Dərgahından özgə yerdə pənah yox.
Aşiqik, söyləmiş sevgi sultanı
Mə'şuqla görüşdür hicran dərmanı
Bilə-bilə Sən tək pənahımız var
Xəcilik qarşında, günahımız var.
Hər nə yazılmışsa kəlməsi doğru,
Bu yolda büdrəyən çəkəsi ağrı.

«La ilahə illa əntə subhanəkə və bihəmdikə»

---

[258] «Нурус-сәгәлејн» 4-чү чилд, səh-33.

(«Səndən başqa bir mə’bud yoxdur, Sən paksan və mən Sənə həmd və səna edirəm.»)

«La ilahə illa əntə» təhlil, «subhanəkə» təsbih, «bihəmdikə» təhmid kimi tə’bir olunur. Hər kəs dildə təhlil, yə’ni Allahın birliyinin iqrarını desə eləcə də dediklərinə sadiq olsa, həqiqətən müvəhhid, yə’ni tək Allaha imanlıdır. Belə insan Allahın amanındadır, dünya və axirət əzabı ona haramdır. Bu şəxs behiştdə peyğəmbərlər və digər ləyaqətə çatanlarla yoldaş olasıdır.

Həqiqi təhlil insan qəlbində o zaman təcəlla edir ki, insan Qur’an və Əhli-beyt (ə) vasitəsi ilə öz Allahını tanısın və Ona itaət etsin. Bu yolu gedən insanın bütün vücudu «Allahdan başqa hər şey batildir» deyə fəryad qoparır.

Kimsədə eşqinə varmağa güc yox,
O eşqə varanda durmağa güc yox.
Hansı könül quşu düşsə qəfəsə
Qəmli nəğmə üçün gələr həvəsə.
Dirilməz ölü qəlb min bir acıdan,
Yalnız eşq qəmindən ucalır insan.
Sevgidir gecəyə layla çalan da,
Bal kimi yuxunu gözdən alan da.
Əfsus ki, bayquş tək görmədik nuru.
Gizli xəzinələr olmasa aşkar,
Üstündə fəqirik, gözlərimiz dar.
Olsa da zərrələr haqqa harayda
Bu kar qulaqlara çətin ki, çata.

Doğrudan da varlıq aləmində insanı ne'mətlərə qərq edəcək, Onu çətinliklərdən qurtaracaq və nəhayət, xoşbəxtliklərə qovuşduracaq ikinci bir kəs yoxdur. Dua edən şəxs öz acizliyinə və günahlarına e'tiraf etdikdən sonra təbii olaraq öz çətinliklərini həll etmək üçün bunları həll etmək iqtidarında olan varlığa üz tutaraq deməlidir: «la ilahə illa əntə subhanəkə və bihəmdikə».

## *BEHİŞTİN DƏYƏRİ*

Allahı tanıyaraq Ona təhlil deyən, əməldə bütün saxta mə'budlardan üz döndərib Allahdan qeyrisinə itaət etməyən insan behiştin dəyərini hazırlamağa başlamışdır. Həzrət Peyğəmbərdən (s) nəql olunur ki, Allah-Taala buyurmuşdur: «Tövhid (Allahın birliyinə inam) Mənim qalamdır. Mənim qalama daxil olan kəs əzabımdan amandadır».[259]

Həzrət Peyğəmbər (s) buyurur: «Tövhid ne'məti əta olunmuş şəxsin mükafatı yalnız behiştdir».[260] «Allaha yəqinliyi olan halda ölən şəxs behiştə daxil olar».[261]

İmam Sadiq (ə) buyurur: «La ilahə illəllah demək behiştin dəyəridir.»[262] «Xalisliklə la ilahə illəllah deyən şəxs behiştə daxil olar. Bu işdə xalislik odur ki, bu sözlər insanı Allahın haram buyurduqlarından çəkindirsin».[263]

---

259 «Биһарул-әнвар», 3-чү чилд, сәһ-5.

260 «Биһарул-әнвар», 3-чү чилд, сәһ-5.

261 «Биһарул-әнвар», 3-чү чилд, сәһ-9.

262 «Вәсаилуш-шиә», 7-чи чилд, сәһ-210.

263 «Биһарул-әнвар», 90-чы чилд, сәһ-197.

İslam Peyğəmbəri (s) buyurmuşdur ki, «la ilahə illəllah deyən şəxs behiştə daxil olar. Bir kişi İmam Baqirin (ə) yanına gəlib, bu hədis haqqında soruşdu. İmam (ə) buyurdu: «Rəvayət doğrudur, amma şərtləri var və bu şərtlərdən biri mənəm».[264]

Bəli, bütün hallarda yeganə çıxış yolu tövhid və onun şərtləridir. Allahı tanıyıb, Onun birliyini təsdiq edən, peyğəmbərliyi və imaməti qəbul edən, dinin göstərişlərinə tabe olan şəxs yeganə doğru yolu tapmışdır. Tövhid kölgəsində bütün xeyir əməllər qəbuldur və qəflətdən baş vermiş günahlar tövbədən sonra bağışlanır. Tövhiddən kənarda isə heç bir əməl qəbul olunmur və ən kiçik günah belə bağışlanmır.

Tövhid əhli ağır günaha görə qiyamət əzabına düçar olsa, belə tövhid sayəsində qurtulur.

Həzrət Peyğəmbər (s) Cəbrailə buyurdu: «Mənim üçün cəhənnəmi təsvir et». Cəbrail cəhənnəmi və onun əhlini təsvir edərkən birinci təbəqəyə çatdıqda susdu. Həzrət Peyğəmbər (s) soruşdu ki, bu təbəqənin sakinləri kimlərdir? Mələk dedi: «Bura ən asan təbəqədir və onun sakinləri sənin ümmətinin asiləridir. Onlar böyük günaha yol verib, dünyadan tövbəsiz gedənlərdir». Bu sözləri eşidən Peyğəmbər (s) üç gün ağladı. Dördüncü gün Həzrətin (s) ziyarətinə gəlmiş Zəhra (s) gördü ki, Həzrət (s) üzünü torpağa qoyub ağlayır. Soruşdu ki, nə baş verib? Həzrət Peyğəmbər (s) Cəbrailin dediklərini Zəhraya çatdırdı və buyurdu: «Vəhy mələyi mənə xəbər vedi ki, Cəhənnəmin birinci təbəqəsi mənim ümmətimin günahkarlarının yeridir və

---

[264] «Биһарул-әнвар», 3-чү чилд, səh-13.

ağlamağımın səbəbi də elə budur.» Həzrət Zəhra (ə) ərz elədi: «Vəhy mələyindən soruşdunmu ki, günahkarlar Cəhənnəmə hansı surətdə gələcəklər?» Buyurdu: «Bəli, kişilərin saçlarından və qadınların hörüklərindən yapışaraq onları Cəhənnəmə sarı çəkərlər və elə ki, ora yaxınlaşarlar, Maliki (Cəhənnəmin böyüyü olan mələk) gördükdə dad-fəryad qoparar və ona belə yalvararlar: «bizə bir qədər möhlət ver ki, öz halımıza ağlayaq.» Malik möhlət verdikdə o qədər ağlayarlar ki, gözlərinin yaşı quruyar və qan ağlayarlar. Malik deyər: Nə yaxşı olardı ki, dünyada bu cür ağlayaydınız və bu günün qorxusundan gözlərinizdən axıdaydınız!

Sonra Malik onları Cəhənnəmə atar və onlar birdən fəryad edərlər ki: «La ilahə illəllah.» Bu zaman od onlardan uzaqlaşar. Malik odun üstünə qışqırar ki, «ey od, onları bürü!» Od deyər: «Dillərində pak «la ilahə illəllah» kəlməsi olan halda onlrı necə bürüyə bilərəm?» Malik yenə qışqırar ki: «Onları bürü!» Lakin Haqq tərəfindən xitab olunar ki, «üzlərini yandırma, çünki Allaha səcdə etmişlər, və qəlblərini yandırma, çünki mübarək Ramazan ayında susuzluq çəkmişlər.» Beləliklə, Allah istəyənə kimi onlar orada qalarlar.

Bir neçə müddətdən sonra Cəbrailə nida olunar: «Ümmətin günahkarlarının halı necədir?» Malik Cəhənnəmin örtüyünü çəkər və günahkarlar Cəbraili gözəl bir surətdə müşahidə edər və deyərlər: Bu gözəl üzlü şəxs kimdir görəsən? Cavab verilər: Bu, Cəbraildir – o ki, dünyada həzrət Məhəmmədə (s) vəhy gətirirdi. Elə ki, Cəhənnəm əsirləri Peyğəmbərin mübarək adını eşidərlər, fəryad çəkib deyərlər: Bizim

tərəfimizdən Məhəmmədə (s) salam yetir və söylə ki, ümmətin günahkarları Cəhənnəmdə giriftardırlar.

Vəhy mələyi bu xəbəri Peyğəmbərə (s) yetirər, bu zaman o həzrət başını səcdəyə qoyar və Allah dərgahına ərz edər ki: «Ümmətimin günahkarlarını Cəhənnəmə apardın, indi də onları mənə bağışla.» Xitab yetişər: «Onları sənə bağışladım.» Beləliklə, Peyğəmbər (s) onları Cəhənnəmdən çıxarar və onlar kömür kimi qapqara olduqlarından əvvəlcə «eynül-həyat» adlı bulağa aparılarlar. Elə ki, o bulaqdan içərlər, zahiri və batini çirkinlikləri təmizlənər və pak-pakizə olarlar, alınlarında isə belə bir ifadə yazılar:

«Mehriban Allahın oddan azad etdiyi şəxslər.» Onlar Behiştə aparıldıqları zaman, Behişt əhli onları bir-birlərinə göstərib deyərlər: «Bunlar nicat tapmış Cəhənnəm əhlidirlər.»

Belə olduqda onlar deyərlər: «Ey Rəbbimiz! Rəhm edərək bizi Behiştə gətirdin, elə isə bu əlaməti alnımızdan sil.» Onların istəkləri yerinə yetirilər və həmin əlamət alınlarından yox olar.»

## *TƏSBİH VƏ HƏMD*

Təsbih Həzrət Haqqı hər bir eyibdən pak bilmək, Onun sonsuz kamalını təsdiq etməkdir.

Təlhə ibn Übeydullah deyir: «Həzrət Peyğəmbərdən (s) «sübhan Əllah» haqqında soruşduğum zaman Həzrət (s) buyurdu ki, «sübhan Allah» Allahı hər bir eyibdən pak bilməkdir».[265]

---

[265] «Мизанул-һикмәт», 5-2362.

Qur'ani-Məciddə «İsra» surəsinin 44-cü ayəsində buyurulur: **«Elə bir şey yoxdur ki, Allaha tə'rif deyib Ona şükür etməsin. Lakin siz onların təsbihini anlamahsınız».**

Duanın bu hissəsində Allahın təsbihindən məqsəd günah və xataların e'tirafından sonra bağışlanmaq üçün təsbihin ən üstün vasitə olmasıdır. Yunus gecənin, dənizin, düşdüyü yerin qaranlığında belə fəryad etdi: **«Pərvərdigara! Səndən başqa heç bir tanrı yoxdur. Sən pak və müqəddəssən! Mən isə həqiqətən zalımlardan olmuşam».**[266] Bu ayə haqqında Həzrət Peyğəmbər (s) buyurur: «Bu duanı oxuyan hər bir dərdlinin duası qəbuldur».[267] Həzrət Əli (ə) buyurur ki, təsbih əməl tərəzisini savabla doldurar».[268]

Əllamə Məclisi «Biharul-ənvarda» belə nəql edir: «Həzrət Peyğəmbər (s), qarşısına onu xoşhal edəcək bir iş çıxdıqda bu ne'mətə görə Allaha həmd oxuyardı. Qarşısına onu qəmləndirəcək bir iş çıxdıqda isə deyərdi: **«Bütün hallarda Allaha həmd olsun».**

«Zələmtu nəfsi və təcərrə'tu bicəhli, və səkəntu ila qədimi zikrikə li və mənnikə ələyyə»

(«Özümə zülm etdim və nadanlıqdan cəsarətə yol verdim, keçmişdə əta etdiklərini xatırlamaqla arxayınlaşıb oturdum.»)

---

[266] «Әнбија» сурәси, ајә 87.

[267] «Әнисүл-ләјл», səh-226.

[268] «Әнисүл-ләјл», səh-228.

## *İNSANIN ÖZÜNƏ ZÜLMÜ*

Pərvərdigara! Səni düşüncə yolu ilə varlıq aləmindəki əsərlərinə tamaşa etməklə alimlərdən həqiqətləri eşitməklə kitabları mütaliə etməklə lazımi həddə tanısam da, Sənə doğru hərəkət etmədim, istəyinə tabe olmadım, qarşında təvazö' göstərmədim, bütün işlərimdə Səndən qəflətdə qaldım və bütün bunlarla özümə böyük zülm etdim!

Aldığım mə'lumatlardan peyğəmbərlərini tanısam da, onların doğru yola çağırdığını bilsəm də insanlar üçün səadət istədiklərini anlasam da onlardan üz döndərdim. Biganələrə üz tutub, peyğəmbərlərinin zəhmətini qiymətləndirmədim. Özümə böyük zülm etdim!

Qur'anla kifayət qədər tanış olsam da, onun peyğəmbər vasitəsi ilə göndərilmiş ilahi vəhylərdən ibarət olduğunu bilsəm də yenə arxa çevirdim və ondan ayrılıqda yaşadım. Bu, özümə rəva bildiyim ağır bir zülm idi!

Müxtəlif vasitələrlə mə'sum imamların ilahi bir dəlil olduğunu bilsəm də onların peyğəmbər tərəfindən özündən sonra üçün ilahi rəhbər kimi tanıtdırıldığından xəbərdar olsam da, onların Allah düşmənləri tərəfindən min bir müsibətə düçar etdirilib şəhadətə yetirildiklərini, nəfsimə uyub şərqi və qərbi azğınlığa sürükləmiş cahillərə üz tutdum, onları imamlardan üstün bildim. Bununla da özümə böyük zülm etdim!

Alimin yerində otursa cahil
Dünyanın işləri olası müşkül.
Bu könül xanəsi pərvanə sayaq
Qalacaq hörümçək torunda dustaq.
Zahirdə güləcək sevgi, məhəbbət,
Batində görəcək işini nifrət.
Dost-dostdan, yar-yardan düşəcək ayrı,
Hamı üz tutacaq günaha sarı.
Yarılacaq iffət, həya pərdəsi,
Boğulacaq qəlbdə vicdanın səsi.

Bilsəm də ki, «Nəhcül-bəlağə» Həzrət Əlinin (ə) sonsuz biliyindən bir parçadır, bu xəzinədə Allaha və səadətə doğru hərəkət üçün göstərişlər toplanıb, onu «Qur'anın qardaşı» adlandırıblar, mə'nasız qəzet və jurnallara maraq göstərdim. Əlli dörd duadan ibarət olan «Səhifeyi-Səccadiyyədən», abidlər mövlası İmam Səccadın (ə) ürək döyüntülərindən ibarət olan bir kitabdan xəbərdar olsam da, vaxtımı mə'nasız romanlar oxumaqla tələf etdim. Səadət yolunu göstərən «Kafi», «Təhzib», «İstibsar», «Biharul-ənvar», «Vəsail» və sair kimi kitabların bərəkətindən məhrum oldum. Özümə çox böyük zülm etdim!

### *NADANLIQDAN GÜNAH*

Pərvərdigara! Elm və bilik ardınca getmədiyimdən dini maarifdən məhrum oldum. Dünyanın tufanlı dəryasında cəhalət gəmisinə minib, günah burulğanında qərq oldum. Nadanlıq həqiqətləri dərk

etməyə işin sonunu görməyə imkan vermədi. Nə cənnət, nə də cəhənnəm haqqında düşünə bildim. Nadanlıq məni Səninlə müxalifətə günahkarlığa sövq etdi.

### *GÜNAHIN E'TİRAF OLUNMASI*

Pərvərdigara! Ana bətnində olduğum vaxt hərtərəfli şəkildə lütf və ehsanından bəhrələndim. Öz inayətinlə məni murdar nütfədən kamil insan şəklinə gətirdin. Mənə ehtiyac duyduğum beyin, ürək, göz, dil kimi əzalar əta etdin. Dünyaya sağlam gəlişim üçün anamın cisminə qüvvə verdin. Onun sinəsindəki südü, mehriban ana ağuşunu, məhəbbətlə dolu ata qəlbini Sən qərar verdin. Mənə yaşayış üçün zəruri olan bütün vasitələri Sən yetirdin.

Pərvərdigara, bütün ötən yaxşılıqlar məni o qədər arxayınlaşdırdı ki, nə qədər günah etsəm də bağışlanacağımı zənn etdim.

Amma indi Sənin lütfünlə ayılmışam və öz kimliyimi görürəm. Bütün vücudumla Sənə üz tutub günahlarımı e'tiraf edirəm: «zələmtu nəfsi.» Anlayıram ki, günahların bu sayaq e'tirafı bir növ tövbə və Sənə doğru qayıdışdır.

İmam Baqir (ə) buyurur: «And olsun Allaha, günahlarını e'tiraf etməyən kəs nicat tapmaz».[269] «And olsun Allaha, xalqa yalnız iki xasiyyət lazımdır: ne'mətləri e'tiraf etsinlər ki, artsın, günahları e'tiraf etsinlər ki, bağışlansın».[270]

---

[269] «Биһарул-әнвар», 6-чы чилд, сəh-36.
[270] «Кафи», 2-чи чилд, сəh-426.

Həzrət Əli (ə) buyurur: «Günahını e'tiraf edən kəs tövbəkar hesab olunur».[271] «Günahın e'tirafı onun şəfaətçisi, günaha görə üzr istəmək onun tövbəsidir».[272]

«Təzkirətul-avliya» kitabında nəql olunur ki, İmam Sadiq (ə) buyurmuşdur: «Əvvəli qorxu, sonu üzrxahlıq olan hər bir günah bəndəni Allaha yaxınlaşdırır. Əvvəli xudbinlik, sonu xudpəsəndlik olan hər bir ibadət bəndəni Allahdan uzaqlaşdırır».

## *GƏNC GÜNAHKARIN E'TİRAFI*

Mənsur ibn Əmmar deyir:

Bir gecə küçədən keçərkən bir evdən belə bir münacat eşitdim: «Pərvərdigara! Sənə qarşı itaətsizlikdən yox, şeytana və nəfsimə aldandığımdan günah etmişəm. Nəticədə Sənin qəzəbinə gəlmişəm». Bu sözləri eşidib Qur'andan bir ayə oxudum: «Ey iman gətirənlər! Özünüzü və əhli-əyalınızı elə bir oddan qoruyun ki, onun yanacağı insanlar və daşlar, xidmətçiləri isə Allahın buyruqlarını yerinə yetirən daşqəlbli və sərt təbiətli mələklərdir». («Təhrim» surəsi, ayə 6). Mən bu ayəni oxuduqdan sonra həmin gəncin naləsi ərşə ucaldı. Səhəri gün həmin qapıdan keçərkən bir qoca arvadın ağlayaraq yanındakılara belə dediyini eşitdim: «Gecələr Allah qorxusundan ağlayan bir oğlum var idi. Gecə o, münacat oxuyarkən küçədən keçən bir şəxs əzab ayəsi oxudu. Oğlum da fəryad çəkib dünyasını dəyişdi».

Yaxınlaşıb dedim: «Ana, o ayəni mən oxudum və oğlunun dünyadan getməsinə səbəb oldum, olarmı

---

[271] «Мустәдрәкул-вәсаил», 12-чи чилд, сəh-116.

[272] «Ғурәрул-һикәм», сəh-195.

onun qüslünü mən verim?» Qarı razılaşdı. Oğlanın üzündən örtüyü qaldırdıqda sinəsində yaşıl xətlə yazılmış bir yazı gördüm: «Biz bu bəndəyə tövbə suyu ilə qüsl verdik».[273]

Mə’şuqdən özgəyə açma sirrini,
Dağda-daşda gəzmə qiblə yerini.
Bil, mə’şuq incisə eşqə düşəndən
Naləylə fəryadla çətin gedə qəm.
Elə ki, qırıldı əllər ətəkdən,
Hicran alovunda qovrular bədən.
Pərvanə görüşçün gözlər gecəni,
Şəm’ olmasa, nalə olar həmdəmi.
Çün şə’mə vermişdir nə ki, sirri var
Başqası nə bilsə olası aşkar.
Asmışam boynumdan bəndəlik ipin,
O bir olan ağam mehriban, həkim.
Sordum eşq odundan varmı bir əlac,
Buyurdu ki, vüsal ağrıya möhtac.

## *TÖVBƏKAR GÜNAHKARIN AQİBƏTİ*

Bir gün tanınmış abid Yusif ibn Hüseyn məclisdə moizə edirdi. Günahkarlığı ilə tanınmış Əbdül-Vahid ibn Zeyd də bu məclisdə iştirak edirdi. Yusif dedi: «Mehriban Allah günahkarları özünə doğru elə də’vət edib ki, sanki onlara möhtacdır». Bu sözlərdən tə’sirlənən Əbdül-Vahid yerindən dik qalxıb fəryad edərək birbaşa qəbiristanlığa üz tutdu. Həmin gecə Yusifə yuxuda belə nida olundu: «Günahkar cavanı

[273] «Әнисул-ләјл», səh-233.

tap». Üç gün Əbdül Vahidi gəzən Yusif, nəhayət, onu qəbirisatanlıqda tapdı. Üzünü torpağa qoyub ağlayan Əbdül-Vahid Yusifi görüb «üç gündür səni göndəriblər, indi gəlirsən» - dedi və gözlərini əbədi olaraq yumdu!

«Allahummə mövlayə kəm min qəbihin sətərtəhu və kəm min fadihin minəl-bəlai əqəltəhu və kəm min isarin vəqəytəhu və kəm min məkruhin dəfə'təhu və kəm min sənain cəmilin ləstu əhlən ləhu nəşərtəhu».

(«Pərvərdigara, ey mənim mövlam! Yol verdiyim nə çox çirkinliyi örtmüsən, nə çox ağır bəlaları məndən kənarlaşdırmısan, məni nə çox büdrəmələrdən hifz etmisən, məni nə çox xoşa gəlməyən işlərdən müdafiə etmisən, layiq olmadığım nə çox tə'rifləri xalq arasında yaymısan.»).

Cümə axşamı gecənin qaranlığında bəndənin dua və tövbə halında "Ey mənim Ağam, ey mənim Mövlam" çağırmasının başqa bir mənzərəsi var. Həzrət Musa (ə) öz münacatında belə ərz etdi: "Ehtiyac içindəyəm və xəzinəndə olmayan bir şey məndədir." Həzrət Musadan (ə) soruşuldu ki, o nədir? Həzrət Musa (ə) belə ərz etdi: "Sənin kimi Allahım var."[274] Çirkinliklərin örtülməsi böyük ne`mətlərdən və Allahın öz bəndəsinə olan əsl ehsanlarındandır. Əgər Allah-Taala dünyada pis əməllərin üstünü örtürsə Qiyamətdə tövbə etmiş mö`min bəndəsinin günahlarına hökmən pərdə çəkəsidir. Həzrət Peyğəmbər (s) buyurur: «Bu dünyada

[274] Əнисүл-ләјл, 239.

əgər bəndənin bir günahı örtülürsə, axirətdə də örtüləcəkdir.»

Peyğəmbər (s) və Əhli-beytdən (ə) nəql olunmuş dualarda tez-tez Allahın "eybləri örtən" sifətinə işarə olunur. Tövbə edən günahkara müjdə verilir ki, mehriban Allah mö`minin hörmətini dünya və axirətdə qoruyur, onun çirkinliklərini örtür. İbn Fəhəd Hillinin məşhur "Uddətud-dua" kitabında mühüm bir hədis nəql olunur:

Cəbrail (ə) Peyğəmbərə (s) dedi: "Allah-Taala sənin üçün hədiyyə göndərib. Bu, ərş xəzinələrindən olan kəlmələrdir. Allah Öz ərşini bu kəlmələrə görə əziz tutub." Sonra həmin kəlmələri oxumağa başladı: " Ey yaxşılıqları aşkarlayıb pisliklikləri örtən Kəs, ey günaha görə cəzalandırmayıb, hörmət pərdəsini götürməyən Kəs, ey əfvi əzəmətli, bağışlaması geniş olan Kəs, ey iki qüdrət əli açılmış Kəs, ey hər sirrin sahibi, şikayətlərin sonu, ey böyüklüklə keçən (bağışlayan) qapayan, ey ne`məti əzəmətli, ey ne`məti istənilmədən verən, ey Rəbb, ey Ağa, ey Mövla, ey rəğbət və şövqümüzün sonu! Səndən istəyirəm ki, vücudumu odla çirkin surətə döndərməyəsən." Həzrət Peyğəmbər (s) Cəbrailə (ə) buyurdu: "Bu kəlmələrin savabı nədir?" Cəbrail (ə) dedi: "Bu kəlmələrin savabından agahlığa güc çatmaz. Əgər yeddi göy və yeddi yerin mələkləri toplanıb Qiyamət gününədək bu duanın savabını vəsf etsələr, onun mində biri üçün yetərli olmaz. "Ya mən əzhərəl-cəmilə və sətərəl-qəbihə" deyənin günahı örtülər, dünyada rəhmətə və axirətdə yaxşılığa çatar və dünya ilə axirətdə min pərdəyə bürünər. "Ya mən ləm yuaxiz

bil-cərirəti və ləm yəhtikis-sitrə" deyəni Allah Qiyamətdə hesaba çəkməz və pərdələr götürülən gün onun pərdəsi qalar. "Ya əziməl-əfv" deyənin günahları dəryaca da olsa belə, bağışlanar. "Ya həsənət-təcavuz" deyənin hətta böyük günahları belə əfv edilər. "Ya vasiəl-məğfirəti" deyən Allahın rəhmətinə qərq olar. "Ya basitəl-yədəyni bir-rəhməti" deyənə Allah rəhmətlə qüdrət əlini açar. "Ya sahibə kulli nəcva və muntəha kulli şəkva" deyənə hər bir müsibətin savabı əta olunar. "Ya əziməl-mənni" deyən bütün arzularına çatar. "Ya mubtədiən bin-niəmi qəbləstihqaqiha" deyənə şükür edən bəndənin savabı verilər. "Ya Rəbbəna və Səyyidəna" deyən haqqında Allah-Taala buyurar: - "Ey mələklərim! Şahid olun ki, onu bağışladım..." "Ya Mövlana" deyənin qəlbi imanla doldurular. "Ya ğayətə rəğbətina" deyənə xalqın istəyincə əta olunar. Bəndə "əs`əlukə ya Allahu ən la tuşəvvihə xəlqi bin-nari" dedikdə Allah buyurar: "Bəndəm oddan qurtuluş istədi. Ey mələklər, şahid olun ki, onu, ata-anasını, qardaşlarını, ailə-övladını, qonşularını azad etdim. Onun min od əhli haqqında şəfaətini qəbul etdim və onu Cəhənnəmdən qurtardım."

Cəbrail (ə) dedi: "Ya Məhəmməd, bu sözləri təqva əhlinə öyrət, münafiqlərə yox! Bu duanı oxuyanın duası qəbuldur..."

Möhtərəm oxucular bu duadakı böyük savablara təəccüb etməməlidirlər. Çünki Allahın rəhməti sonsuz, mükafatları tükənməzdir.

Həzrət Əli (ə) "Kəm min qəbihin sətərtəhu" cümləsi haqqında buyurur: "Zəlzələ tufan, sel, yanğın, qəza, səma bəlaları, qıtlıq, bahalıq, ağır müsibətlər, yaxınların itkisi kimi ağır bəlaları məndən uzaqlaşdırdın. Məni imanımı aparacaq, əxlaqımı məhv edəcək, saleh əməllərimi fənaya döndərəcək, xalq arasında hörmətdən salacaq büdrəmələrdən hifz etdin. Rahatlığımı pozacaq, pərişanlığa qərq edəcək, yuxumu gözümdən alacaq, ruhuma və qəlbimə narahatlıq gətirəcək pislikləri məndən dəf etdin. Əməl namərn günahla dolu olsa da, məni xalq arasında əziz etdin. Ata-ana, bacı-qardaş, qohum-əqrəba arasında məni üstün tanıtdırdın, mənə tə`rif dedilər – halbuki, bütün bunlara layiq deyildim!"

**"**Allahummə əzumə bəlai və əfrətə bi suu hali və qəsurət bi ə`mali və qəədət bi əğlali**"**

("Pərvərdigara, bəlam böyükdür, halımın pisliyi həddini aşmış, əməllərim yetərsiz olmuş, zəncirlərim məni yerə oturtmuş.")

Bu cümlələrdən aydın olur ki, günah xəstəsi, üsyan əsiri, maddiyyat düşkünü, halının pisliyi həddini aşmış bəndə alim və həkim, qadir və güclü həkimə yol tapmışdır. Bu həkim öz mərhəmət və məhəbbəti sayəsində xəstəyə şəfa vermək üçün Özü onu də`vət etmişdir.

## *BƏLANıN MƏ`NASı*

Kəramət və bəsirət sahibləri "Allahummə əzuməl-bəlai" cümləsindəki "bəla" kəlməsini bir neçə cəhətdən mə`nalandırmışlar:

**1. Günah.**

Qeyd olunur ki, "bəla" dedikdə xəstəliklərin ən böyüyü olan günah nəzərdə tutulur. Əgər insan tövbə və saleh əməl vasitəsi ilə bu xəstəliyi müalicə etməsə qəlbi ölümə məhkumdur. Qəlb öldükdən sonra Allahla bəndə arasındakı bağlar qırılır və insan Allahın rəhmətindən əbədi məhrum olur.

İmam Səccad (ə) "Taibin" duasında bu həqiqətə işarə edərək belə buyurur: "Böyük cinayətim olan həmin günahkarlığım qəlbimi öldürmüşdür." Əbuzərdən hansı xəstəliyə düçar olduğunu soruşdular. Cavab verdi ki, «günahlarımın xəstəliyinə.»

## *ÇOX MÜHÜM BIR SUAL-CAVAB*

Əminül-İslam Təbərsi "Məcməul-bəyan" təfsirində "Vaqiə" surəsinin təfsirinin müqəddiməsində belə rəvayət edir:

Osman ibn Əffan , Əbdullah ibn Mə`sud xəstə olduğu vaxt ona baş çəkməyə getdiyi zaman ondan soruşdu: "Nədən şikayətin var?" Cavab bu oldu ki, - "Günahlarımdan". Yenə sual verdi: "İştahan nə istəyir?" Əbdullah cavab verdi: "Allahın rəhmətini." Osman ondan həkim gətirilməsi barədə soruşduqda Əbdullah dedi: "Məni həkim xəstələndirib." Osman soruşdu ki, - "Haqqını (maaşını) beytül-maldan (xəzinədən) ödəyimmi?" Əbdullah cavab verdi:

"Möhtac olduğum vaxt ödəmədin, ehtiyacım olmayandamı ödəmək istəyirsən?" Osman dedi: "Qoy ödəyim, qızların istifadə edər." Əbdullah imtina etdi: "Qızlarımın ona ehtiyacı yoxdur. Onlara demişəm ki, "Vaqiə" surəsini oxusunlar. Həzrət Peyğəmbərdən (s) eşitmişəm ki, hər gecə "Vaqiə" surəsini oxuyan heç vaxt fəqir olmaz."

## *ÜVEYS QƏRƏN ILƏ SÖHBƏT*

"Təzkirətül-övliya" kitabında nəql olunmuş bir rəvayətdə Hərim ibn Həyyan deyir:

«Üveys Qərənin şəfaət məqamı haqqında eşitdikdən sonra onunla görüşmək arzusuna düşdüm. Kufəyə gəlib onu axtarmağa başladım. Nəhayət, tapdım. O, dəstəmaz alırdı. Məni görüb soruşdu: "Bura gəlişinin səbəbi nədir?" Dedim ki, - "Səninlə görüşmək eşqi." Dedi: "Allahı tanıyan insanın Ondan başqası ilə ünsiyyət axtarmasına inanmıram." Dedim ki, - "Mənə nəsihət et." Dedi: "Ölümü yatanda başının altında, oyananda isə qarşında gör. Günahın kiçikliyinə yox, Allahın böyüklüyünə diqqət et. Gör kimin qarşısında dayanmısan. Günahı kiçik saysan, Allahı kiçik saymış olarsan!»

**2. Yaxın məqamdan uzaqlıq.**

Alimlərin fikrincə «böyük bəla» Allaha yaxın məqamdan uzaq düşməkdir. Bu elə bir məqamdır ki, iman, saleh əməl və gözəl əxlaq vasitəsi ilə əldə edilir, Qiyamətdə insanın peyğəmbərlər, siddiqlər, şəhidlər və salehlərlə yoldaşlığına səbəb olur.

Belə bir məqamdan uzaq düşənlər, nəhayət, insanlıqdan, iman və saleh əməllərdən əsər-əlamət

olmayan bir səviyyəyə - şeytanlara və dördayaqlı heyvanlara məxsus olan bir səviyyədə enirlər.

İlahi məqama doğru daim hərəkətdə olanlar xüsusi feyzlərdən faydalanırlar. Bu feyzlərin tə`sirindən insan vəsfəgəlməz bir şadlıqla ibadət edir, xalqa yardım əlini uzadır. Beləəri üçün xalis bəndəlikdən başqa bir iş yoxdur. Onların yeganə arzusu məhbubun ağuşuna yetişməkdir.

Yusif Siddiq rəbbani eşqin tə`siri altında Kən`anın evini məscidə döndərdi. Yolun başlanğıcında rö`yalar aləminə səyahət edib bə`zi məqamlardan xəbərdar oldu. Züleyxa üçün zəlalət uçurumu olan saray Yusif üçün yüksəliş zirvəsinə döndü. Yusif zindanı ibadət məkanına çevirdi. Nəhayət, Misir sultanlığını xalqa xidmət üçün vasitə etdi.

Ey qəlb fəryad qopar, nalə çək, ağla,
Ol vəfalı yarı axtar, soraqla.
Sirrini açmaqçün o qara zülfün,
Hər telini götür, ayrı daraqla.
Bu eşq kitabında çatmaqçün haqqa,
Oxu asta-asta, aram varaqla.
Ya Rəbb, bu candakı həvəs ağacın,
Kökdən qopar, yerdə otun oraqla.
Eşqindən qəlbimə düşməsə işıq,
Süzəcək dünyanı şirin maraqla.
Yaddan çıxarılmaq istəməyən can,
Götür eşq kəmərin, belinə bağla.

**3. Nadanlıq.**

Cəhalət və nadanlıq da «böyük bəla» hesab olunur. Bütün bədbəxtliklərin və məhrumiyyətlərin kökü nadanlıqdır. Həzrət Əli (ə) buyurur:

"Cəhalət xəstəlik və gücsüzlükdür."[275]

"Cəhalət xəstəliklərin ən şiddətlisidir."[276]

"Cəhalət diriləri öldürür, bədbəxtlikləri əbədi edir."[277]

"Cahil təqsirini anlamır, nəsihəti qəbul etmir."[278]

"Cahil diri də olsa, ölüdür."[279]

"Cahil su axmayan daş, budağı cücərməyən ağac, otsuz torpaqdır."[280]

Həzrət Əli (ə) bir duasında Allaha belə münacat edir: "Mən cəhaləti səbəbindən Sənə itaətsizlik göstərmiş, günaha batmış, Səni unutmuş və dünyaya könül vermiş cahiləm."[281]

## *HAL PISLIYI*

«Hal pisliyi» dedikdə ən pis xəstəliklərdən olan əxlaqi çirkinliklər nəzərdə tutulur. Bəsirət əhlinin fikrincə bu xəstəlik insanı bir çox həqiqətlərin dərkindən, səadət və ilahi razılıqdan məhrum edən bir hicabdır. "Mutəffifin" surəsinin 15-ci ayəsində oxuyuruq:

**"Xeyr, o gün onlar Rəbbinin mərhəmətindən məhrum olacaqlar."**

---

[275] Ғурəрул-һикəм", 73.
[276] Ғурəрул-һикəм", 73.
[277] Ғурəрул-һикəм", 75.
[278] Ғурəрул-һикəм", 75.
[279] Ғурəрул-һикəм", 75.
[280] Ғурəрул-һикəм", 74.
[281] "Биһарул-əнвар", 94-219.

Allah-Taala gözəl əxlaqa bütün digər vəzifələrdən daha tə`kidlə tövsiyə edir. “Şəms” surəsində on bir dəfə and içildikdən sonra əxlaqlı insanların əbədi səadətə çirkin əxlaqlıların isə ümidsizliyə qovuşacağı buyurulur:

**“Nəfsini təmizləyən mütləq nicat tapacaqdır; onu çirkləndirən isə əlbəttə ziyana uğrayacaqdır.”**[282]

Bəsirət gözünün korluğu, həqiqətdən uzaqlıq, haqqa münasibətdə karlıq, rəhmət qoxusunu duymamaq hal pisliyi əlamətlərindəndir.

Həzrəti Peyğəmbər (s) buyurur: “Mö`mində iki xasiyyət ola bilməz: xəsislik və pis əxlaq.”[283]

Həzrət Əli (ə) buyurur: “Pis əxlaqdan da qorxunc bir dəhşət yoxdur.”[284] “Ən pis yoldaş pis əxlaqdır.”[285]

İslam Peyğəmbəri (s) buyurur: “Şübhəsiz ki, bəndə pis əxlaqına görə Cəhənnəmin lap dibinə enəcəkdir.”[286]

## *ƏMƏLDƏ QÜSUR*

Əgər insan səadətə mə`nəvi kamilliyə Behiştə çatmaq istəyirsə öz əməllərini Qur`an və Əhli-beyt (ə) göstərişlərinə uyğunlaşdırmalı, zəruri şərtlərə əməl etməlidir.

Əgər əməllər mə`rifət libası geyməmişsə Allahın istəyincə deyilsə sevgi və məhəbbətlə yerinə yetirilmirsə onda riya, tamah, təkəbbür, düşmənçilik

---

[282] “Шәмс”, 9-10.

[283] “Шәрhе-Нәhҹул-Бәлағә”, 6-337.

[284] Ғурәрул-hикәм”, 265.

[285] Ғурәрул-hикәм”, 264.

[286] “Мәhәҹҹәтул-бәјза”, 5-93.

varsa, bu əməllərə ümid etmək olarmı?! Onlar insanı nicat sahilinə çıxara bilərmi?!

Böyük mə`nəvi sərmayəyə malik olan Həzrət Əli (ə) öz münacatında göz yaşları axıdaraq deyir: "Aman ehtiyatın azlığı, səfərin uzunluğu və yolun qorxusundan!"[287]

Əsl bəndəlik eşqi və ixlasını dərindən dərk etmək üçün övliyaların həyatını əks etdirən kitablar oxumaq faydalıdır. İnsan bu yolla qəlbində mə`rifət çırağı yandırıb mə`nəvi həyatın zövqlərini əldə edə bilər.

Şəhid Qazi Nurullah Şüştəri "Məcalisul-mu`minin" kitabında belə rəvayət edir:

Üveys Qərən gecələrin bir qismində "bu, rüku gecəsidir" deyib, həmin gecələri rüku halında keçirər, digər qismini də "bu səcdə gecəsidir" deyib, həmin gecələri səcdə halında başa vurardı. Soruşurlar ki, - "Uzun gecələrin rükusu, səcdəsi səni yormurmu?" Cavab verir: "Kaş bütöv həyat bir gecə olaydı və onu bir səcdə ilə sona çatdıraydım!"

## *ZƏNCIRLƏR VƏ BUXOVLAR*

Bəsirət əhli "və qəədət bi əğlali" cümləsi haqqında deyirlər: "Əğlal" insanı hərəkətdən saxlayıb oturdan böyük günahlara işarə ola bilər. Bu günahlar insanı ibadət imkanından məhrum edir, onu məhrumiyyət uçurumuna yuvarladır. Həzrət Əli (ə) "Mən əvvəllər namaz və gecə nafiləsi qılırdım, indi bu tofiqdən

---

[287] "әл-Мәнагиб", 2-103.

məhrum olmuşam" deyən kişiyə belə buyurdu: "Günahların səni buxovlayıb."[288]

"Əğlal" dünyaya hədsiz bağlılıq da ola bilər. Bu bağlılıq insanı kamillikdən, mə`nəviyyatdan, saleh əməllərdən kənarlaşdırır. "Əğlal" insanı əsl məqsəddən yayındıran mə`nasız məşğuliyyətlər də ola bilər. Həzrət Peyğəmbər (s) buyurur: "Faydasız işləri boşlamaq insanın İslamının gözəl olmasındandır."[289]

**"**Və həbəsəni ən nəf`i bo`du amali**"**
("Uzun-uzadı arzular məni faydalardan saxladı.")

## *UZUN-UZADı ARZULAR*

Arzu və ümid mehriban Allahın insana əta etdiyi bir ne`mətdir. Əgər arzu və ümid olmasaydı, insan heç vaxt bir işə maraq göstərməz, çalışmazdı.

Rəvayət olunur ki, sahədə şum edən qoca kişini görən Həzrəti İsa (ə) əlini qaldırıb belə dua etdi: "Pərvərdigara! Bu qocanın arzu və ümidini bir an saxla." Dua qəbul olan kimi qoca əlindəki beli yerə qoyub, ağacın kölgəsində uzandı. Bir neçə saat keçsə də qoca yerindən tərpənmirdi. Yalnız Həzrət İsa (ə) duasını geri götürdükdən sonra qoca işinə davam etməyə başladı.[290]

Həzrət Peyğəmbər (s) buyurur: "Arzu mənim ümmətim üçün bir rəhmətdir. Əgər arzu olmasa, heç bir ana övladına süd verməz və heç bir əkinçi bir ağac

---

[288] "Кафи", 3-450.
[289] "Биһарул-әнвар", 1-150.
[290] "Мизанул-һикмәт", 1-184.

əkməz."[291] İmam Səccad (ə) belə dua edir: «Pərvərdigara! Səndən ən doğru arzunu istəyirəm.»[292]

Elm mərtəbəsinə yüksəlmək, əxlaqi dəyərlər əldə etmək, bəndəlik zirvəsinə ucalmaq, xalqa xidmət etmək, məscid tikmək, yol çəkmək, kitabxana yaratmaq imana dəlalət edən ali arzulardandır. Amma insanın arzuları yalnız dünyaya aid olsa və həddini aşsa, rahatlığını əlindən alar, onu tamah, təkəbbür kimi günahlara sövq edər. Həzrət Əli (ə) buyurur: "Arzular ilğım kimidir. Ona baxan aldanar, ona ümid edən əliboş qalar"; "Arzu hiyləgər, yalançı və ziyanvericidir"; "Arzular bəsirət gözünü bağlayar"; "Arzu qafillərin qəlbində şeytani bdir padşahdır."[293]

Həzrət Musa (ə) münacat zamanı Allahın belə buyurduğunu eşitdi: "Ey Musa! Dünya arzularını uzun etmə ki, qəlbini bərkidər. Qəlbi bərkiyən isə Məndən uzaqdır."[294]

İmam Sadiq (ə) «Ərəfə» gününün duasında Allaha belə ərz etdi: "Sənə insanı üstün axirətdən uzaqlaşdıran dünyadan, üstün ölümdən məhrum edən həyatdan, üstün əməllərin qarşısını alan arzulardan pənah gətirirəm."[295]

Həzrət Əli (ə) buyurur: "Ölüm qılıncıyla dostlardan ayrılacağına, torpağa sakin olacağına, sorğuya çəkiləcəyinə qoyub getdiklərindən ehtiyacsız olacağına,

---

[291] "Биһарул-әнвар", 74-175.

[292] "Биһарул-әнвар", 91-155.

[293] Ғурәрул-һикәм", 312-313.

[294] "Кафи", 2-329.

[295] "Игбал", 390.

qabaqcadan göndərdiklərindən faydalanacağına əmin olan şəxs arzularını qısaldıb, sə`ylərini artırmalıdır."[296]

Uzun-uzadı arzular insana ağır zərbələr vurub onu ilahi feyzlərdən məhrum edir. İnsan doğulduğu gündən başlayaraq münbit torpaq kimi bəhrə vermək iste`dadına malikdir. Əgər bu iste`dad min bir günahla məhv edilməsə, Allahın rəhmət yağışından faydalanaraq iman, gözəl əxlaq və saleh əməl kimi çiçəklər yetirəcəkdir.

"Ə`raf" surəsinin 58-ci ayəsində buyurulur: **"Pak bir məmləkətin bitkiləri Rəbbinin izni ilə çıxar. Pis bir məmləkətin bitkiləri isə həm çox çətinliklə həm də az bitər."** İnsan düşüncəsini hörümçək toru tək bürümüş arzular onun qavrayış bacasını qapayır və həqiqətlərə diqqət yoluna sədd çəkir. Beləcə insan Allahın zikrindən və axirət hazırlığından məhrum olur. Doğrudan da, arzular girdabında çabalayan, yalnız dünya ne`mətlərinə çatmaq barədə düşünən insan Allah, Qiyamət, saleh əməl və tövbə haqqında düşünə bilərmi?!

Həzrət Peyğəmbər (s) mühüm bir rəvayətdə buyurur: "Sizin üçün iki şeydən qorxuram: nəfs istəyinə tabeçilik və uzun-uzadı arzular. Nəfs istəyinə tabeçilik insanı həqiqətdən uzaqlaşdırır, uzun-uzadı arzular isə axirəti yaddan çıxarır."

Axı arzulardan ömrə nə fayda,
Sütunlar titrəyir bu boş sarayda.
Qul ol o kəsə ki, dövrün gedişi

---

[296] "Биһарул-әнвар", 70-167.

Keçirməyib ona pis-pis vərdişi.
Aldanma İblisin şirin və`dinə
Haqdan müjdələr var qalsan qeydinə.
Bu dünyada durmaq yaraşmaz pirə
Aldanıb dayanan dönər əsirə.
Gör kimlər çağırır səni bəqadan,
Şeytana uyası ağılsız insan.
Arzular faydasız, əməl köməkçi,
Saleh əməl yoxsa, arzular nəçi?!
Çəkmə dünya qəmin, eşit sözümü
Aldanmazsan Haqqa tutsan üzünü.
Nə damaq qalası, nə damaqda dad,
Hər kəs gözləyəsi əməldən imdad.
Dəyişkən vücuddan gözləmə vəfa,
Hər kim gözləmişsə qazanmış cəfa.
Uyma qızılgülün təbəssümünə
Qulaq ver bülbülün qəmli səsinə.
Özümdən də vəfa görmədim inan,
Ucaldan o oldu yıxılan zaman.

İnsan səadəti üçün çox qorxulu olan uzun-uzadı arzulardan qurtarmaq üçün Qur`an və Əhli-beyt (ə) xəbərlərini mütaliə edib tarixi əhvalatlarla tanış olmaq, qəbiristanlığa gedib qəbirlərdə yatanlar haqqında düşünmək çox faydalıdır. Bəli, qəlb arzular ilğımına büründüyü vaxt insan dünya və axirət faydalarından, hətta elm və biliyin səmərələrindən belə məhrum olur.

### *MARAQLı BIR HEKAYƏT*

Əttar Nişaburi belə rəvayət edir:

Bir gün Həsən Bəsri səfər zamanı Dəclə çayına çatıb dayanır. Qəfildən tanınmış zahid Həbib Ə`cəmini görür.

Həbib deyir: "Nə üçün dayanmısan?" Həsən cavab verir ki, - "Qayıq gözləyirəm." Həbib Ə`cəmi deyir: "Ustad, mən səndən elm öyrənmişəm. Sən demisən ki, qəlbindən həsədi çıxarsan, uzun-uzadı arzulardan qurtarmaqla dünya sevgisindən xilas olsan, ayağını qoyub suyun üstündən keçə bilərsən." Həbib bu sözləri deyib suyun üstündən keçir. Həsən bu səhnənin tə`sirindən huşunu itirir. Özünə gəldikdən sonra soruşurlar ki, - "Sənə nə oldu?" Deyir: "O, elmi məndən öyrənib. İndicə məni danlayıb, özü suyun üstündən keçdi. Əgər Qiyamət günü Siratdan keçmək əmr olunduğunda bu sayaq dala qalsam, halım necə olacaq?" Sonra Həbibdən soruşdu ki, - "Bu məqama necə çatdın?" Həbib dedi: "Ustad, mən qəlbimi ağardıram, sən kağız qaralayırsan." Həsən təəssüflə pıçıldadı: "Elmimdən başqası faydalandı, mən isə bir xeyir götürə bilmədim."

**"**Və xədəətnid**-**dünya biğururiha**"**
("Dünya öz hiylələri ilə məni aldatdı.")

Dünyanın xeyir və zərərləri, hiylə və yalanları insanın nəfs halına və təfəkkür tərzinə uyğun qiymətləndirilməlidir. Nəfs istəklərinə məğlub olan insan dünyanın bər-bəzəklərinə aldanaraq yalnız gördüklərini həqiqət hesab edir. O, yalnız ölüm məqamında maddi ne`mətlərdən ayrılarkən anlayır ki, həqiqət hesab etdiyi şeylər yalanmış və bütün zəhmətləri bada getmişdir.

Fir`onlar və qarunlar doğulduqları vaxt heç də bizim tanıdığımız kimi çirkin doğulmurlar. Yalnız sonradan nəfs istəkləri onların düşüncəsini yanlışlığa yönəldir. Amma nəfsani çirkinliklərdən təmiz olan, təfəkkürünü mə`nasız düşüncələrdən qoruyan, gözəl əxlaqa üstünlük verən insanlar ilahi mə`rifətdən faydalanır, dünyanı əbədi səadətə çatmaq üçün vasitə bilir və saleh əməl dalınca gedirlər.

İlahi peyğəmbərlər və mə`sum imamlar dünya bər-bəzəyinə aldanmayan insanlardır. Bütün incəlikləri bəsirət gözü ilə müşahidə edən hal əhli xalqı qəflət yuxusundan oyatmaq üçün çoxlu nəsihətlər etmişlər ki, bu barədə düşünməyə dəyər.

Həzrət Əli (ə) buyurur: "Həzrət Zəhraya (ə) məxsus Fədək bağlarında işlədiyim vaxt Qureyş tayfasından olan gözəl bir qadın mənə yaxınlaşıb dedi: "Əgər mənimlə evlənmək istəsən, sənə gəlməyə razıyam. Sənə ehtiyaclarını aradan qaldırmaqda köməkçi olar, yerdəki xəzinələrin yolunu göstərər və səni dünyada sultanlığa çatdıraram." Soruşdum: "Kimsən ki, səninlə evlənim?" Dedi: "Dünya." Dedim, get özünə başqa bir ər axtar, çünki dünyaya üç dəfə talaq vermişəm və geriyə də yol yoxdur."[297]

Dünyanın hiylələrinə aldanan insan alnına əbədi həlakət damğası basmış, dünya və axirət faydalarından məhrum olmuşdur. Dünyaya rəğbət göstərməyən isə Allahın razılığı kimi bir xəzinəyə yol tapmışdır.

İmam Sadiq (ə) buyurur: "Allah-Taala dünyadan çəkinib, ona rəğbət göstərməyən kəsin qəlbinə hikmət

---

[297] "Биһарул-әнвар", 70-84.

vermiş, dilini açmış, dünyanın eyibləri, ondakı xəstəliklər və şəfasını görmək üçün qəlb gözünə işıq vermişdir və onu dünyadan sağ-salamat və nöqsansız əmin-amanlığa doğru aparacaqdır."[298] İmam Kazım (ə) buyurdu:

Loğman öz oğluna belə dedi: "Ey övladım! Doğrudan da dünya dərin bir dəryadır. Çox aləmlər onda qərq olmuşdur. Bu dəryada öz gəmini ilahi təqva, bu gəminin yükünü iman, yelkənini təvəkkül, sürücüsünü əql, yol göstərənini elm və mə`rifət, ləngərini (lövbərini) səbir qərar verəsən."[299]

Həzrət Peyğəmbər (s) buyurur: "Dünyada bir qərib, bir yoldan ötən kimi ol və özünü qəbir əhli hesab et."[300] İmam Sadiq (ə) İbn Cündəbə deyir: "Əgər axirət evində Allaha yaxın və Firdövsə sakin olmaq istəyirsənsə dünyanı yüngül saymalısan."[301]

Ayə və rəvayətlərdən mə`lum olur ki, dünya saleh əməl və axirət üçün istifadə olunarsa xeyirlidir. Dünyanın necəliyi insanın əqidəsindən asılıdır. Əgər insan dünyada iman, əxlaq, saleh əməl qazanırsa, bu dünya, heç şübhəsiz ki, faydalıdır. Günah qazanılan dünya isə insanın zərərinədir. Dünya ilə əlaqədə olmadan onun haqqında söz demək olmaz. Dünyanın necəliyi insanın dünya ilə əlaqəsinin keyfiyyətindən bəlli olur. İnsanı doğru yoldan uzaqlaşdıran dünya

---

[298] "Вәсаилуш-шиә", 16-10.
[299] "Кафи", 1-15.
[300] "Биһарул-әнвар", 70-99.
[301] "Туһәфул-угул", 303.

haqqında deyilir: “Pisliklər bir evdə toplanmışdır və bu evin açarı dünya məhəbbətidir.”

“Dünyaya daxil olmaq asan, ondan sağ-salamat çıxmaq isə olduqca çətindir.”

“Əgər axirət əbədi gil qab, dünya isə müvəqqəti qızıl cam olsaydı, axirəti seçmək lazım gələrdi. Halbuki, axirət əbədi qızıl qab, dünya isə müvəqqəti gil camdır.”

Əbu Hazim Məkki deyir: “Dünyadan çəkinin. Eşitmişəm ki, Qiyamət günü bəndə sorğuya çəkildiyi vaxt Allah-Taala belə nida edər: “Bu o bəndədir ki, Allahın kiçik saydığını böyük sayıb, Allahın düşmən tutduğunu dost tutub.”

**“**Və nəfsi bi xiyanətiha və mitali**”**

(“Nəfsim öz cinayətləri və xəyanətləri ilə məni aldatdı.”)

Nəfs elə bir mövcuddur ki, onu dərk etmək çətin, bə`zən isə imkansızdır. Amma onun ayə və rəvayətlərdə qeyd edilmiş xüsusiyyətlərini tanımaq olar. Əgər nəfs tərbiyə olunmazsa, yolunu azar və istənilən hər bir günaha aparar. “Həva və həvəs” nəfs üçün çox təhlükəlidir. “Həva”nın lüğəvi mə`nası hündür yerdən aşağı yıxılmaq və ya səhv yolda həlak olmaqdır. Bu sözün digər bir mə`nası maddi və mə`nəvi işlərə ifrat məhəbbətdir. “Həvəs” kəlməsinin lüğəvi mə`nası isə sınmaq, fəsad, avaralıq və heyrətdir. Nəfs bəhsində “həvəs” dedikdə müəyyən bir məsələdə nəfsin eşq, kin, qəzəb, nifrət kimi iztirablara düçar olması, aramlığını itirməsi başa düşülür.

Hər an hansısa həvəsdə olan insanın kamilliyə doğru addım atması qeyri-mümkündür. Kamala doğru hərəkətin ilkin şərti ruhi aramlıq və sakitlikdir. Həvəs olan yerdə aramlıq yoxdur və əql heç bir hakimiyyətə malik deyildir.

Uşağa həvəs hakim olur. Ona daim nəzarət etmək lazımdır ki, həvəs xasiyyətə çevrilib sabitləşməsin. Qadın da, adətən, həvəsə tabe olur. Daxili həyatın idarəsi üçün xəlq edilmiş qadının belə bir xüsusiyyətə malik olması təbii haldır. Onlar xırdalıqlara daha çox diqqət yetirir və həsəd onlara iztirab verir. Belə isə, onların nəfsi tə`lim-tərbiyə vasitəsi ilə əqlə itaətə vadar edilməlidir.

Özbaşına buraxılmış nəfs şəhvətə çevrilir. İnsanın özü və ya bir başqası bu şəhvətin qarşısını almazsa, şəhvət xəstəlik və dəlilik həddinə çatar.

Bu xəstəlik insanda hərislik, vəzifəpərəstlik şəklində təzahür edə bilər. İnsan nə qədər kar və kor olmalıdır ki, öz istəyinə çatmaq üçün min bir günaha batsın, müqəddəslikləri ayaq altına atsın, hətta vətənini satmaqdan belə çəkinməsin!

Belə insanların dostluğuna, əhdinə bel bağlamaq olmaz. Çünki onlar öz istəklərinə çatmaq üçün ən əziz adamlarını belə qurban verməyə hazırdırlar. Belələri ətrafındakılara bir vasitə kimi baxır. Təqvalı, mö`min insanlar beləllatərində nifrət doğururlar.

Dedik ki, həvəs şəhvətə şəhvət isə dəliliyə çevrilir. Çünki şəhvətə məğlub olanlar ağlını itirir. Ağlını itirmək isə dəlilərə məxsus əlamətdir. Xəstə isə o insanı hesab etmək olar ki, xəstəlik qarşısında çarəsizdir.

Vəzifə' məqampərəstlik şəhvəti bütün digər şəhvətlərdən şiddətlidir. Şəriətə bu şəhvətdən böyük zərbələr dəymişdir. İnsanlar vəzifəyə məqama çatmaq üçün hətta öz atalarının qatili olmaqdan çəkinmirlər.

Sözsüz ki, həva-həvəsə uymuş nəfsin bu qədər məzəmmət edilməsi o demək deyil ki, insan birdəfəlik nəfsini ayaqları altına atıb, özünü məhv etməlidir. Məzəmmət olunan nəfs həddi aşan nəfsdir. İnsanda nəfsin yaradılmasında məqsəd vardır. İnsanın bütün müsbət özünümüdafiə fəaliyyətləri nəfsdən qaynaqlanır və bu işdə nəfsin faydalarını inkar etmək olmaz.

Eqoist meyllər Allaha və Qiyamətə iman, Peyğəmbər (s) və İmamlara (ə) bağlılıq, şər`i vəzifələrin icrası və xalqa xidmət vasitəsi ilə cilovlanmalıdır. Müsbət özünüistəyin mənfi özünəvurğunluğa çevrilməsinə yol vermək olmaz. Eqoist insan üçün yalnız şəxsi maraqlar mövcuddur. Bu çirkin sifət əvvəlcə insanın özü, sonra isə cəmiyyət üçün zərərlidir. Məsələn, qəzəb özünüistəkdəndir. Amma bu xüsusiyyət məzlumları incitmək yox, canını və malını, namusunu və dinini qorumaq istiqamətində fəaliyyət göstərməlidir.

Azadlıq həyatın şirin ne`məti, iradə kamilliyin şərtidir. Çünki azad insan başqalarının əsiri deyil. Amma azadlıq əqlin hakimiyyəti altında olmalı və ifrata varılmamalıdır. Azadlıq hərc-mərclik, özbaşınalıq demək deyildir.

Dünya ne`mətlərini istəmək təbii bir haldır. Amma bu istək ifrata varıb, insanı cinayətə günaha, oğurluğa, qumara sövq edirsə əlbəttə ki, pisdir.

Ətrafdakılarla münasibətdə ən yaxşı yol xeyirxahlıqdır. Amma bu işdə də həddi gözləmək lazımdır. Xeyirxahlıq elə bir həddə çatmamalıdır ki, insan özünə və ailəsinə zülm etmiş olsun.

Xoş rəftar, mehribanlıq çox gözəl sifətlərdir. Amma orta həddi aşıb şit zarafata çevrilən mehribanlıq bəyəniləsi iş deyildir. Xeyirxahlığa həvəsləndirən tə`rif də həddi aşmamalıdır.[302]

## *NƏFSIN HALLARı*

Qur`ani-Kərimdə nəfsin halları zikr olunmuşdur. Bu hallar insanın gerçəkliyə dini həqiqətlərə əxlaqi dəyərlərə diqqətsizliyi nəticəsində yaranır. Nəfsin qeyd olunmuş hallarına nəzər salaq:

1. Əmmarə nəfs;
2. Dəssayi nəfs;
3. Səfəhi nəfs;
4. Təsvili nəfs;
5. Rəhineyi nəfs;
6. Həvayi nəfs;
7. Həsrəti nəfs.

"Yusif" surəsinin 53-cü ayəsində oxuyuruq: **"Doğrudan da, Allah rəhm etməyəcəyi təqdirdə nəfs pisliyə əmr edəndir."** ("Əmmarə") .

"Şəms" surəsinin 10-cu ayəsində oxuyuruq: **"Nəfsini günah və fisq-fücurla örtən şəxs Allahın rəhmətindən məhrum oldu."** ("Dəssayi")

---

[302] Елмул-əхлаг", 101.

“Bəqərə” surəsinin 130-cu ayəsində isə belə buyurulur: **“Özünə səfehliyi rəva biləndən savayı kim İbrahim ayinindən üz döndərər?”** (“Səfəhi”)

“Yusif” surəsinin 18-ci ayəsində buyurulur: **“Yə`qub oğlanlarına dedi: - Yusifi canavar yeməyib. Əslində nəfsiniz çirkinliyi sizə gözəl göstərib.”** (“Təsvili”)

“Muddəssir” surəsinin 38-ci ayəsində oxuyuruq: **“Hər bir nəfs batdığı günahın girovudur.”** (“Rəhineyi”)

“Naziat” surəsinin 40-41-ci ayələrində buyurulur: **“Allahın məqamından qorxan və nəfsini fəlakətə düşməkdən saxlayan şəxsin yeri, həqiqətən, Behiştdir.”** (“Həvayi”)

“Zumər” surəsinin 56-cı ayəsində oxuyuruq: **“İşi o yerə çatdırmayın ki, Qiyamət günü nəfs desin: - Əfsus, Allahın qarşısında göstərdiyim itaətsizliyə.”** (“Həsrəti”)

Şeyx Bəhai “Ərbəin” kitabında deyir: “Rəvayətlərdə nəfs dedikdə şəhvət və qəzəb kimi heyvani qüvvələr nəzərdə tutulur.” Qəzzali deyir: “Nəfs əql qüvvələrinə qarşı çıxan bütün məzəmmət olunmuş sifətlərin cəmidir.”

Hikmət sahibləri deyir: - “Nəfslə cihad dedikdə şeytani hallara düşmüş nəfs nəzərdə tutulur. Nəfsin digər halları əqlə aiddir. Nəfsin mələk sifətlərinə malik halları var və məhz bu hallar vasitəsi ilə ibadət yerinə yetirilir. Nəfslə cihad onu sakitləşdirib, heyvani meyllərdən uzaqlaşdıranadək davam edir.

Sə`di deyir ki, bir şəxsdən “ən pis düşmən nəfsdir” hədisi haqqında soruşdum. Dedi: - “Ona görə ki, bütün

düşmənlərə ehsan etdikdə dost olur. Amma nəfsə öz ehsanını artırsan, düşmənçiliyini artırar.”

Əqldən kənarda yaşayan nəfs həvasının tabeçiləri əslində divanədirlər. Bəhluldan soruşdular ki, - “Şəhərdə neçə divanə var?” Cavab verdi ki, - “Onları saymaq çox çətindir, aqillərin sayını soruşun, deyim.”

## *NƏFSIN ISLAHı*

Kamil bəsirətə malik mə`sum İmamlar (ə) hər bir işin yolunu və maneəsini bilirdilər. Nəfsin islahı haqqında Həzrət Əlinin (ə) dəyərli buyruqları “Ğurərul-hikəm” kitabında nəql olunmuşdur:

“Nəfsini islah etmək istəsən orta həddi gözlə qənaət et, dünyanı əhəmiyyətsiz bil.”

“Nəfsin süqutuna aparan namünasib işlərlə cihad nəfsin islahıdır.”

“Nəfsin dərmanı hesabsız istəklərdən çəkinməkdir.”

“İlahi təqva qəlb xəstəliklərinizin dərmanı, nəfs çirkinliklərinizin pakedicisidir.”

“Nəfsin fəsadı dünyaya heyrətli şəkildə şövq duymaqdır.”

“Fəsadların böyüyü qeyri-şər`i ləzzətlərə heyrətlə şövq duymaqdır.”

“Xoş o kəsin halına ki, nəfs Fir`onuna qarşı çıxır və ağıl Musasına itaət edir.”

Bu ilahi kəlamlardan mə`lum olur ki, hər kəsin daxilində bir Fir`on və bir Musa vardır. Musa kamalına çatmaq istəyən şəxs Fir`on nəfsinə qarşı çıxmalıdır. Fir`ona itaət edənlər fəlakətə Musaya itaət edənlər qurtuluşa yetəsidir.

“Saffat” surəsinin 120-ci ayəsində buyurulur: **“Salam Musaya və Haruna.”** Həmin surənin 122-ci ayəsində oxuyuruq: **“Şübhəsiz ki, onların hər ikisi Bizim mö`min bəndələrimiz idi.”**

Öz əql Musasına itaət edən insan fələklərdə Musa ilə qoşa pərvaz edir...”Nəfslərinizi haram şəhvət çirkinliklərindən pak edin ki, yüksək mə`nəvi dərəcələrə nail ola biləsiniz.”

Bəli, ali məqamlara çatmaq istəyənlər, dar təbiət qəfəsindən mə`rifət bağına keçməyi arzulayanlar öz nəfslərini heyvani şəhvət çirkabından təmizləməlidirlər. Nəfs çirkinlikdən paklandıqdan sonra insan hətta mələkdən də uca məqama qalxa bilər.

Hikmət sahibləri buyururlar ki, nəfsi dörd yolla paklamaq olar:

1. Ədəbsizlərdən ədəb öyrənmək;
2. Ədəb əhli ilə ünsiyyət;
3. Həqiqi dostlardan öz eyblərini soruşmaq;
4. Düşmənlərin qeyd etdiyi eyblərdən təmizlənmək.

## *GÜNÜ GÜNƏ SATMAQ*

Tövbə etməkdə və fəsadlardan uzaqlaşmaqda, Qiyamət hazırlığı və saleh əməllərdə günahdan çəkinib mə`rifət ardınca getməkdə süstlük göstərib, günü günə satdıq, və`dlərimizə əməl etmədik. “Bu gün-sabah”lar şirin yalanları ilə bizi aldatdı, kamilliyə doğru hərəkətdən saxladı.

Səndən diləyirəm ki, mənə və`də vəfa qüdrəti, “bu gün-sabah”lardan nicat əta edəsən! Bu büdrəmələr

məni nəhayət dərəcədə zərərə salıb, Səninlə görüşdən məhrum edə bilər.

Bu yolunu azmış nəfsə dəva yox,
Elə küfrə batıb, zərrə şəfa yox.
Nə qədər olmuşsa həvəslərə qul
Çətin sona yetə bu xətərli yol.
İbrahim eşqindən xəbərsiz insan
İnanma atəşi görə gülüstan.
Nəfsini danlayan peşiman olmaz,
Əhrimənə uyan Süleyman olmaz.
Ya Rəbbi, kənarda sığınacaq yox,
Dərgahından qeyri isti qucaq yox.

"Ya Səyyidi, fəəs`əlukə biizzətikə ən la yəhcubə ənkə duai suu əməli və fiali"
("Ey mənim Ağam! İzzətinə and verib Səndən istəyirəm ki, çirkin əməl və hərəkətlərim Sənə dualarımın qarşısını almasın.")

Ey mənim mehriban Allahım! Əməllərimin pisliyini və hərəkətlərimin çirkinliyini dualarımın qarşısında hicab qərar vermə!

### *DUA YOLUNUN BAĞLıLıQ SƏBƏBI*

İnsan tövbə etmədiyi təqdirdə günahlar ilahi rəhmətə çatmaqda, duaların qəbul olunmasında bir maneədir. Çirkin əməl insanı dua halından məhrum edir. Hətta dua etməyə müvəffəq olsa da, bu dualar qəbul dərəcəsinə çata bilmir.

Dua qapısının insanın üzünə bağlanması bəndənin Allahın hüzurundan qovulması əlamətidir. Aşiq bir arif deyir: - "Duadan məhrum olmağım onun qəbulundan məhrum olmağımdan daha pisdir."

Duanın bu hissəsində dua edən şəxs Allahı Onun izzətinə and verib belə istəyir: "Ey mənim Ağam, dualarımı Sənin hüzurunda tə`sirsiz edəcək pis əməl və hərəkətlərimi aradan götür. Qoy bu əməllər məndən dua gücünü almasın və mən dərgahına gəda kimi gəlim, Sən də öz rəhmətinlə dualarımı qəbul edəsən."

Bir rəvayətdə nəql olunur ki, Həzrət Əli (ə) bir neçə səhabəsi ilə birlikdə yoldan keçərkən başını divara söykəyib istəyinin qəbulu üçün Allahı Onun izzətinə and verən bir gənc görür. Həzrət (ə) buyurur: - "Bu andla bu cavanın duası hökmən qəbuldur."

Bəli, mehriban Allah duaların qarşısını alan maneələri aradan qaldırmaq gücünə malikdir. Yandırıcı odu İbrahimə iti bıçağı İsmailə tə`sirsiz edən Odur!

**"Və la təfzəhəni bixəfiyyi məttələ`tə ələyhi min sirri"**

("Məni daxilimdə bildiyin gizli günahlarla rüsvay etmə.")

### *PƏRDƏNIN GÖTÜRÜLMƏSI*

Bəndə bilməlidir ki, bütün aşkar və gizlinlərdən xəbərdar olan Allah nədənsə xəbərsiz qala bilməz. Keçmiş, bu gün və gələcək Onun qarşısında aşkardır. O, bütün gizli işlərdən xəbərdardır. Əgər günahlarımızı açsa, nə ata-anamızın, nə ailə-övladımızın, nə də xalqın gözünə baxa bilərik. Günahlar aşkarlansa, insanlar arasındakı inam və e`tibar itər.

Bəndə duanın bu yerində eyibləri örtən Allahdan rüsvay edilməməsini istəyərək sızıldayır. Bəndə əmin olmalıdır ki, Allah-Taala tövbə edən bəndəsini rüsvay etmir. O, bə`zi bəndələri haqqında buyurur: "Onlardan Özüm sorğu-sual edərəm ki, hətta rəhmət peyğəmbərimin yanında belə günahları açılmasın." İmam Səccad (ə) "Əbu Həmzə" duasında Allahın bə`zi sifətlərini belə bəyan edir: "Eyibləri örtən, günahları bağışlayan, gizlinləri bilən (Allah), günahları böyüklüyünlə örtər, cəzaları helminlə tə`xirə salarsan." Bə`zi bəndələr vücudlarının məhdudluğuna baxmayaraq o qədər eyiblərin üstünü örtürlər ki, onların haqqında olan dastanlar insanı heyrətə gətirir. Belə isə, vücudu nəhayətsiz və naməhdud olan Allahın eyib örtməyi görün necə ola bilər?!

Yə`qub peyğəmbər (ə) qardaşlarının Yusifin başına gətirdiklərini bilmək istədiyi vaxt Yusif yalnız bunu deyir: **"Ey ata, Allah baş verənlərdən keçdi və göz yumdu."**[303]

## *MARAQLı ƏHVALAT*

Xorasanın təqvası ilə tanınmış insanlarından olan Əbu Əbdürrəhman haqqında yazırlar: "Bir şəxs öz suallarına cavab tapmaq üçün onun yanına gəlir. Söhbət zamanı həmin şəxsdən yel xaric olur. Əbu Əbdürrəhman dərhal özünü karlığa vuraraq deyir: "Ucadan danış, yaxşı eşitmirəm." Baş vermiş hadisədən özünü itirən şəxs alimin zəif eşitməsinə inanıb özünə gəlir."

---

[303] "Маидә", 95.

Əbu Əbdürrəhman Hatəm ibn Yusuf Əsəm (yə'ni kar) dünyasını dəyişdikdən sonra hikmət sahiblərindən biri onu yuxuda görüb soruşur: "Allah səninlə necə rəftar etdi?" Hatəm Əsəm deyir: "Bir eşitdiyimi eşitməməzliyə vurduğum üçün Allah bütün eyiblərimi bağışladı."

**"**Və la tuacilni bil**-**uqubəti əla ma əmiltuhu fi xələvati min sui fi`li və isaəti və dəvami təfriti və cəhaləti və kəsrəti şəhəvati və ğəfləti**"**
("Xəlvətdə yol verdiklərimə çirkin işlərimə günahlarıma, bəndəlikdə süstlüyümə nadanlığıma, şəhvətiminin çoxluğuna, qəflətimə görə cəzalandırmağa tələsmə")

İlahi maarifdən mə`lum olur ki, əgər insan möhlət verilmədən cəzalandırılsaydı, yer üzündə bir nəfər də sağ qalmazdı. Lakin Allah-Taala öz bəndələrini cəzalandırmağa tələsmir, onlara tövbə edib təmizlənmək üçün möhlət verir. Bə`zən də cəza ona görə tə`xirə salınır ki, bu nəsildən mö`min insanların vücuda gəlməsi mümkün olsun. Bə`zən isə uşaqların göz yaşı, gecəni oyaq qalan aşiqlərin duaları cəzaları yubandırır.

Ola bilər ki, günah əhlinin e`tinasızlığı bu tə`xirin qarşısını alsın. Amma dua, yalvarış, göz yaşı, tövbə yolu ilə cəzalar tə`xirə düşə bilər. Yunis qövmünün tövbə və dua vasitəsi ilə Allahın cəzasını tə`xirə salması deyilənlərə nümunədir.

Bunu da qeyd etməliyik ki, artıq gəlib çatmış cəzanı kimsə yubada bilməz. Bə`zən bu cəzalar qıtlıq, bahalıq, səma bəlaları, cəmiyyətdə biganəlik və inamsızlıq və sairə şəkillərdə də təzahür edə bilər.

Mə`nəviyyatın pozulması şəklində gələn cəza haqqında Həzrət Peyğəmbər (s) Həzrət Əli (ə)-a belə buyurur: "Ya Əli, məndən sonra bu ümmət tezliklə var-dövləti ilə imtahana çəkilər. Onlar dindarlıqlarına görə Allaha minnət qoyar və Allahdan rəhmət istəyərlər, özlərini əzabdan amanda bilər və yalan şübhələri, haramları halal tanıyarlar. Məstedici içkiləri halal içki, haram malı hədiyyə sələmi al-ver zənn edərək özləri üçün halala çıxararlar."[304]

Əgər insanların batini günah səbəbindən çirkaba batmazsa, onlar haramı halal hesab etməzlər. Bu günahkarlığın səbəbi əslində Allahın cəzası olaraq insani mə`nəviyyatın şeytani xislətə çevrilməsidir. Bu hala Bəni-İsrail qövmünün düşdüyü vəziyyət misal ola bilər: "İlahi rəhmətdən məhrum edilmiş meymunlara çevrildilər."[305]

İmam (ə) bu mövzuya toxunarkən dörd məsələni qeyd edir:

1. Təfrit (ifratın ziddi);
2. Cəhalət;
3. Şəhvət;
4. Qəflət

---

[304] "Нәһчүл-Бәлағә".

[305] "Бәгәрә", 65.

## TƏFRIT

Təfrit dedikdə Allaha itaətdə və xalqa xidmətdə göstərilən e`tinasızlıq və süstlük nəzərdə tutulur. Vəzifəyə münasibətdə təfrit, yə`ni yüngül münasibət insanın başına böyük bəlalar aça bilər. Həzrət Əli (ə) buyurur: "Təfrit böyük müsibətdir."[306] "Təfritin sonu peşmançılıq, uzaqgörənliyin meyvəsi salamatlıqdır."[307] "Sə'y edərək irəli düşənlərin sonu Behişt, səhlənkarlıq edənlərin sonu isə atəşdir."[308]

İmam Sadiq (ə) buyurur: "Təfritə yol verən kəs böyük çətinliklərə düçar olar."[309]

## CƏHALƏT

Həqiqətdən xəbərsizlik, dünya və axirət işlərinə münasibətdə cəhalət olduqca təhlükəli bir xəstəlikdir. Bu xəstəliyə elm və mə`rifət yolu ilə əlac olunmazsa nəticə olduqca ağır ola bilər. Ötən söhbətlərimizdə bu mövzuda yetərincə danışdıq.

## ŞƏHVƏT

Şəhvət insanın ələ keçirmək istədiyi bir şeyə şiddətli rəğbətidir. Əgər bu rəğbət çirkin şeylərədirsə insanı günaha batıracaq və nəhayət insan dünya və axirət əzabına düçar olacaqdır.

Şəhvətin oyanmasının səbəbi dünyaya hədsiz məhəbbətdir. Bu insan şeytan qucağında bitmiş ağac kimidir. Onun budaqları şəhvət, meyvəsi günahdır. Bu

---

[306] "Ғурәрул-һикәм", 479.
[307] "Нәһчул-Бәлағә".
[308] "Нәһчул-Бәлағә".
[309] "Туһәфул-угул", 356.

ağac Cəhənnəmdəki Zəqqum ağacının oxşarıdır. Əlbəttə ki, həyəcanlanmış şəhvət qarşısında moizə və nəsihət tə`sirsizdir.

Bəsirət əhli belə bəyan edir ki, çox nəfslərdə kök atmış bu qorxulu ağacın yeddi çox çirkin budağı var:

1. Məqam, vəzifə və cah-cəlal şəhvəti;
2. Var-dövlət şəhvəti;
3. Ev-eşik, imarət şəhvəti;
4. Qadına şəhvət;
5. Ləzzətli yeməklər və məstedici içkilər şəhvəti;
6. Qiymətli və əlvan geyim şəhvəti;
7. Günahkarlarla yaxınlıq şəhvəti.

Bu yeddi şəhvət istər-istəməz insanda yeddi şeytani sifət doğurur:

1. Təkəbbür;
2. Riyakarlıq və lovğalıq;
3. Həsəd;
4. Hərislik və tamah;
5. Xəsislik;
6. Zülm;
7. Qəzəb.

Dünya məhəbbəti quyusuna düşənlər, şəhvət zülmətində qərq olanlar ölüm məqamında qəflətən oyandıqları zaman, anlayırlar ki, düzəlişi mümkün olmayan bir səhvə yol veriblər.

## *BƏDBƏXT ŞAHZADƏ*

Oğlunu evləndirmək istəyən bir padşah onun üçün əsilli-nəcabətli bir ailədən gözəl bir qız tapır. Toy günü varlı-kasıb saraya toplaşaraq şənləməyə başlayırlar. Padşah da ehsan xəzinəsini açıb hamıya hədiyyə paylayır.

Ay üzlü gəlin saraya gətirildiyi vaxt mə`lum olur ki, şahzadə yoxa çıxıb. Məclisdə həddindən artıq şərab içən şahzadə məst olub, saraydan çıxmış, atəşpərəstlərin yaşadığı məhəlləyə gəlmiş idi. Adətən, ölülərini bir daxmanın ortasında uzadıb onun ətrafında gecə yarı şam yandıran atəşpərəstlər yenə də belə bir mərasim qurmuşdular. Məclis dağıldıqdan sonra tənha meyyitin uzadıldığı otağı bəy otağı zənn edən məst şahzadə ölünü qucaqlayıb səhərədək yatmışdı!

Görün dünya məhəbbəti, dünya ne`mətlərinə olan şəhvət insanı nə hala salır! Məhz bu şəhvət səbəbindən şahzadə atəşpərəst daxmasını saraydan, ölünü isə ay üzlü gəlindən fərqləndirə bilmir!

Yetməzmi xəbərsiz qaldın özündən,
Çəkindin əməlin, sözün düzündən.
Bəsirət əhlinə arxa çevirdin,
Uydu ehtirasa, həvəsə qəlbin.
Qartal, zirvə quşu, deyilsə xəstə
İlan kimi sürünməz torpaq üstə.
Vurulma özünə inan bu məstlik
Gətirəcək sənə ağır şikəstlik.
Əgər unutmasa şikar özünü
Ovçu tapa bilməz onun izini.

Minmə qəflət atın, cilovsuz atdır.
Oyanmayan süvarini aldadır.
Soruş yolu mənzilinə çatandan,
Avaradır qəflətdə qalan insan.
Eşit ki, nə demiş pirani kamil:
Əsla bel bağlamaz dünyaya aqil.
Sən də onun kimi burax dünyanı,
Dünyanı sevərək ucalan hanı?!
Vücuduna əqlini seç hökmran,
Nəfsi seçsən olasısan peşiman.
Bilirsənmi, qazanc nədir dünyadan?
Bir yaxşı ad qalır köç edən zaman!

Həzrət Peyğəmbər (s) buyurur: "Xoş o kəsin halına ki, hal-hazırda mövcud olan şəhvəti, görmədiyi Behişti qazanmaq üçün tərk edir."[310] "Behişt bəndəlik və ibadət əziyyəti, Cəhənnəm odu isə şəhvətlərlə əhatə olunmuşdur."[311]

Bir şəxs Həzrət Baqirə (ə) dedi: "İbadətim zəif, ruzim isə azdır. Amma elə bilirəm ki, yediyim yalnız halaldır."

Həzrət (ə) buyurdu: "Hansı iş qarını və şəhvəti haramdan qorumaqdan üstün ola bilər?!"[312]

Həzrət Peyğəmbər (s) buyurur: "Mənim ümmətimi Cəhənnəm oduna daxil edən əsas səbəblər qarın və cinsi şəhvətdir."[313]

---

310 "Əмалије-Муфид", 51.
311 "Биһарул-әнвар", 68-72.
312 "Биһарул-әнвар", 68-269.
313 "Биһарул-әнвар", 68-269.

## *QƏFLƏT*

Qəflət insanın bilməli olduğu şeylərdən xəbərsiz qalmasıdır. Allahdan və Qiyamətdən, bəndəlik və ibadətdən qəflətdə qalmanın əsas səbəbləri maddiyyat məsələləri ilə çox məşğul olmaq, qəlbi dünya fikirləri ilə doldurmaq, gecə-gündüz həvəs dalınca qaçmaqdır.

Həzrət Əli (ə) buyurur: "Ən ziyanlı düşmən qəflətdir;" "Vay o kəsin halına ki, qəflət ona qalib gəlsin, nəticədə axirət səfərini unudub ona hazırlaşmasın;" "Qəflətin qalib gəldiyi kəsin qəlbi ölər;" "Davamlı qəflət bəsirət gözünü kor edər."[314]

İmam Həsən (ə) buyurur: "Məscidi tərk edib fəsadçıya itaət etmək qəflətdir."[315]

**"**Və kunillahummə biizzətikə li fil**-**əhvali kulliha rəufən və ələyyə fi cəmiil umuri ətufən**"**

("Pərvərdigara! Səni izzətinə and verirəm, mənə bütün hallarda rəuf və bütün işlərdə mehriban ol.")

Bəşəriyyət nə qədər elm və bilik qazansa da Allahın rəufluğu və mehribanlığını şərh etməkdə acizdir. Bu sifətləri ayə və rəvayətlərin köməyi ilə qismən anlamaq olar. Bu işdə ən asan yol isə bu sifətlərin təzahürlərinə nəzər salmaqdır.

Həzrət Peyğəmbər (s) buyurur: - "Allahdan bir neçə şey istədim və dedim: - Pərvərdigara, ümmətimin hesabını mənim özümə tapşır. Belə xitab olundu: - Sən rəhmət peyğəmbəri olsan da, ərhəmər-rahimin deyilsən.

---

[314] "Ғүрәрул-һикәм", 265-266.

[315] "Биһарул-әнвар", 78-115.

Əgər onların bə`zi günahlarından xəbərdar olsan, zara gələrsən. Qoy sənin ümmətinin günahından yalnız Özüm agah olum. Ya Məhəmməd, onlara elə hesab çəkərəm ki, çirkin işlərindən sən də xəbər tutmazsan. Əgər onların günahını səndən gizləyəcəyəmsə sözsüz ki, biganələr üçün də açmayacağam. Ya Məhəmməd! Əgər sənin onlara peyğəmbər mehribanlığı varındısa, Mənim onlara Allah mərhəməti varımdır. Sən onların peyğəmbərisənsə Mən onların Allahıyam. Əgər sən onları bu gün görürsənsə Mənim onların üzərində əzəli və əbədi inayət nəzərim var."

## *GÜNAHKARıN BAĞıŞLANMASı*

Şeyx Bəhai deyir: "Etibarlı bir şəxsdən belə bir əhvalat eşitdim: Bir günahkar şəxs dünyasını dəyişir. Onun xanımı dəfn üçün camaatdan kömək istəyir, amma bu günahkar şəxs dərin nifrət qazandığından heç kim onun dəfnində iştirak etmək istəmir. Qadın muzdla adam tutub cənazəni şəhər mərkəzindəki müsəllaya gətirdir ki, bəlkə mö`minlər ona kömək edərlər. Amma heç kim cənazəyə yaxınlaşmır. Qadın məcbur qalıb cənazəni səhraya gətirir ki, qüslsüz, namazsız dəfn etsin.

Bu səhranın yaxınlığındakı dağda bir zahid yaşayırdı. Bu şəxs xalq arasında öz mö`minliyi ilə məşhur idi. Zahid cənazəni görüb, dəfndə iştirak etmək üçün ona yaxınlaşır. Ətrafda yaşayan insanlar abidlə birlikdə cənazəni dəfn etmək üçün gəlirlər.

Camaat abiddən onun bu dəfndə iştirak etməsinin səbəbini soruşduqda abid deyir: "Yuxuda mənə dedilər ki, sabah səhraya get. Orada tənha bir qadın və bir

cənazə olacaq. Cənazə üçün namaz qıl, çünki o, artıq bağışlanmışdır." Bu sözlər eşidənləri çox təəccübləndirdi. Abid qadını çağırıb meyyit haqqında soruşdu. Qadın dedi: "Əksər günlər bir günaha batırdı. Amma üç xeyir əməli vardı:

1. Hər gün günaha batdıqdan sonra paltarını dəyişər, dəstəmaz alıb səmimi qəlbdən namaz qılardı;

2. Hər vaxt evində yetimlər olardı. Övladlarından daha çox onlara ehsan edərdi;

3. Hər gecə ayılar, ağlayar və deyərdi: "Pərvərdigara, bu günahkarı Cəhənnəmin hansı guşəsinə atacaqsan?"

### *ƏBDULLAH MÜBARƏKIN QULU*

Əttar Nişaburi deyir:

«Əbdullah Mübarəkin bir qulu vardı. Bu qul ilə şərt kəsmişdi ki, işləyib öz qiymətini ödəsə onu azad edəcəkdir. Bir gün Əbdullaha deyirlər ki, sənin qulun qəbirləri açıb, meyyitlərin kəfənini oğurlayır, sonra kəfənləri satıb, pulunu sənə ödəyir. Bu xəbər onu çox pərişan edir.

Bir gün gizlicə qulun arxasına düşüb onu izləyir. Qul qəbiristanlıqda boş bir qəbirə girib ağlaya-ağlaya dua etməyə başlayır. Bu səhnəni görən Əbdullahı ağlamaq tutur. Qul səhər açılanadək dua oxuyub qəbirdən çıxır və şəhərə üz tutur. Qarşısına çıxan ilk məscidə girib, namaz qılır. Namazdan sonra deyir: "Ey mənim həqiqi Ağam! Gecə gündüz oldu, müvəqqəti ağam isə məndən pul gözləyir. Pərvərdigara, sən çarəsizlərin ümid yerisən!" Bu vaxt qulu kənardan müşahidə edən Əbdullah bir nur görür. Nur qulun əlinə doğru hərəkət edir və ovcunda itir. Əbdullah qulun əlində bir qızıl

dinarın işıltısını görür. Bu səhnə onu haldan salır. Qula yaxınlaşıb, onu qucaqlayır. Başını sinəsinə sıxıb deyir: "Min mənim kimisinin canı sən tək qula fəda olsun. Kaş sən ağa, mən isə sənin qulun olaydım!"

Hadisənin aşkarlandığını görən qul deyir: - "Pərvərdigara, bu sirr açıldı, daha yaşamaq istəmirəm, məni öz yanına apar!" Bu sözlər sona yetən kimi qul Əbdullahın qucağındaca keçinir!..»

Ey ulu şah, xətamızı ötür sən,
Biz günahkar, Sənsə günahdan keçən.
Sən xeyirxah, bizimsə eybimiz çox,
Eybimizin, xətamızın sonu yox.
Hər anımız üsyan dolu, şərr dolu,
Ayağımız nəfsimizlə buxovlu.
Könlümüz dünyaya, üzümüz Sənə
Min bir səcdə qılaq, borculuyuq yenə.
Qol-boyunuq gecə-gündüz günahla,
Sinə dolu ehtirasla, tamahla.
Tövbə qılıb, yenə aşırıq həddi,
Bu nəfs şeytan caynağında kəmənddi.
Yenə ümidimiz Səndən üzülməz,
Cəza nə ki, ayrılığın dözülməz.
Əmmarə nəfsimiz şeytanın qulu,
Şeytanla birləşib bağlayıb yolu.
Sınasıyam yardım olmasa göydən,
Yapışmışam rəhmət dolu ətəkdən.
Aparma dünyadan məni imansız,
Günah odu günahdan da amansız.

"İlahi və Rəbbi mən li ğəyrukə əs`əlukə kəşfə zurri, vənnəzərə fi əmri"

("İlahi, Pərvərdigara! Səndən başqa kimim var ki, ondan narahatlıqlarımın aradan götürülməsini, işlərimə lütf nəzəri etməsini istəyim?!")

Ey mənim Rəbbim! Mənim üçün səndən başqa feyz və xeyir çeşməsi varmı? Çətinliklərin və halsızlıqların, xəstəliklərin və uğursuzluqların çarəsini Səndən istəyirəm.

Ey mənim Mövlam! Dərdimə o kəs çarə qıla bilər ki, hər cəhətdən qüdrətli olsun, məni öz mərhəmətindən uzaq salmasın, ehsanının qarşısını ala bilən tapılmasın, bütün kamal sifətlərinə malik olsun və o kəs Sənsən.

Səndən başqa kimə ağız açsam, ya mənə ürək yandırmayacaq, ya çətinliyimi aradan qaldırmağa gücü çatmayacaq, ya da xəsislik göstərəcəkdir. Ona görə də gözümü və ümidimi yaranmışların köməyindən - xüsusilə dostların və yaxınların yardımından - kəsib zəlil halda Sənə əl açıram. Səndən bütün çətinlikləri, bütün çirkin sifətləri məndən uzaqlaşdırmağını, zahiri və batini müşküllərdən mənə nicat verməyini istəyirəm!

Bəli, insan dənizdə qərq olmuş və hər şeydən ümidini üzmüş bir kəs kimi yalnız Allaha üz tutmalıdır. Allah-Taala həzrət İsaya (ə) buyurur: "Ey İsa, məni dənizdə qərq olmuş və yardımçısı olmayan kəs kimi çağır."[316]

---

[316] "Биһарул-әнвар", 14-295.

İmam Sadiq (ə) buyurur: "Əgər Allahın sizə bir şey əta etməsini istəsəniz, ümidinizi hamıdan kəsib yalnız Ona ümid bağlamalısınız. Allah-Taala bəndəsində belə bir hal gördükdə onun istədiyini əta edir."[317]

"Ey mənim Allahım" deyən kəs bütün əqidə əməl və əxlaq nöqsanlarından təmizlənməli, dünyanın bütün ne`mətlərini kamala çatmaq üçün bir vasitə bilməlidir. Çünki Allahdan qeyrisini mə`bud qəbul edən müşrikdir, müşrikin duası isə heç vaxt qəbul olmaz.

"Ey mənim Rəbbim" deyən kəs bütün batil fir`onlardan, ilahi mədəniyyətdən qeyri bütün mədəniyyətlərdən azad olmalıdır. Çünki batil mədəniyyətlərə bağlanan insan nəhayət elə bir uçuruma yuvarlanar ki, duaları rədd edilər.

Bəli, Allahın izni olmadan kimsədən yardım istəmək faydasızdır. Yalnız Allaha ümid bağlamaqla dünya və axirət səadətinə nail olmaq mümkündür. Allahı və Onun məxluqunu lazımınca tanıyanlar bilirlər ki, bütün çətinliklərin həlli yalnız qadir Allahın əlindədir. Ona görə də Allah aşiqləri öz müşküllərinin həlli üçün yalnız Ona üz tuturlar. Həzrət Musa (ə) Allahın dərgahına belə ərz edir: "Ey mənim mə`budum! Gədalıq boxçamda Sənin bütün xəzinələrində olmayan bir şey mövcuddur və o da budur ki, Sənin kimi bir mə`budum vardır!"

Elə ki, ümid hər yerdən üzüldü, yalnız Həzrət Haqqa əl açıldı, gözlərdən bulaq tək yaş süzüldü, üz torpağa sürtüldü, inayət qapıları insanın üzünə açılar, bütün müşküllər öz həllini tapar.

---

[317] "Кафи", 2-148.

## *ANA ILƏ OĞULUN HEKAYƏTI*

Bir arif nəql edir:

Bir ana itaətsizlik etdiyi üçün yeniyetmə oğlunu evdən qovur. Oğlan evdən çıxıb məhəllədə yaşıdları ilə axşamadək vaxt keçirir. Gecə düşdükdə hərə öz evinə gedir. Oğlan da öz evlərinə qayıdır. Amma qapı bağlı olur. Pərişan halda anasını çağırıb ondan qapını açmasını istəsə də ana qapını açmır. Bu vaxt yoldan ötən bir alimin oğlana ürəyi yandır və anadan xahiş edir ki, övladını qəbul etsin. Ana deyir: "Ey ağsaqqal, sənin xahişini qəbul edirəm, amma o söz versin ki, bir daha itaətsizlik göstərməyəcək." Oğlan söz verir və arada sülh yaranır.

Bir müddət sonra küçədən keçən abid təkrar həmin hadisə ilə rastlaşır. Oğlan qapı ağzında nə qədər sızıldasa da, ana onu evə buraxmır. Nəhayət, oğlan huşunu itirib yerə yıxılır. Qapının arxasında səsin kəsildiyini görən ana qapını açıb bayıra çıxır. Oğlunu yerə yıxılmış görüb onun başını dizləri üstünə alır və deyir: - Ey mənim gözümün nuru! Bu işdə məqsədim yalnız səni günahdan uzaqlaşdırmaq idi..."

Hekayədən belə bir nəticəyə gəlirik ki, Allahı çağırdığı an duası qəbul olmayan insan ümidini üzüb şeytana üz tutmamalıdır. O, öz sızıltıları və nalələri ilə rəhmət qapılarının onun üzünə açılmasına nail olmalıdır.

Ya Rəbb, bu vüsalı hicran buyurma,
Sevgili canları nalan buyurma.
Könül bağçasına gəlməsin xəzan,
Gül üzləri bürüməsin çən-duman.

Hansı ürək qırılarsa yarından
Şübhəsiz ki, sorğu günü peşiman.
Budaqda oxuyan bülbül Sənindir,
Qırma budağı ki, ol həmdəmindir.
Eşqə üz tutanı ayır günahdan,
Düşmənini məhrum elə pənahdan.
Bayquşlar sevinir günah doğursun
Sitarələr səmalarda boğulsun.
İqbal kə`bəsidir saleh bir əməl,
Mərhəmət qıl, onu viran qoyma gəl.
Hicrandır dünyada ən acı duyğu,
Nə xoşdur vüsalın, olsa da sorğu.

Əgər Allah-Taala insanın işlərinə nəzər salırsa, bu nəzər sonsuz rəhmət nəzəri olduğundan insanın halı islah olar, dərdinə çarə tapılar, batini və zahiri fəqirliyi aradan qalxar.

### *ŞƏFALı NƏZƏR*

Nəql edirlər ki, bir gün sultan Mahmud Qəznəvi dənizin sahilindən keçərkən bir gəncin pərişan halda oturub dənizə tilov atdığını görür. Sultan gəncdən pərişanlığının səbəbini soruşur. Gənc deyir: "Yeddi yetim qalmış qardaşıq. Qoca bir anamız var. Atamdan sonra bu ailənin xərci mənim öhdəmə düşüb. Hər gün bura gəlir, bir-iki balıq tuturam. Ailəni çox çətinliklə dolandırıram." Sultan deyir: "Bu gün mənimlə şərik balıq tutarsan?" Gənc öz razılığını bildirir. Şah deyir: "Atdığın torun şərikinin adına sudan çək." Gənc toru sudan çəkməyə başlayır Tor ağır olduğundan sultan və

onun yanındakılar da oğlana kömək etdilər. Torda saysız-hesabsız balıq olur.

Sultan Mahmud saraya qayıtdıqdan sonra oğlanı yanına gətirdib yanında əyləşdirir və ona son dərəcə lütf göstərir. Ətrafdakılar oğlanı bu hörmətə layiq bilmədikdə, şah deyir ki, necə olsa, o bizim şərikimizdir və bizim ixtiyarımızda olanlardan o da istifadə etməlidir.»

Əgər bir sultanın nəzəri insanı çox çətinliklərdən qurtara bilirsə qadir Allahın nəzəri altında olan insanın müşkülü qalarmı?! Bu nəzər Nuh və başqa mö`minləri dəhşətli tufan təhlükəsindən qurtardı, qurumuş budağı Musanın əlində əjdahaya döndərdi, Əyyubu bəlalar dünyasından qurtardı, Yusifi qaranlıq quyunun dibindən çıxarıb Misir taxtına oturtdu!

### *HATƏM ƏSƏM HAQQıNDA BIR HEKAYƏ*

Hatəm İsəm öz dövrünün tanınmış arifi olmuşdur. Xalq arasında böyük hörmətə malik olmasına baxmayaraq, maddi çətinliklər içində yaşamışdır.

Bir gecə dostlarla oturub Kə`bə evinin ziyarətindən danışdıqları vaxt Hatəmin qəlbində bu ziyarətə böyük bir eşq alovlanır. Evə qayıtdıqdan sonra ailə-övladlarına deyir: “Əgər razı olsaydınız, Allah evinin ziyarətinə gedər, sizin üçün də dua edərdim.” Xanımı e`tiraz edərək deyir ki, ailən çətinlik içində yaşadığı vaxt ziyarətə getməyi necə rəva bilirsən? Övladlar da ananın dediklərini təsdiq edirlər. Amma Hatəmin kiçik qızı belə deyir: “Bizə ruzi verən Allahdır, atam isə vasitədir. Əgər atam ziyarətə getsə Allah bizə başqa

vasitə ilə ruzi yetirər." Qızcığazın sözləri bütün ailə üzvlərinə tə`sir edir və onlar Hatəmə icazə verirlər.

Beləcə Hatəm Həcc karvanına qoşulub ziyarətə yola düşür. Bu ziyarətin səbəbkarı olan qızcığazı qonşular və yaxınlar çox danlayırlar. Onların fikrincə bu ziyarət səbəbindən ailə böyük çətinliklərə düçar olasıydı.

Hatəmin qızı çox qəmgin olur. Qəm içində üzüldüyü vaxt belə dua edir: "Pərvərdigara! Bunlar Sənin ehsanına adət ediblər, daim ne`mət süfrəndən bəhrələniblər. Məni onların yanında xəcil etmə."

Bir gün Hatəmin evinin yanından keçən şəhər hakimi onun evinə adam göndərib su istəyir. Hatəmin xanımı öz-özünə deyir: Biz dünən gecə ac yatmışıq, bu gün şəhər hakimi bizə möhtac olub su istəyir." Hakim yoldaşlarından soruşur ki, bu ev kimindir? Deyirlər ki, Hatəm Əsəmin. Hakim kəmərindəki pul kisəsini çıxarıb Hatəmin həyətinə atır və deyir: "Məni istəyənlər də pul kisələrini atsınlar." Hamı pul kisəsini çıxarıb həyətə atır.

Bu hadisəni müşahidə edən qızcığaz ağlamağa başlayır...

Karvanda Hatəmdən kasıbı yox idi. Onun nə atı, nə də azuqəsi var idi. Karvanda onu tanıyanlar onun səfər ehtiyaclarını ödəyirlər. Bir gecə Həcc əmiri ağır xəstələnir. Karvanın həkimi onun müalicəsində aciz qalır. Əmir deyir: "Karvanda elə bir hal əhli varmı ki, mənə dua etsin? Bəlkə dua mənə kömək edə!" Deyirlər ki, Hatəm Əsəm karvandadır. Əmir xidmətçiləri göndərib Hatəmi yanına çağırır. Hatəm çadıra daxil olub salam verir. Əmirin yanında əyləşib, ona dua edir. Dua qəbul olunur və əmir sağalır.

Bu hadisədən sonra əmir göstəriş verir ki, Hatəmə minik versinlər və onun Həcc səfərinin xərcini ödəsinlər. Hatəm əmirə təşəkkür edib həmin gecə mehriban Allahı ilə xüsusi raz-niyaz edir. Gecə yatıb yuxuda gördü ki, ona deyirlər: "Ey Hatəm! Bizə e`timad göstərən şəxsin halına lütfümüzü şamil edərik. Ailə-övladından ötəri narahat olma. Onların ehtiyacını ödəmişik." Yuxudan oyanan Hatəm Allaha həmd-səna oxuyur.

Həcdən qayıdarkən övladları Hatəmin pişvazına çıxırlar. Hatəm körpə qızını qucağına alıb öpür və deyir: "Nə çoxdur batinində böyüklük olan zahirən kiçiklər. Allah yaşın çoxluğuna yox, mə`rifətin çoxluğuna nəzər salır. Allaha mə`rifətli və e`timadlı olun. Çünki Ona təvəkkül edən himayəsiz qalmaz."[318]

## *KƏRAMƏTLİ NƏZƏR*

Böyük arif Seyyid Cə`fər Müzarei belə nəql edir:

Nəcəfin əzəmətli hövzəsinin bir tələbəsi çox çətin vəziyyətdə yaşayırdı. Bir gün bu sıxıntıların tə`sirindən Həzrət Əlinin (ə) ziyarətinə gəlib Həzrətə (ə) müraciətlə deyir: "Ey mənim Mövlam, mənim maddi vəziyyətim bu qədər ağır olduğu halda nə üçün sən öz hərəmindən bu qədər qiymətli çil-çıraqlar asmısan?!"

Bu tələbə gecə yuxuda Həzrət Əlini (ə) görür və Həzrət ona belə buyurur: "Əgər Nəcəfdə mənim yanımda qalmaq istəyirsənsə qatıq-çörəklə razılaşmalısan. Əgər yüksək maddi tə`minat istəyirsənsə Hindistanın Heydərabad şəhərinə gedib

[318] "Әнисүл-ләјл", 292.

filankəsə müraciət etməlisən. Onunla görüşərkən bu misranı oxuyarsan: “Göydə günəş kimi nur saçıb gəzər.”

Tələbə kitablarını və başqa olanlarını satıb Hindistana yola düşür. Heydərabad şəhərində deyilən ünvanı tapıb qapını döyür. Ev sahibi ilə görüşüb həmin misranı oxuyur. Olduqca varlı olan ev sahibi hörmətli qonaq gözləyirmiş kimi onu qəbul edib böyük diqqət göstərir. Xidmətçilər oğlanı hamama aparır, yuyundurub bahalı libaslar geyindirir və ona lazımınca xidmət göstərirlər.

Tələbə səhəri gün bu böyük imarətdə ciddi hazırlıq işlərinin getdiyini görür. Bir müddət sonra şəhərin varlı adamları, alimlər təşrif gətirirlər. Məclis qurulur və ev sahibi qonaqlara müraciətlə deyir: “Əziz qonaqlar, mən öz sərvətimin yarısını Nəcəfdən gəlmiş bu tələbəyə bağışlayıram və iki qızımdan birini ona ərə verirəm.”

Gördüklərindən heyrətə gəlmiş tələbə ev sahibinə yaxınlaşıb astadan soruşur: “Bütün bunlar nə deməkdir?” Ev sahibi deyir: “Bir neçə il əvvəl Həzrət Əlinin (ə) şə`ninə şe`r demək istədim. Birinci misranı yaza bilsəm də ikinci misra heç vəchlə alınmadı. Neçə-neçə şairlərə müraciət etsəm də, bu beyti tamamlamaq mümkün olmadı. İş o yerə çatdı ki, ikinci misranı deyəcək şəxsə var-dövlətimin yarısını bağışlayacağımı və qızımı ona ərə verəcəyimi nəzir etdim. Bu misranı isə siz dediniz.” Tələbə deyir ki, bu misranı mənə Həzrət Əli (ə) yuxuda öyrətmiş idi. Ev sahibi də şükür səcdəsi edərək hər iki misranı oxuyur:

Dəyərsiz zərrəyə Əli (ə) salarsa nəzər,
Zərrə göyə qalxaraq günəşin işini görər.
Zərrəyə salsa əgər, Əli (ə) bir anlıq nəzər,
Zərrə səmaya gedər, günəşin işini görər.

**"**İlahi və Mövlayə əcrəytə ələyyə hukmənit-təbə`tu fihi həva nəfsi və ləm əhtəris fihi min təzyini əduvvi fəğərrəni bima əhva və əs'ədəhu əla zalikəl qəza**,** fətəcavəztu bima cəra ələyyə min zalikə bə`zə hududikə və xaləftu bə`zə əvamirikə

("İlahi, ey mənim Mövlam! Sən hökm verdin, mən isə onun icrasında nəfsimin istəyinə tabe oldum. Düşmənimin işlərimi mənə gözəl göstərəcəyindən qorxmadım, o da məni aldatdı. Qəzavü-qədər də ona kömək etdi. Bu qəzalar səbəbindən verdiyin hökmlərdə bə`zən həddi aşdım və bə`zi göstərişlərinə müxalif oldum.")

Allah-Taalanın müəyyənləşdirdiyi qəlbə aid əqidə nəfsə aid əxlaq, əzalara aid saleh əməl insanın dünya və axirət səadətini tə`min edən bəndəlik vəzifələridir. Bu vəzifələr xalis niyyətlə icra olunarsa, insan kamala çatar, əbədi Behiştə qovuşar.

Allah istəklərinin yerinə yetirilməsində insan üçün əsas maneə nəfs istəkləridir. O, insan qəlbində dünya bər-bəzəyinə maraq oyatmaqla diqqəti əsil məqsəddən yayındırır.

Ey həvəsə uyan dost!
Gəl, özünə etmə qəsd.

Bülbülsən, mə`şuqun var,
Bu qəfəs deyilmi dar?!
Tikanda ağrı, üsyan,
Çiçəkdir ətir saçan.
Şir tamah salmaz leşə’
Qul olma hər vərdişə.
Dövlət gəzmə kənarda,
Korda deyilsə karda.
Bağlısa dua əlin,
Faydasızdır əməlin.
Rəhm etməsən özünə
Vurasısan dizinə.
Özünə zülm edənin
Axı kim çəkər qəmin?!

Həzrət Peyğəmbər (s) buyurur: “Sənin ən qatı düşmənin iki sinən arasındakı maddi nəfsdir.”[319]

Bəli, əmmarə nəfs, ayə və rəvayətlərdə “həva” adlandırılan şey insanın ən qatı düşmənidir və onu əbədi səadətdən uzaqlaşdıraraq çirkin işlərə sövq edir.

Bir şəxs İmam Rizadan (ə) soruşur ki, dünya və axirət xeyrinin bir yerə toplandığı həqiqət nədir? İmam (ə) buyurur: “Nəfsinə müxalif ol.”[320]

Həzrət Peyğəmbər (s) buyurur: “Ən üstün cihad nəfsi ilə vuruşanın cihadıdır.”[321] “Ey Əli! Sübh oyanarkən

---

319 “Биһарул-әнвар”, 67-64.
320 “Сәфинәтүл-биһар”, 8-298.
321 “Вәсаилүш-шиә”, 15-163.

kimsəyə zülm etmək fikrində olmayan kəs ən böyük cihad sahibidir."[322]

Özünü əmmarə nəfsə təslim edən insan onun vəsvəsələrinə aldanır və beləliklə Allah və Qiyamət, vəzifə və ölüm unudulur, insana kamala yetmək üçün verilmiş azadlıq günah və xətalara sərf olunur.

**"Fələkəl huccətu ələyyə fi cəmii zalikə və la huccətə li fi ma cəra ələyyə fihi qəzaukə və əlzəməni hukmukə və bəlaukə"**

("Sənin üçün mənə qarşı bütün işlərdə dəlillər tamamlanıb. Mənim üçün nəfs həvəslərinin təhriki ilə həyata keçən və Sənin hökmünün vadar etdiyi şeylərdə heç bir üzr yoxdur.")

## *DƏLILLƏR*

Batdığı günahlar, yol verdiyi xətalara görə insanın Allah qarşısında heç bir üzrü yoxdur. Əgər desə ki, qüvvəm çatmayıb, yalan deyir. Bəhanə gətirsə ki, nadan olmuşam, yenə də yalan deyir. 124 min peyğəmbərin, beş ilahi kitabın, milyonlarla din təbliğatçısının, minarələrdən ucalan azan səslərinin xəbərdarlığı nadanlığı bəhanə gətirənlərin ziddinə dəlildir.

Əgər insan ağıldan zəif olduğunu səbəb göstərsə dünya işlərində göstərdiyi fərasət bu bəhanəni də yalana çıxarar.

Yuxarıda sadalananlar axirət günü insanın ziddinə gətiriləcək dəlillərin cüz`i bir hissəsidir. Demək, bütün

---

[322] "Вəсаилүш-шиə", 15-162.

bəhanə qapıları bağlanmışdır. İmam Sadiq (ə) buyurur: “Qiyamət günü gözəlliyi ucbatından fəsada düşmüş bir qadın gətirilər. O deyər ki, mənə verdiyin gözəllik səbəbindən günaha düçar oldum. Onun gətirdiyi bəhanəyə qarşı Həzrət Məryəmi (ə) misal gətirib deyərlər: “Sən gözəlsən, yoxsa bu böyük qadın?! Biz onu daha gözəl yaratdıq, amma o özünü qorudu və fəsada düşmədi.” Sonra gözəlliyinə görə günaha düşmüş bir kişi gətirilər. O da düşdüyü günahlarda gözəlliyini təqsirləndirər. Onun dəlilini puça çıxarmaq üçün Həzrət Yusifi (ə) gətirər və deyərlər: “Sən gözəlsən, yoxsa bu böyük insan?! Biz onu daha gözəl yaratdıq, amma o özünü günahdan qorudu.” Sonra bəladan qurtarmaq üçün günaha düşmüş bir şəxs gətirilər. Bu şəxs düşdüyü bəlanı üzr gətirəndə ona Həzrət Əyyubu göstərib deyərlər: “Sənin bəlan böyük idi, yoxsa bu böyük insanın bəlası? O daha böyük bəlalara düşdü, amma fəsaddan qorundu.”[323]

Candan keç, canan axtar,
Cananda başqa can var.
Gör hara çatdı Səlman,
Saf ürəklə gəz İslam.
Ötmə’ yaxşı sal nəzər,
Bə`zən gizli olur şər.
Burax dünya dərdini,
Əyəsidir qəddini.
Düş o şeyin ardına,
Gorda çatsın dadına.

---

[323] “Кафи”, 8-228.

Vüsal gəzirsənsə sən,
Sel axmalı gözündən.
Çox şirin sonda acı,
Hamı əməl möhtacı.
Xızır tək tər axıtsan,
Şad olarsan bir zaman.
Bu sözdə tapsan şəfa,
Bizlərə də et dua.

"Və qəd ətəytukə ya İlahi, bə`də təqsiri və israfi əla nəfsi mu`təzirən nadimən, munkəsirən, mustəqilən, mustəğfirən, munibən, muqirrən, muz`inən, mu`tərifən la əcidu məfərrən mimma kanə minni, və la məfzəən ətəvəccəhu iləyhi fi əmri ğəyrə qəbulikə uzri, və idxalikə iyyayə fi səətin min rəhmətikə."

("İndi, ey Mə`bud, lütf və mərhəmət dolu hüzuruna gəlmişəm. Amma təqsirə yol verib nəfs istəklərində həddi aşdıqdan sonra! Üzrxah, peşman, qəlbisınıq, bağışlanma diləyən, Sənə tərəf qayıdan, günahlarını e`tiraf edən, qaçmağa yer tapmayan halda ki, Sən, ey mehriban Allah, üzrlərimi qəbul edəsən və məni geniş rəhmətinə çatdırasan!"

## *AŞIQANƏ RAZ-NIYAZ*

Duanın bu hissəsində Həzrət Əli (ə) rəhmətə səbəb olacaq bütün incəliklərə işarə edir: ibadətdə süstlüyün e`tirafı, nəfs istəklərinin həddi aşmasına görə üzrxahlıq, tövbə etməklə bağışlanmaq istəyi, günahların e`tirafı, Allahın rəhmətindən savayı sığınacaq tapmamaq və s.

Bu nalələr və sızıltılar Allahın xoşuna gələn həqiqətlərdir. Nəql olunur ki, haqq yolçusu olmaq

istəyən bir şəxs İlahi övliyalardan birinin yanına gəlib dedi: "Mən Haqq dərgahına üz tutmuş bir yolçuyam. Mehriban və bağışlayan Allahın hüzuruna hədiyyə olaraq nə aparım? Axı Onun hüzuruna əliboş getmək mə`rifətsizlik olar." Övliya deyir: "Elə bir şey apar ki, orada olmasın. Ağlar qəlb və gözdən savayı bütün kamilliklər oradadır."

Bəli, Allah-Taala tövbəkar günahkarın nalələrinə aşiqdir. Şübhəsiz ki, bütün mə`şuqlar öz aşiqinin səsini eşitmək arzusundadır. Eləcə də bütün aşiqlər öz mə`şuqunun lütf nəzərlərinə möhtacdır.

## *YUSIF VƏ ZÜLEYXA*

Nəql olunur ki, Züleyxa öz gücündən istifadə edərək Yusifi zindana saldırdıqdan sonra, mə`şuqunun səsini eşitmək üçün yollar axtarırdı. O, xidmətsinə göstəriş verdi ki, Yusifi fəryad edənədək qamçılasın. Amma Yusifin ilahi məqamından çəkinən xidmətçi hiyləyə əl atdı və Yusifə qalın köynək geyindirib astaca qamçıladı. Xəlvətdə durub Yusifin naləsini eşitməyən Züleyxa - "Onu bərk vur!" - dedi. Xidmətçi Yusifdən üzr istəyib zərbələrini gücləndirdi. Yusifin naləsi ərşə ucaldı. Bu nalələr aşiqə ləzzət verirdi.

Züleyxa dinləyib onun naləsin
Qucurdu qəlbində eşqin şö`ləsin.
Bu nalə önündə durmağa güc yox,
Qüssə şahə qalxıb, zərrə sevinc yox.
Yüz növhəçi yaza bu dərdi - bitməz,
Şimşək çaxa - qəmdən kimsə eşitməz.

## *YUNUSUN QÖVMÜ*

Yunusun onları tərk edib başqa bir diyara köçdüyünü eşidən qövm yəqin etdi ki, qarşıdan əzab gəlir. Aralarındakı rəbbani alim onlara bildirdi ki, qarşıdakı bəladan qurtarmağın yeganə yolu günahların e`tirafı və tövbədir. Beləcə böyük-kiçik, qadın-kişi köhnə libas geyinib, yalın ayaqla tövbə üçün səhraya çıxdılar.

Kişilər ayrıca, qadınlar ayrıca, südəmər körpələr də analarından uzaq bir yerdə yerləşdilər. Hamı bir səslə Allahın dərgahına üz tutaraq raz-niyaza başladı. Onlar deyirdilər: ″Pərvərdigara! Yunus demişdi ki, qulları azad edib savab qazanın. Demişdi ki, biçarələrin fəryadına çatın. İndi isə biz bəndələr çarəsizik və Səndən başqa bir pənahımız yoxdur. Dadımıza çat!″

Bu dualar qəbul olduqdan, əzab buludları rəhmət buludları ilə əvəz olunduqdan sonra şəhər camaatı rahatca evə qayıdıb gündəlik işinə məşğul oldu.

Allaha üz tutmaq, günahları e`tiraf edərək tövbə qılmaq bağışlanmanın tə`sirli amillərindəndir.

Səninlə görüşdə olmaq bircə an
Yüz illik ömürdən üstündür inan.
Hər cilvən danışır əzəmətindən,
Şəm kimi eşqindən alışıram mən.
Turundan kənara götürsəm qədəm,
“Lən tərani” sözün anlaya bilməm.
Pərvanə yanaraq ucaldığı tək
Əbədiyyət verir bu odlu istək.
Doğru yoldan kənar həqiqət nədir,
Gümanların çoxu boş əfsanədir.

Bu pirdə quş könlü saxlayan da Sən,
Çarəsiz anlarda yoxlayan da Sən.
Eşqinlə məst edib, itir özümü,
Dünyaya asudə yumum gözümü.
Sənə aşiq qəlbin bilinməz ömrü,
Yetəsən yetməmiş əcəlin əmri.

"Allahummə fəqbəl uzri, vərhəm şiddətə zurri, və fukkəni min şəddi vəsaqi, ya Rəbirhəm zə`fə bədəni, və riqqətə cildi, və diqqətə əzmi, ya mən bədəə xəlqi və zikri, və tərbiyəti və birri və təğziyəti, həbni libtidai hərəmikə və salifi birrikə bi."

("Pərvərdigara! Üzrümü qəbul et, pisliyi son həddə çatmış halıma rəhm et, əl-ayağımı bağlamış günah zəncirindən məni azad et. Ya Rəbb! Bədənimin zəifliyinə dərimin yuxalığına, sümüklərimin kövrəkliyinə rəhm et.

Ey yaranışın əsasını qoyan, məni yada salan, tərbiyə edən, xeyirxahlıq edib ruzi verən! İndi məni əvvəlki kərəminlə bağışla.")

### *MƏHBUBUN QARŞıSıNDA*

Duanın bu hissəsində mə`rifətli aşiq hiss edir ki, rəhmət qapıları açılmışdır və mə`şuq onu dinləyir. Ona görə də ərz edir ki, mənim günaha sövq edən nadanlığımı üzürlü say, bundan sonra Sənin yardımınla tapdığım mə`rifət hesabına nəfsin bəlalarından qurtarım.

Pərvərdigara! Təkəbbür və lovğalıq, hərislik və tamah, riya və özününümayiş kimi sifətlər məndə qalarsa, sağalmaz yaraya, xərçəng xəstəliyinə çevrilər.

Pərvərdigara! Şeytan və əmmarə nəfs buxovları əl-ayağımı, ağıl düşüncəmi hərəkətdən saxlayaraq məni yerə oturdub. İndi ki, öz lütfünlə bu aşiqi zəncirlərdən azad etmisən, o da qarşında göz yaşları axıtmağa müvəffəq olub, yardım əlini uzadıb ona şeytan və nəfs əsarətindən nicat ver.

Pərvərdigara! Əgər bu gün fəryadıma çatıb fir`oni, qaruni hallarımdan qurtarmasan Qiyamət günü daha ağrılı zəncirlərlə buxovlanasıyam.

"İnsan" surəsinin 4-cü ayəsində buyurulur: **"Biz kafirlər üçün zəncirlər, qandallar və alovlu atəş hazırlamışıq".** "Haqqə" surəsinin 30-33-cü ayələrində oxuyuruq: **"Onu tutub qandallayın! Sonra da Cəhənnəmə atın! Daha sonra onu yetmiş zər` uzunluğunda zəncirlə bağlayın! Çünki o, böyük Allaha inanmırdı."**

Ya Rəbb! Əgər bu gün bizi zəncirlərdən azad etməsən, elə bir gün gələcək ki, azadlığımız mümkün olmayacaq!

Əlbəttə ki, bu buxovlardan azad olan insanlar ibadət yolunda rahatlıqla irəli gedir və ömrünün sonunda asudəliklə mə`şuqa doğru qanad açırlar. Lakin şeytan və nəfs əsarətində olanlar qolu bağlı əsir tək yaşayır və elə bir aqibətə düçar olurlar ki, kimsə onun fəryadına yetişə bilmir!

## *HARUNUN ÖLÜMÜ*

Məşhur xəlifə Harun ər-Rəşid Xorasanda ağır xəstəliklə yatdığı vaxt öz sidik nümunəsini digər sidik nümunəsi ilə birlikdə ustad bir həkimə göndərir.

Həkim Harun ər-Rəşidin sidiyi olan qabı ayırıb deyir: "Bu qabın sahibinə deyin ki, vəsiyyətini etsin."

Xəlifəyə xəbər verirlər ki, şəhərdə ölümün haqqında şayiələr yayılıb. Bu şayiəni aradan qaldırmaq üçün xəlifə şəhərə çıxmaq qərarına gəlir. Əmr edir ki, minik gətirsinlər. Xəlifə ata minmək istəyərkən atın qıçı qatlanır. Xəlifə deyir: "Şayiə yayanlar düz deyib. Mənə kəfən hazırlayın və yatağımın yanında qəbir qazın." Xəlifənin göstərişi yerinə yetirilir. O, qəbrə baxıb bu ayəni oxuyur: "Var-dövlətim mənə heç bir fayda vermədi; səltənətim də məhv olub getdi."[324]

Ey mənim Allahım! Qiyamət zəncirləri, buxovları çox ağrıdır! Cismimin zəifliyinə dərimin yuxalığına rəhm et. Bu günkü günah zəncirlərindən xilas etməsən, bu zəncirlər Qiyamət günü od zəncirlərə çevriləsidir. Zəif cismimlə əbədi olaraq bu zəncirlərdə qalmaq necə də ağırdır!

## *DƏQIQ HESAB*

Əzizlər, şeyx Bəhainin rəvayət etdiyi Tövbə adlı kişi kimi hər gün nəfsimizi hesaba çəkməyimiz zəruridir. O, altmış yaşında ikən 21500 gün yaşadığını hesablayıb, nalə çəkdi: "Vay olsun mənə! Əgər gündə bir günah etmiş olsam, 21500 günaha batmışam. Bu qədər günahla Allahın görüşünə gedə bilərəmmi?!" Bu sözləri deyib huşunu itirdi və dünyasını dəyişdi!

Pərvərdigara, hər nəyəmsə Sənin bəndənəm, Sənin iradənə tabeyəm və qaçmağa bir yerim yoxdur. Ya Rəbb, məni yada salıb yoxluqdan var etdin,

---

[324] "Həqqə", 28-29.

tərbiyələndirib ruzi verdin. İndi də Səndən istəyirəm ki, əvvəlki ehsanlarının davamı olaraq dünya və axirət əzabından məni qurtarasan!

Bu eşqdən hər könül məstanə olmuş,
Dağlara daşlara yolunu salmış.
Vəsl olmuş ruhumuz alır güc ondan,
Ömür tükənər eşq tükənən zaman.
Rəhmət dünyasında gəlmişik cana,
Varmı ondan başqa yanan insana.
Hər zərrə dolanır nəvazişindən,
Yaxşı bizləri də qurtardı qəmdən.
Lütfüylə çəkilib qayıdır nəfəs,
Bir Odur bu ruhda saxlayır həvəs.
Kainat qurulub bu mərhəmətdən,
Eşq yağışı yağır altı cəhətdən.
Vüsalı arzular fərağın duyan,
Bilməz bu dünyanın eyşinə uyan.
Əlbət hicranın da şirinliyi var,
Çünki qışdan sonra gələsi bahar.

**"**Ya İlahi və Səyyidi və Rəbbi**,** əturakə muəzzibi binarikə bə`də tovhidikə və bə`də məntəva ələyhi qəlbi min mə`rifətikə və ləhicə bihi lisani min zikrikə və`təqədəhu zəmiri min hubbikə və bə`də sidqi`tirafi və duai xaziən lirububiyyətikə**."**

("Ey Mə`bud, ey Ağam, ey Rəbbim! Səni belə görməyim mümkündürmü ki, Sənin yeganəliyini e`tiraf edəndən, qəlbim mə`rifət nuru ilə işıqlandıqdan, dilim Sənin zikrinlə danışandan, batinim eşqinin bəndinə

düşdükdən, tövhidinə sədaqətlə e`tirafından, hüzurunda müt'i dualarımdan sonra mənə odda əzab verəsən?!"

Xeyr, and olsun müqəddəs zatına, heç bir peyğəmbər, imam, övliya, arif, aşiq, abid, zahid, tövbəkar belə deməyib və belə də deyil. Həqiqət budur ki, öz bəndənə Qiyamət günü lütfünlə nəvaziş göstərəcək, mərhəmət göstərib nöqsanlarını bağışlayacaq və Behiştdə aşiqlərlə birgə yer verəcəksən.

## *TÖVHID*

Ayə və rəvayətlərdən kömək alaraq, hikmət əhlinin söhbətlərini dinləyərək, varlıq aləmindəki nizamı mütaliə edərək Səni bir olaraq tanıyan kəs bütün batil mə`budlardan üz döndərir, qəlb dili və vücudunun bütün zərrələri ilə "la ilahə illəllah" deyir. Bütün böyük peyğəmbərlər belə bir tövhidə əsaslanmış və hamını bu əsasa də`vət etmişlər. Bütün insanlar bir Allaha olan e`tiqada çağırılmışdır.

Tövhidin e`tiqadi mə`nası düşüncələrin şirkdən təmizlənməsində çox əhəmiyyətlidir. Allaha şərik qərar verənlər, bütpərəstlər, istənilən şəkildə Allahın sifətlərini təhrif edənlər tovhiddən kənardır. İnhirafa düçar olanların ən cahili əsrimizdəki vəhhabilərdir.

Peyğəmbər daim cəmiyyəti şirk çirkinliyindən təmizləməyə çalışmışlar. "Saffat"surəsinin 35-ci ayəsində oxuyuruq: **"Onlara "Allahdan başqa heç bir tanrı yoxdur" deyildiyi zaman təkəbbür göstərirdilər."** Çünki bu kəlmələr fir`onların, zalım hakimlərin xalqı qul etmək məqsədinə mane olurdu.

Tövhid kəlmələrini deyən insan özünü yalnız Allaha qul hesab etməliydi. Belə bir əqidə isə heç zaman istismarçılara sərf etməmişdir.

Haqqın yeganəliyinə e`tiqad, Onun oxşarsız olması, şəriksizliyi, zatının sifətləri ilə eyniliyi, varlıq aləminə hakim olması, bir sözlə Qur`anın tanıtdırdığı Allaha e`tiqad əsil tovhiddir. "La ilahə illəllah", yə`ni tövhid kəlmələrini dili ilə deyib, əməli ilə təsdiq edən şəxs həqiqi mö`min və gerçək müvəhhiddir.

Həzrət Əli (ə) buyurur: "Dinin başlanğıcı Onu tanımaqdır. Kamil tanıma Ona inam, inamın sonu Onu yeganə bilmək, yeganə bilməyin əsası hüzurunda xalis olmaq, ixlasın ən uca həddi Onu pak bilməkdir..."[325] Başqa bir xütbədə oxuyuruq: "Ey xalq!.. Allah sizi məqsədsiz yaratmadı, özbaşına buraxmadı, nadan saxlamadı, əməlləri xeyir və şər olaraq tanıtdırdı. O, sizin əməllərinizdən xəbərdardır, dünyada qalacağınız müddəti müəyyən etmiş, həqiqətləri tanıtdıran Kitab nazil etmiş, hidayətiniz üçün Peyğəmbərə (s) göndərmiş, dinini onun və sizin üçün kamilləşdirmişdir. O, bu dini özü üçün bəyənib, peyğəmbərlərin dili ilə yaxşını, pisi tanıtdırıb. Bütün dəlillər tamamlanıb, üzr üçün yer qalmayıb, itaətsizlik müqabilində əzab və`d edilib. Qalan ömrünüzü itaət edin, dözüm göstərin."[326]

Tövhid e`tiqadını Qur`andan, peyğəmbərlərdən, imamlardan və övliyalardan əxz edib Allah əmrlərinə itaət edən, günahdan çəkinən, batil mə`budları inkar

[325] "Нəhчул-Бəлағə".
[326] "Нəhчул-Бəлағə".

edən şəxs müvəhhiddir və Qiyamət günü nicat tapasıdır.

Həzrət Peyğəmbər (s) buyurur: "Ən yaxşı ibadət "La ilahə illəllah" deməkdir."[327] "Allaha şərik qərar vermədən ölən kəs Behiştə daxil olar."[328]

İmam Baqir (ə) buyurur: "Ən böyük mükafat "la ilahə illəllah" şəhadətinə məxsusdur. Çünki Allah-Taala ilə bərabər bir şey yoxdur və heç kim Onunla şərik deyildir."[329]

İmam Sadiq (ə) buyurur: "Şübhəsiz ki, Allah-Taala müvəhhidlərin cismini oda haram etmişdir." "Behiştin dəyəri "la ilahə illəllah" deməkdir."[330]

Həzrət Peyğəmbər (s) buyurur: "La ilahə illəllah" kəlməsi Allah yanında ən böyük və dəyərli kəlmədir. Bu kəlmələri ixlasla deyən şəxs Behiştə gedər. Kim bu sözləri yalandan desə dünyada var-dövləti qorunar, amma axirətdə oda düşər." "And olsun məni həqiqət müjdəçisi göndərənə heç bir müvəhhidə əsla atəşlə əzab verilməz."[331]

Ey mehriban Allah, ey tövhid əhlinin aşiqi! İnanmırıq ki, xalis qəlblə tovhidini təsdiq etdikdən sonra, qarşında təvazökarlıq göstərdiyimiz halda bizə əzab edəsən!

**"**Heyhatə, **Ə**ntə əkrəmu min ən tuzəyyiə mən rəbbəytəhu**,** əv tubə'idə mən ədnəytəhu, əv tuşərridə

---

[327] "Кафи", 2-506.
[328] "Төвһиде-Сәдуг", 19.
[329] "Төвһиде-Сәдуг", 19.
[330] "Төвһиде-Сәдуг", 20.
[331] "Төвһиде-Сәдуг", 23, 29.

mən avəytəhu, əv tusəllimə iləl-bəlai mən kəfəytəhu və rəhimtəhu"

("Heyhat, inanmıram ki, məni Cəhənnəm oduna düçar edəsən. Çünki bu iş Səndən çox-çox uzaqdır. Sən bundan daha böyüksən ki, yaratdığını sıxıntıya salasan, yaxınlaşdırıb bu yaxınlıqdan faydalandırdığını uzaqlaşdırasan, sığınacaq verdiyini qovasan, tə`min edib rəhm buyurduğunu bəlaya salasan."

## *RÜBUBIYYƏT CILVƏSI*

Allah-Taala insanı doğulduğu gündən dünyasını dəyişdiyi günədək iki istiqamətdə tərbiyələndirir: maddi və mə`nəvi.

Maddi tərbiyə insanın ixtiyarına verilmiş saysız-hesabsız ne`mətlərdən istifadə qaydalarını müəyyənləşdirir. "Yunus" surəsinin 31-ci ayəsində buyurulur: **"De ki, sizə göydən və yerdən ruzi verən, qulaqlara və gözlərə sahib olan, ölüdən diri və diridən ölü çıxaran, işləri sahmana salan kimdir? Deyəcəklər ki, Allahdır. De ki, bəs Allahdan qorxmursunuz?"**

İnsan öz orqanizminin bir üzvünün funksiyalarını dərk etməkdə acizdir. Məsələn, göz əsasən altı hissədən ibarətdir: göz kasası, göz kürəsi, xarici əzələlər, göz qapaqları, qapaq daxili, göz yaşı qurğusu. Göz kürəsi göz kasasının yalnız 1/5 hissəsini doldurur. Gözün hərəkətinə beyin kürələri nəzarət edir. Qapaqlar və kirpiklər gözü xarici tə`sirlərdən qoruyur. Burunla əlaqəli olan göz yaşı qurğusu gözü şəffaf və təmiz saxlayır. Göz kürəsi gözün xarakterik xüsusiyyətlərini, eləcə də rəngini tə`yin edən üç hissədən ibarətdir.

İnsan orqanizmində təqribən 15 milyard sinir hüceyrəsi iştirak edir. Bu mexanizmin ən primitiv nümunəsini yaratmaq üçün yüksək ixtisaslı elektronika mütəxəssisinə qırx min il vaxt lazımdır! İnsanı nütfədən, nütfəni torpaqdan yaradan Xaliq yenidən insanda nütfə vücuda gətirir. Toyuqdan yumurta, yumurtadan isə toyuq yaranır. Bu mürəkkəb proseslərə yalnız Allahın qadir olduğunu bilən insan hansı məntiqlə Ona şərik axtarır?!

İnsan əql, fitrət, vicdan, nübuvvət, imamət, ilahi kitablar kimi mə`nəvi tərbiyə vasitələri ilə həqiqi azadlıq qazanır. Bu azadlıq sayəsində Allahın razılığına müvəffəq olur.

Həzrət Əli (ə) duanın bu hissəsində ərz edir ki, maddi və mə`nəvi ne`mətlər vasitəsi ilə Allahın rübubiyyətini qəbul etmiş bəndənin Allah dərgahından qovulması çox uzaq bir fikirdir. Allah-Taala buyurur: "Məni çağırdınız - cavab verdim. Məndən istədiniz əta etdim. Müxalifət göstərdiniz - möhlət verdim. Məni tərk etdiniz - sizi qorudum. Günah etdiniz - üstünü örtdüm. Mənə arxa çevirsəniz - geri dönməyinizi gözlər və Mənə tərəf qayıtsanız, qəbul edərəm. Mən bağışlayanların bağışlayanı, kərimlərin kərimi, mehribanların mehribanıyam."[332]

## *MUSA VƏ QARUN*

Əllamə Məclisi, Əli ibn İbrahim Qummidən belə rəvayət edir:

---

[332] "Тəфсире "Кəшфул-əсрар", 3-374.

Qarun Musanı və onun peyğəmbərliyini inkar edib, zəkat verməkdən boyun qaçırdıqdan sonra Musa Allaha şikayət etdi. Allah-Taala buyurdu: "Göyləri və yeri sənin itaətinə qoydum, nə istəyirsən əmr et."

Musa Qarunun qəsrinə üz tutdu. Qarun köməkçilərə göstəriş vermişdi ki, Musaya qapı açmasınlar. Musa qapıları bir işarə ilə açdığı zaman Qarun anladı ki, Musa Allahın əzabı ilə gəlib. Qarun dedi: "Ya Musa, aramızdakı yaxınlığa görə mənə rəhm et." Musa torpağa Qarunu udmaq əmri verdi. Torpağa batan Qarun Musaya yalvararaq, tövbə edirdi. Amma Qarunun hərəkətləri Musanı çox incitmişdi.

Qarun həlak olduqdan sonra Allah-Taala Musaya buyurdu: "Ey Musa, onlar sənə çox yalvardılar, amma sən onlara rəhm etmədin. And olsun izzət və cəlalıma, əgər Məni çağırsaydılar, onlara rəhm edərdim!"

Nida oldu: Musa, yetmişcə dəfə
Qarun əlin açdı sənin tərəfə.
Bilirsənmi necə çəkdi iztirab,
Bircə dəfə olsun vermədin cavab.
İnan, çağırsaydı bir dəfə Məni,
Çəkərdim yolundan qüssəni, qəmi.
Yaratmış olsaydın əgər sən onu
İstərdin əzabdan qurtulsun canı
Yaxşıya yaxşılıq asandan asan,
Bacar günahkara rəva qıl ehsan.
Min günahdan sonra damla göz yaşı
Əlbət ki, tərpətməz cansız bir daşı.
Mənsə həmin damla göz yaşı üstə

Qaldırram bəndəmi buludlar üstə.
Güzəşt etməyə'nin nəyi var axı,
Böyüklər bacarır bağışlamağı.

## *VALIDEYNIN ÜZÜNƏ AĞ OLMUŞ GƏNC*

"Təfsire-Nişaburi"də nəql olunur:

İslam Peyğəmbərinin (s) dövründə bir gənc ölüm ayağında olarkən Həzrət (s) onun yanına getdi. Oğlanın dili tutulduğundan şəhadət kəlmələrini deyə bilmirdi. Həzrət (s) soruşdu ki, bəlkə namazqılan deyil, ona görə dili tutulub? Dedilər ki, namaz qılandır. Həzrət (s) buyurdu ki, bəlkə zəkat ödəməyib? Dedilər ki, ödəyib. Həzrət (s): - "Bəlkə atasının üzünə ağ olub?" deyə maraqlandı. Yenə də "yox" dedilər. Nəhayət, Həzrət (s) belə bir sualla müraciət etdi: "Bəlkə anasının üzünə ağ olub?" Cavab verdilər ki, - "Bəli, anasının üzünə ağ olub." Ananı də`vət edib oğlunu halal etməsini istədilər. Ana dedi: "Mən onu necə halal edə bilərəm ki, üzümə sillə vurub?!"

Həzrət Peyğəmbər (s) buyurdu: "Od gətirin." Ana soruşdu ki, "Odu nə üçün istəyirsiniz?" Həzrət buyurdu ki, "Pis əməlinə görə onu yandıracağam." Ana dedi: "Mən razı olmaram ki, onu yandırasınız. Onu doqquz ay bətnimdə gəzdirib, sonra iki il süd vermişəm, illər uzunu kənarında durmuşam. Mən onu oddan qurtarmaq üçün bağışlayıram."

İnsan üçün həqiqi mürəbbi olmayan ana günahkar övladının yanmağına razı olmursa, həqiqi mürəbbi olan Allah öz bəndəsinin əzabına razı olarmı?! Əsla!

## *ÇÖRƏK KƏSMƏYIN HAQQı*

Nəql edirlər ki, Xorasan ağalarından biri Yəzib ibn Mühəlləbdən borc almışdı. Yəzidin adamları borclunun vəkilini incidir, borcun ödənməsini tələb edirdilər. Bir gün həmin nümayəndəni Yəzidin yanına gətirirlər ki, möhlət istəsin. Bu gəliş yemək vaxtına düşür və nümayəndə də əyləşib təamlardan yeməyə başlayır.

Bunu görən Yəzid adamlarını çağırıb deyir: "Daha ondan pul tələb etməyin. Çünki süfrəmizdə çörək kəsdi. Bundan sonra ona əziyyət verməyimiz düz olmaz."

Biz günahkar bəndələr Allahın süfrəsində çörək kəsmirikmi?!

## *QONAĞıN HAQQı*

Tarixçilər yazır:

Məşhur sərkərdə Mə`n ibn Zaidə 300 əsirin qətlinə fərman verir. Əsirlərin arasında olan, hələ büluğ həddinə çatmamış bir oğlan deyir: "Ey əmir, səni and verirəm Allaha, su içməmiş bizi qətlə yetirmə." Əmir göstəriş verir ki, əsirlərə su paylansın. Oğlan suyu içib deyir: "Ey əmir, sənin süfrəndən istifadə edib, sənə qonaq olduq. Böyüklər qonağa hörmət göstərməyə layiqdirlər." Mə`n deyir: "Düz deyirsən." Sonra isə bütün əsirləri azad edir.

Bəli, Həzrət Əli (ə) buyurduğu kimi, Allahın süfrəsində qonaq olmuş bəndənin əzab görəcəyi ehtimal olunmur.

Kiçilmişik torpağadək,
«Mən» bütümüz çilik-çilik.

Kiçilməklə ucalmışıq,
Məhəbbətdən kam almışıq.
Sənsən səbrü-qərarımız,
Yox dünya adlı yarımız.
Göz açılır görür Səni,
İnan, yox başqa həmdəmi.
Günahımız olsa da çox
Səcdəmizin qatqısı yox.
Yoxsa da bir günah duyan
Nəyimiz var Sənə əyan.
Çıxsa da suçumuz dizə
Öz qəmimiz yetər bizə.
Qaradırsa da naməmiz.
Göz yaşıdır nişanəmiz.
Olarmı ki, sınıq könül
Od içində qala zəlil?

"Və ləytə şi`ri, ya Səyyidi və İlahi və Məvlayə, ətusəllitun-narə əla vucuhin xərrət liəzəmətikə sacidətən, və əla əlsunin nətəqət bitəvhidikə sadiqətən və bişukrikə madihətən və əla qulubini`tərəfət biilahiyyətikə mühəqqiqətən və əla zəmairə həvət minəl-ilmi bikə hətta sarət xaşiətən və əla cəvarihə səət ila əvtani təəbbudikə taiətən və əşarət bistiğfarikə muz`inətən, ma hakəzəz-zənnu bikə və la uxbirna bifəzlikə Ənkə ya Kərimu ya Rəbb."

("Ey mənim Ağam, ey mənim Mə`budum, ey mənim Mövlam! Ey kaş biləydim ki, əzəmətin qarşısında torpağa səcdə edən çöhrələri oda salacaqsan? Tovhidin və həmdin üçün sədaqətlə mədh oxuyan dilləri,

İlahiyyətini e`tiraf edən qəlbləri, mə`rifətinin əhatə etdiyi və qarşında təvazökar olan batinləri, pərəstişgahlarına eşqlə tələsən və bağışlamağını axtaran əzaları odda yandıracaqsanmı? Xeyr, Sənin haqqında belə bir güman yoxdur. Fəzl və ehsanın haqqında belə bir xəbər verilməyib, ey Kərim, ey Pərvərdigar!")

## *NAMAZ*

İbadətlər arasında ən əhatəli olan namazdır. Namaz vasitəsi ilə təvazökarlıq və müt`ilik izhar olunur, Allahın birliyi e`tiraf edilir, təşəkkür bildirilir. İnsanın iradəsinə tabe olaraq bütün əzalar Kə`bə evinə peyğəmbər və imamların (ə) hərəminə tələsir. Məhz namaz yolu ilə mə`rifət əhli Allahı, özünü, yaranış hədəflərini tanıyır. Beləcə ilahi məzhərdə təvazö' göstərir, gizlində və aşkarda Allahın birliyi təsdiq olunur, qəlb dili ilə ne`mətlərə şükür edilir, mə`rifət dolu könüllərlə müqəddəs məkanlar ziyarət olunur.

Mə`rifət əhli nə üçün Allaha nikbin olmamalıdır?! Hansı peyğəmbər, hansı kitab iman əhlinin cəzalandırılacağını xəbər verir?! Əksinə bütün mö`təbər mənbələrdə təsdiq olunur ki, iman, saleh əməl, gözəl əxlaq sahibləri büdrəsələr də tövbə etdikləri üçün Cəhənnəm atəşi ilə cəzalandırılmayacaqlar.

İnsanı əzabdan qurtaracaq ibadət olan namazda ixlas üçün Allah dərgahına əl açaq!

Həzrət Peyğəmbər (s) buyurur: "Namaz dinin qanunlarındandır. Allahın razılığı namazdadır. Namaz

peyğəmbərlərin yoludur."[333] "Tə'rifi böyük olan Allah gözümün nurunu, qəlbimin sevincini namazda qərar verib, namazı mənə məhbub edib. Necə ki, təam aclığın, su isə təşnənin məhbubudur. Şübhəsiz ki, ac yedikcə doyur, təşnə su içdikcə sirab olur. Mən isə namazdan doymuram."[334] "Elə ki, namaza durdun, qibləyə üz tutdun, "Fatihə" və müyəssər olan bir surə oxudun, rükuya getdin, səcdələri başa vurdun, təşəhhüd və salam oxudun, səninlə qıldığın namaz arasında olan bütün günahlar növbəti namazadək bağışlanar."[335]

Həzrət Əli (ə) buyurur: "Namaz mərhəmət nazil edər."[336] "Namaz hər bir təqvalını Allaha yaxınlaşdırır."[337] "Sizə namaz və onun hifzini tapşırıram. Çünki namaz əməllərin üstünü və dinin sütunudur."[338] "Namazda olan insanın cismi, libası və bütün ətrafındakılar təsbih deyir."[339] "Ey Kumeyl! Namaz qılmaq, oruc tutmaq, sədəqə vermək əsas deyil. Əsas odur ki, namazı pak qəlb ilə əməli Allahın razılığı üçün və xuşu` ilə yerinə yetirəsən."[340]

## *ALLAHA NIKBINLIK*

Doğrudan da, müəyyən həddə qədər iman, saleh əməl və əxlaqa malik olan şəxs, ömrünün axırınadək

---

333 "Хисал", 2-522.
334 "Мәкаримул-әхлаг", 461.
335 "Әмалије-Сәдуг", 544.
336 "Ғурәрул-һикәм", 175.
337 "Хисал", 2-620.
338 "Әмалије-Туси", 522.
339 "Иләлүш-шәраје", 2-336.
340 "Туһәфул-угул", 174.

kamala doğru hərəkət etmək məqsədində olan mö`min insan Allaha nikbin olmalı, Onun rəhmətinə bel bağlamalıdır. Bəndə Qiyamət əzabından qorxduğu vaxt ümidvar olmalıdır ki, Qiyamət səhnəsində onunla mərhəmətli davranılacaq, onun günahları bağışlanacaqdır.

Həzrət Əli (ə) buyurur: "Nikbinlik odur ki, Allah qarşısında öz sə`ylərini xalis edəsən və büdrəmələrinin bağışlanacağına ümidvar olasan."[341]

İmam Sadiq (ə) buyurur: "Allaha nikbinlik odur ki, yalnız Allaha ümid bağlayıb, yalnız öz günahlarından qorxasan."[342]

İslam Peyğəmbəri (s) nikbinlik haqqında buyurur: "And olsun Ona ki, Ondan başqa mə`bud yoxdur. Mö`min bəndə Allaha ümidsiz olmaz. Çünki Allah Kərimdir və bütün yaxşılıqlar Onun əlindədir. Allah Ona nikbin olan mö`min bəndənin gümanına qarşı çıxmaqdan həya edər. Allaha nikbin olun, Ona doğru şövq göstərin.[343] "Heç biriniz Allaha nikbin olmadan dünyadan getməyin. Çünki Behiştin dəyəri Allaha nikbinlikdir."[344] "Allaha nikbinlik ibadətdir."[345]

**"Və Əntə tə`ləmu zə`fi, ən qəlilin min bəlaid-dünya və uqubatiha, və ma yəcri fiha minəl-məkarihi əla əhliha, əla ənnə zalikə bəlaun və məkruhun qəlilun məksuhu, yəsirun bəqauhu, qəsirun muddətuhu,**

[341] "Ғурərул-һəким", 83.

[342] "Кафи", 2-72.

[343] "Кафи", 2-71.

[344] "Əмалије-Туси", 379.

[345] "Мизанул-һикмə", 7-3400.

fəkəyfəhtimali libəlail axirəti, və cəlili vuquil məkarihi fiha, və huvə bəlaun tətulu muddətuhu və yədumu məqamuhu və la yuxəffəfu ən əhlihi liənnəhu la yəkunu illa ən ğəzəbikə vəntiqamikə və səxətikə və haza ma la təqumu ləhus-səmavatu vəl-ərzu, ya Səyyidi, fəkəyfə li və ənə əbdukəz-zəifuz-zəlilul həqirul miskinul mustəkin."

("Sən dünyanın kiçik qəmləri və cəzaları qarşısındakı zəifliyimizdən, əhlinə ağır gələn işlərdən xəbərdarsan. Belə ki, bu qəm-qüssə və çətinliklər yüngül və ötəridir. Elə isə zamanca uzun, məkanca əbədi olan ağır axirət çətinlikləri qarşısında necə tab gətirəcəyəm?! Həmin çətinlik Sənin qəzəbin, intiqamın və narazılığından doğduğu üçün yüngülləşdirilməz. Bu, göylərin və yerin tab gətirmədiyi bir çətinlikdir. Ey mənim Ağam, zəif, zəlil, həqir, miskin, köməksiz bir bəndə olduğum halda mən necə dözüm?!")

## *DÜNYA VƏ AXIRƏT BƏLALARı*

Həzrət Əli (ə) buyurur ki, dünya bəlası axirət bəlasından bir neçə cəhətdən fərqlənir:

Əvvəla tufan, zəlzələ və digər dünya bəlaları yüngül və ötəri, axirət bəlaları isə ağır və həmişəlikdir.

İkincisi, dünya bəlaları imtahan məqsədi də daşıya bilər. Axirət çətinlikləri isə itaətsizlik və günahlara görə cəzadan başqa bir şey deyil. "Ənfal" surəsinin 46-cı ayəsində oxuyuruq: "Səbir yolunu seçin, şübhəsiz, Allah səbir edənlərlədir." Bəli, Qur`ani-Kərim dünya bəlalarına səbir edənləri böyük mükafatla müjdələyir.[346]

---

[346] "Бәгәрә", 154-156.

Həzrət Peyğəmbər (s) buyurur: "Səbir üçdür: müsibət zamanı səbir, itaətdə səbir və günah məqamında səbir."[347] Lakin axirət bəlası imtahan xarakteri daşımır; o, əməlin cəzası olduğundan, burada səbir etmək təsəvvürolunmazdır və əgər bir kəs onun müqabilində səbir etsə də belə, bu səbrin heç bir savabı və əcri olmayacaqdır!

### *BƏRZƏX VƏ QIYAMƏT ƏZABLARı*

Qur`ani-Kərimdə xüsusi ilə onun son üç cüzvündə Bərzəx və Qiyamət əzabları təsvir olunur. Bu mövzu rəvayətlərdə də geniş şərh olunur. Həzrət Əli (ə) Allah düşmənləri haqqında buyurur: "Allahın düşməninə rəftar və görünüşcə çox çirkin, üfunət qoxuyan bir mələk yaxınlaşar. Mələk deyər: "Səni qaynar su və Cəhənnəmlə müjdələyirəm..."[348]

İmam Baqir (ə) buyurur: "Od əhli əzabın ağırlığından it və canavar kimi ulayar. Onlar üçün ölüm yoxdur, əzab yüngülləşmir, ac və susuzdurlar, gözləri zəifdir,çöhrələri qaradır..."[349]

İmam Sadiq (ə) buyurur ki, bir gün Cəbrail çox narahat halda Həzrət Peyğəmbərə (s) nazil olur. Həzrət (s) bu qəmginliyin səbəbini soruşur. Cəbrail deyir: "Bu gün Allah-Taala od haqqında əmr verdi. Bu od min il yanıb qızarmış, min il yanıb ağarmış, daha min il yanıb qaralmış bir oddur. Bu qaranlıq maddə zülmətə bürünmüşdür. Bu oddakı zəncirdən bir halqası dünyaya düşsə, dünya əriyər. Onun zəqqumundan bir

---

[347] "Кафи", 2-91.

[348] "Тәфсире-Гумми", 1-370.

[349] "Әмалије-Сәдуг", 557.

damlası yer sularına qatılsa, üfunətindən dünya əhli məhv olar..."[350]

Pərvərdigara! Bu ağır əzablar qarşısında mən zəif bəndənin halı necə olacaq?! İbadətim naqis, günahım çox olsa da Sənin, Peyğəmbər və imamlarının, nazil etdiyin kitabının aşiqiyəm. Bəndəlik və ibadətdən qaçası deyiləm, günahkarlığı peşə seçməmişəm. Bütün nöqsanlarımın səbəbi mə`rifətimin azlığı və iradəmin zəifliyidir. Məni günaha sövq edən şey nəfsin qələbəsidir. Kamil və xalis ibadət həvəsindəyəm, günahdan təmizlənmək arzusundayam. Şeytanın, tağutun, nəfsimin əlindən zara gəlmişəm. Vüsal həsrətindəyəm, məni bağışla, mənə əl tut, günahdan xilas et, ibadətə həvəsləndir, Behişt qapılarını üzümə aç!

"Ya İlahi və Rəbbi və Səyyidi və Məvlayə liəyyil umuri iləykə əşku və lima minha əziccu və əbki, liəlimil-əzabi və şiddətihi, əm litulil bəlai və muddətihi, fələin səyyərtəni lil-uqubati məə ə`daikə və cəmətə bəyni və bəynə əhli bəlaikə və fərrəqtə bəyni və bəynə əhibbaikə və əvliyaikə fəhəbni ya İlahi, və Səyyidi, və Məvlayə və Rəbbi, səbərtu əla əzabikə fəkəyfə əsbiru əla firaqikə və həbni səbərtu əla hərri narikə fəkəyfə əsbiru əninnəzəri ila kəramətikə əm kəyfə əskunu finnari və rəcai əfvukə."

("Ey Mə`bud, ey Pərvərdigar, ey Ağa, ey Mövla! Hansı müsibətimə görə dərgahına şikayət edim, hansı çətinliyimə görə nalə çəkim? Əzab və çətinliyinə ya

[350] "Тәфсире-Гуми", 2-81.

bəlaların uzunluğuna görə? Məni düşmənlərinlə birlikdə əzaba düçar etsən, məni əzab əhlinə qoşsan, məni aşiqlərdən ayrı salsan nə edərəm?! Ey Mə`bud, ey Ağa, ey Mövla, ey Pərvərdigar! Tutaq ki, əzabına dözdüm, bəs ayrılığına necə səbir edim? Tutaq ki, yandırıcı atəşin qabağında dayandım, bəs kəramətinə göz yummağa necə tab gətirim? Hər zaman bağışlayacağına ümid etdiyim halda atəş içində necə durum?”)

Gəl dua əlini açıb göylərə
Nalə çəkib rəhmət yağdıraq yerə.
Günaha bulanmış qəlbin şəfası
Nalədir, naləylə mümkün xilası.
Gözlərindən qanlı yaşlar axıtsan,
Dərdinin dəvası olacaq asan.
Quru gözlə döymə hacat qapısın,
Elə ağla, sanki qurulub yasın.
Bilki yanan ürək olası elçi,
Göz yaşıyla axtar şəfi bələdçi.
Vasitə seç o pak olan hüzura,
Çağır Əhli-beyti düşəndə dara.
Əvvəlcə son qoyub günah, riyaya,
İç vəhdət camından, çat o liqaya.

## *DOSTA ŞIKAYƏT*

Aşiqlər mövlası Əmirəl-mö`minin Əli (ə) duanın bu hissəsində bəla və çətinliklərdən dostun dərgahına şikayət edir:

Səndən başqa dərdlərimə kim dəva edə bilər?

Sənsən bütün müşküllərin həlli əlində olan.

Sənsən bir işarə ilə bütün dərdlərə şəfa verən.

Sənsən çətinlikləri, bəlaları aradan qaldıran.

Sənsən Həzrət Zəhranın göz yaşları içində üz tutub bu sözləri dediyi kəs: "Pərvərdigara! Səndən hidayət, təqva, iffət, ehtiyacsızlıq, razılığına uyğun əməl istəyirəm..."[351]

Sənsən tövhid qəhrəmanı Həzrət İbrahimin (ə) Kə`bə evini tikdikdən sonra oğlu İsmail ilə birlikdə bu dua ilə üz tutduğu kəs: "Ey Rəbbimiz! Hər ikimizi Sənə itaətkar, nəslimizdən yetişənləri Sənə təslim olan ümmət et."[352]

Sənsən 950 il əzab-əziyyətdən sonra Nuhun üz tutduğu və bütün düşmənləri böyük tufanda həlak edən kəs.

Sənsən Bədr döyüşündə düşməndən üç qat az olan mö`minləri Peyğəmbərin (s) duası ilə qələbəyə çatdıran.

Bu zülmətdən bir yol tapılsa əgər,
Şəksiz, ətəyinə çatası əllər.
Əlbət yetərsizdir mənim istəyim.
Sənin istəyindir işdə köməyim.
Kəsilməz ümidim bir an da olsun
Ya rəhmətin ensin, ya qəlb ucalsın.
Enən nura cismim qurban olası,
Vüsal həsrətində nəfəs alası.
Nurundan bir soraq yoxdursa hələ
Rüsxət ver ki, bu can önünə gələ.

---

[351] "Биһарул-әнвар", 87-338.

[352] "Бәгәрә 128.

O nur ensə torpaq çıxası təbdən,
Qorxuram gəlişim olmaz ədəbdən.
Layiq deyilsə də bu can liqaya,
Ləyaqətçün razı min bir bəlaya.
Bundan başqa arzu-diləyimiz yox,
Qızıldan-gümüşdən köməyimiz yox.
Həsrətdən uçunub bu can xonçası,
Külək qopsa Sənə qanad açası.

Sənsən bütün peyğəmbərlərə imamlara, mö`minlərə sığınacaq verib nəvaziş göstərən.

Kimdir qapından əliboş qayıdan? Kimdir istəyi yerinə yetirilməyən? Hansı tövbəkarın tövbəsi qəbul olunmayıb?!

## *AH-NALƏ VƏ GÖZ YAŞLARı*

Allahın ən böyük ne`mətlərindən biri göz yaşıdır. Ayə və rəvayətlərdə göz yaşı yüksək dəyərləndirilir.[353]

Həzrət Peyğəmbər (s) buyurur: "Ya Əli, sənə bə`zi xasiyyətləri tövsiyə edirəm...(dördüncüsü) Allah üçün ağlamaq. Hər göz yaşı damlasına görə Behiştdə sənin üçün bina qərar verilər."[354]

"Xoş o çöhrənin halına ki, Allah qorxusundan günahına görə ağladığı vaxt Allah o çöhrəyə nəzər sala."[355]

"Allah qorxusundan ağlayan gözün hər damlasının mükafatı əməl tərəzisində Uhud dağı tək ağırdır."[356]

---

[353] "Маидә", 83

[354] "Биһарул-әнвар", 69-391.

[355] "Чамеүл- әхбар", 97.

[356] "Әмалије-Сәдуг", 431.

“Allah qorxusundan gözündən bir damla yaş gələn kəsi Allah Qiyamət qorxusundan amanda saxlayar.”[357]

Həzrət Əli (ə) buyurur: “...Göz yaşının bir damlası dəryaca odu söndürür. Gözdən yaş gəldiyi zaman çöhrəyə zillət qonmaz, bu yaşlar selləndiyi vaxt bu çöhrəyə atəş haram olar. Əgər bir ümmət içində ağlayan olsa, Allah o ümmətə rəhm edər.”[358]

Axıt göz yaşını vüsal istəsən,
Titrə yarpaq kimi kamal istəsən.
Yaradan göz yaşın etməmiş hədər,
Şəhid qanı ilə tutmuş bərabər.
Xəstə qəlbə ondan başqa çarə yox.
Allah bir bəndəyə qılsa mərhəmət,
Ona göz yaşını edər inayət.

* * *

Ey quru göz, xəbərsizmisən işdən,
Ölülər dirilir gözdəki yaşdan.
Hicran xeyməsində ağlayan kəsin
Eşidərsən bir zaman gülüş səsin.
Su olmasa bağçada bitərmi gül,
Axıt göz yaşını, ikiqat bükül.
Bu yaşlardan göyərəsi daş-divar,
Demə göz yaşından mə`şuqa nə var?
Ağla, yatmış könül oyansın yetər,
Mərhəmət göstərən sevgi nuş edər.

---

357 “Биһарул-әнвар”, 90-336.
358 “Биһарул-әнвар”, 90-331.

Yəhya ibn Məaz deyir: "Yuxuda ağladığını görən kəs oyandıqda şad olar. Dünya həyatı yuxu, axirət həyatı isə oyaqlıq kimidir. Axirətdə şad olmaq üçün ağlayın."

### *AYRıLıQ DƏRDI*

Peyğəmbərlərə imam və övliyalara aşiq olanların fikir-xəyalı onların vüsalına yetişməkdir. Onlar Qiyamətdə öz istəklilərinə qovuşmaq, onları görmək üçün can atırlar. Bə`zən bir qrup insanlar günaha yol verdikləri üçün Qiyamətdə övliyalardan uzaq düşürlər. Bu ayrılıq, bu fəraq fikri həqiqi aşiqlərə iztirab verir. Doğrudan da, dostlardan ayrı düşmək Cəhənnəm əzabından qat-qat ağırdır.

Ayrılıq ağrısını onu çəkənlərdən soruşmaq lazımdır. Fəraq acısını dadmayan kəs bu dərdi anlamaz. Fəraq dərdini ilahi məkandan, mələklərlə yoldaşlıqdan məhrum olmuş Adəm (ə) yaşamış, onun acılığını dadmışdır. Ayrılıq ağrısını ilahi imtahan məqamında var-dövlətini, sağlamlığını itirmiş Əyyub yaşamışdır. Fəraq acısını geniş dünyadan məhrum olub nəhəngin qarnında zindana düşən Yunus dadmışdır. Ayrılıq müsibətini bu yolda gözləri ağarmış Yə`qub yaşamışdır. Ayrılıq acısını mehriban atadan kənar düşən Yusif dadmışdır. Amma mehriban Allah bütün bu dərdlərə dəva qılmış, aşiqləri öz istəyinə yetirmişdir.

Ey fəraq dərdinə dəva qılan! Sənin dostlarından ayrı düşməyimizə razı olma. Tutaq ki, əzaba dözdük, bəs dostların fərağına necə dözəcəyik?

Dərdimizə dərman olaydın, ey kaş,

Yoxsa bərkə düşür iş yavaş-yavaş.
Bu dəvasız dərdin çarəsi Sənsən,
Başqa nə həb varsa, artırası qəm.
Yaxşı ki, eşqindən ucalmış bu od,
Səndən gələn qəmə kim edər imdad.
Yolunda qurbandır bu qəlb, bu ürək,
Bu qəlbə' ürəyə bircə Sən gərək.
Sanki qışa düşüb, gözləyir bahar,
Can üzülür uzandıqca intizar.
Sevindir nurunla qaranlıqları,
Eşqlə doldur canda boş otaqları.
Yoxsa iki dünya batası yasa,
Əlbət, günəş doğar istəyin olsa.

## *KƏRAMƏT MƏQAMı ISTƏYI*

Tutaq ki, əzabına, atəşinə dözdüm, bəs bəndələrə rəva qıldığın kəramətdən gözümü necə çəkim?

İmam Sadiq (ə) buyurur ki, mehriban Allah hər bir bəndəni yaratdığı vaxt axirətdə onun üçün yer müəyyənləşdirmişdir. Behişt əhlinə nida olunar ki, Cəhənnəmə baxın. Onlara Cəhənnəmdəki yerləri göstərilərək deyilər: "Əgər günah etsəydiniz, burada yerləşəcəkdiniz." Behişt əhli Cəhənnəmdən nicat tapdıqları üçün vəcdə gələr, sevinərlər.

Sonra Cəhənnəm əhlinə nida olunar ki, yuxarıya baxsınlar. Onlara Behiştdə boş qalmış yerləri göstərilər və deyilər: "Əgər Allaha itaət etsəydiniz, bu mənzillərə çatardınız." Cəhənnəm əhli üzücü bir iztirab keçirər....

## *BAĞıŞLANMA ÜMIDI*

Ey mənim Mövlam! Qur`anda günahdan peşman olanlara və`d etdiyin əfvə ümid bağladığım halda od içində necə sakinləşim?!

Pərvərdigara! Çox ehtiyaclılar birinin qapısını döydükdə ümidsiz qaytarılmırsa, necə ola bilər ki, Sənə ümid bağlayan bəndə əliboş qaytarıla?

Əttar "İlahinamə" kitabında belə nəql edir:

Məkkədə eyş-işrət məclislərini qızışdıran bir rəqqasə yaşayırdı. Həzrət Peyğəmbərin (s) hicrətindən neçə illər sonra gözəlliyi və səsini itirmiş bu qadın çörəyə möhtac olur. Çarəsiz qalıb Mədinəyə Həzrət Peyğəmbərin (s) hüzuruna gəlir. Həzrət (s) ondan soruşur: "Mədinəyə axirət, yoxsa dünya qazancı üçün gəlmisən?" Qadın deyir: "Nə o, nə də o birinə görə. Sənin səxavətin haqqında eşidib, yanına ümidlə gəlmişəm." Peyğəmbər (s) bu sözlərdən xoşhal olur. Mübarək ridasını qadına bağışlayıb səhabələrinə buyurur: "Hər kəs imkanı daxilində ona hədiyyə versin."

Bəli, günahkar bir qadın Sənin peyğəmbərinə (s) ümid bağlayıb, onun görüşünə gəlir və lazımınca mükafat alır. Necə ola bilər ki, mən bir bu qədər ümidlə Sənin dərgahına üz tutam və əliboş qalam?

Səndən ayrılığa halım yox, inan,
Könlümün səhnəsi Sənindir tamam.
Gec olsun, tez olsun, axır ki, bir gün
Qismətim olası Sənin görüşün.
Eşqinlə çırpınır sinəmdə ürək,
Qan da durub deyir eşq olsun gərək.

İçib ol badədən, düşmüşəm qəmə
Bu dərdin çarəsi bir Sənsən yenə.
Hara baxıramsa "vurul, sev" deyir,
Əlbət ki, sevgi də dözüm istəyir.
O qədər ucasan, Sənə baxanda
Ağıl başdan çıxır bir anda.
Vüsalından özgə bir diləyim yox,
Düşüncədən başqa bir köməyim yox.
Bəlkə də bu sevgi çox-çox yubanmış,
Amma nə yaxşı ki, qəlbimə qonmuş.
Yandırıb-yaxan da, qurub-tikən də
Həmin sevgi imiş, vüsalı Səndə.
Yağdırsan başıma sevgi yağışı
Əlbət qismət olar rəhmət ağuşu.

**"**Fəbiizzətikə, ya Səyyidi və Məvlayə, uqsimu sadiqən**,** ləin tərəktəni natiqən**,** ləəziccənnə iləykə bəynə əhliha zəcicəl**-**amilinə və ləəsruxənnə iləykə suraxəl**-**mustəsrisxinə və ləəbkiyənnə ələykə bukaəl**-**faqidinə və ləunadiyənnəkə əynə kuntə ya vəliyyəl**-**mu\`mininə ya ğayətə amalil**-**arifinə ya ğiyasəl**-**mustəğisinə ya həbibə qulubis**-**sadiqinə ya ilahəl**-**aləminə**"**

("Ey Ağam, ey Mövlam! İzzətinə sədaqətlə dolu and içirəm ki, məni danışmaqda azad buraxsan, Cəhənnəm əhli içindən istəklilər kimi hüzuruna nalə çəkəcəyəm, yardım istəyənlər tək fəryad qoparacaq, əzizlərini itirənlər kimi ağlayacaq və bütün vücudumla Səni çağıracağam: - Ey mö\`minlərin ağası, ey ariflərin son

istəyi, ey fəryad qoparanların dadına çatan, ey sadiq qəlblərin məhbubu, ey aləmlərin mə`budu, haradasan?")

Doğrudan da, əzaba və əzabların ən ağırı olan ayrılığa düçar olmuş şəxs oda büründüyü vaxt hansı halda olar?!

Mə`şuqunu itirən insanın naləsindən də ağır nalə varmı?!

Deyirlər ki, yoldan ötən arif bir ananın öz qızının cənazəsi üstə ağladığını görür və deyir: - "Xoş bu ananın halına ki, necə qiymətli gövhər itirdiyini anlayır!"

Uşaq itirəndə evini ağlar,
Mənsə ev sahibin itirdim aşkar.

Xoş ağır Qiyamət səhnəsində rəhmətə qovuşanların halına! Yaxşı olar ki, ölüm qapını döyməmiş özümüzdən, kimliyimizdən, əməllərimizdən xəbərdar olaq!

### *HARUN VƏ BƏHLUL*

Harun Həcc səfərindən qayıdıb bir neçə gün Kufədə qaldı. Bir gün yoldan ötərkən Bəhlul onu üç dəfə "Harun, Harun, Harun" deyə səslədi. Harun təəccüb etdi ki, onu bu sayaq kim çağıra bilər? Dedilər ki, divanə Bəhluldur. Harun Bəhlulu çağırıb soruşdu: "Məni tanıyırsan?" Bəhlul dedi: "Bəli, sən o kəssən ki, məşriqdə zülm olunduğu vaxt məğribdə də olsan, ölkə başçısı olduğun üçün Qiyamət günü cavab verməli

olacaqsan." Harun ağladı və dedi: "Halımı necə görürsən?" Bəhlul belə cavab verdi: "Qur`ana bax, halını bil." Sonra bu ayəni oxudu: **"Şübhəsiz ki, yaxşılar Behiştə və şübhəsiz ki, pislər Cəhənnəmə göndərilər."**[359] Harun soruşdu ki, bəs çəkdiyimiz zəhmətlər necə olacaq? Bəhlul bu ayəni oxudu: **"Allah yalnız təqvalılardan qəbul edir."**[360] "Bəs Peyğəmbərlə (s) yaxınlığımız necə olsun?"–deyə Harun soruşdu. Bəhlul bu ayəni oxudu: **"Sur üfürüldüyü vaxt bütün qohumluq, yaxınlıq əlaqələri aradan götürülər və heç kim bir-birindən hal-əhval tutmaz."**[361] Harun Həzrət Peyğəmbərin (s) şəfaəti haqqında soruşur. Bəhlul yenə Qur`an ayəsi oxuyur: **"Həmin gün Rəhman olan Allahın icazə verdiyindən savayı digər şəfaət fayda verməz."**[362]

Bəhlula yaxşılıq etmək istəyən Harun soruşur ki, nə istəyin var? Bəhlul deyir: - "Günahlarımı bağışla, məni Behiştə göndər." Harun deyir: "Məndə belə bir güc yoxdur. Amma deyirlər borcun var, bəlkə borcunu ödəyim?" Bəhlul deyir: "Borcu borcla ödəməzlər. Səndə nə varsa, hamısı xalqın malıdır və sən xalqa borclusan. Əvvəl öz borclarını ödə." Harun başqa təklif edir: "Gəl, ömrünün sonunadək sənə maaş tə`yin edim." Bəhlul yenə e`tiraz edir: "Mən Allahın ruzisini yeyirəm. Sən bilən, Allah səni yada salır, məni yox?!"

---

[359] "Инфитар", 13-14.
[360] "Маидə", 27.
[361] "Му`минун", 101.
[362] "Taha", 109.

Xəzinələr fəna, qənaət bəqa,
Biri sultan malı, o biri gəda.

"Əfəturakə subhanəkə ya İlahi və bihəmdikə təsməu fiha səvtə əbdin muslimin sucinə fiha bimuxalifətihi və zaqə tə`mə əzabiha bimə`siyətihi, və hubisə bəynə ətbaqiha bicurmihi və cərirətihi, və huvə yəziccu iləykə zəcicə muəmmilin lirəhmətikə və yunadikə bilisani əhli təvhidikə və yətəvəssəlu iləykə birububiyyətikə"

("Səni beləmi tanıyırlar, ey mənim mə`budum?! Ey daim həmd oxumaqla hər eybdən pak bildiyim mə`bud, Cəhənnəmdə o müsəlman bəndənin səsini eşidirsən ki, Səninlə müxalifliyinə görə zindana düşüb, itaətsizliyinə görə əzabı dadıb, cinayətlərinə görə Cəhənnəm əhli arasında həbs olunub və rəhmətinin arzusunda olan kəs kimi dərgahına nalə çəkir, tovhid əhlinin dili ilə nida edir, Sənin rübubiyyətinə doğru vasitə axtarır.")

Ayə və rəvayətlərdə Cəhənnəm səhnəsinin ağrı-acıları haqqında eşidən bəsirət sahiblərinin bədəni lərzəyə gəlir, qəlblərini qorxu bürüyür. Onlar bu sıxıntıdan qurtulmaq üçün Allaha pənah aparır, ilahi qadağalardan çəkinir, hətta bə`zən həyəcandan dünyalarını da dəyişirlər.

### *SƏLMAN VƏ MÖ`MIN GƏNC*

İmam Sadiq (ə) nəql edir ki, bir gün Kufədə Səlmanın yolu dəmirçilər bazarından düşür. Özündən getmiş bir gəncin başına camaatın toplaşdığını görür. Səlmana deyirlər ki, bir dua oxu, bəlkə ayıldı. Səlman gəncin

başı üstə durub onun ayılmasını gözləyir. Oğlan özünə gəldikdə Səlmanı görüb deyir: "Mənim haqqımda bir söz desələr, düz deyil. Dəmirçilərin çəkic səsini eşidib "Günahkarlar üçün dəmirdən gürzlər var"[363] ayəsini xatırladım və əzab qorxusundan huşumu itirdim."

Səlman dedi: "Sən mənə din qardaşı olmağa dəyərsən." Bu hadisədən sonra Səlman bu oğlanla rəfiq oldu.

Bir gün oğlan xəstələndi. Səlman can verən dostunun başı üstə oturmuş və deyirdi: "Ey ölüm mələyi, qardaşımla müdara et, yaxşı keçin." Cavab gəldi: "Mən bütün mö`minlərlə müdara əhliyəm."[364]

## *HUŞUNU ITIRƏN QADıN*

Tanınmış alim Molla Fəthullah Kaşani "Mənhəc" təfsirində yazır:

Bir gün Həzrət Peyğəmbər (s) məsciddə namaz qılırdı. O, "Həmd"i bitirib "Hicr" surəsini oxumağa başladı. "Şübhəsiz ki, Cəhənnəm onların hamısına və`d olunmuş yerdir; Cəhənnəmin yeddi qapısı var və hər qapısından müəyyən bir dəstə girər" ayələrini oxuduğu vaxt pərdə arxasında Həzrətə (s) iqtida edən bir qadın huşunu itirdi. Qadının üzünə su çiləyib onu ayıltdılar. Qadın dedi: - "Ya Rəsulallah, oxuduğunuz ayələrin qorxusundan huşumu itirdim. Vay mənim halıma, bədənimin əzaları yeddi qapı arasında bölüşdürüləcək!"

---

[363] "Һәчч", 21.

[364] "Әмалије-Муфид", 136.

Həzrət (s) buyurdu: “Elə deyil. Günahkarların hər dəstəsi bir qapıda cəzalandırılacaq.” Qadın dedi: “Ya Rəsulallah! Mənim sərvətim yeddi quldan ibarətdir. Cəhənnəmin hər qapısından azad olmaq üçün bu qulların birini azad edirəm.”

Vəyh mələyi nazil olub dedi: “Ya Peyğəmbər (s), qadına müjdə ver ki, “Allah Cəhənnəm qapılarını sənə haram etdi və üzünə Behişt qapılarını açdı.”

Qüdsi hədisdə deyilir:

“Ey Adəm övladı! Mən bu şö`lələnən alovu yalnız kafirlər, xəsislər, sözgəzdirənlər, valideynlərinin üzünə ağ olanlar, zəkatın qarşısını alanlar, sələm yeyənlər, zinakarlar, haramxorlar, Qur`anı unudanlar, qonşuları incidənlər üçün yaratmışam. Tövbə edib iman gətirənlər, saleh işlər görənlər istisnadır.

Ey bəndələrim! Özünüzə rəhm edin. Çünki bədənlər zəif, səfər uzaq, yük ağır, Sirat dəqiq, atəş şö`lələnmişdir. İsrafil nida edər, Rəbbül-aləmin hesab çəkər.”

## *HATƏM ƏSƏMMIN VƏSIYYƏTI*

Səfərə çıxan bir şəxs Hatəm Əsəmdən vəsiyyət dilədi. Hatəm dedi:

“Əgər yar istəsən, sənə Allah bəsdir.
Əgər yoldaş istəsən, sənə yazan mələklər kifayətdir.
Əgər ibrət istəsən, dünya yetər.
Əgər munis istəsən, Qu`ran sənə bəsdir.
Əgər iş istəsən, ibadət sənə kifayətdir.
Əgər vaiz, nəsihətçi istəsən, ölüm yetər...”

"Ya Məvlayə, fəkəyfə yəbqa fil-əzabi və huvə yərcu ma sələfə min hilmikə əm kəyfə tu`limuhun-naru və huvə yə`mulu fəzləkə və rəhmətəkə əm kəyfə yuhriquhu ləhibuha və Əntə təsməu səvtəhu və təra məkanəhu, əm kəyfə yəştəmilu ələyhi zəfiruha və Əntə tə`ləmu zə`fəhu, əm kəyfə yətəqəlqəlu bəynə ətbaqiha və əntə tə`ləmu sidqəhu, əm kəyfə təzcuruhu zəbaniyətuha və huvə yunadikə ya Rəbbəhu, əm kəyfə yərcu fəzləkə fi itqihi minha fətətrukuhu fiha"

("Ey mənim Mövlam! Ötən müdaralarına ümid edən bəndən əzabda necə qala bilər? O, Sənin ehsan və rəhmətini arzu etdiyi halda od onu əzaba necə sala bilər? Atəş şö`lələri onu necə yandıra bilər ki, fəryadını eşidirsən, yerini görürsən? Odunun hənirtisi onu necə bürüyə bilər ki, zəifliyindən xəbərdarsan? Cəhənnəm təbəqələrində necə ora-bura çəkilə bilər ki, sədaqətindən xəbərdarsan? Əzab mələkləri onu necə qəzəblə qova bilərlər ki, Səni Allahlığınla çağırıb? Necə ola bilər ki, o, Cəhənnəmdən azad edəcəyinə ümidi olduğu halda, Sən onu öz başına buraxasan?!"

### *HAQQıN RƏHMƏTI, LÜTF VƏ, KƏRAMƏTI*

Ayə və rəvayətlərdən mə`lum olur ki, Allah-Taala bütün bəndələrinə mərhəmətli, lütf və kəramət göstərəndir. İnsanların saysız-hesabsız ne`mətlərlə tə`minatı yuxarıdakı müddəaların sübutudur.

Bə`zi insanlar ne`mətə çatdıqdan sonra Allahdan üz döndərir, özləri özlərinə quyu qazırlar. Arzu edən bəndələr heç bir maneə olmadan çalışmaqla misilsiz maddi və mə`nəvi ne`mətlər əldə edə bilərlər. Allahın

rəhmət, lütf və kəramətinin e`cazkarlığı ondadır ki, az əməl müqabilində çox şey əta edir.

### *SÜLEYMAN VƏ KƏNDLI*

Əzəmətli səltənət sahibi olan Həzrət Süleyman (ə) yoldan keçərkən bir kəndli öz-özünə dedi: "Mehriban Allah Davudun oğluna böyük səltənət kəramət edib." Külək bu sözləri Süleymana çatdırdı. Həzrət Süleyman kəndliyə yaxınlaşıb buyurdu: "Gücün çatmayan, məs`uliyyətinə dözə bilmədiyin şeyi arzulama. Əgər Allah bir təsbihini, həmdini qəbul etsə bu sənin üçün Süleymana əta olunmuş dünya ucalığından daha yaxşıdır. Çünki təsbihin savabı baqi, Süleymanın mülkü isə fanidir."[365]

Mərhum Səduq "Səvabul-ə`mal" kitabında belə bir maraqlı rəvayət nəql edir:

İsmail ibn Yəsar deyir ki, İmam Sadiq (ə) buyurdu: "Süstlükdən çəkinin. Çünki Allahınız mehribandır və az əmələ görə çox əta edər. Əgər bir şəxs ona vacib olmadığı halda məhəbbətlə iki rə`kət namaz qılsa və məqsədi yalnız Allahın razılığını qazanmaq olsa, Allah onu Behiştə daxil edər. Allahın razılığı üçün bir dirhəm sədəqə verən şəxs də Behiştə daxil edilər. Bir gün qəlbən oruc tutan və bu işlə Allahın razılığını qazanmaq istəyən şəxs də Behişt sakinidir."[366]

Həzrət Əli (ə) Həzrət Peyğəmbərdən (s) belə bir rəvayət nəql edir: "Allah üçün Adəm övladından daha dəyərlisi yoxdur. Soruşdular ki, mələklər daha dəyərli

---

[365] "Рəбиул-асар".

[366] "Биһарул-əнвар", 93-253.

deyilmi? Həzrət buyurdu: «Mələklər Günəş və Ay kimi ibadətə məcburdurlar.»

Azadlıq və ixtiyar insana verilmiş ne`mətdir. Əgər o, bu ne`mətdən düzgün istifadə edərsə Allahın rəhmət və kəramətindən faydalanar.

## *MÜHÜM BIR HƏDIS*

Həzrət Peyğəmbər (s) buyurur: "Namaz dinin sütunudur və onun on xüsusiyyəti var: çöhrənin zinəti, qəlbin nuru, cismin rahatlığı, qəbirdə ünsiyyət, rəhmət gətirən, asimanın çırağı, Qiyamətdə əməl tərəzisinin ağırlığı, Allahın razılığı, Behiştin dəyəri, Cəhənnəm oduna maneçilik. Hər kəs namaz qılsa dini abad edir, hər kəs namazı tərk etsə dini viran qoyur."

Doğrudan da, böyük bir zəhmət tələb etməyən iki rək'ət namazda bu qədər faydanın olması insanı heyran qoyur!

Həzrət Peyğəmbər (s) buyurur: "Hər hansı namazın vaxtı çatarkən bir mələk nida edər: "Ey camaat! Kürəklərinizdə (günahlar vasitəsilə) yazdığınız odu namazla söndürün!"

## *İMAM SADIQ (Ə) VƏ QORXMUŞ KARVAN*

Həzrət Musa ibn Cəfər (ə) buyurur: "İmam Sadiq (ə) bir karvanla hərəkət etdiyi zaman xəbər gəlir ki, qarşıda quldurlar pusqu qurub. Karvandakılar qorxuya düşüb İmama (ə) deyirlər: "Bizim bir qədər malımız var. Qorxuruq ki, quldurlar qarət edə. Bu mallara yiyə dursanız, bəlkə Sizə görə toxunmadılar." İmam (ə) buyurdu: "Nə bilirsiniz, bəlkə onlar məni gözləyir?" Karvan əhli İmamdan bir tədbir görməsini istədi. İmam

(ə) buyurdu: "Mallarınızı elə bir şəxsə tapşırın ki, dövr etdirib çoxaltsın və bir vaxt sizə artıqlaması ilə qaytarsın!" Soruşdular ki, kimə tapşıraq? İmam (ə) buyurdu ki, aləmlərin Rəbbinə. Dedilər ki, Ona necə tapşıraq? İmam (ə) buyurdu: "Niyyət edin ki, Allah quldurların şərrini sovuşdursa, malınızın üçdə birini sədəqə verəcəksiniz." Karvan əhli razılaşdı. İmam (ə) buyurdu: "Artıq Allahın amanındasınız, yolunuza davam edin."

Karvan hərəkətə başladı. Bir qədər getmişdilər ki, quldurlar yolu kəsdi. Amma quldurbaşı birbaşa İmama (ə) yaxınlaşdı, onun əlindən öpüb dedi: - "Yuxuda Həzrət Peyğəmbəri (s) gördüm, sizin haqqınızda tapşırıq verdi. Sizi mənzil başınadək düşmənlərdən qorumaq istəyirik." İmam (ə) buyurdu: "Sizə ehtiyac yoxdur. Sizin şərrinizi bizdən uzaqlaşdıran başqalarının da şərrindən uzaqlaşdırar."

Karvan sağ-salamat mənzilə çatdı. Karvan əhli malının üçdə birini sədəqə verib sonradan elə bir qazanc əldə etdi ki, heyrətə düşdü. İmam Sadiq (ə) buyurdu: "Allahla müamilənin bərəkətini gördünüz, indi bu işi davam etdirin."[367]

## *İMAM RIZA (Ə)-ıN MƏKTUBU*

Mö`təbər rəvayətçilərdən olan Bəzənti nəql edir ki, İmam Riza (ə) oğlu Həzrət Cavada (ə) Xorasandan Mədinəyə göndərdiyi məktubda yazırdı: - "Oğlum, mənə xəbər çatıb ki, sən evdən çıxanda xidmətçilər səni kiçik (arxa) qapıdan ötürürlər. Onlar xəsis

[367] "Биһарул-әнвар", 93-120.

olduqlarından bir kəsə xeyir verməyini istəmirlər. Mən bir ata və İmam olaraq sənin böyük qapıdan gedib-gəlməyini istəyirəm. Bayıra çıxanda özünlə dinar-dirhəm götür ki, möhtaclara kömək edə biləsən. Əmilərin kömək istədikdə əlli dinardan az vermə. Artıq vermək istəsən azadsan. Əgər bibilərin ağız açsa, iyirmi beş dirhəmdən az vermə. Çox vermək istəsən azadsan. Allahdan səni «məqama» çatdırmağını istəyirəm. Əl tut və Allah tərəfindən kasıblıqdan qorxma!"

Əgər Allahın övliyaları belə böyük mərhəmət sahibidirlərsə, görün Allah necə rəhmət sahibi olmalıdır!? Bəli, məhz Allah-Taalanın sonsuz mərhəmətinə ümid bəsləyərək, Həzrət Əli (ə) belə dua edir: "Xeyr, biz Səni belə tanımırıq!"

**"Həyhatə ma zalikəz-zənnu bikə və ləl-mə`rufu min fəzlikə və la muşbihun lima amətəl bihil muvəhhidinə min birrikə və ihsanikə fəbilyəqini əqtəu ləv la ma həkəmtə bihi min tə`zibi cahidikə və qəzəytə bihi min ixladi muanidikə ləcəəltənnarə kulləha bərdən və sələmən, və ma kanə liəhədin fiha məqərrən və la muqamən, lakinnəkə təqəddəsət əsmaukə əqsəmtə ən təmləəha minəl kafirinə, minəl cinnəti vənnasi əcməinə və ən tuxəllidə fihəl muanidinə, və Əntə cəllə sənaukə qultə mubtədiən, və tətəvvəltə bil-in`ami mutəkərrimən, əfəmən kanə mu`minən kəmən kanə fasiqən la yəstəvun"**

("Əvvəldə dediklərim Sənin bəndələrə nəvazişindən çox-çox uzaqdır, Səni belə zənn etmirik, Sənin fəzlindən

belə münasibət gözlənilmir. Bu, tovhid əhlinə etdiyin ehsan və yaxşılıqlarına uyğun gəlmir. Yəqin bilirəm ki, kafirlərə əzab fərmanın, düşmənlərinə əbədi odda qalmasına hökmün olmasaydı, Cəhənnəm başdan-başa salamatçılıq yeri olar, bir nəfər də orada yerləşməzdi. Amma Sən ki, adların müqəddəsdir və and içmisən ki, Cəhənnəmi kafir cinlər və insanlarla dolduracaqsan, öz uca həmd-sənan ilə bunu da buyurmusan ki, mö`min günahkarla birdirmi? Xeyr, bərabər deyil.”)

## *MEHR-MƏHƏBBƏT AĞUŞU*

Allaha pərəstiş edən övliyalar belə güman etməyiblər ki, Allah onları cəzalandırar. Qur`ani-Kərimdə özünü mehribanların mehribanı adlandıran Allah mö`mini cəzalandırarmı? Qiyamət əzabı Allahla düşmənliyin, həqiqi inkarın acı meyvəsidir. Qiyamət çətinlikləri peşəkar zalımlara və günahkarlara aiddir. Yadda saxlamaq lazımdır ki, bu əzab insan vücudunda istehsal olunur. Bir insan ki, özü üçün əzab hazırlamayıb, Allah ona əzab verməz. Tovhid, iman, həqiqəti inkar etməyən və qüvvəsi həddində əxlaq və əməl üçün çalışan insan nə üçün əzaba düşməlidir?

O, mehribandır və bütün günahkarları tövbəyə də`vət edir. Mərhum ibn Fəhəd Hilli “Uddətud-dai” kitabında belə bir rəvayət nəql edir:

Allah-Taala Fir`onu qorxutmaq üçün Musanı göndərəndə ona buyurdu: “Fir`ona de ki, Mən günahkarlara qəzəbdən daha çox onları bağışlamağa, tövbə və dualarını qəbul etməyə tələsirəm.”

## *İBRAHIMIN GÜNAHA DÖZÜMSÜZLÜYÜ*

"Ən`am" surəsinin 75-ci ayəsində buyurulur: **"Beləcə İbrahimə göylərin və yerin mülkünü göstərdik ki, yəqinliklə inananlardan olsun."**

Alimlər bu ayəni təfsir edərək yazırlar: Allah-Taala İbrahimin gözlərindən hicabları götürdüyü vaxt insanlarda elə əməllər gördü ki, onlara nifrin oxudu. Öz nifrini ilə neçə-neçə insanları məhv etdikdən sonra vəyh olundu ki, nifrinini saxla. Mən, şübhəsiz ki, mehriban və bağışlayanam. Sonra Allah-Taala İbrahimə belə buyurdu: "Mən bəndələrimlə üç cür rəftar edirəm: ya tövbə edirlər və Mən də onların tövbəsini qəbul edir, günahlarını bağışlayır, eyiblərini örtürəm; ya onlardan mö`min övladlar törəyəcəyini bildiyim üçün əzabdan uzaqlaşdırır, övladlar doğulduqdan sonra atalar tövbə etməsələr, onları cəzalandırıram; bu iki münasibət görünmədikdə onları axirətdə hazırladığım cəzaya düçar edirəm.

Ey İbrahim! Bəndələrimi Mənim ixtiyarıma qoy. Mənəm səbirli, bilən, hikmət sahibi, cəbbar və öz biliyimlə onlar üçün tədbir tökür, qəzavü-qədərimi yerinə yetirirəm."[368]

## *TƏƏCCÜBLÜ HƏQIQƏT*

Böyük alim Feyz Kaşaninin "Elmül-yəqin" kitabında belə nəql olunur:

«Qiyamətdə, pis əməlləri yaxşı əməllərini üstələyən bəndə Cəhənnəmə aparılarkən Allah-Taala Cəbrailə xitab edər: "Bəndəmdən öyrən, gör dünyada alimlərlə

[368] "Тәфсире-бурһан".

əyləşibsə onların şəfaəti ilə onu bağışlayım." Günahkar bəndə deyər ki, yox. Allah xitab edər ki, alimlə bir süfrədə oturubmu? Yenə də cavab "yox" olar. Yenə sual olunar ki, alim oturan yerdə oturubmu? Bəndə deyər ki, yox. Bir daha xitab edilər: "Alimlə dost olan şəxslə dostluğu olubmu?" Bəndə bu dəfə müsbət cavab verər. Xitab olunar: Ey Cəbrail! Onu lütfümlə bağışladım. Ona nəvaziş göstər və Behiştə apar.»

### *DAVUD DÖVRÜNDƏ BIR GƏNCƏ MƏRHƏMƏT*

Şeyx Səduq belə rəvayət edir:

«Həzrət Davudun məclisində bir gənc iştirak edirdi. Çox zəif və arıq olan bu gənc dinib-danışmırdı. Ölüm mələyi Davudun hüzuruna gəlib dedi: "Yeddi gündən sonra onun ruhunu bədənindən çıxarmalıyam." Davudun gəncə ürəyi yandı. Dedi: "Evlisənmi?" Gənc cavab verdi ki, xeyr.

Davud oğlana xeyli pul verib dedi: "Get filankəsin yanına. Mənim adımdan de ki, qızını sənə ərə versin. Elə bu gecə özünə toy et. Yeddi gündən sonra yanıma gələrsən."

Oğlan getdi və yeddi gündən sonra Həzrət Davudun yanına gəldi. Davud onun halını soruşdu. Oğlan razılığını bildirdi. Davud nə qədər gözlədisə də ölüm mələyindən bir xəbər çıxmadı. Oğlana dedi ki, get, yeddi gün sonra gələrsən. Yeddi gün sonra bu hadisə bir daha təkrarlandı. Nəhayət, ölüm mələyi Davudun hüzuruna gəldi və Davud ondan bu yubanmanın

səbəbini soruşdu. Ölüm mələyi dedi: "Allah sənin rəhminə görə ona rəhm etdi və otuz il möhlət verdi."[369]

## *ƏSIRIN AZAD OLUNMASıNA SƏBƏB OLAN BEŞ XÜSUSIYYƏT*

Mühüm bir hədisdə İmam Sadiqdən (ə) belə bir rəvayət nəql olunur:

«Həzrət Peyğəmbərin (s) hüzuruna bir qrup əsir gətirdilər. Həzrət (s) qətlə yetiriləsi əsirlərdən birini ayırıb saxladı. Həmin əsir təəccüb içində ərz etdi: "Məni azad etməyinizin səbəbi nədir?" Həzrət Peyğəmbər (s) buyurdu: "Cəbrail mənə xəbər verdi ki, səndə Allahın sevdiyi beş xüsusiyyət var: Məhrəmlərinə münasibətdə qeyrət, səxavət, xoş əxlaq, düz danışıq və şücaət."

Bu sözlərdən sonra əsir İslamı qəbul etdi və kafirlərə qarşı döyüşlərin birində şəhadətə çatdı.»[370]

## *MÜVƏHHID QUL*

İmam Sadiq (ə) xətaya yol vermiş bir qula qamçı vurulmasını əmr etdi. Qul dedi: "Ey Peyğəmbər (s) övladı, səndən başqa şəfaətçisi olmayan bir kəsəmi qamçı vurursan?" İmam Sadiq (ə) göstəriş verdi ki, qulu azad edin. Qul dedi: "Məni sən yox, həmin sözü nitqimə gətirən azad etdi." İmam (ə) buyurdu: "And olsun Kə`bənin Allahına, bu qul tovhid əhlidir".

Bəli, Allah-Taala tövhid əhli ilə mərhəmətli rəftar edir.

---

[369] "Биһарул-әнвар", 4-111.

[370] "Вәсаилуш-шиә", 20-155.

## *YUSIFIN GÜNAHSıZLıĞıNıN ŞAHIDI*

Təfsirlərdə nəql olunur ki, Yusif padşahlıq taxtına çıxdıqdan sonra xalqın vəziyyətinin yaxşılaşması, insanların tərbiyəsi, ədalətə məhəbbətin yaradılması barədə düşünməyə başladı. Cəbrail nazil olub bildirdi ki, sənə vəzir lazımdır. Dedi ki, sabah sübh taxtından durub hərəkət et və qarşına çıxan ilk insanı vəzir məqamına oturt.

Səhəri gün Yusif arıq, çöhrəsi solğun bir şəxslə rastlaşdı. Düşündü ki, bu şəxs vəzirlik yükünə tab gətirə bilməz. Bu şəxsin yanından ötüb keçmək istədiyi vaxt Cəbrail nazil olub dedi: "Onu seç, çünki sənin boynunda onun haqqı vardır. O, sənin günahsızlığına şəhadət verən şəxsdir..."

Əgər bir dəfə Yusifin günahsızlığına şəhadət verən şəxs bu məqama qaldırılırsa, bir ömür Allahın birliyinə şahid durmuş bəndə ilə pis rəftar oluna bilərmi?! Bəli, kimsədə Allahın rəhmətini dərk etməyə qüvvə yoxdur!

"İlahi və Səyyidi, fəəs`əlukə bil-qudrətil-ləti qəddərtəha və bil-qəziyyətil-ləti hətəmtəha və həkəmtəha, və ğələbtə mən ələyhi əcrəytəha ən təhəbə li fi hazihil-læyləti, və fi hazihis-saəti, kullə curmin əcrəmtuhu, və kullə zənbin əznəbtuhu, və kullə qəbihin əsrərtuhu, və kullə cəhlin əmiltuhu, kətəmtuhu əv ə`ləntuhu əxfəytuhu əv əzhərtuhu"

("Ey Mə`budum, ey Ağam! Səni təqdir etdiyin qüdrətə verdiyin fərmana, çıxardığın o hökmə and verirəm ki, icra edildiyi kəsə qalib oldu və Səndən

batdığım günahları bu gecə bu saat bağışlamağını, yol verdiyim xətalardan, gizlində gördüyüm çirkin işlərdən, gizli və aşkar nadanlıqlarımdan keçməyini istəyirəm.”)

Duanın əvvəlində günahlar və onların tə`sirləri müfəssəl şəkildə bəyan olundu. Duanın bu hissəsində bir daha gizli və aşkar günahlar yad edilir.

Bəli, cümə axşamıdır, dua, sızıltı, peşmanlıq, tövbə axşamı!

Sarınmışam eşq ipinə
Gəlmişəm ümid qapına.
Günah da çox, çəkir geri,
Boğur xəcalətin təri.
Ağartmışam günah yolu,
İş də söz də xəta dolu.
Düz bir ömür yardan uzaq
İllər yanıb varaq-varaq.
Açılsa rəhmət qucağı
Yanasıdı eşq ocağı.
Amma bu eşqə var hələ
Nə vaxt könül gələr dilə?
Açılsa qara pərdələr
Dörd bir yanda nələr, nələr!
Kəsib yolu yağı düşmən,
Gendə qalıb çiçək, çəmən.
Düşmən edə hər nə acıq,
Nəzər salsan, yollar açıq!

“Və kullə səyyiətin əmərtə biisbatihəl-kiraməl-katibin, əlləzinə vəkkəltəhum bihifzi ma yəkunu minni, vəcəəltəhum şuhudən ələyyə məə cəvarihi, və kuntə Əntər-rəqibə ələyyə min vəraihim vəşşahidə lima xəfiyə ənhum, və birəhmətikə əxfəytəhu və bifəzlikə sətərtəhu və ən tuvəffirə həzzi min kulli xəyrin ənzəltəhu, əv ihsanin fəzzəltəhu, əv birrin nəşərtəhu, əv rizqin bəsəttəhu, əv zənbin təğfiruhu, əv xətəin təsturuhu”

(“Hər çirkin işi qeyd etməyi kərim yazanlara əmr etdin, məndən baş verənlərin qeyd edilməsini onlara tapşırdın, onları da əzalarımla birlikdə mənə şahid qərar verdin, Özün onlardan daha artıq müraqib oldun, onlardan gizli qalana şahid oldun, rəhmətinlə məxfi saxladın, fəzilətinlə örtdün. Səndən nazil etdiyin hər bir xeyirlə ehsanla, yağdırdığın ruzilərlə bağışladığın günahlar və örtdüyün xətalarla nəsibimi kamilləşdirməyini istəyirəm.”)

### *YAZAN MƏLƏKLƏR VƏ BƏDƏN ƏZALARı*

Əməllərin mələklər tərəfindən yazılması və bədən üzvlərinin bu günahlara şahidliyi Qur`ani-Kərim ayələri ilə təsdiq olunmuş həqiqətdir:

**“Sizin üstünüzdə gözətçi mələklər - yazan və hörmətli olan mələklər vardır.Onlar sizin nə etdiklərinizi bilirlər.”**[371]

---

[371] “Инфитар”, 10-12.

**“Nəhayət, onlar Cəhənnəmə gəldikdə qulaqları, gözləri və dəriləri etdikləri əməllər barəsində onların əleyhinə şəhadət verəcəkdir.”**[372]

**“Qiyamət günü dilləri, əlləri və ayaqları etdikləri əməllər barəsində onların əleyhinə şəhadət verəcəklər.”**[373]

**“Bu gün onların ağızlarını möhürləyirik. Etdikləri əməllər barəsində onların əlləri bizimlə danışar, ayaqları isə şəhadət verər.”**[374]

**“Dediyin hər sözü onun yanında durub gözləyən vardır.”**[375]

**“Məhz o gün yer öz hekayətini söyləyəcək.”**[376]

**“...Allah, Onun peyğəmbəri və mö`minlər əməllərinizi görəcəklər. Siz qeybi və aşkarı bilən Allahın hüzuruna qaytarılacaqsınız, O da sizə nə etdiklərinizi xəbər verəcəkdir.”**[377]

Əlbəttə ki, bütün bu deyilənlər kafirlərə və peşəkar günahkarlara aiddir. Çünki günahlardan tövbə edib iman gətirənlər rəhmət əhlidirlər və onların keçmiş günahlarını şahidlər xatırlamaz.

Həzrət Əli (ə) buyurur: “Tövbə edib, tövbəsi qəbul olunan kəsin əzalarına günahlarını örtmək əmr olunar. Torpağa buyurular ki, onun günahlarını gizləsin. Yazan mələklərin isə yazdıqları yadlarından çıxarılar.”[378]

---

[372] “Фуссилəт”, 20.
[373] “Нур”, 24.
[374] “Јасин”, 65.
[375] “Гаф”, 18.
[376] “Зилзал”, 4.
[377] “Төвбə”, 105.
[378] “Сəвабул-ə`мал”, 179.

İmam Sadiq (ə) buyurur: "Allah xalis tövbə edən bəndəsinə məhəbbət göstərər, günahlarını dünya və axirətdə örtər. Mələklər yazdıqları günahları unudar və Qiyamətdə Allahla görüşdükləri vaxt heç bir günaha şahid dura bilməzlər."[379]

"Ya Rəbbi, ya Rəbbi, ya Rəbbi. Ya İlahi və Səyyidi və Məvlayə və malikə riqqi, ya mən biyədihi nasiyəti, ya əlimən bizurri və məskənəti, ya xəbirən bifəqri və faqəti, ya Rəbbi, ya Rəbbi, ya Rəbbi! Əs`əlukə bihəqqikə və qudsikə və ə`zəmi sifatikə və əsmaikə ən təc`ələ əvqati minəl-ləyli vən-nəhari bizikrikə mə`murətən, və bi xidmətikə məvsulətən, və ə`mali indəkə məqbulətən, hətta təkunə ə`mali və əvradi kulluha virdən vahidən, və hali fi xidmətikə sərmədən, ya Səyyidi, ya mən ələyhi muəvvəli, ya mən iləyhi şəkəvtu əhvali, ya Rəbbi, ya Rəbbi, ya Rəbbi"

("Ya Rəbb, ya Rəbb, ya Rəbb. Ey Mə`budum, ey Ağam, ey Mövlam, ey ixtiyar sahibim, ey taleyim əlində olan, ey çarəsizliyimdən xəbərdar, ey yoxsulluğumdan agah olan! Ya Rəbb, ya Rəbb, ya Rəbb. Səni öz həqiqətinə pak və müqəddəs zatına, ən üstün sifət və adlarına and verərək istəyirəm ki, səni yad etməklə vaxtlarımı abad edəsən, Öz xidmətinə müvəffəq edəsən, işlərim hüzurunda qəbul olunsun, bütün əməllərim və dilimə gələn sözlərim bir zikr olsun, və daim Sənə xidmət halında olum. Ey Ağam, ey

[379] "Биһарул-әнвар", 6-28.

mənim e`timadım! Ey halımdan Ona şikayətləndiyim kəs! Ya Rəbb, ya Rəbb, ya Rəbb.")

## *İSMI-Ə`ZƏM*

Hikmət sahibləri və ariflər belə hesab edirlər ki, "Rəbb" mübarək kəlməsi "tərbiyə edən" mə`nasını daşıyır və İslamda ən yüksək məqama malik "İsmi-ə`zəm" kəlmələrindəndir. Bu sözə bağlanan insan Allahın rəhmətinə yol tapır, yolundan maneələr götürülür, günahları bağışlanır. Bütün peyğəmbər və imamların Allaha bu kəlmə ilə müraciət etməsi onun İsmi-ə`zəm, yə`ni Allahın böyük adı olmasına inam yaradır.

Adəm və Həvva (ə) tövbə etdikləri vaxt belə dedilər: **"Ey Rəbbimiz, biz özümüzə zülm etdik. Əgər bizi bağışlamasan və mərhəmət etməsən, şübhəsiz ki, ziyana uğrayanlardan olarıq."**[380]

Həzrət İbrahim (ə) belə dua etdi: **"Ey Rəbbim, mənə hökumət əta et və məni salehlərə qovuşdur."**[381]

Həzrət Nuh doqquz yüz əlli il əzab-əziyyətdən sonra belə ərz etdi: **"Ey Rəbbim! Yer üzündə bir nəfər də kafir qoyma."**[382]

Həzrət Musa (ə) Allaha belə müraciət etdi: **"Ey Rəbbim, Sənin nazil edəcəyin hər hansı bir xeyirə möhtacam."**[383]

---

[380] "Ə`raф", 23.
[381] "Шүəра", 83.
[382] "Нуh", 26.
[383] "Гəсəс", 24.

Həzrət Süleyman (ə) belə ərz etdi: **"Ey Rəbbim, məni bağışla və mənə elə bir səltənət ver ki, kimsə ona nail ola bilməsin."**[384]

Həzrət Zəkəriyya (ə) övlad istədiyi vaxt belə ərz etdi: **"Ey Rəbbim, məni tək qoyma. Sən varislərin ən yaxşısısan."**[385]

Həzrət Yusif (ə) Allah dərgahına üz tutub belə dedi: **"Ey Rəbbim, Sən səltənətindən mənə pay verdin..."**[386]

Həzrət Əyyub (ə) bəlalar zamanı belə ərz etdi: **"Ey Rəbbim, mənə bəla üz verdi. Sən rəhimlilərin rəhimlisisən."**[387]

İslam Peyğəmbəri (s) isə belə ərz etdi: **"Ey Rəbbim, bağışla və rəhm et. Sən rəhm edənlərin ən yaxşısısan."**[388]

Salehlər və mö`minlər kainatın yaradılışı haqqında düşündükləri vaxt belə ərz etdilər: **"Ey Rəbbimiz, Sən bunları boş yerə yaratmamısan! Sən pak və müqəddəssən! Bizi Cəhənnəm odunun əzabından qoru."**[389]

Hətta son dərəcə təkəbbürlü olan İblis Allaha bu adla müraciət etdi: **"Ya Rəbb, mənə Qiyamətə qədər möhlət ver."**[390]

Həzrət Peyğəmbər (s) buyurur ki, hər kəs yeddi dəfə "ya Rəbbi" desə duası qəbul olar. Başqa bir rəvayətdə

---

[384] "Сад", 35.
[385] "Әнбија", 89.
[386] "Јусиф", 101.
[387] "Әнбија", 83.
[388] "Му`минун", 118.
[389] "Али-Имран", 191.
[390] "Ә`раф", 14.

nəql olunur ki, mö`min bəndə bir dəfə "ya Rəbbi" deyərək Allahı çağırsa, Allah-Taala "ləbbəyk" buyurar. İkinci, üçüncü dəfə bu adla çağırdıqda nida olunar ki, "istə əta edim."[391]

## *MƏQBUL ƏMƏLLƏR*

Peyğəmbərlərin, imamların, həqiqi övliyaların dualarından biri əməllərin qəbulu və mərhəmətli rəftara nail olmaq arzusu ilə bağlıdır. Bu ilahi şəxsiyyətlər anlamışlar ki, iman və ixlaslı əməl olmadan Allahın rəhmət və mükafatına çatmaq mümkün deyildir. Ona görə də əməlin salehliyinə xüsusi diqqət göstərilmiş və bu əməllərin qəbulu üçün dua edilmişdir.

Ayə və rəvayətlərdən mə`lum olur ki, hər hansı bir əməlin qəbul olunması üçün iman və ixlas əsas şərtlərdəndir. Bilməliyik ki, mö`minin əməli qəbul edilir və günahları bağışlanır. Kafirin nə böyük əməli qəbul olunur, nə də kiçik günahı bağışlanır.

Həzrət Əli (ə) buyurur:

"Allah yanında böyüklük sözün yox, əməlin yaxşılığı ilə müəyyən olunur."[392]

"Əməl mö`minin şüarıdır."[393]

"Əməlinizi davam etdirin, davam etdirin əməlinizi. Çünki Allah mö`minin əməli üçün ölümdən başqa son qərar verməyib."[394]

---

[391] "Мустәдрәкул-вәсаил", 5-220.

[392] «Ғурәрул-һикәм», 153.

[393] «Ғурәрул-һикәм», 151.

[394] "Мустәдрәкул-вәсаил", 1-130.

"Əməllərin ən üstünü iman paklığı, təqva və yəqindir."[395]

İmam Sadiq (ə) buyurmuşdur: "Allah insanları dünyada atalarının adı ilə çağırıb ki, bir-birilərini tanısınlar. Axirətdə isə əməlləri ilə çağırar ki, mükafat və cəza versin."[396]

Allahın Rəsulu (s) buyurdu: "Əməllərin ən üstünü Allaha iman və onun təsdiqi, Allah yolunda cihad və qəbul olmuş Həccdir. Fəqiri doyurmaq və xoş əxlaq nisbətən yüngüldür. Ondan da yüngül Allahı Onun verdiyi hökmə görə ittiham etməməkdir."[397] "Üç əməl əməllərin ağasıdır: hamı ilə insaflı olmaq, din qardaşına kömək, hər zaman Allahı xatırlamaq."[398]

Həzrət Əli (ə) buyurur:

"Xoşbəxt o şəxsdir ki, elmi və əməli, dostluğu və düşmənliyi, əxz və tərk etməsi, danışığı və sükutu Allahın razılığı üçün olsun."[399]

"Şübhəsiz ki, yalnız ixlaslı əməllərin qəbul olunacaqdır."[400]

Həzrət Peyğəmbər (s) Əbuzərə vəsiyyətində buyurur: "Əməlin təqvalı olmasına əməlin özündən çox diqqət et. Çünki təqvalı əməl az olmaz. Axı qəbul olunmuş necə kiçik olar? Allah-Taala buyurur: "Allah yalnız təqvalılardan qəbul edər."[401]

---

[395] Ғурәрул-һикәм", 155.

[396] "Биһарул-әнвар", 78- 208.

[397] "Кәнзул-әммал", 43 639.

[398] Мишкатул-әнвар", 55.

[399] "Туһәфул-угул", 91.

[400] Ғурәрул-һәкәм", 155.

[401] "Биһарул-әнвар", 74-88.

İmam Sadiq (ə) buyurur:

“Bir namazı və ya bir yaxşı əməli Allah-Taala tərəfindən qəbul olunan şəxs əzaba düçar olmayacaqdır.”[402]

“Bir yaxşı əməli qəbul olunan şəxs əzab görməyəcək və Behiştə daxil olacaqdır.”[403]

Pərvərdigara! Bizi əmələ münasibətdə süstlükdən hifz et, ibadət və çalışqanlıqda həvəs ver, qəlbimizi oyandır!

Ey qəflət içində xəbərsiz qalan,
Bilirsənmi eşqlə dirilir insan?!
Götürsən gözündən qara pərdəni
Hər yanda görərsən Ona səcdəni.
Bül-bül nalə çəkər yar sorağında,
Əlbət, qızılgül də eşq marağında.
Lal olsun o dil ki, bir yaz gecəsi
Cilvələr önündə kəsilib səsi.
Bu eşqin əmriylə dolanmaqda yer,
Üzən dağlar, düzlər oxumaqda şe`r.
Bir sənsən lal olub, kor kimi duran,
“Allah” söylə ola dərdinə dərman.
Yetməzmi oturdum damaqla, dişlə
Yetməzmi başını qatdın min işlə.
Bəlkə qəlbinə də salasan nəzər,
İnan ki, bir oldur ruhunu bəzər.
İnsansan, dünyaya gəlişin ayrı,
Yaxşı baxsan yetər canının seyri.
Səndə olan fikir bir kimsənin yox,

[402] “Кафи”, 3-266.
[403] “Мәчмуеје-Вәррам”, 2-86.

Qəlbində mərhəmət, gözündə yaş çox.
Bu sərvət, bu məqam kimdə var axı,
Oxu, insan adlı kitabı oxu.
Səndən aşağılar səcdədə ikən,
Sərxoş kimi haqdan kənar gəzirsən.
Gəl tök ətəyindən tərsliyin daşın,
İman, təqva, sevgi olsun yoldaşın.

**"**Qəvvi əla xidmətikə cəvarihi**,** vəşdud ələl-əziməti cəvanihi**,** vəhəb liyəl-ciddə fi xəşyətikə vəd-dəvamə fil-ittisali bixidmətikə hətta əsrəhə iləykə fi məyadinis-sadiqinə və usriə iləykə fil-barizinə və əştaqə ilə qurbikə fil-muştaqinə və ədnu və minkə dunuvvəl-muxlisinə və əxafəkə məxafətəl-muqininə və əctəmiə fi civarikə məəl-mu`mininə**."**

("Pərvərdigara! Sənə xidmət üçün əzalarıma qüvvə ver, qəlbimi bəndəlik üçün möhkəmləndir, mənə əzəmətin qarşısında qorxu üçün ciddilik əta et, xidmətinə çatmaqda daimi müvəffəqiyyət üçün məni dözümlü et ki, müsabiqə meydanlarında Sənə doğru tələsim, cıdıra çıxanlar arasında Sənə doğru hərəkət edim, müştaqlar içində Sənə doğru şövqlə gəlim, pak və ixlaslılar kimi Sənə yaxınlaşım, Səndən yəqin əhli tək qorxum, Sənin yanında mö`minlərlə bir cərgədə durum.")

## *QÜVVƏ ISTƏYI*

Əmirəl-mö`minin Əli (ə) duanın bu hissəsində bütün rəhmət qapılarını açıq görür. Duanın qəbul olması üçün

bütün şərtlərin ödəndiyini düşündüyündən insanın kamala çatması ilə əlaqədar mə`nəvi ne`mətlər istəyir.

Həzrət Əli (ə) Allah-Taaladan mə`şuqa xidmət məqsədilə əzalarına güc, qüvvə diləyir. Mö`minlərə xidmət Allaha xidmətdir. Bütün bu xidmətlər üçün isə əlbəttə ki, qüvvəyə ehtiyac vardır.

Əgər Allah-Taala öz bəndəsinə zəruri olan mə`nəvi, ruhani qüvvəni verərsə ibadət və xalqa xidmətdən şirin ləzzət tapılmaz.

## *XÜSUSI NE`MƏTLƏRƏ ÇATMA YOLU*

Allah-Taalanın xüsusi ne`mətlərinə çatmaq üçün doğru yol yolçusu müəyyən şərtlərə əməl etməlidir:

1. Lazımi iman və təqvaya malik olmayan və bunun üçün çalışmayan adamlara yaxın olmaqdan çəkinmək, övliyalar və hal əhlinə yaxınlaşmaq;

2. Nəinki haram tikədən, hətta şübhəli yeməklərdən, sahibinin qazanc mənbəyi mə`lum olmayan süfrələrdən uzaq olmaq;

3. Mə`nəviyyatı əxlaq çirkinlikləri, nəfs azğınlıqları, ifrat şəhvətdən təmizləmək və qəlbdə yalnız ilahi xatirələrə yer vermək;

4. Qarınquluqdan çəkinmək; 5. Ruha zərərli, süstlük yaradan çox yatmaqdan və ifrat istirahətdən çəkinmək.

## *ÜNSIYYƏT*

Həzrət Peyğəmbər (s) buyurur: "Ən qorxulu təhlükə pis yoldaşdır."[404]

---

[404] "Биһарул-әнвар", 71-666.

Həzrət Əli (ə) buyurur:

"Pis adamla oturub-durmaqdan çəkin. Çünkü o öz yoldaşını həlak edər, maddi və mə`nəvi cəhətdən süquta uğradar."[405]

"Hikmət sahibləri ilə əyləş, elmli insanlarla yoldaşlıq et, dünyadan üz döndər, Cənnətdə məskən seç."[406]

İmam Cavad (ə) buyurur:

"Şər adamla yoldaşlıqdan çəkin. Çünki o, siyrilmiş qılınc kimidir. Görünüşü gözəl, nəticəsi çirkindir."[407]

İmam Sadiq (ə) buyurur:

"Üç qisim insanla dostluqdan çəkin: xəyanətkar, zalım və sözgəzdirən. Çünki bu gün sənə xeyir vermək üçün başqasına xəyanət edən kəs, sabah sənə xəyanət edəcəkdir. Sənə görə başqasına zülm edən, tezliklə sənə zülm edəcəkdir. Başqalarından sənə söz gətirən adam sənin də sözünü başqalarına aparacaqdır."[408]

## *HARAM TIKƏ*

Həzrət Peyğəmbər (s) buyurur:

Bir tikə haram yeyə'nin qırx gecə namazı qəbul olmaz."[409]

"Haramdan qidalanmış vücuda Allah Behişti haram edib."[410]

---

[405] Ғурəрул-һикəм", 431.

[406] Ғурəрул-һиəм", 430.

[407] "Биһарул-əнвар", 71-198.

[408] "Туһəфул-угул", 316.

[409] "Мизанул-һикмəт", 3-1124.

[410] "Мəчмуеје-Вəррам", 1-61.

“Bəndənin qarnına bir haram tikə düşən vaxt göylərdəki və yerdəki bütün mələklər ona lə`nət oxuyar.”[411]

İmam Baqir (ə) buyurur:

“İnsanın haram mal əldə etdiyi vaxt onun Həcci, Ümrəsi, sileyi-rəhimi qəbul olmaz.”[412]

## *ƏXLAQI ÇIRKINLIKLƏR*

İmam Səccad (ə) “Səhifə”nin səkkizinci duasında əxlaqi çirkinlikləri bəyan edərək, bu çirkinliklərdən Allaha pənah aparır:

“Hərisliyin tüğyanı, tünd qəzəb, həsədin qələbəsi, səbirdə süstlük, yetərsiz qənaət, pis əxlaq, şəhvətdə ifrat, əsəbdə tərslik, nəfs həvəslərinə tabeçilik, hidayətlə müxaliflik, qəflət yuxusu, həddi aşan sə`y, batilə üstünlük vermək, günahın davamı, günahı kiçik saymaq, ibadətini böyük hesab etmək, varlılara meyl, kasıbları təhqir, fəqirlərin haqqına diqqətsizlik, yaxşılıqlara nankorluq, zalıma kömək, məzluma kömək etməmək...”

Həzrət Peyğəmbərə (s) dedilər: “ Bir qadın gündüzlər oruc tutur, gecələr ibadət edir. Amma əxlaqı pisdir, qonşuları incidir.” Həzrət (s) buyurur: “Xeyri yoxdur. O, od əhlidir.”[413]

İmam Sadiq (ə) buyurur: “Sirkə balı xarab etdiyi kimi, pis xasiyyət də əməli puça çıxarır.”[414]

---

[411] “Биһарул-әнвар”, 100-12.

[412] “Әмалије-Туси”, 680.

[413] “Биһарул-әнвар”, 68-394.

[414] “Кафи”, 2-321.

## *QARıNQULULUQ*

Həzrət Əli (ə) buyurur:

"Çox yeyən adam xəstəliyə düçar olar və qəlbi daşlaşar."[415]

"Qarınqulunun sağlamlığı az, xərci çox olar."[416]

"Qarınqululuq böyük meyldir. Böyük meyl isə ən böyük eyblərdəndir."[417]

İmam Sadiq (ə) buyurur:

"Mö`minin qəlbi üçün çox yeməkdən zərərli şey yoxdur. Çox yemək iki xasiyyətə səbəb olar: - daşürəklilik və şəhvətin tüğyanı."[418]

## *ÇOX YATMAQ*

İmam Baqir (ə) nəql edir ki, Həzrət Musa (ə) Allaha belə ərz etdi: "Hansı bəndəni daha çox düşmən tutursan?" Allah-Taala buyurdu: "Gecəni murdar (leş) kimi yataqda qalıb, gündüzü bekarçılıqla keçirən."[419]

İslam Peyğəmbəri (s) buyurur: "Həzrət Süleymanın (ə) anası ona deyirdi ki, gecələr çox yatmaq insanı Qiyamət günü əliboş qoyar."[420]

Həzrət Əli (ə) buyurur: "Yuxu pis düşməndir. Qısa ömrü bada verər, çox mükafatları puça çıxarar."[421]

Ya Rəbbi, könlümə eşq ilə can ver,

---

[415] "Биһарул-әнвар", 63- 338.

[416] Ғурәрул-һикәм", 360.

[417] Ғурәрул-һикәм", 361.

[418] "Мүстәдрәкәл-вәсаил", 16-211.

[419] "Мизанул-һикмәт", 13-6550.

[420] "Хисал", 1-28.

[421] Ғурәрул-һикәм", 159.

Ağıl bir ox, könülsə quş, kaman ver.
Eşq olmasa müqəvvadır bu bədən,
Sevən cana göylər olası həmdəm.
O qüdsi hüzura qaldır qəlbimi,
Eşq nəsimi titrətsin yarpaq kimi.
Qurtulum bu cismin dörd divarından,
Mə`şuq özü razı qalsın yarından.
Qurtar düşmən buxovundakı yarı,
Yoxsa od tutub yanası məzarı.
İçir eşq şərbətin üqbanı görsün,
Hicran atın uca yerlərə sürsün.
Demə yetər, hələ canda çox iş var.
Dar gəlir əynimə dünya libası,
Gözləyirəm fələkdən eşq əbası.
Dünya sevən könlü tutası deyil,
Ha bəzənə qəlbə yatası deyil.

İslamın bəyənmədiyi ünsiyyətlərdən çəkinmək, haram tikədən imtina etmək, çox yeməkdən və çox yatmaqdan pəhriz etmək əzalara güc verir. Bu qüvvə fəzasında göz yalnız haqqı görür, qulaq yalnız haqqı eşidir, dil yalnız doğrunu danışır. İnsanın ruhu və cismi böyük eşqlə ibadət və xalqa xidmətə sə`y göstərir.

## *HAQQA (ALLAHA) İBADƏT*

Dünyanın cazibəsindən çıxa bilməyən insanlar ibadət və bəndəliyin həqiqi dəyərini dərk etməkdə acizdirlər. Həqiqi ibadət insanı kamilləşdirir, onu Behiştə qovuşdurur.

Həzrət Peyğəmbər (s) buyurur:

“Xalqın ən üstünü o kəsdir ki, ibadəti sevə’ onu ağuşuna ala, qəlbən ona bağlana, bədəni ilə yerinə yetirə ibadətdən ötəri bütün məşğuliyyətlərdən ayrıla və dünyadan çətin, ya asan keçməkdən qorxmaya.”[422]

“Sizin Allahınız buyurur: “Ey Adəm övladı! Mənə ibadətdən ötəri bütün işlərini saxla ki, qəlbını ehtiyacsızlıq və iki əlini ruzi ilə doldurum! Məndən uzaqlaşsan, qəlbini möhtaclıq, iki əlini işlə dolduraram!”[423]

“Me`rac gecəsi Allah-Taala buyurur: “Ey Əhməd! Bilirsənmi insan nə vaxt mənə bəndə olur?” Həzrət ərz etdi ki, bilmirəm. Allah-Taala buyurur: Onda yeddi xasiyyət toplandıqda: onu haramdan saxlayan təqva, onu faydasız şeylərdən hifz edən sükut, göz yaşını artıran qorxu, xəlvətdə Məndən çəkindirən həya, zərurət qədərində yemək, Mənim dünya ilə düşmənliyimə xatir dünya ilə düşmənçilik, Mən sevdiyim üçün yaxşıları sevmək.”[424]

Rəvayətə görə Allah-Taala bə`zi səmavi kitablarda buyurmuşdur: “Ey Adəm övladı, mən ölüm bilməyən diriyəm. Sən əmrlərimə itaət et ki, səni də ölməyən diri qərar verim.”

Ey Adəm övladı! Mənim “ol” dediyim şey dərhal olur. Mənə bəndəlik et ki, səni də belə qərar verim, “ol” dediyin şey dərhal olsun.”[425]

---

[422] “Кафи”, 2-83.

[423] “Кәнзул-әммал”, 43614.

[424] “Мүстәдрәкул-вәсаил”, 9- 19.

[425] “Мүстәдрәкул-вәсаил”, 11-258.

Rəvayətlərdə ən üstün ibadətlərdən bə`ziləri sadalanır: "Allaha mə`rifət, təvazö', Onun qüdrəti haqqında düşüncə "la ilahə illəllah" və "la həvla və la qüvvətə illa billah" demək, ixlas, mö`minin haqqını ödəmək, sükut, həcc, oruc, dua, haramdan çəkinmək, gizli ibadət, mehriban danışıq, Əhli-beytə sevgi və itaət."

## *XALQA XIDMƏT*

Qüdsi hədislərdə mö`minə ehtiram Allaha ehtiram, mö`minə hörmətsizlik Allaha hörmətsizlik hesab olunur. İslam Peyğəmbəri (s) Cəbrailin (ə) nəqlinə əsasən, Allahın belə buyurduğunu bildirir: "Mənim dostuma pislik edən şəxs açıq-aşkar Mənimlə döyüşə qalxmışdır."[426]

Həzrət Peyğəmbər (s) buyurur: "Mö`min qardaşının bir istəyini yerinə yetirən şəxs sanki ömür boyu Allaha bəndəliketmişdir."[427]

İmam Sadiq (ə) buyurur: "Hər kəs mö`min qardaşının bir istəyini yerinə yetirsə Allah-Taala Qiyamət günü həmin şəxsin yüz min istəyini yerinə yetirər ki, bu istəklərin birincisi Behiştdir."[428] "Elə ki, bir bəndə öz mö`min qardaşının hacətini yerinə yetirmək üçün ayağa qalxdı, Allah onun üçün bir sağ, bir soldan iki mələk göndərər. Bu iki mələk bəndə üçün bağışlanma diləyər və onun istəklərinin qəbul olması üçün dua edərlər."[429]

---

[426] "Биһарул-әнвар", 67-16.

[427] "Әмалије-Туси", 481.

[428] "Кафи", 2-192.

[429] "Вәсаилуш-шиә", 16-359.

İmam Baqir (ə) buyurur: “Həzrət Peyğəmbərdən (s) soruşdular ki, Allah yanında ən məhbub əməl hansıdır? “Allah yanında ən məhbub əməl müsəlmanı sevindirməkdir”-deyə Həzrət buyurdu. Soruşdular ki, müsəlmanı necə sevindirmək olar? Həzrət (s) buyurdu: “Acı doyurmaq, qüssəsini aradan aparmaq, borcunu ödəmək.”[430]

İmam Sadiq Allah-Taalanın belə buyurduğunu nəql edir:

“İnsanlar Mənim ailəm, süfrəmdən yeyənlərdir. Mənə onların ən əzizi, onlara mehriban olanlar və onların istəklərini yerinə yetirmək üçün çalışanlardır.”[431]

Həzrət Əli (ə) Allaha xidmət üçün güc istədikdən sonra bu xidmət üçün qəlb möhkəmliyi tələb edir.

## *YƏQIN*

Böyük filosof, “əl-Mizan” təfsirinin müəllifi mərhum Əllamə Təbatəbai yəqinə belə tə`rif verir: “Yəqin heç bir səhv və şübhənin yol tapmadığı bilikdir.”

Yəqin üçün üç dərəcə müəyyənləşdirilmişdir: elmül-yəqin, eynəl-yəqin və həqqül-yəqin. Bu dərəcələri sadə bir misalla aydınlaşdıraq. Divar başından tüstünü görən adamda odun varlığına olan əminlik elmül-yəqindir. Odu gözlə görən adamın əminliyi eynəl-yəqin, odda yanan adamın əminliyi isə həqqül-yəqindir.

Həzrəti Peyğəmbər (s) buyurur: “Yəqin əhlinin altı xüsusiyyəti var: Allaha həqqül-yəqin yəqinlikləri var və belə bir yəqinliklə imana malikdirlər; ölümü haqq bilir

---

[430] “Мизанул-һикмәт”, 2-952.

[431] “Кафи”, 2-199.

və onun nəticələrindən həzər qılırlar; ölümdən sonra diriləcəklərinə yəqinlikləri var, ona görə də Qiyamət rüsvayçılığından qorxurlar; Behiştin haqq olduğuna inanır və ona can atırlar; Cəhənnəmin varlığına əminlikləri var, ona görə də qurtuluşa çalışırlar; hesaba əmin olduqlarından həmin hesabdan qabaq özlərini hesaba çəkirlər."[432]

Yəqinin bu üç dərəcəsinə Qur`an ayələri və Əhli-beyt rəvayətləri vasitəsi ilə çatmaq olar. Bu iki mənbə vasitəsi ilə yəqinə çatmayan kəs heç nəyin vasitəsi ilə yəqinə çata bilməz.

Qur`an vasitəsi ilə yəqinə belə çatmaq olar: əvvəlcə ayələrə diqqət etməklə onların həqiqətən ilahi vəhy olmasına əmin olmaq. "Bəqərə" surəsinin 23-cü ayəsində buyurulur: **"Əgər şəkkiniz varsa, siz də ona bənzər bir ayə gətirin."** "İsra" surəsinin 88-ci ayəsində oxuyuruq: **"De ki, əgər insanlar və cinlər bir yerə yığışıb Qur`ana bənzər bir şey gətirmək üçün bir-birinə kömək etsələr, yenə də ona bənzərini gətirə bilməzlər."**

Bu iki ayəyə yetərincə diqqət etdikdə insan Qur`anın Allah vəhyi olduğuna əmin olur. Əhli-beyt (ə) maarifi Qur`anın izahı, təfsiridir. Eyni yolla bu maarifə yəqinlik tapıb, yəqin əhli zümrəsinə daxil olmaq mümkündür.

**"**Allahummə və mən əradəni bisuin fə əridhu**,** və mən kadəni fəkidhu**,** vəc`əlni min əhsəni əbidikə nəsibən indəkə və əqrəbihim mənzilətən minkə və əxəssihim zulfətən lədəykə fəinnəhu la yunalu zalikə

---

[432] "Туhəфул-угул", 20.

illa bifəzlikə və cudli bicudikə və`tif ələyyə biməcdikə vəhfəzni birəhmətikə"

("Pərvərdigara, mənim barəmdə pis düşünən haqqında Sən düşün, mənə hiylə qurana Sən özün cavab ver, məni Sənin yanında payı olan ən üstün, Sənə məqamca ən yaxın, hüzuruna yaxınlıqda xüsusi olan bəndələrindən qərar ver. Şübhəsiz ki, bütün bunlar yalnız Sənin fəzlinlə əldə oluna bilər. Pərvərdigara, Öz səxavətinlə məni bağışla, Öz böyüklüyünlə mənə nəzər sal, Öz rəhmətinlə məni hifz et.")

İnsana pislik istəyən düşmənlər şeytan, nəfs həvəsi və ləyaqətsiz yoldaşdır. Onlar hər biri insanla hiylə ilə rəftar edir. Bu düşmənlər o qədər qüdrətlidirlər ki, Həzrət Əli (ə) onları məğlub etmək üçün Allahdan yardım istəyir.

Allah yanında məqama çatanlardan olmaq istəyən insan yəqinə ixlasa, əxlaqa, təqvaya can atmalıdır. "Hucurat" surəsinin 13-cü ayəsində buyurulur: **"Şübhəsiz ki, Allah yanında sizin ən əziziniz ən təqvalı olanınızdır."**

İnsan səadətinin əsası olan təqva üçün üç mərhələ zikr olunmuşdur: ümumi, xüsusi və ən xüsusi. Ümumi təqva vacibləri yerinə yetirmək və haramları tərk etməkdir. Xüsusi təqva sahibləri məkruhlardan (bəyənilməyən şeylərdən), bə`zən isə mübahlardan da çəkinir. Ən xüsusi təqva isə Allahı unutduran hər şeydən çəkinməkdir.

## *XACƏ NIZAMÜLMÜLK VƏ TƏQVALı KIŞI*

Xacənin həyatından danışan tarix kitablarında rəvayət olunur ki, bir gün o, təqvalı bir kişi ilə rastlaşır. Xacə deyir: "Sən ehtiyaclı, mən isə varlıyam. Məndən bir şey istə." Kişi deyir: "Mən Allahdan Onun Özündən başqa bir şey istəmərəm. Çünki Allahdan başqa bir şey istəmək layiq deyil. Belə olan halda səndən nə istəyim?!" Xacə deyir: "Sən məndən bir şey istəmədin, icazə ver mən səndən bir şey istəyim. Allahı yad etdiyin vaxt məni də xatırlayasan." Kişi deyir: "Mən Allahı yad edəndə özümü unuduramsa, səni necə yada salım?!"

## *ƏHMƏD XEZRƏVIYYƏ VƏ OĞRU*

Əxlaqlı xəlq olunub, hamı ilə əxlaqlı rəftar edənlər, həqiqətən, ilahi əxlaq cilvəsidirlər.

Rəvayət edirlər ki, bir gün Əhmədin evinə girmiş oğru dəyərli bir şey tapmayıb evdən çıxmaq istəyir. Onu gizlindən müşahidə edən Əhməd deyir: - "Sənin əliboş getməyinə razı deyiləm. Quyudan su çək, tövbə qüslü ver, dəstəmaz al, namaz qıl, bəlkə əlinə bir şey gəldi." Oğru özündən ixtiyarsız Şeyxin əmrinə tabe olur. Hava işıqlanar-işıqlanmaz qapı döyülür, bir varlı şəxsin xidmətçisi Şeyxə yüz əşrəfi hədiyyə gətirir. Şeyx yüz əşrəfini oğruya verib deyir: - "Bu sənin bir gecə ixlaslı ibadətinin zahiri mükafatıdır." Oğru bu işlərdən tə`sirlənib birdəfəlik doğru yola qədəm qoyur.

Yıxıldı torpağa, keçdi adından,
Tövbəylə qurtuldu günah odundan.

Ərz elədi Şeyxə "dönmüşəm daha",
Çətin bir də yolum düşə günaha.
Bu günkü sevgini yaşayan andan
Ötən günlər üçün könül pərişan.
Nə yaxşı ki, səcdə oldu qismətim,
Pərdə altda qaldı çox cinayətim.
Gecə-gündüz gedəm mə`şuqa doğru
Çətin ki, ruhumda duyula ağrı.
Səadət axtarsan iki dünyada
Sal gerçək mə`budu hər zaman yada.

"Vəc`əl lisani bizikrikə ləhicən, və qəlbi bihubbikə mutəyyəmən, və munnə ələyyə bihusni icabətikə **və** əqilni əsrəti, vəğfir zəlləti, fəinnəkə qəzəytə əla ibadikə biibadətikə və əmərtəhum biduaikə və zəmintə ləhumul-icabətə fəiləykə ya Rəbbi nəsəbtu vəchi, və iləykə ya Rəbbi mədədtu yədi, fəbiizzətikəstəcib li duai, və bəlliğni munayə və la təqtə` min fəzlikə rəcai, vəkfini şərrəl-cinni vəl-insi min ə`dai"

("Pərvərdigara! Dilimi zikrinlə danışdır, qəlbimi məhəbbətinlə doldur, mənə dualarımın qəbulu ilə minnət qoy, büdrəmələrimə göz yum, günahlarımı bağışla. Çünki Sən bəndələrinə ibadəti əmr etmiş, duaya çağırmış, duaların qəbuluna zəmanət vermisən. Ey Rəbbim, üzümü yalnız Sənə tutdum, ehtiyac əlimi yalnız Sənə uzatdım, Səni izzətinə and verirəm, duamı qəbul et, məni arzuma çatdır, ehsanından ümidimi kəsmə' cin və insanlardan olan düşmənlərimin şərrini sona çatdır.")

## *DIL*

Allahın insana əta etdiyi böyük ne`mətlərdən biri də dildir. Dilin savabları böyük olduğu kimi, günahları da böyük və ağırdır. Ariflər deyirlər: "Dilin çəkisi az, günahı isə ağırdır."

Böyük mühəddis Molla Möhsün Feyz Kaşani "Məhəccətül-bəyza" kitabında buyurur: "Dil iyirmiyə yaxın böyük günaha qadirdir: qeybət, böhtan, sözgəzdirmə' istehza, şayiə yayma, yalan, söyüş, təhqir və s."(6-190).

Qur`ani-Kərimdə dilə yalnız on növ söz danışmağa icazə verilmişdir. Bu çərçivədən çıxan insan şeytana bəndə olur:

1. "Həsən" danışıq, yə`ni xalqla xoş danışıq.[433]

2. "Əhsən" danışıq, yə`ni insanları Allah tərəfə də`vət.[434]

3. "Ədl" danışıq, yə`ni məhkəmədə doğru şəhadət.[435]

4. "Sidq" danışıq, yə`ni cəmiyyətdə mö`minlərin xeyrinə və düz danışıq.[436]

5. "Kərim" danışıq, yə`ni ata-ana ilə xoş danışıq.[437]

6. "Ləyyin" danışıq, yə`ni insanları yaxşıya əmr edib, pisdən çəkindirən vaxt mülayim danışıq.[438]

7. "İman" danışıq, yə`ni Allahın birliyi və peyğəmbərliyin iqrarı.[439]

---

[433] "Бәгәрә", 23.
[434] "Фуссиләт", 33.
[435] "Ән`ам", 152.
[436] "Шүәра", 84.
[437] "Исра", 23.
[438] "Taha", 43.
[439] "Бәгәрә", 136.

8. “Sədid” danışıq, yə`ni hər zaman savab danışıq.[440]

9. “Mə`ruf” danışıq, yə`ni yetimlər və ailəyə nəvaziş.[441]

10. “Bəliğ” danışıq, yə`ni nəsihətli, natiq danışıq.[442]

Bu çərçivəni gözləyən insanın mükafatı yalnız Allaha bəllidir. Biz yalnız əhsən «danışıq» haqqında söhbət edəcəyik. Həzrəti Peyğəmbər (s) Həzrət Əlini (ə) Yəmən camaatının hidayəti üçün göndərdiyi vaxt ona buyurur: “Ya Əli (ə)! Bir şəxsi haqqa də`vət etməyincə onunla vuruşma.”

Namaz qılmaq, Qur`an qiraət etmək, Əhli-beyt dualarını onların şərtlərinə əməl etməklə oxumaq, deyilən on şərt daxilində danışmaq Allahın zikrləridir.

## *GÜNAKAR QADıN*

Mərhum Kuleyni “Rövzeyi-Kafi” kitabında İmam Sadiqdən (ə) belə rəvayət edir:

Bir abid öz ibadəti ilə İblisin qəddini qırmışdı. İblis şeytanları toplayıb abidi yoldan çıxarmaq üçün onlarla məsləhətləşdi. Şeytanlardan biri abidi namazdan uzaqlaşdırmağa söz verdi.

Həmin şeytan abidin sovməəsinə gəlib aramsız ibadətə başladı. Fürsət düşən kimi abid ondan bu mö`minliyin səbəbini soruşdu. Şeytan dedi: “Mən günaha yol verdiyim üçün bu günahın qorxusundan ibadətdən yorulmuram.” Şeytandan məsləhət alan abid

---

440 “Ниса”, 9.

441 “Ниса”, 5.

442 “Ниса”, 63.

daha yaxşı ibadət etmək üçün sadəlövhcəsinə günah etmək qərarına gəldi.

Günahkarlığı ilə tanınmış qadın abidi günahkarlar məhəlləsində görüb onun şeytana aldandığını anladı. Ona yaxınlaşıb dedi: "Ey abid! Qayıt səni bura göndərənin yanına. Əgər tapmasan, bil ki, şeytandır."

Abid geri qayıdıb öz günah məsləhətçisini tapa bilmədi. Onu günahdan çəkindirmiş qadına dua etdi. Günahkar qadın həmin gecə dünyasını dəyişdi. Allah-Taala o dövrün peyğəmbərlərinə belə vəhy etdi: "Camaatla birgə o qadını dəfn et. Mənim bir bəndəmi hidayət etdiyi üçün onun bütün günahlarını bağışladım."

Haqdan işıq düşdü, yola düzəldik,
Düzü göstərdilər, əyrini bildik.
Sovməələr gəzdik haqq sorağında,
Könül şərdən qopdu pir işığında.
Gəzdik qapı-qapı bilik şəhərin,
Ayıldıq mehində erkən səhərin.
Ətirli güllərin səfasın görüb,
Hər eşq ağacından bir meyvə dərib,
Nəhayət ki, çatdıq vüsal çağına,
Girdik mə`rifətin eşq otağına.
Tövhid şərbətindən içib ayıldıq,
Hüzurunu görən anda bayıldıq.
Saflığın sevgisi diriltdi ruhu,
Tanıdıq qüdrətli, şəriksiz şahı.

## *DUANıN QƏBULU ÜÇÜN ZƏMANƏT*

"Bəqərə" surəsinin 186-cı ayəsində oxuyuruq: **"Bəndələrim Məni səndən soruşduqda söylə ki, onların duasını qəbul etməyə yaxınam."** "Ğafir" surəsinin 60-cı ayəsində isə belə buyurulur: **"Mənə dua edin, dualarınızı qəbul edim."**

Amma unutmaq olmaz ki, bu zəmanət heç də bütün dualara aid deyildir. Yalnız o duaların qəbuluna zəmanət verilir ki, bu dualarda zəruri şərtlərə əməl edilsin.

Biri dua edə bilər ki, "Pərvərdigara, dünyanın bütün sərvətini mənə ver, ömrümü Qiyamət gününədək uzat, məni Yusifdən gözəl, Davuddan xoşavaz, Həzrət Əlidən (ə) şücaətli et". Yaranış qanunlarına uyğun gəlməyən bu məntiqsiz duaların qəbuluna zəmanət mümkün deyil. Həqiqət aşiqlərinin isə həm özləri, həm də duaları ölçü-biçilidir. Mə`rifətli insan duası qəbul olmadıqda bunu Allahın məsləhəti bilir və qətiyyən üzülmür.

Rəvayətlərdə nəql olunur ki, dua peyğəmbərlərin və mö`minlərin silahıdır. Dua insanı labüd çətinliklərdən qurtarır, sağalmaz xəstəlikləri sağaldır.

Əhli-beyt rəvayətlərində duanın qəbulu üçün bir sıra şərtlər bəyan edilir: ixlas, hər şeyin Allahdan asılı olmasına yəqinlik, vacib əmrlərə itaət, pak qəlb, düz danışan dil, halal ruzi, xalqın haqqını ödəmə qəlbin iştirakı, qəlbdə həyəcan, "bismillahir-rəhmanir-rəhim"lə başlamaq, Peyğəmbər (s) və Əhli-beytə (ə) salavat göndərmək, günahların e`tirafı, ah-nalə üzü torpağa qoymaq, iki rək`ət namaz, duanın qəbul

olacağına ümid, özündən əvvəl başqalarına dua, boş şeylər istəməmək, cəm halda dua, gizlində dua.

### *ÜÇ DƏRDLININ DUASı*

Mö`təbər bir rəvayətdə Cabir Cö`fi Həzrəti Peyğəmbərdən (s) belə bir rəvayət nəql edir:

Üç müsafir bir dağın ətəyindən keçərkən, dağdakı mağaraya girib ibadətə başladı. Dağdan uçan qaya parçası mağaranın ağzına düşüb yolu bağladı. Müsafirlər anladılar ki, bu çətinlikdən qurtulmağın yeganə yolu duadır.

Birinci müsafir deyir: "Pərvərdigara, Sən şahidsən ki, mən Cəhənnəm odu qorxusundan gözəl bir qadından imtina etdim. Buna xatir bizə bir qurtuluş ver."

İkinci müsafir deyir: "Pərvərdigara, yarım dirhəmə razılaşıb əkin sahəmdə işləyən fəhlə işin sonunda bir dirhəm tələb edib, imtina etdiyim üçün çıxıb getdi. Mən həmin yarım dirhəmi ayrıca bir torpaqda əkinə verdim. Uzun müddət sonra bu yarım dirhəm artıb 17 min dirhəm oldu. Bir gün həmin şəxs gəlib keçmişdə imtina etdiyi yarım dirhəmi istədi. Mən yalnız Sənin razılığından ötəri həmin 17 min dirhəmi ona verdim. Buna xatir bizi bəladan qurtar.

Üçüncü müsafir dedi: "Pərvərdigara, atam və anama süd apardığım vaxt onların yatdığını görüb, oyanmalarını gözlədim. Hətta əlimdəki qabı yerə qoymadım ki, qabın səsinə oyanarlar. Mən o əziyyətə Sənə xatir dözdüm. Buna xatir bizə nicat ver, ya Rəbb!"

Bu dualardan sonra qapını tutmuş daş parçalandı, müsafirlər mağaradan çıxdılar.[443]

## *QARA QULUN DUASı*

Bəni-İsrail yeddi il qıtlığa düçar oldu. Yetmiş min nəfərlə səhraya çıxıb yağış üçün dua etdilər. Allah-Taala Musaya belə xitab etdi: "Onların duasını necə qəbul edim ki, günahları başlarının üstünə kölgə salıb. Məni çağırdıqları halda yəqinlikləri yoxdur. Qoy Mənim bəndəm Bürxdən istəsinlər ki, o dua etsin. Əgər o dua etsə qəbul edərəm."

Musa deyilən şəxsi çox axtardı. Nəhayət, alnında səcdə əlaməti olan bir qara qul tapdı. Salam verib adını soruşdu. Mə`lum oldu ki, bu, həmin şəxsdir. Musa əhvalatı danışıb ondan yağış üçün dua istədi. Bürx səhraya çıxıb Allaha müraciətlə belə ərz etdi: "Bəndələrini yağışdan məhrum etmək Sənin şə`ninə sığmır, Səndə xəsislik görmədik. Necə olar ki, lütf nəzərin azalsın? Yoxsa küləklər itaətdən çıxıb, xəzinələrin tükənib? Bəlkə günahkar bəndələrə qəzəbin artıb? Bağışlayan, rəhm edən Sən deyilsənmi?!" Bürx yalnız yağış başlayandan sonra yerindən tərpəndi.[444]

## *İMAM SƏCCADıN (Ə) QULUNUN DUASı*

Əbdülməlik Mərvan Mədinəyə nümayəndə göndərib rəbbani alim Səid ibn Müsəyyibin qızına elçi düşdü. Alim gələndə bildirdi ki, mənim padşaha veriləsi qızım yoxdur.

---

[443] "Нурус-сəгəлəјн", 3-249.
[444] "Əнисул-ләјл", 453.

Bir az keçmiş cənab Səid qızını həyat yoldaşını itirmiş və dünya malından cəmi iki dirhəmi olan tələbəsinə ərə verir.

Həmin tələbə deyir: "Bu böyük insan qırx il idi ki, kimsənin evinə getməmişdi. Amma bir gün qapımı döyüb qızını mənə təhvil verdi. Qızdan soruşdum ki, cehizin nədir? Cavab verdi ki, Qur`anı əzbər bilirəm. Soruşdum ki, mehriyyən nə olsun? Dedi: "Bir hədis bəsdir." Bir hədis oxudum: "Qadının cihadı ərinə yaxşı baxmaqdır."

Mərhum alim Səid deyir: "Bir vaxt Mədinə quraqlıq oldu. Camaat yağış üçün namaza dursa da, onlarda belə bir ləyaqət görmürdüm. Amma bir qara qul üzünü torpağa qoyub, o qədər ağladı ki, yetərincə yağış yağdı. Onun ardınca düşüb kimliyini bilmək istədim. İmam Səccadın (ə) evinə daxil oldu. Mən də evə daxil olub İmamla (ə) salamlaşdım və həmin qulu görmək istədim. İmam (ə) qulu çağırıb ona bildirdi ki, səni Səidə bağışladım. Qul ağlamağa başladı və yalvardı ki, onu İmamdan (ə) ayırmayım. Mən sağollaşıb getdim. Bir az keçmiş İmam Səccad (ə) adam göndərib məni həmin qulun dəfninə də`vət etdi. Sonradan bildim ki, mən gedəndən sonra səcdəyə düşüb Allahdan görüş istəyib!"

Ey könül qüssəsi, qüssə dəvası,
Ey sevgili canan, canın səfası.
Dərd aşdı həddini, göndər məlhəmin,
Bu dərdin dəvası əlində sənin.
Bircə Sənsən salan bu qulu yada,

İllərdir bu könül bələnib oda.
Yanıram eşqində başdan ayağa,
Möhtacam lütfünə o nur dayağa.
Gizləyə bilmirəm bu dərdi inan,
Göz yaşımı görən dağ da pərişan.

## *HƏZRƏT İMAM HÜSEYN (Ə) DUASı*

İbn Şəhr Aşub "Mənaqib" kitabında Şeyx Tusinin "Təhzib" kitabından belə bir əhvalat nəql edir:

«Bir qadın Allah evinin təvafına, yə`ni Kə`bənin başına dolanmaqla məşğul idi. Onunla yanaşı bir kişi də təvaf edirdi. Kişi pis niyyətlə qadına əl vurdu və birdən əli onun bədəninə yapaşdı. Kə`bə mə`murları onu tutub fəqihin yanına gətirdilər. Fəqih qərar çıxardı ki, onları ayırmaq üçün kişinin əli kəsilsin. Bu işdən xəbər tutan Həzrət İmam Hüseyn (ə) dua etdi və kişinin əli qadından ayrıldı.»

## *MƏHBUSUN GECƏ YARı DUASı*

Abdullah ibn Tahir hökuməti zamanı karvan yolları çox qorxulu idi. Xəlifənin yollarda qoyduğu nəzarətçilərin bir dəfə tutduqları on quldurdan biri gecə yarı qaçır. Xəlifənin qəzəbindən qorxan zindan rəisi günahsız bir həllacı (pambıq təmizləyən) tutub quldurlara qoşur ki, say düz olsun.

Bir gecə mə`murlar zindana gəlib iki nəfəri dar ağacından asmaq üçün aparırlar. Həllac öz-özünə deyir: "Ailəm elə bilir ki, mən hardasa ruzi qazanıram. Halbuki, bir zalım məni oğrularla birgə zindana salıb." Sonra həllac iki rək`ət namaz qılıb duaya başlayır.

Abdullah ibn Tahir yuxu görüb dörd dəfə çarpayıdan yerə yıxılır. Qalxıb dəstəmaz alır, iki rək`ət namaz qılıb yenidən yatır. Bu dəfə yuxuda görür ki, dörd qara ilan ona hücum edir. Oyanıb xidmətçiləri çağırır. Əmr edir ki, ətrafda nalə çəkərək Allaha üz tutmuş məzlumu tapsınlar. Xidmətçilər çox yeri gəzib, nəhayət, zindanda Həllacı dua edən halda tapırlar. Onu əmirin yanına gətirirlər. Məsələ aydınlaşandan sonra əmir Həllaca on min dinar verib deyir: "Məni halal et, bu hədiyyəni qəbul et, nə vaxt ehtiyacın olsa mənə de." Həllac deyir: "İki istəyini qəbul edirəm. Amma üçüncü istəyin məqbul deyil. Çünki məni sənin zülmündən qurtaran kəsi qoyub sənə üz tuta bilmərəm."

Rəvayət olunur ki, Həzrəti Peyğəmbər (s) ölüm ayağında olan bir şəxsdən soruşdu: "Halın necədir?" Şəxs dedi: "Günahlarımdan qorxuram, Allahın rəhmətinə ümid edirəm." Həzrət (s) buyurdu: "Allah bir insanı qorxduğundan amanda saxlayıb ümid etdiyini əta etməsə bu iki mə`na onun qəlbində cəm olmaz."

Pərvərdigara! Arzularım yersiz, ümidlərim dəlilsiz deyil. Günahlarıma görə qorxsam da, bütün vücudumla Sənə ümidvaram. "Kumeyl" duası ilə hüzuruna gəlişim Sənin mərhəmətin sayəsində mümkün olub. Mən əminəm ki, Sənin dərgahından kimsə əliboş qayıtmaz. Sən Hürr ibn Yəzidi, Fir`onun arvadı Asyanı, Fuzeyl Əyyazı və minlərlə başqalarını öz mərhəmətinə qərq edən Allahsan!

## *RƏHMƏT YAĞıŞı*

İmam Sadiq (ə) buyurur: "Kufə əhli Həzrət Əli (ə)-ın yanına gəlib quraqlıqdan şikayətləndilər və Həzrətdən yağış üçün dua istədilər. Həzrət (ə) İmam Hüseynə (ə) buyurdu: "Allahdan yağış istə." İmam Hüseyn (ə) Allaha həmd-səna oxuyub Peyğəmbərə (s) salavat göndərdi və belə dua etdi: "Ey xeyir-bərəkət göndərən, bizə əzəmətinlə ölü torpaqları dirildən, firavan, bəndələrini zəiflikdən qurtaran yağış göndər. Amin ya Rəbbəl-Aləmin." Dua bitən kimi yağış başladı."[445]

## *ÜMID*

Dağ ətəyindən keçən bir cavanın quşa atdığı ox yaxınlıqdakı bağ sahibinin oğlunun sinəsinə sancılıb onu öldürdü. Bu hadisəyə görə bir çox günahsız adamlar həbs edildi. Bu işdən narahat olan cavan, oğlunu itirmiş atanın yanına gəlib qatil olduğunu e`tiraf etdi. Ata soruşdu ki, səni bu e`tirafa nə vadar etdi? Oğlan dedi: - "Sənin bağışlayacağına ümid etdim." Kişi oğlunun qatilini əfv etdi.

Ondan başqasına bəndəlik acı,
Bir Odur həyatın sultanlıq tacı.
Hicranında qalmaq ağır bir əzab,
Hələ bir aşiq də gətirməmiş tab.
Amma hicran olsa baldan da şirin,
Əlbət, çətin verə vüsalın yerin
Nə yaxşı ölüm var, öndə görüş var.
Axır ki, zülmətdən nura giriş var.

---

[445] "Биһарул-әнвар", 44-187.

Ömürdən nə qalıb zənn etməz ağıl,
Bu günün şərrindən tələs tövbə qıl.
Qiymətlidir nəfəs səcdə anında,
Yaşama bağa tək bir öz qınında.
Əlbət, kömək gərək qından çıxmağa,
Bir getsən on gələr, inan, qabağa.

**"**Ya səriər-riza**,** iğfir limən la yəmliku illəd-duaə′ fəinnəkə fə\`alun lima təşa**,** ya mən ismuhu dəvaun**,** və zikruhu şəfaun**,** və taətuhu ğina**,** irhəm mən rə\`su malihir-rəcau**,** və silahuhul-bukau**,** ya sabiğən-niəmi**,** ya dafiən-niqəmi**,** ya nurəl-mustəvhişinə fiz-zuləmi**,** ya alimən la yuəlləmu səlli əla Muhəmmədin və ali Muhəmməd**,** vəf\`əl bi ma Əntə əhluhu və səlləllahu əla rəsulihi vəl-əimmətil-məyamini min alihi və səlləmə təslimən kəsira**."**

("Ey bəndəsindən tez razı olan! İxtiyarında duadan başqa bir şey olmayan kəsi bağışla. Çünki Sən istədiyini edirsən. Ey adı dəva, zikri şəfa, itaəti qüvvə′ rəhm et o kəsə ki, sərmayəsi ümid, silahı göz yaşıdır! Ey ne\`mətləri kamil və firavan olan, ey bəla və çətinlikləri aradan qaldıran, ey qaranlıqda qorxuya düşənlərin nuru, ey oxumamış alim, Məhəmməd və ali-Məhəmmədə salam göndər, mənimlə Özünə layiq rəftar et. Allahın firavan salamı olsun peyğəmbərinə və onun ailəsindən olan pak imamlara.")

## *İLAHI HƏQIQƏTLƏR VƏ DƏQIQƏLƏR*

Günahına görə qəzəbə düçar olmuş və ilahi dərgahdan qovulmuş, indi isə tövbə və duaya üz

tutmuş bəndənin çox tez bağışlanması, Allah-Taalanın sonsuz lütf və mərhəmətinə əsaslanır. Ona görə də bir ömür günaha batmış şəxs xalisliklə tövbə etdiyi zaman əfv olunur.

Həzrət Əli (ə) "ya səriər-riza", yə`ni "ey tez razı olan" cümləsindən sonra ərz edir ki, ixtiyarında duadan başqa bir şey olmayan şəxsi bağışla.

Pərvərdigara, bir şəxs ki, "kərim, fəqirdən nə gətirdiyini soruşmaz" deyərək Sənə üz tutur, əlbəttə ki, bağışlanmağa layiqdir. Sən buyurmusan ki, mənə tərəf bir addım atana on addım yaxınlaşaram. Ey mehriban Mövlam, o qədər acizəm ki, o bir addımı da Sənə tərəf ata bilmirəm. Öz lütfünlə bu bir addımı da atıb məni şeytanın və nəfsimin əsarətindən qurtar.

Pərvərdigara! Hüzuruna Sənə layiq bir şey gətirə bilməmişəm. Bu möhtac gədaya elə mərhəmət göstər ki, günahları bağışlansın, dünya və axirət səadətinə çatsın.

Sənin adının dərdlərə dərman olması barədə çox sözlər deyilib. Mə`rifət əhli buyurur ki, Allah-Taala onu gözəl adlarla çağıranlara tez cavab verir.

"Ə`raf" surəsinin 180-cı ayəsində buyurulur: **"Allahın gözəl adları var, Onu bu adlarla çağırın."** Əgər möhtac bəndə "ya Allah", "ya Rəhman", "ya Kərim", "ya Rəbb", "ya Ərhəmər-Rahimin" deyərək mə`budu qarşısında sızıldayarsa, çətin ki, ona cavab verilməsin.

Rəvayətlərdə deyilir ki, haqq adların Mə`sum İmamlara və kamil rəhbərlərə şamil edilməsi bu insanların ilahi cilvə məzhəri olmalarıdır. Bu insanları Allahla öz arasında vasitə seçənlər, dərdlərinə dərman tapa bilərlər.

Kamil insan varlıq aləmi üçün mehvər kimidir. Əsrin İmamı (ə) haqqında buyurulur: “Dünyanın mövcudluğu onun mövcudluğundan asılıdır. İnsanlar onun bərəkəti ilə ruziyə çatırlar. Yer və göylərin dayanıqlığı onun vücuduna bağlıdır.”

Rəvayət olunur ki, Həzrət İbrahimin (ə) çoxlu qoyunu vardı. Mələklər elə güman etdilər ki, onun Allaha məhəbbəti var-dövlətə məhəbbəti ilə əlaqədardır. Allah-Taala onlara həqiqəti anlatmaq üçün Cəbrailə (ə) göstəriş verdi ki, bir təpənin başından Allahın adını nida etsin. Həzrət İbrahim məhbubunun adını eşidəndə nalə çəkdi.

Mə`şuqun adıyla nalə çəkən kim?
Çağırsın, varımı fəda eyləyim.

Sonra bu səsin sorağı ilə təpəyə doğru qaçdı. Bir kimsəni tapmayıb ucadan dedi: “Əgər bir də mə`şuqumun adını çəksən, qoyunlarımın yarısını sənə verərəm.” Cəbrail (ə) bir də nida etdi. Həzrət İbrahim (ə) dedi: “Bir də nida etsən, bütün qoyunlarım sənindir.” Cəbrail (ə) bir də nida etdi. Həzrət İbrahim (ə) dedi: “Daha Onun adına qurban ediləsi bir şeyim yoxdur. Gəl, canımı al.”

Ey məhbub! Sərmayəsi ümid və göz yaşı olana rəhm et ki, Sənin mərhəmətinlə möhtaclıqdan qurtarsın, adlarınla dərdinə şəfa tapsın, ibadətinlə gücə gəlsin!

Ya Allah, ya Rəbb, ya Kərim, ya Həbib, ya Ənis, ya Munis, ya Əkrəməl-Əkrəmin, ya Ərhəmər-Rahimin, ya Sabiğən-niəm, ya Dafiən-niqəm, ya Nurul-

mustəvhişinə fiz-zuləm, ya Alimən la yuəlləm! Səlli əla Muhəmmədin və ali Muhəmməd (s).

## Mündəricat

NAŞİRDƏN........................................5
ÖN SÖZ........................................6
DUAYA BİR BAXIŞ........................................8
QUR`ANDA DUA........................................8
RƏVAYƏTLƏRDƏ DUA........................................10
CƏM HALDA OLAN DUA........................................12
ÜMİDSİZLİK KAFİRLİK ƏLAMƏTİDİR........................................13
DUANIN ŞƏRTLƏRİ........................................15
CÜMƏ AXŞAMI........................................16
KUMEYL İBN ZİYAD........................................17

KUMEYL DUASI 18
BİSMİLLAHİR-RƏHMANİR-RƏHİM 19
"BİSMİLLAHIN" LƏTİF GÖRÜNTÜLƏRİ 22
VARLIQ ALƏMİ 33
CAHANIN ƏN ŞƏRƏFLİ QONAĞI 36
İNSANIN FORMALAŞMA MƏRHƏLƏLƏRİ 37
İLAHİ RƏHMƏTİN ƏSRARƏNGİZ CİLVƏSİ 40
TƏNƏFFÜS ORQANLARI 42
DƏRİ 42
BƏDƏNİN MÜDAFİƏ SİSTEMİ 43
BİTKİLƏR VƏ ONLARIN FAYDALARI 44
VARLIQ ALƏMİNDƏ HƏŞƏRAT VƏ HEYVANLARIN ROLU 46
MİSİLSİZ HİDAYƏT NE`MƏTİ 48
İLAHİ RƏHMƏT 49
RƏHMƏT HAQQINDA RƏVAYƏTLƏR 51
RƏHMƏT HAQQINDA DASTANLAR 52
İSA (Ə) VƏ GÜNAHKAR 53
GÜNAHKAR CAVAN 54
QƏBUL OLMUŞ DUA 54
ALLAHA DOĞRU 56
TÖVBƏ ARDINCA TÖVBƏ 56
AZĞININ DUASINA CAVAB 57
BƏDBƏXTLƏR SİYAHISINDAN XOŞBƏXTLƏR SİYAHISINA KEÇƏN AD 58
MEHRİBAN ALLAH NÖQSANLARI ARADAN QALDIRIR 63
GÜNƏŞ ENERJİSİNİN BƏRPASI 63
XƏZƏR DƏNİZİNDƏ QABARIB-ÇƏKİLMƏNİN ƏVƏZİ 64
MEYVƏ TOXUMU QITLIĞININ ƏVƏZİ 65
FAİLİN ÖZ FE`Lİ İLƏ TANINMASI (İŞ GÖRƏNİN ÖZ İŞİ İLƏ TANINMASI) 67
MÜXTƏLİF CAHANLARIN YARANIŞI 68
GÜNƏŞ SİSTEMİ 68
HƏR BİRİ BİR GÜNƏŞ OLAN SAYSIZ-HESABSIZ ULDUZLAR 69
SÜFRƏ SAHİBİNƏ HÖRMƏT 77
GÜNAHIN TƏ`SİRLƏRİ 79
HƏYA PƏRDƏSİNİ YIRTAN GÜNAHLAR 81
SPİRTLİ İÇKİ İÇMƏK 81

QUMAR........................................ 82
XALQI GÜLDÜRMƏK ÜÇÜN GÖRÜLƏN BOŞ İŞLƏR........ 83
XALQIN EYİBLƏRİNİ AÇMAQ........................ 83
GÜNAHKARLA YOLDAŞLIQ........................ 84
"BƏĞY"........................................ 87
XALQIN HÜQUQUNA TƏCAVÜZ........................ 88
ALLAH BƏNDƏLƏRİNƏ MƏSXƏRƏ........................ 88
ƏHDİ POZMAQ........................................ 89
AŞKAR GÜNAH........................................ 91
İMANLI QADININ HƏYASI........................ 92
YALAN........................................ 93
ALLAH HÖKMÜNÜN ZİDDİNƏ MÜHAKİMƏ........................ 96
ZƏKAT ÖDƏMƏMƏK........................................ 97
ƏSKİK SATMA........................................ 98
XALQA ZÜLM........................................ 99
XEYİRXAHLIQ RUHİYYƏSİNİ TƏRK ETMƏK........................ 99
XEYİRXAHLIQDAN UZAQLAŞMA........................ 100
NE'MƏTƏ QARŞI KÜFR ETMƏK........................ 100
ŞÜKRÜN TƏRKİ........................................ 100
PİS NİYYƏT........................................ 102
GİZLİ VƏ ÇİRKİN SİFƏTLƏR........................ 102
BƏDGÜMANLIQ (SUİ-ZƏNN)........................ 103
KİN........................................ 104
ÜCB (ÖZÜNDƏN RAZILIQ)........................ 105
RİYA........................................ 106
TƏKƏBBÜR........................................ 107
ALDANIŞ (QÜRUR)........................................ 108
XƏSİSLİK........................................ 110
HƏRİSLİK........................................ 112
TAMAH........................................ 113
HƏSƏD, PAXILLIQ........................................ 114
ALLAH DÜŞMƏNLƏRİNƏ MƏHƏBBƏT........................ 114
İKİÜZLÜLÜK VƏ NİFAQ........................ 115
NAMAZI TƏ'XİRƏ SALMAQ........................ 116
YAXŞILIQ VƏ SƏDƏQƏNİN TƏRKİ........................ 118
SƏDƏQƏ HAQQINDA DASTAN........................ 118
SÖYÜŞ SÖYMƏK VƏ BİABIRÇI SÖZLƏR DANIŞMAQ........ 119

QƏLBİSINIQ İNSANIN ÇAĞIRIŞINA DİQQƏTSİZLİK............120
MƏZLUMA KÖMƏKDƏN ÇƏKİNMƏ............121
ƏMR BE MƏ'RUF VƏ NƏHY ƏZ MÜNKƏRİN TƏRKİ............123
HİCRAN XARABASI............126
VÜSAL MƏMLƏKƏTİ............127
ZİKR............128
QUR'AN............130
PEYĞƏMBƏR (S) VƏ ƏHLİ-BEYT (Ə)............132
ŞƏFAƏTİN MƏ'NASI............136
ŞƏFAƏTİN ŞƏRTİ............137
DÜNYA VƏ AXİRƏT ŞƏFAƏTÇİLƏRİ............138
TÖVBƏNİN ŞƏFAƏTİ............138
QUR'ANIN ŞƏFAƏTİ............139
YAXINLIQ MƏQAMI............141
MÜQƏRRƏBLƏRİN KƏRAMƏTLƏRİ............144
ŞÜKÜR MƏQAMI............146
MARAQLI BİR ƏHVALAT............148
ZİKR MƏQAMI............149
ALLAHDAN DÖRD İSTƏK............151
QUR'ANDA TƏVAZÖKARLIQ HAQQINDA............163
RƏVAYƏTLƏRDƏ TƏVAZÖKARLIQ HAQQINDA............164
HƏZRƏT PEYĞƏMBƏR (S) VƏ HƏZRƏT ƏLİNİN (Ə) TƏVAZÖKARLIĞI............165
HƏZRƏT SÜLEYMANIN (Ə) TƏVAZÖKARLIĞI............165
HƏQİQİ MALİK ALLAHDIR............167
ƏMƏL MÜQABİLİNDƏ MÜKAFATLAR............172
BEHİŞT............174
ALLAHIN RƏHMƏTİ............176
ALLAHIN ƏFVİ............177
GÜNAHLARI BAĞIŞLAYAN............182
GÜNAHLARI ÖRTƏN............183
PİSLİYİ YAXŞILIĞA ÇEVİRƏN............184
BEHİŞTİN DƏYƏRİ............187
TƏSBİH VƏ HƏMD............190
İNSANIN ÖZÜNƏ ZÜLMÜ............192
NADANLIQDAN GÜNAH............193
GÜNAHIN E'TİRAF OLUNMASI............194

GƏNC GÜNAHKARIN E’TİRAFI ........ 195
TÖVBƏKAR GÜNAHKARIN AQİBƏTİ ........ 196
BƏLANIN MƏ`NASI ........ 201
ÇOX MÜHÜM BİR SUAL-CAVAB ........ 201
ÜVEYS QƏRƏN İLƏ SÖHBƏT ........ 202
HAL PİSLİYİ ........ 204
ƏMƏLDƏ QÜSUR ........ 205
ZƏNCİRLƏR VƏ BUXOVLAR ........ 206
UZUN-UZADI ARZULAR ........ 207
MARAQLI BİR HEKAYƏT ........ 210
NƏFSİN HALLARI ........ 217
NƏFSİN İSLAHI ........ 219
GÜNÜ GÜNƏ SATMAQ ........ 220
DUA YOLUNUN BAĞLILIQ SƏBƏBİ ........ 221
PƏRDƏNİN GÖTÜRÜLMƏSİ ........ 222
MARAQLI ƏHVALAT ........ 223
TƏFRİT ........ 226
CƏHALƏT ........ 226
ŞƏHVƏT ........ 226
BƏDBƏXT ŞAHZADƏ ........ 228
QƏFLƏT ........ 230
GÜNAHKARIN BAĞIŞLANMASI ........ 231
ƏBDULLAH MÜBARƏKİN QULU ........ 232
ANA İLƏ OĞULUN HEKAYƏTİ ........ 236
ŞƏFALI NƏZƏR ........ 237
HATƏM ƏSƏM HAQQINDA BİR HEKAYƏ ........ 238
KƏRAMƏTLİ NƏZƏR ........ 240
DƏLİLLƏR ........ 244
AŞİQANƏ RAZ-NİYAZ ........ 246
YUSİF VƏ ZÜLEYXA ........ 247
YUNUSUN QÖVMÜ ........ 248
MƏHBUBUN QARŞISINDA ........ 249
HARUNUN ÖLÜMÜ ........ 250
DƏQİQ HESAB ........ 251
TÖVHİD ........ 253
RÜBUBİYYƏT CİLVƏSİ ........ 256
MUSA VƏ QARUN ........ 257

VALİDEYNİN ÜZÜNƏ AĞ OLMUŞ GƏNC......259
ÇÖRƏK KƏSMƏYİN HAQQI......260
QONAĞIN HAQQI...... 260
NAMAZ......262
ALLAHA NİKBİNLİK......263
DÜNYA VƏ AXİRƏT BƏLALARI......265
BƏRZƏX VƏ QİYAMƏT ƏZABLARI......266
DOSTA ŞİKAYƏT...... 268
AH-NALƏ VƏ GÖZ YAŞLARI......270
AYRILIQ DƏRDİ......272
KƏRAMƏT MƏQAMI İSTƏYİ......273
BAĞIŞLANMA ÜMİDİ......274
HARUN VƏ BƏHLUL......276
SƏLMAN VƏ MÖ`MİN GƏNC......278
HUŞUNU İTİRƏN QADIN......279
HATƏM ƏSƏMMİN VƏSİYYƏTİ......280
HAQQIN RƏHMƏTİ, LÜTF VƏ, KƏRAMƏTİ......281
SÜLEYMAN VƏ KƏNDLİ......282
MÜHÜM BİR HƏDİS...... 283
İMAM SADİQ (Ə) VƏ QORXMUŞ KARVAN......283
İMAM RİZA (Ə)-IN MƏKTUBU...... 284
MEHR-MƏHƏBBƏT AĞUŞU......286
İBRAHİMİN GÜNAHA DÖZÜMSÜZLÜYÜ......287
TƏƏCCÜBLÜ HƏQİQƏT......287
DAVUD DÖVRÜNDƏ BİR GƏNCƏ MƏRHƏMƏT......288
ƏSİRİN AZAD OLUNMASINA SƏBƏB OLAN BEŞ XÜSUSİYYƏT......289
MÜVƏHHİD QUL......289
YUSİFİN GÜNAHSIZLIĞININ ŞAHİDİ...... 290
YAZAN MƏLƏKLƏR VƏ BƏDƏN ƏZALARI......292
İSMİ-Ə`ZƏM......295
MƏQBUL ƏMƏLLƏR...... 297
QÜVVƏ İSTƏYİ......300
XÜSUSİ NE`MƏTLƏRƏ ÇATMA YOLU......301
ÜNSİYYƏT......301
HARAM TİKƏ......302
ƏXLAQİ ÇİRKİNLİKLƏR......303

QARINQULULUQ........304
ÇOX YATMAQ........304
HAQQA (ALLAHA) İBADƏT........305
XALQA XİDMƏT........307
YƏQİN........308
XACƏ NİZAMÜLMÜLK VƏ TƏQVALI KİŞİ........311
ƏHMƏD XEZRƏVİYYƏ VƏ OĞRU........311
DİL........313
GÜNAKAR QADIN........314
DUANIN QƏBULU ÜÇÜN ZƏMANƏT........316
ÜÇ DƏRDLİNİN DUASI........317
QARA QULUN DUASI........318
İMAM SƏCCADIN (Ə) QULUNUN DUASI........318
HƏZRƏT İMAM HÜSEYN (Ə) DUASI........320
MƏHBUSUN GECƏ YARI DUASI........320
RƏHMƏT YAĞIŞI........322
ÜMİD........322
İLAHİ HƏQİQƏTLƏR VƏ DƏQİQƏLƏR........323